AZƏRBAYCAN RESPUBLİKASININ
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ
DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

DÜNYA AZƏRBAYCANLI
ALİMLƏR BİRLİYİ

# XARİCDƏ YAŞAYAN AZƏRBAYCANLI ALİMLƏRİN FORUMU

*9–11 sentyabr 2024-cü il*

**Bakı–Xankəndi–Şuşa**

Bakı 2026

**Redaksiya heyəti:**
Elmi redaktor: Məsud Əfəndiyev, Prof., Dr.
Mətn redaktorları: Bəxtiyar Siracov, Dr.
Eldar Əhədov
Sarvan Kərimov
Korrektor: Bəxtiyar Siracov, Dr.
Nəşr koordinatoru: Teymur Rzayev, Prof., Dr.

**Kitabın ərsəyə gətirilməsinə töhfə vermiş qurumlar:**
- Azərbaycan Respublikası Diaporla İş üzrə Dövlət Komitəsi
- Azərbaycan Elm və Təhsil Nazirliyi
- DAAB İdarə Heyəti və üzvləri
- Azərbaycan Mill Elmlər Akademiyası
- Azərbaycan Universitetləri
- Forum işrirakçıları

**Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu**. 9–11 sentyabr 2024-cü il. Bakı–Xankəndi–Şuşa. Bakı, "Zərdabi-Nəşr" MMC. 2026. 264 səh.

Bu kitab 9–11 sentyabr 2024-cü il tarixlərində Bakı, Xankəndi və Şuşa şəhərlərində keçirilmiş Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin birinci Forumuna həsr edilmişdir. Nəşrdə tədbirin ideya əsasları, Dünya Azərbaycanlı Alimlər Birliyinin (DAAB) təşəkkül və institusional inkişaf mərhələləri, Forum çərçivəsində aparılmış müzakirələr, irəli sürülmüş təşəbbüslər və DAAB-ın strateji hədəfləri sistemli şəkildə təqdim olunur.

Azərbaycan elmi diasporunun intellektual potensialının səfərbər edilməsi, beynəlxalq akademik əməkdaşlığın genişləndirilməsi və milli elmi inkişafa töhfə verilməsi baxımından Forumun rolu xüsusi vurğulanır; xaricdə fəaliyyət göstərən azərbaycanlı alimlərin elmi nailiyyətləri və Azərbaycanla əməkdaşlıq imkanları ətraflı şərh olunur. Kitab Diasporla İş üzrə Dövlət Komitəsinin, universitet rektorlarının, AMEA rəhbərliyinin qiymətləndirmələrini, iştirakçıların bədii-publisistik üslubda yazılmış şəxsi təəssüratlarını, həmçinin tanınmış yazıçı Eldar Əhədovun Foruma həsr etdiyi dörd hekayəni özündə birləşdirir.

Əsər elm və təhsil sahəsində ekspertlər, tədqiqatçılar, həmçinin diaspor fəaliyyəti və elmi əməkdaşlıq məsələləri ilə maraqlanan geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur. Nəşr Azərbaycanın qlobal elmi məkanda mövqeyinin möhkəmləndirilməsi baxımından konseptual və praktik əhəmiyyət kəsb edir.

ISBN 978 9952 611 85 4
© Dünya Azərbaycanlı Alimlər Birliyi, 2026

# KİTABIN İÇİNDƏKİLƏR

Ön söz ..... 9

Dünya Azərbaycanlı Alimlər Birliyinin yaradılması zərurəti ..... 11

İstanbul Təsis toplantısı ..... 12
- Əsas hədəflər ..... 14
- Təklif edilmiş strateji addımlar ..... 16
- Alınmış qərarlar ..... 17

Loqomuz ..... 17
Missiyamız ..... 18
Vizyonumuz ..... 18
Dəyərlərimiz ..... 18

Bakı forumu ..... 20

Təşəkkürlər ..... 20

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakçılara müraciəti ..... 24

Kimya üzrə Nobel mükafatı laureatı Əziz Sancarın iştirakçılara müraciəti ..... 26

Kimya üzrə Nobel mükafatı laureatı Arye Varşelin iştirakçılara müraciəti ..... 27

Alimlərimizin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciəti ..... 28

Forumun Proqramı ..... 31

Diasporla İş Üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun nitqi ..... 36

Dünya Azərbaycanlı Alimlər Birliyinin İdarə Heyətinin sədri Məsud Əfəndiyevin Nitqi ..... 39

Azərbaycan Universitetlərinin rektorlarının nitqləri ..... 41
- Ceyran MAHMUDOVA ..... 41
- Ədalət MURADOV ..... 42
- Elbrus İSAYEV ..... 43

Elçin BABAYEV ........ 47
Gülçöhrə MƏMMƏDOVA ........ 49
Hamlet İSAXANLI ........ 50
Natiq ƏLİYEV ........ 52
Rüfət ƏZİZOV ........ 54
Şahin BAYRAMOV ........ 55
Vazeh ƏSKƏROV ........ 57
Vilayət VƏLİYEV ........ 59
Yaqub PİRİYEV ........ 60

Diaspor hərəkatında mühüm istiqamət: Elmi diasporun təşkilatlanması
İsa HƏBİBBƏYLİ ........ 62

Azərbaycanlı alimlərin qlobal birliyi
Rasim ƏLİQULİYEV ........ 65

Azərbaycan elm və təhsilinin inkişafına dair yol xəritəsi ........ 67

Foruma təqdim olunmuş məruzələr ........ 70
Asəf SALAMOV ........ 70
Bəxtiyar SİRACOV ........ 72
Dinara ABBASOVA ........ 75
Eldar ƏHƏDOV ........ 77
Mehdi GƏNCƏLİ ........ 79
Nigar MƏSUMOVA ........ 81
Nizami MƏMMƏDOV ........ 84
Reza MORİDİ ........ 87
Səadət KƏRİMİ ........ 90
Seymur NƏSİROV ........ 97
Toğrul İSMAYIL ........ 101
Toğrul KƏRİMOV ........ 104
Xədicə ZEYNALOVA ........ 106
Yulduz RƏHİMOV ........ 108

Xaricdə yaşayan Azərbaycanlı alimlər ........ 115
Amerika Birləşmiş Ştatları ........ 115
Asəf SALAMOV, PhD ........ 115
Aytəkin HÜSEYNLİ, PhD ........ 115
Cəmilə CAVADOVA-SPİTZBERQ, Dr. ........ 116
Elşad ALLAHYAROV, PhD ........ 117
Sevinc MƏMMƏDOVA, Ed.D. ........ 118
Şuay ABDULLAYEV, Dr. ........ 119
Toğrul TALIŞİNSKİ, PhD ........ 119



Almaniya ........ 120
Məsud ƏFƏNDİYEV, Prof. Dr. ........ 120
Mirzə MÜTƏLLİMOV, PhD ........ 121
Rasim CƏNNƏTƏLİYEV, PhD ........ 122
Rauf ABDULLAYEV ........ 122
Sevda KƏRİMOVA, PhD ........ 123
Toğrul KƏRİMOV, PhD ........ 123
Valeh RÜSTƏMOV, PhD ........ 123
Xədicə ZEYNALOVA, Dr. ........ 124
Yaşar MUSAYEV, Dr.-İng. ........ 125

Avstriya ........ 127
Bəxtiyar SİRACOV, PhD ........ 127
Dinara ABBASOVA, PhD ........ 127
Kamal ƏKBƏROV, PhD ........ 128
Murad ABUZƏRLİ, PhD ........ 129

Birləşmiş Krallıq ........ 129
Qərib MÜRŞÜDOV, PhD ........ 129
Vəhid GƏRUSLU, Prof. Dr. ........ 130

Cənubi Koreya ........ 131
Rövşən İBRAHİMOV, Prof. Dr. ........ 131

Estoniya ........ 132
Xaqani QAYIBLI, PhD ........ 132

Fransa ........ 134
Aynur QULİYEVA, PhD ........ 134
Günel SƏFƏROVA, PhD ........ 134
Reyhan HƏSƏNOVA, PhD ........ 135

Gürcüstan ........ 135
Aygül İSAYEVA, PhD ........ 135

İsrail ........ 136
Lev V. EPPELBAUM, Prof. Dr. ........ 136
Mark APPLEBAUM, Prof. Dr. ........ 137

İsveç ........ 138
Səadət KƏRİMİ, PhD ........ 138

İtaliya ........ 139
Zərifə OSMANLI, PhD ........ 139

Kanada ........ 139
İlham AXUNDOV, PhD ........ 139

Reza MORİDİ, PhD ........ 140
Səbinə İSGƏNDƏROVA, PhD ........ 140
Yulduz RƏHİMOV, PhD ........ 140

Meksika ........ 141
Natiq ATAKİŞİYEV, PhD ........ 141

Misir Ərəb Respublikası ........ 142
Seymur NƏSİROV, PhD ........ 142

Oman ........ 144
Səidə XƏLİLOVA, PhD ........ 144

Polşa ........ 145
Şəhriyar MUXTAROV, Prof. Dr. ........ 145

Qazaxıstan ........ 145
Akif SÜLEYMANOV, PhD ........ 145
Arzu QURBANOVA, PhD ........ 146
Tofiq AYDAROV, PhD ........ 147

Qırğızıstan ........ 148
Akif ALAFERDOV, PhD ........ 148

Rusiya Federasiyası ........ 149
Ağamalı MƏMMƏDOV, Prof. Dr. ........ 149
Eldar ƏHƏDOV ........ 149
Emil ƏHMƏDOV, Prof. Dr. ........ 150
Əliheydər RƏHİMOV, Prof. Dr. ........ 150
Ələddin ALLAHVERDİYEV, Prof. Dr. ........ 151
İsmayıl ƏLİYEV, Prof. Dr. ........ 153
Kamran RÜSTƏMOV, Prof. Dr. ........ 154
Nigar MƏSUMOVA, PhD ........ 154
Nizami MƏMMƏDOV, Prof. Dr. ........ 154
Sevinc ƏSGƏROVA, Prof. Dr. ........ 155
Süleyman ALLAHVERDİYEV, Prof. Dr. ........ 155
Vahid QƏDİMOV, Prof. Dr. ........ 156
Zahid QOCAYEV, Prof. Dr. ........ 156

Səudiyyə Ərəbistanı ........ 157
Azər ABDULLAYEV, PhD ........ 157
Elvin ƏFƏNDİ, PhD ........ 158

Türkiyə ........ 159
Afina MƏMMƏDLİ BARMANBAY, Dosent, PhD ........ 159
Cavid QASIMOV, Prof. Dr. ........ 159
Elçin BƏDƏLOV, Dosent, PhD ........ 160



Əbülfəz SÜLEYMANLI, Prof. Dr. ........ 161
Əmirulla MƏMMƏDOV, Prof. Dr. ........ 161
Hacalı NƏCƏFOĞLU, Prof. Dr. ........ 162
İlkin QULUSOY, Prof. Dr. ........ 163
İsmixan BAYRAMOV, Prof. Dr. ........ 163
Məqbulə SƏBZİYEVA, Prof. Dr. ........ 164
Mehdi GƏNCƏLİ Dosent, Dr. ........ 165
Mehmet RIZA HEYƏT, Dr. ........ 166
Oruc ALLAHVERDİYEV, Dosent, PhD ........ 166
Qafar ÇAXMAQLI (MEHDİYEV), Prof. Dr. ........ 167
Ramin ƏLİYEV, Prof. Dr. ........ 168
Şahin ƏHMƏDOĞLU, Prof. Dr. ........ 168
Saleh SULTANSOY, Prof. Dr. ........ 169
Teymur RZAYEV, Prof. Dr. ........ 170
Toğrul İSMAYIL, Prof. Dr. ........ 171
Varqa KƏLƏNTƏROV, Prof. Dr. ........ 172
Vəfa QURBAN, Prof. Dr. ........ 172

Ukrayna ........ 173
Arif QULİYEV, Dr. ........ 173
Eldar VƏLİYEV, Prof. Dr. ........ 174
Murad ÖMƏROV, Prof. Dr. ........ 174

Yaponiya ........ 175
Xəlil KƏLƏNTƏR, PhD ........ 175

Forum haqqında təəssüratlar ........ 176
Afina MƏMMƏDLİ BARMANBAY ........ 176
Arif QULİYEV ........ 179
Hacalı NƏCƏFOĞLU ........ 181
İlkin QULUSOY ........ 182
Lev EPPELBAUM ........ 183
Nizami MƏMMƏDOV ........ 187
Ramin ƏLİYEV ........ 187
Reza MORİDİ ........ 189
Seymur NƏSİROV ........ 189
Şəhriyar MUXTAROV ........ 191
Tofiq AYDAROV ........ 192
Toğrul KƏRİMOV ........ 192
Xəlil KƏLƏNTƏR ........ 193

Eldar Əhədovun forumla bağlı hekayələri ........ 195
Nur ........ 195
Vətən hissləri ........ 196

Cıdır düzü ....................................................................................................197
Xədicə ...........................................................................................................201

Forum iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanladıqları məktublar ..........................................203
Aygül İSAYEVA ............................................................................................203
Bəxtiyar SİRACOV ........................................................................................204
Cəmilə CAVADOVA-SPİTZBERQ....................................................................205
Dinara ABBASOVA ........................................................................................205
Elçin BƏDƏLOV ............................................................................................206
Elşad ALLAHYAROV .....................................................................................207
Ələddin ALLAHVERDİYEV..............................................................................207
İlham AXUNDOV ...........................................................................................208
Lev EPPELBAUM ..........................................................................................209
Mehdi GƏNCƏLİ............................................................................................210
Məsud ƏFƏNDİYEV .......................................................................................211
Mirzə MÜTƏLLİMOV......................................................................................212
Murad ÖMƏROV ...........................................................................................213
Rasim CƏNNƏTƏLİYEV..................................................................................214
Rauf ABDULLAYEV .......................................................................................214
Səadət KƏRİMİ .............................................................................................215
Səidə XƏLİLOVA............................................................................................218
Seymur NƏSİROV .........................................................................................218
Süleyman ALLAHVERDİYEV............................................................................219
Toğrul KƏRİMOV...........................................................................................220
Xədicə ZEYNALOVA .......................................................................................221
Yulduz RƏHİMOV ..........................................................................................221
Zərifə OSMANLI ...........................................................................................222

Fotoqalereya......................................................................................................223

Son söz ..............................................................................................................262



## ÖN SÖZ

Əziz oxucu,

Diqqətinizə təqdim olunan bu nəşr Azərbaycan elminin diaspor potensialını bir araya gətirən və tarixi əhəmiyyət daşıyan bir hadisəyə – 2024-cü ilin 9–11 sentyabr tarixlərində Bakıda, Xankəndidə və Şuşada keçirilmiş "Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu"na həsr olunmuşdur. Kitab forum çərçivəsində həyata keçirilmiş tədbirləri, səsləndirilmiş fikirləri, təqdim olunmuş məruzələri və iştirakçı alimlərin təəssüratlarını sənədləşdirərək oxuculara təqdim edir.

Forum Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi və Dünya Azərbaycanlı Alimlər Birliyi (DAAB) tərəfindən birgə təşkil edilmiş və dünyanın 30-dan çox ölkəsində yaşayan, müxtəlif elmi sahələrdə çalışan azərbaycanlı alimləri bir araya gətirmişdir. Bu tədbir yalnız elmi platforma olmaqla kifayətlənməyib, həm də milli həmrəylik, intellektual inteqrasiya və gələcəyə dair ortaq baxışların formalaşdırılması baxımından da mühüm rol oynamışdır.

Kitabda forumun açılış və plenar iclaslarından tutmuş paralel sessiyalara, Qarabağ şəhərlərinə səfərlərə, tematik panel müzakirələrə və yekun sənədlərə qədər bütün əsas məqamlar əks etdirilmişdir. Eyni zamanda forum iştirakçılarının Prezident İlham Əliyevə ünvanladığı müraciət, DAAB-nin yaradılması ilə bağlı razılaşma və gələcək əməkdaşlıq istiqamətləri də oxucuya təqdim olunur. Bu nəşr həm də forumun iştirakçıları olan xaricdə yaşayan azərbaycanlı alimlərin profillərini, təqdim etdikləri məruzələri, şəxsi təəssüratlarını özündə birləşdirən unikal sənəd və arxiv mənbəyidir.

Kitabın tərtibatı zamanı obyektivlik, informativlik, elmi dəyər əsas götürülmüş, dil və üslub baxımından həm yerli, həm də beynəlxalq oxucular üçün anlaşıqlı, əlçatan olmaq məqsədilə sadə, lakin sistemli yanaşma tətbiq olunmuşdur.

Bu kitab təkcə bir forumun xatirəsi deyil, həm də birliyin, əməkdaşlığın və elmi həmrəyliyin bariz nümunəsi kimi gələcək nəsillərə ötürüləcək dəyərli bir sənəddir. Eyni zamanda o, Azərbaycanın intellektual diasporunun gücünü, elmi və mədəni dəyərlərə sadiqliyini, Vətənlə olan qırılmaz bağlarını nümayiş etdirir.

Bu mühüm təşəbbüsə dəstək verən bütün təşkilatlara və forumda fəal iştirak etmiş hər bir alimə təşəkkürümüzü bildiririk. Əminik ki, bu kitab həm tədqiqatçılar, həm tələbələr, həm də diaspor fəaliyyəti ilə maraqlananlar üçün faydalı və ilhamverici mənbə olacaq.

Ən xoş arzularla,
Dünya Azərbaycanlı Alimlər Birliyinin İdarə Heyəti





## DÜNYA AZƏRBAYCANLI ALİMLƏR BİRLİYİNİN YARADILMASI ZƏRURƏTİ



22 aprel 2022-ci ildə Qarabağın incisi Şuşa şəhərində Dünya Azərbaycanlılarının beşinci qurultayı keçirilmişdir.

Azərbaycanın müstəqillik tarixində mühüm və əhəmiyyətli hadisələrdən biri hesab olunan bu qurultay 65 ölkədən, təxminən 400 nəfər soydaşımızı bir araya gətirmişdir. İşğaldan azad edilmiş torpaqlarda keçirilən ən böyük tədbirlərdən biri olan qurultayda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev geniş və çoxşaxəli nitq söyləyərək sürətlə inkişaf edən Azərbaycan diasporunun qarşısında mühüm vəzifələr və çağırışlar müəyyənləşdirmişdir.

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq bu gün Azərbaycan diasporunun daha mütəşəkkil inkişafı üçün məqsədyönlü fəaliyyət həyata keçirilməkdədir. Zəngin potensialı, xüsusilə də tərkibində alimlər və elm xadimlərinin olması diasporumuzun gələcək inkişafı baxımından böyük perspektivlər vəd edir.

Həm qurultay zamanı, həm də sonrakı dövrdə yeni azərbaycanlı alim və tədqiqatçılarla yaxından tanış olmaq fürsətimiz yaranmış, gələcək əməkdaşlıq imkanları barədə geniş fikir mübadiləsi aparılmışdır. Bu proses Azərbaycan diasporunun inkişafında elmi və intellektual töhfələrin artan rolunu bir daha nümayiş etdirmişdir.

## İSTANBUL TƏSİS TOPLANTISI



Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) dəstəyi ilə biz – bir qrup azərbaycanlı ziyalı diasporumuzda təmsil olunan alimlərin təşkilatlanmasının zəruriliyini rəhbər tutaraq, qarşımıza hamımızı birləşdirəcək vahid bir platformanın yaradılması məqsədini qoyduq. Bu niyyətimizi həyata keçirmək üçün Türkiyədə toplandıq və "Dünya Azərbaycanlı Alimlər Birliyinin" (DAAB) təməlini atdıq.

Görüş 9 dekabr 2022-ci il tarixində DİDK nümayəndələrinin və müxtəlif ölkələrdən təşrif gətirmiş azərbaycanlı elm xadimlərinin iştirakı ilə İstanbul şəhərində baş tutdu.

Toplantıda dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı elm xadimləri ilə yanaşı, DİDK, Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA), Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası (TADF) və Türkiyə Elmlər Akademiyasının (TÜBA) nümayəndələri də iştirak etmişdir:

| | |
|---|---|
| Ahmet CEVAT ACAR | Türkiyə EA İdarə Heyətinin üzvü, İstanbul Sabahattin Zaim Universitetinin rektoru |
| Cahid KAZIMOV | DİDK sədrinin müşaviri |
| Emin RÜSTƏMOV | DİDK Beynəlxalq əlaqələr və gənclərlə iş şöbəsinin gənclər sektorunun müdiri |





| | |
|---|---|
| Fuad MURADOV | Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) sədri |
| Pərviz MƏMMƏDZADƏ | Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının (TADF) sədr müavini |
| Rüfət SARABİ | DİDK aparıcı məsləhətçisi, sektorun müdiri |
| Ülkər SƏTTAROVA | Təhsildə Keyfiyyət Təminatı Agentliyinin sədri (TKTA) |
| Vəsilə ZEYNALOVA | DİDK Təbliğat, informasiya və analitik təhlil şöbəsinin müdiri |
| Xıdır KAZIMOV | DİDK Beynəlxalq əlaqələr və gənclərlə iş şöbəsinin müdiri |

Görüşdə iştirak etmiş azərbaycanlı elm xadimləri:

| | |
|---|---|
| Akif ALAFERDOV | Qırğızıstan |
| Aqşin ƏLİYEV | Çin |
| Arzu QURBANOVA | Qazaxıstan |
| Bəxtiyar SİRACOV | Avstriya |
| Əli ƏSGƏROV | ABŞ |
| Əmirullah MƏMMƏDOV | Türkiyə |
| Əsgər ƏLƏKBƏROV | Oman |
| Feridun HAMDULLAHPUR | Kanada |
| Heydər İMANOV | Rusiya |
| Mahmud HACIXƏLİLOV | Gürcüstan |
| Mehdi GƏNCƏLİ | Türkiyə |
| Məsud ƏFƏNDİYEV | Almaniya |
| Mübariz QARAYEV | Səudiyyə Ərəbistanı |
| Niyazi NİYAZOV | Rusiya |
| Ramin SADIK | Türkiyə |
| Rövşən İBRAHİMOV | Koreya |
| Səadət KƏRİMİ | İsveç |
| Seymur NƏSİROV | Misir |
| Teymur RZAYEV | Türkiyə |
| Toğrul İSMAYIL | Türkiyə |
| Vüqar İMANBƏYLİ | Türkiyə |
| Xaqani QAYIBLI | Estoniya |
| Xəlil KƏLƏNTƏR | Yaponiya |
| Zaur SADIQBƏYLİ | Fransa |

***ƏSAS HƏDƏFLƏR***

- Xaricdə fəaliyyət göstərən azərbaycanlı alimlərin vahid data bankının yaradılması
- Elm xadimləri və tədqiqatçılar arasında şəbəkələşmənin gücləndirilməsi və onların vahid platformada birləşdirilməsi
- Diaspor fəaliyyətinə töhfə verilməsi və onun qlobal elmi əməkdaşlıqda rolunun artırılması
- Vətənlə əlaqələrin möhkəmləndirilməsi və Azərbaycanın elmi institutları ilə sıx əməkdaşlığın təşviq edilməsi
- Müxtəlif elmi və təhsil proqramları vasitəsilə Azərbaycanın inkişafına dəstək verilməsi
- İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması prosesinə töhfə verilməsi
- Elmi fəaliyyət göstərən və bu sahədə karyera qurmaq istəyən gənc nəslə dəstək verilməsi
- Müxtəlif təhsil layihələrinin, proqramlarının hazırlanması və elmi işlərin davamlı olaraq dəstəklənməsinin təmin edilməsi

*İştirakçılar qruplara bölünərək hədəflər ətrafında müzakirələr aparmışlar.*














***TƏKLİF EDİLMİŞ STRATEJİ ADDIMLAR***

- Regional qrupların yaradılması: Avropa, Türkiyə, Ərəb ölkələri və Afrika, Rusiya, Mərkəzi Asiya, Uzaq Şərq, Amerika, Avstraliya və digər regionlar üzrə alimlərdən ibarət qruplar formalaşdırılsın. Hər bir qrupun üzvləri və rəhbərləri təyin edilsin.
- Strukturun müəyyənləşdirilməsi: Dünya Azərbaycanlı Alimlər Birliyinin (DAAB) idarəetmə və fəaliyyət strukturu formalaşdırılsın.
- Vahid elmi şəbəkənin yaradılması: Alimlər arasında qlobal əməkdaşlığı gücləndirmək üçün vahid platforma və şəbəkə qurulsun.
- Strateji yol xəritəsi: Qısa, orta və uzunmüddətli fəaliyyət planları hazırlanaraq icra edilsin.
- Rəqəmsal təhlükəsizlik: Sosial şəbəkələrdə rəsmi hesablar açılsın, eyni zamanda kənar müdaxilələrin qarşısını almaq üçün zəruri təhlükəsizlik tədbirləri görülsün.
- Elmi informasiya bazasının yaradılması: Alimlərin elmi məqalələrini, kitablarını və tədqiqatlarını özündə cəmləşdirən geniş bir elmi məlumat bazası formalaşdırılsın.
- Elmi jurnalın nəşri: İldə dörd dəfə beynəlxalq səviyyədə elmi jurnal dərc edilsin. Xaricdə elmi məqalələri çap olunan alimlərin yazılarının da bu jurnalda yayımlanması təmin edilsin.
- Gənc alimlər üçün mentorluq proqramı: Elmi tədqiqatla məşğul olan gənc alimlər üçün həm Azərbaycandan, həm də xarici ölkələrdən elmi rəhbərlərin təyin olunmasına dəstək verilsin.
- İlk forumun təşkili: DAAB-nin birinci forumu 2023-cü ildə Bakı və ya Ağdamda keçirilsin və müxtəlif elmi dairələrdən müvafiq şəxslərin iştirakı təmin edilsin.
- Rəqəmsal infrastruktur: DAAB-nin rəsmi veb-saytı və mobil tətbiqi yaradılsın.
- Strateji layihələrin dəstəklənməsi: Ekoloji mühit, “ağıllı şəhər” və bu kimi digər innovativ layihələrə dəstək verilsin.
- Gənc tədqiqatçıların inkişafı: Gənc alimlərin inkişafına yönəlmiş proqramlar həyata keçirilsin və “Qarabağ”, “Şuşa” adları ilə xüsusi təqaüdlər təsis edilsin.
- Azərbaycan alimlərinin AMEA üzvlüyü: Xaricdə yaşayan azərbaycanlı alimlərin Azərbaycan Milli Elmlər Akademiyasına (AMEA) üzvlüyü məsələsi nəzərdən keçirilsin.
- Beynəlxalq elmi araşdırmalar: Alimlər tərəfindən yaşadıqları ölkələrin xüsusiyyətlərinə uyğun tədqiqatlar aparılsın, eyni zamanda arxivlərdə araşdırmaların təşkili təmin edilsin.





- Dil biliklərinin inkişafı: Alimlərin yaşadıqları ölkələrin dilini bilməsi üçün mütəxəssis hazırlığına dəstək verilsin.
- Alimlərin tanıdılması: Xaricdə fəaliyyət göstərən azərbaycanlı alimlərin çalışdıqları ölkələrdə elmi mühitdə və ictimaiyyət arasında daha geniş tanıdılması üçün təşviq işləri aparılsın.
- İş dünyası ilə əməkdaşlıq: Xaricdə fəaliyyət göstərən azərbaycanlı iş adamları bu proseslərə cəlb olunsun və elmi layihələrin maliyyələşdirilməsində onların iştirakı təşviq edilsin.

***ALINMIŞ QƏRARLAR***

- Avropa, Türkiyə, Ərəb ölkələri və Afrika ölkələri, Rusiya, Mərkəzi Asiya, Uzaq Şərq, Amerika və Avstraliya üzrə qruplar formalaşdırılsın
- Görüşün nəticəsi olaraq yaradılması nəzərdə tutulan təşkilat “Dünya Azərbaycanlı Alimlər Birliyi” adlandırılsın
- Təşkilatın nizamnaməsi hazırlansın
- Birinci forum Bakıda keçirilsin
- İdarə heyəti aşağıdakı tərkibdə qəbul edilsin:

Feridun HAMDULLAHPUR
Məsud ƏFƏNDİYEV
Bəxtiyar SİRACOV
Səadət KƏRİMİ
Seymur NƏSİROV
Toğrul İSMAYIL
Zaur SADIQBƏYLİ

***LOQOMUZ***

Toplantı çərçivəsində Dünya Azərbaycanlı Alimlər Birliyinin (DAAB) korporativ kimliyinin vizual dizaynının hazırlanması məsələsi gündəmə gəldi. Həmin vaxt bu işin icrası üçün Prof. Dr. Teymur Rzayev öz dəstəyini təklif etdi və görüşün sonunda bu məsuliyyət ona həvalə edildi.

Prof. Dr. Teymur Rzayev tərəfindən, təxminən 40-a yaxın fərqli loqo eskizi hazırlanaraq qiymətləndirilmək və seçim üçün DAAB-nin İdarə Heyətinə və Diaspor Komitəsinə təqdim olundu. Geniş rəy mübadiləsi və ətraflı dəyərləndirmə prosesi nəticəsində təqdim edilən variantlar arasından bir loqo yekdilliklə seçildi.

Seçilmiş loqonun texniki dizaynı Prof. Dr. T.Rzayevin rəhbərliyi ilə onun azərbaycanlı tələbəsi Nilüfər Xəlilova tərəfindən hazırlanmışdır.

Hazırda bu loqo DAAB-nin rəsmi simvolu kimi bütün yazışmalarda, təqdimatlarda və digər rəsmi sənədlərdə aktiv şəkildə istifadə olunmaqdadır. Bu loqo yalnız vizual tanıtım vasitəsi deyil, eyni zamanda birliyin elmi, mədəni və peşəkar dəyərlərini təcəssüm etdirən simvolik bir elementdir.

***MİSSİYAMIZ***

Dünya Azərbaycanlı Alimlər Birliyi dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı ziyalıların birliyi kimi fəaliyyət göstərən qeyri-hökumət təşkilatı olaraq elm və texnologiya, energetika, təhsil, səhiyyə, sosial elmlər və mədəniyyət sahələri ilə bağlı strateji planların hazırlanması və icra olunmasında Azərbaycana dəstək verir.

***VİZYONUMUZ***

Dünya Azərbaycanlı Alimlər Birliyi elmi biliklərin inkişaf etdirilməsi, innovasiyaların təşviqi, Azərbaycanda və dünya çapında fərq yarada biləcək alimlərin, mühəndislərin, incəsənət xadimlərinin, səhiyyə işçilərinin yetişdirilməsinə yönəlmiş fəaliyyətində mükəmməlliyi ilə tanınan beynəlxalq bir qurum olmaq niyyətindədir. Biz Azərbaycanın dünya miqyasında zəngin və dərin tarixə malik, bəşəriyyət üçün firavan və dinc gələcək yaratmaq uğrunda böyük sərmayə yatırmış sülhsevər bir dövlət kimi tanınması və qəbul edilməsini hədəfləyirik. Bütün dünya Azərbaycanın qlobal arenada iştirakından faydalanacaq və öz növbəsində, Azərbaycan da beynəlxalq təcrübədən yararlanaraq gələcək nəsillər üçün daha güclü dövlət qurmağa davam edəcək.

***DƏYƏRLƏRİMİZ***

*Akademik azadlıq*

- Elmi tədqiqatların sərbəst şəkildə aparılması və hər hansı ideoloji, siyasi və ya kommersiya təsirindən uzaq olması.
- Alimlərin öz elmi görüşlərini maneəsiz şəkildə ifadə edə bilməsi.

*Akademik etika*

- Elmi fəaliyyət zamanı etik qaydalara əməl olunması, plagiat və saxta nəticələrdən uzaq durulması.
- Tədqiqatlarda obyektivliyin qorunması və elmi işlərin dürüst aparılması.





*Dürüstlük*

- Alimlərin öz tədqiqatlarında və elmi müzakirələrində həqiqətə sadiq qalması.
- Mövcud biliklər əsasında səhvlərin qəbul edilməsi və düzəldilməsi.

*Fərqliliklərə hörmət*

- Fərqli elmi yanaşmalara və alternativ baxışlara açıq olmaq.
- Cins, irq, din, dil, sosial status və digər fərqliliklərə qarşı dözümlülük və inklüzivlik.

*Keyfiyyət*

- Tədqiqatların yüksək akademik standartlara uyğun aparılması.
- Beynəlxalq səviyyədə qəbul edilən metodologiyalardan və araşdırma prinsiplərindən istifadə edilməsi.

*Məsuliyyət*

- Alimlərin cəmiyyətə, tələbələrə və gələcək nəsillərə qarşı məsuliyyət daşıması.
- Elmin yalnız nəzəri deyil, praktik və sosial fayda verməsi üçün çalışmaq.

*Mükəmməllik*

- Davamlı öyrənmək, inkişaf etmək və daha yüksək elmi nailiyyətlər əldə etməyə çalışmaq.
- Elmi araşdırmalarda və tədrisdə daim ən yaxşı nəticələri əldə etməyə yönəlmək.

*Ləyaqət*

- Alimlərin öz peşə fəaliyyətlərini yüksək əxlaqi dəyərlərlə aparması.
- Bir-birinə hörmət və kollektiv akademik mühitin yaradılması.

*Şəffaflıq*

- Elmi araşdırmaların açıq və aydın şəkildə aparılması.
- Qərarvermə prosesində obyektivlik və hesabatlılığın təmin olunması.

Bu dəyərlər alimlər arasında həmrəyliyi gücləndirir, beynəlxalq elmi mühitdə etibarı artırır və gənc tədqiqatçılar üçün sağlam akademik ənənələr yaradır.

## BAKI FORUMU

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu, Dünya Azərbaycanlı Alimlər Birliyinin (DAAB) təşkilatçılığı, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi (DİDK) və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin (ETN) dəstəyi ilə 2024-cü il 9–11 sentyabr tarixlərində Bakı, Xankəndi və Şuşa şəhərlərində keçirilmişdir.

Açılış, plenar və yekun iclaslar, eləcə də sessiyalar 9-10 sentyabr tarixlərində Bakıdakı Gülüstan Sarayında gerçəkləşmiş, sentyabrın 11-də isə forum iştirakçıları Xankəndidə yerləşən Qarabağ Universitetini ziyarət etmiş və Şuşa şəhərinin tarixi abidələri ilə tanış olmuşlar.

## TƏŞƏKKÜRLƏR

Forumun yüksək səviyyədə təşkilinə verdikləri dəyərli töhfəyə görə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri cənab Fuad Muradova, komitənin əməkdaşları Şahin Camalova, Leyla Həmzəyevaya, Həlimə Fətullazadəyə, Cahid İsmayılova, Mehriban Sultanovaya, Tural Səfərova və Vaqif Cəfərova təşəkkürümüzü və dərin ehtiramımızı bildiririk.

Forumun reallaşmasında xidmətlərinə görə Azərbaycan Respublikasının Elm və Təhsil Naziri Emin Əmrullayevə və onun komandasına dərin təşəkkürümüzü bildiririk.

Forum çərçivəsində foto və video çəkilişlərinin həyata keçirilməsində iştirak etmiş əməkdaşlara, həmçinin müsahibələrin təşkilinə verdikləri töhfələrə görə Diaspor TV-yə və Vəsilə Vahidqızına minnətdarlığımızı bildiririk.

Forumun işıqlandırılmasında göstərdikləri dəstəyə görə Azərbaycan televiziya kanallarına – AzTV, İctimai TV, Xəzər TV, Real TV və digər media resurslarına, o cümlədən “Xalq qəzeti” və digər mətbuat orqanlarına dərin təşəkkürümüzü ifadə edirik.

Forumun hazırlanması və proqramının tərtibinə, müzakirələrin təşkilinə, iştirakçıların rəylərinin toplanmasına və təhlil edilməsinə verdiyi töhfəyə görə DAAB İdarə Heyətinin sədri Məsud Əfəndiyevə, həmsədrlər Bəxtiyar Siracov və Seymur Nəsirova, İdarə Heyəti üzvü və mətbuat katibi Səadət Kərimiyə, İdarə Heyəti üzvləri Emil Əhmədova, Sevinc Məmmədovaya, Teymur Rzayeva, Toğrul İsmayıla, Toğrul Kərimova və Yulduz Rəhimova təşəkkürümüzü bildiririk.

Forum iştirakçıları haqqında məlumatların, prezidentimizə ünvanlanmış məktubların, iştirakçıların təəssüratlarının toplanması və elektron versiyasının yaradılmasına verdiyi töhfələrə görə və həmçinin forumdan ilhamlanaraq “NUR”, “VƏTƏN HİSSLƏRİ”, “CIDIR DÜZÜ” və “XƏDİCƏ” adlı dörd dəyərli hekayənin müəllifi olan yazıçı və şair Eldar Əhədova dərin minnətdarlığımızı bildiririk.

Bu kitabın ideya müəllifi Bəxtiyar Siracova, bədii tərtibatçısı rəssam Teymur Rzayevə, ümumilikdə kitab üzərində işin əlaqələndirilməsində verdiyi dəstəyə görə DAAB İdarə Heyətinin sədri Məsud Əfəndiyevə dərindən təşəkkür edirik.

Forumun işində fəal iştirak etdiklərinə görə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyliyə, akademiyanın vitse-prezidenti, akademik Rasim Əliquliyevə, Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, Azərbaycan Respublikasının Xalq rəssamı heykəltaraş Natiq Əliyevə və digər alimlərimizə dərin təşəkkürümüzü bildiririk.

Plenar iclaslarda, eləcə də qeyri-formal söhbətlər zamanı səsləndirdikləri dəyərli fikirlərə görə forumda fəal iştirak edən Azərbaycan universitetlərinin rektorlarının hər birinə dərin təşəkkürümüzü bildiririk:

| | |
|---|---|
| Ceyran MAHMUDOVA | Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru |
| Ədalət MURADOV | Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru |
| Elbrus İSAYEV | Naxçıvan Dövlət Universitetinin rektoru |
| Elçin BABAYEV | Bakı Dövlət Universitetinin rektoru |
| Elmar QASIMOV | Bakı Ali Neft Məktəbinin rektoru |
| Gülçöhrə MƏMMƏDOVA | Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin rektoru |
| Hafiz PAŞAYEV | ADA Universitetinin rektoru |
| Hamlet İSAXANLI | Xəzər Universitetinin rektoru |
| Rüfət ƏZİZOV | Forum keçirildiyi dövrdə Sumqayıt Dövlət Universitetinin rektoru, 2025-ci ildən Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru |
| Vazeh ƏSKƏROV | Forum keçirildiyi dövrdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru vəzifəsini müvəqqəti icra edən |
| Vilayət VƏLİYEV | Azərbaycan Texniki Universitetinin rektoru |
| Yaqub PİRİYEV | Bakı Mühəndislik Universitetinin rektoru |

Foruma dəyərli məruzələr təqdim etdiklərinə görə Asəf Salamova, Bəxtiyar Siracova, Dinara Abbasovaya, Eldar Əhədova, Mehdi Gəncəliyə, Nigar Məsumovaya, Nizami Məmmədova, Reza Moridiyə, Səadət Kərimiyə, Seymur Nəsirova, Toğrul İsmayıla, Toğrul Kərimova, Xədicə Zeynalovaya və Yulduz Rəhimova dərin təşəkkürümüzü bildiririk.

Xankəndi və Şuşa şəhərlərində forum iştirakçılarına xüsusi bir diqqət və ehtiram göstərdiklərinə görə Qarabağ Universitetinin rektoru Şahin Bayramov və universitetin əməkdaşlarına dərin təşəkkürümüzü bildiririk.

Dünyanın bir çox ölkələrindən foruma təşrif gətirmiş, onun işində fövqəladə fəal iştirak etmiş müxtəlif elm, incəsənət sahələrini təmsil edən dəyərli ziyalılarımıza ayrıca olaraq xüsusi təşəkkürümüzü bildiririk.

## FORUMDA İŞTİRAK ETMİŞ ALİMLƏRİMİZ

| | |
|---|---|
| ABŞ | Asəf SALAMOV<br>Aytəkin HÜSEYNLİ<br>Cəmilə CAVADOVA-SPİTZBERQ<br>Elşad ALLAHYAROV<br>Həsən BABAZADƏ<br>Sevinc MƏMMƏDOVA<br>Şuay ABDULLAYEV<br>Toğrul TALIŞİNSKİ |
| Almaniya | Məsud ƏFƏNDİYEV<br>Mirzə MÜTƏLLİMOV<br>Rasim CƏNNƏTƏLİYEV<br>Rauf ABDULLAYEV<br>Sevda KƏRİMOVA<br>Toğrul KƏRİMOV<br>Valeh RÜSTƏMOV<br>Xədicə ZEYNALOVA<br>Yaşar MUSAYEV |
| Avstriya | Bəxtiyar SİRACOV<br>Dinara ABBASOVA<br>Kamal ƏKBƏROV<br>Murad ABUZƏRLİ |
| Rusiya Federasiyası | Ağamalı MƏMMƏDOV<br>Eldar ƏHƏDOV<br>Ələddin ALLAHVERDİYEV<br>Əliheydər RƏHİMOV<br>Emil ƏHMƏDOV<br>İsmayıl ƏLİYEV<br>Kamran RÜSTƏMOV<br>Nigar MƏSUMOVA<br>Nizami MƏMMƏDOV<br>Sevinc ƏSGƏROVA<br>Süleyman ALLAHVERDİYEV<br>Vahid QƏDİMOV<br>Zahid QOCAYEV |
| Səudiyyə Ərəbistanı | Azər ABDULLAYEV<br>Elvin ƏFƏNDİ |





| | |
|---|---|
| Birləşmiş Krallıq | Qərib MÜRŞÜDOV |
| Estoniya | Xaqani QAYIBLI |
| Fransa | Aynur QULİYEVA<br>Günel SƏFƏROVA<br>Reyhan HƏSƏNOVA |
| Gürcüstan | Aygül İSAYEVA |
| İsrail | Lev EPPELBAUM<br>Mark Vilen APPLEBAUM |
| İsveç | Səadət KƏRİMİ |
| İtaliya | Zərifə OSMANLI |
| Kanada | İlham AXUNDOV<br>Reza MORİDİ<br>Səbinə İSGƏNDƏROVA<br>Yulduz RƏHİMOV |
| Koreya | Rövşən İBRAHİMOV |
| Meksika | Natiq ATAKİŞİYEV |
| Misir | Seymur NƏSİROV |
| Oman | Səidə XƏLİLOVA |
| Polşa | Şəhriyar MUXTAROV |
| Qazaxıstan | Akif SÜLEYMANOV<br>Arzu QURBANOVA<br>Tofiq AYDAROV |
| Qırğızıstan | Akif ALAFERDOV |
| Türkiyə | Afina MƏMMƏDLİ BARMANBAY<br>Cavid QASIMOV<br>Əbülfəz SÜLEYMANLI<br>Elçin BƏDƏLOV<br>Əmirullah MƏMMƏDOV<br>Hacalı NƏCƏFOĞLU<br>İlkin QULUSOY<br>İsmixan BAYRAMOV<br>Məqbulə SƏBZİYEVA<br>Mehdi GƏNCƏLİ<br>Mehmet Reza HEYƏT<br>Oruc ALLAHVERDİYEV<br>Qafar MEHDİYEV<br>Ramin ƏLİYEV<br>Şahin ƏHMƏDOĞLU<br>Saleh SULTANSOY<br>Teymur RZAYEV<br>Toğrul İSMAYIL<br>Varqa KƏLƏNTƏROV<br>Vəfa QURBAN |
| Ukrayna | Arif QULİYEV<br>Eldar VƏLİYEV<br>Murad ÖMƏROV |
| Yaponiya | Xəlil KƏLƏNTƏR |

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEVİN İŞTİRAKÇILARA MÜRACİƏTİ




Müraciəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh xanım Əliyeva səsləndirdi.

*Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun iştirakçılarına*

Hörmətli forum iştirakçıları!

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun ölkəmizin paytaxtında öz işinə başlaması münasibətilə sizi səmimi-qəlbdən salamlayır, hər birinizə cansağlığı və uğurlar arzulayıram. Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğu bir zamanda forumun təşkilinin rəmzi məna kəsb etdiyini xüsusi vurğulamaq istəyirəm.





Xaricdə yaşayan həmvətənlərimizin sıralarında elm xadimlərinin geniş yer tutması Azərbaycan diasporunun inkişafına böyük imkanlar yaradır. Diasporumuzun fəaliyyətinin sistemliliyinin təmin edilməsi məqsədilə elm sahəsində çalışan soydaşlarımızla daha sıx münasibətlər qurulması, milli maraqlarımıza xidmət göstərən müxtəlif proqram və layihələrdə onların yaxından iştirakının dəstəklənməsi istiqamətində ötən müddət ərzində təqdirəlayiq işlər görülmüşdür.

Forumun dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlı alimlərin şəbəkələşməsi, onların elm və təhsil ocaqlarımızla əlaqələrinin dərinləşməsi, qazanılan müştərək nailiyyətlərdən yararlanmaqla ölkəmizin qlobal hədəflərə sürətlə yaxınlaşması, habelə Azərbaycan elminin dünya elm məkanına inteqrasiyası baxımından son dərəcə səmərəli olacağına əminəm.

İnanıram ki, forum Azərbaycanda elmin dayanıqlı və innovativ inkişafı naminə ətraflı fikir mübadiləsi və dolğun müzakirələr şəraitində keçəcək, işğaldan azad edilmiş tarixi ərazilərimizin bərpası prosesinə alimlərimizin öz bilik və təcrübələri ilə töhfə verə bilmələri üçün faydalı əməkdaşlıq yollarını müəyyən edəcəkdir.

**İlham ƏLİYEV**
*Bakı, Gülüstan Sarayı*
*9 sentyabr 2024*

## KİMYA ÜZRƏ NOBEL MÜKAFATI LAUREATI ƏZİZ SANCARIN İŞTİRAKÇILARA MÜRACİƏTİ

Hörmətli iştirakçılar, əziz həmvətənlərim,

Sizi Dünya Azərbaycanlı Alimlər Birliyinin təşkil etdiyi bu forumda uzaq Amerikadan salamlayıram. Bu tədbir dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı alimlərin bir araya gələrək, elm və texnologiya sahəsində vətənimizin inkişafına töhfə verməsi üçün əla bir imkandır. Forumun müzakirələri və fikir mübadiləsi Azərbaycanın gələcəyinə dair strateji planların hazırlanmasında böyük əhəmiyyət kəsb edir.

Türk millətlərinin birliyi və Türkiyə ilə Azərbaycanın möhkəm dostluğu, regionda sülh və rifahın təməlidir. Bu dostluq elmin və təhsilin inkişafında da öz əksini tapmalıdır. Birlikdə çalışaraq elm və təhsil sahələrində yeni texnologiyaların tətbiqini və beynəlxalq əməkdaşlıqların genişləndirilməsini təmin etməliyik. Gələcək nəsillər üçün daha yaxşı bir Azərbaycan qurmaq bizim əlimizdədir. Sizə bu yolda uğurlar arzulayıram.

Tanrı Türkü qorusun!

**Əziz SANCAR, M.D., PhD**

Sarah Graham Kenan Professor
Department of Biochemistry and Biophysics
University of North Carolina School of Medicine





## KİMYA ÜZRƏ NOBEL MÜKAFATI LAUREATI ARYE VARŞELİN İŞTİRAKÇILARA MÜRACİƏTİ

Əziz həmkarlar,

Salamlar!

Mənim Azərbaycanı üç fərqli səfər çərçivəsində ziyarət etmək şərəfim olub. Hər bir səfər zamanı bu ölkənin müasir respublikaya çevrilmək istiqamətində davamlı transformasiyası məni dərin təəssürata salıb.

Azərbaycan bu gün iqtisadi inkişaf, multikultural və çoxdinli harmoniyanın nümunəsinə çevrilmişdir.

Dünya Azərbaycanlı Alimlər Birliyinin birinci Forumu azərbaycanlı alimləri dünyanın müxtəlif yerlərindən gəlmiş qabaqcıl həmkarları ilə bir araya gətirərək elm, təhsil və ətraf mühitin inkişafına töhfə vermək məqsədi daşıyır.

Forumun uğurla keçməsi üçün ən səmimi arzularımı qəbul edin və bu forumun Azərbaycanın təşəbbüsü ilə keçiriləcək bir çox digər elmi konfrans və simpoziumların başlanğıcı olmasını diləyirəm!

Hörmətlə,

**Arye VARŞEL**

Member, National Academy of Science, HonFRSC Foreign Member,
Russian Academy of Sciences Dana and David Domsife Chair in
Chemistry Distinguished Professor of Chemistry and Biochemistry
Member, USC-Norris Comprehensive Cancer Center

## ALİMLƏRİMİZİN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEVƏ MÜRACİƏTİ

*Müraciəti Dünya Azərbaycanlı Alimlər Birliyinin İdarə Heyətinin sədri Məsud Əfəndiyev səsləndirdi.*

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun iştirakçıları Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə müraciət ünvanlayıblar.

Alimlərimizin işğaldan azad olunmuş Xankəndiyə səfəri zamanı oxunan müraciətdə deyilir:

Hörmətli cənab Prezident!

Dünyanın müxtəlif ölkələrində yaşayıb-çalışan azərbaycanlı alimləri birləşdirən təşkilatımız doğma Vətənimizin yüksəlişlərini daim diqqətlə izləyir, böyük Zəfərə imza atmış dövlətimizin və xalqımızın uğurlarına qəlbən sevinirik.

Biz Vətənimizdən kənarda fəaliyyət göstərsək də, hər zaman və hər yerdə







Ulu öndərimiz Heydər Əliyevin bu möhtəşəm sözlərini xatırlayırıq: “Azərbaycan torpağının hər guşəsi hər bir azərbaycanlı üçün əzizdir”. Dünyanın ayrı-ayrı ölkələrində, fərqli elm sahələrində işləyən tədqiqatçılarımızı birləşdirən Dünya Azərbaycanlı Alimlər Birliyinin başlıca məqsədi Vətənimizin inkişaf və tərəqqisinə mümkün köməklərimizi göstərməkdir.

Bu gün, Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun son günündə işğaldan azad edilmiş müqəddəs Azərbaycan torpağı Qarabağda olarkən qalib xalqımızın və onun müzəffər Ali Baş Komandanının, Vətənimizin müdafiəçisi və xilaskarının qarşısında inanılmaz xoşbəxtlik və qürur hissi keçirdiyimizi Sizə və bütün dünyaya bildirməkdən məmnunluq duyuruq.

Torpağımızın hər qarışının azad edilməsi uğrunda xalqımızın çəkdiyi əzabları və verdiyi qurbanları daim xatırlayır, şəhidlərimizə Allahdan rəhmət və qazilərimizə cansağlığı arzulayırıq.

Xarici ölkələrdə yaşayan azərbaycanlı alimlər olaraq Sizi və Sizin şəxsinizdə bütün Azərbaycan xalqını əmin edirik ki, elm və texnologiya, energetika, təhsil, səhiyyə, sosiologiya və mədəniyyət sahələrində Vətənin strateji planlarının hazırlanması və həyata keçirilməsi naminə əzmlə səy göstərəcəyik.

Cənab Prezident! Şanlı silahlı qüvvələrimizin Ali Baş Komandanı olaraq



xalqımızı Zəfərə qovuşdurduğunuz, ərazi bütövlüyümüzü bərpa etdiyiniz, vətənimizin tam suverenliyini təmin etdiyiniz üçün daim Sizə minnətdarıq.

Sizin müdrik və uzaqgörən rəhbərliyiniz altında Azərbaycan Respublikasının siyasi, iqtisadi, elmi-mədəni istiqamətdə gələcəkdə daha böyük müvəffəqiyyətlər qazanacağına əminliklə biz də ümumi tərəqqimizə töhfələrimizi verməyə hazırıq. İnanırıq ki, müasir elmi biliklərə və geniş təcrübəyə malik olan, vətənimizi dərin məhəbbətlə sevən və siyasi xəttinizi daim dəstəkləyən ziyalılarımız ümummilli mənası olan böyük işlərdə Sizin yardımçınıza çevrilə biləcəkdir.

Bu gün Xankəndidə hər birimiz Ulu Öndərimizin bu ölməz sözlərini sevinc göz yaşları ilə bir daha təkrar edirik: "Mən fəxr edirəm ki, azərbaycanlıyam. Mən fəxr edirəm ki, Azərbaycan mənim doğma torpağımdır. Mən fəxr edirəm ki, belə bir millətim var!"

*Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin*
*Forumunun iştirakçıları*
Xankəndi,
*11 sentyabr 2024*





## FORUMUN PROQRAMI

**9 SENTYABR 2024**

08:00 – 09:30 Ümummilli lider Heydər Əliyevin məzarının və Şəhidlər xiyabanının ziyarəti

10:00 – 11:00 Forum iştirakçılarının qeydiyyatdan keçməsi, döş nişanlarının paylanması

11:00 – 12:30 AÇILIŞ İCLASI (Moderator: Akademik Rafael HÜSEYNOV)

11:00 – 11:04 Azərbaycan Respublikasının Dövlət Himni səslənir

11:04 – 11:05 Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilir

11:05 – 11:10 Elm və təhsilin inkişafına dövlət qayğısına həsr olunan videoçarxın nümayişi

11:10 – 12:30 Protokol çıxışları:

- Fərəh ƏLİYEVA, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri
- Məsud ƏFƏNDİYEV, Dünya Azərbaycanlı Alimlər Birliyinin İdarə Heyətinin sədri
- Hafiz PAŞAYEV, ADA Universitetinin rektoru
- Emin ƏMRULLAYEV, Azərbaycan Respublikasının elm və təhsil naziri
- Fuad MURADOV, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri

12:30 – 12:35 Nobel Mükafatı laureatları Əziz SANCAR və Arye VARŞELİN foruma ünvanladığı məktubların oxunması

12:45 – 14:00 NAHAR FASİLƏSİ

14:00 – 15:30 BİRİNCİ PLENAR İCLAS, Moderator: Dr. Dinara ABBASOVA (Avstriya)

**Müzakirə mövzusu:** Azərbaycanda elm və ali təhsilin beynəlmiləlləşməsində alimlərin rolu

- Universitetlərin, o cümlədən fakültə və tələbə mobilliyinin, eyni zamanda kurikulumun əmək bazarının tələblərinə uyğunlaşdırılması, müasir bilik və bacarıqlara malik məzun buraxılışları üçün beynəlmiləlləşmə strategiyaları nə kimi rol oynayır?
- Xaricdə yaşayan alimlər Azərbaycanda elm və ali təhsilin inkişafı, beynəlxalq tələbə və professorların cəlbində hansı funksiyaları yerinə yetirə bilər?

**İştirakçılar:**

- Hafiz PAŞAYEV, ADA Universitetinin rektoru
- Ədalət MURADOV, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru
- Vilayət VƏLİYEV, Azərbaycan Texniki Universitetinin rektoru
- Hamlet İSAXANLI, Xəzər Universitetinin təsisçisi
- Rüfət ƏZİZOV, Forum dövründə Sumqayıt Dövlət Universitetinin rektoru, 2025-ci ildən Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru
- Ceyran MAHMUDOVA, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru

15:30 – 16:00 KOFE FASİLƏSİ

16:00 – 17:30 İKİNCİ PLENAR İCLAS, Moderator: Prof. Dr. Məsud ƏFƏNDİYEV (Almaniya)

**Müzakirə mövzusu:** Qlobal akademik şəbəkənin qurulması: yerli universitet və elmi tədqiqat institutlarının inkişafı üçün yeni yanaşmalar

- Azərbaycanda fəaliyyət göstərən universitet və elmi tədqiqat institutlarının beynəlxalq akademik mühitlə əlaqələndirilməsində xaricdə yaşayan alimlərin rolunu necə inkişaf etdirmək olar?
- Çin təcrübəsi diaspor alimlərinin fəaliyyətindən müsbət mənada faydalanan yaxşı təcrübədir. Azərbaycan üçün bu modelin qurulmasını xaricdə yaşayan alimlərimiz necə görürlər?

**İştirakçılar:**

- Elmar QASIMOV, Bakı Ali Neft Məktəbinin rektoru
- Gülçöhrə MƏMMƏDOVA, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin rektoru





- Vazeh ƏSKƏROV, Forum keçirildiyi dövrdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru vəzifəsini müvəqqəti icra edən
- Elçin BABAYEV, Bakı Dövlət Universitetinin rektoru
- Yaqub PİRİYEV, Bakı Mühəndislik Universitetinin rektoru
- Elbrus İSAYEV, Naxçıvan Dövlət Universitetinin rektoru

**10 SENTYABR 2024**

08:30 – 08:40 DAAB İH-nin sədri Məsud Əfəndiyev iştirakçıları salamlayır, bu günlə bağlı gözləntilərinin nədən ibarət olduğunu ifadə edir və sessiyaların işində beyin fırtınası[1] üsulundan istifadə olunacağını vurğulayır.

08:40 – 10:00 Bu sessiyada moderatorlar Aynur Quliyeva və Reyhan Həsənovadır. Aşağıdakı mövzularda qısa məruzələr təqdim olunur:

| | Məruzəçi | Ölkə | Mövzu |
|---|---|---|---|
| 08:40 – 08:50 | Səadət KƏRİMİ | İsveç | Azərbaycan Respublikası ilə Skandinaviya və digər Qərbi Avropa dövlətləri arasında elm, təhsil münasibətləri – aktual məsələlər |
| 08:50 – 09:00 | Yulduz RƏHİMOV | Kanada | Ətraf mühit nümunələrinin proqnozlaşdırılmasında və insan müdaxilələrinin təsirinin qiymətləndirilməsində riyazi modellərin rolu |
| 09:00 – 09:10 | Asəf SALAMOV | ABŞ | Məlumat elminin (data science) inkişafı Azərbaycanda prioritet sahələrdən biri ola bilər. |
| 09:10 – 09:20 | Mehdi GƏNCƏLİ | Türkiyə | 1918–1920-ci illərdə nəşr olunmuş “Azərbaycan” qəzetinin müasir zamanda əks-sədası |
| 09:20 – 09:30 | Seymur NƏSİROV | Misir | Ərəb mənbələrində Azərbaycan və azərbaycanlılar |
| 09:30 – 09:40 | Toğrul İSMAYIL | Türkiyə | Azərbaycan və Türkiyə arasında elm və təhsil sahəsindəki əməkdaşlıq məsələləri üzərinə aktual yanaşma |

[1] Beyin fırtınası – bir qrup insanın hər hansı bir sessiya zamanı mümkün qədər çox çeşidli fikirlərin irəli sürülməsi yolu ilə müəyyən bir problemin həllinə yönəlmiş bir müzakirə üsuludur. Beyin fırtınasının əsas prinsipləri:
- sərbəst düşüncəni təşviq etmək
- sessiya zamanı fikirləri tənqid və ya mühakimə etməkdən çəkinmək
- digərlərinin fikirləri əsasında yeni fikirlər yaratmaq

Məqsəd qısa müddət ərzində yaradıcı düşüncəni təşviq etmək vasitəsilə mümkün qədər çox fikir irəli sürməklə potensial həll yollarını tapmaqdır.

| | | | |
|---|---|---|---|
| 09:40 – 09:50 | Nigar MƏSUMOVA | Rusiya | Azərbaycan və Rusiya arasında elmi əməkdaşlığın xüsusiyyətləri və perspektivləri |
| 09:50 – 10:00 | Bəxtiyar SİRACOV | Avstriya | Dünya Azərbaycanlı Alimlər Birliyinin virtual məkanda fəaliyyəti |

10:00 – 10:20 KOFE FASİLƏSİ

10:20 – 12:00 SESSİYALAR

**Bu sessiyalarda**

- Nümunə olaraq təklif edilmiş qısa, orta və uzun vədəli strategiyalar ətrafında müzakirələr aparıldı, onların içindən icrası ən münasib olanları seçildi.
- Dövlət rəsmilərinin və universitet rəhbərlərinin məruzələrində toxunulmuş məsələlər də nəzərə alınmaqla, qrupun üstünlük verdiyi prioritet strateji istiqamətləri əks etdirən və onların nə səbəbdən münasib olduğunu əsaslandıran müddəaların yer aldığı sənədlər ərsəyə gətirildi.

12:00 – 13:30 NAHAR FASİLƏSİ

13:30 – 15:00 SESSİYALAR

**Bu sessiyalarda**

- öncəki sessiyalarda müəyyən edilmiş prioritet strateji istiqamətlər,
- dövlət rəsmilərinin və universitet rəhbərlərinin məruzələrində toxunulmuş məsələlər və
- elm sahələri üzrə tövsiyə olunan müzakirə mövzuları ətrafında fikir mübadiləsi aparılaraq DAAB-nin qısa, orta və uzun vədəli strateji planlarının nümunələri hazırlanıb ərsəyə gətirildi.

15:00 – 15:20 KOFE FASİLƏSİ

15:20 – 16:50 SESSİYALAR

16:50 – 17:20 Moderatorlar və iştirakçılar əldə olunmuş nəticələri təqdim etdilər.





17:20 – 18:30 YEKUN İCLAS

Yekun iclasda qısa, orta və uzunmüddətli strategiyaların müzakirə olunub qəbul ediləcəyi nəzərdə tutulur. Əgər vaxt darlığı və ya hər hansı digər səbəbdən strategiyaların hazırlanması forum ərzində mümkün olmazsa, sonradan xüsusi olaraq vəzifələndirilmiş DAAB üzvləri və yerli iştirakçılar əldə edilmiş nəticələr üzərində qrup şəklində oflayn rejimdə işləyərək strategiyaları ərsəyə gətirirlər.

19:00 – 21:00 RƏSMİ ZİYAFƏT

**11 SENTYABR 2024**

| | |
|---|---|
| 13:00 | XANKƏNDİYƏ GƏLİŞ |
| 13:00 – 14:00 | ▪ Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə forum iştirakçıları adından müraciət məktubunun səsləndirilməsi<br>▪ Qarabağ Universitetinin rektoru Şahin Bayramovla görüş<br>▪ Xankəndi şəhərində gəzinti |
| 14:15 | ŞUŞAYA GƏLİŞ |
| 14:30 – 15:30 | NAHAR FASİLƏSİ |
| 15:30 – 17:30 | ŞUŞA ŞƏHƏRİNDƏ GƏZİNTİ |
| 18:00 | BAKIYA DÖNÜŞ |

## DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ FUAD MURADOVUN NİTQİ

Hörmətli qonaqlar, əziz soydaşlar, dəyərli elm xadimləri,

Prezident İlham Əliyevin forum iştirakçılarına müraciətində diasporun təşkilatlanması, ana dilinin qorunması və azərbaycanlı alimlərin, tədqiqatçıların Qarabağda gedən yenidənqurma işlərinə dəstək göstərməsi xüsusi vurğulanıb.

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu komitənin həyata keçirdiyi iri layihələrdən biridir və bu ideyanın təməli 2018-ci ildə qoyulub. O vaxt bizim alimlərlə, rektorlarla görüşümüz oldu, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin bu sahədə gələcək fəaliyyət istiqamətləri müəyyən olundu və bu məsələlər Yol Xəritəsinə daxil edildi.

Qarabağla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, ölkəmizə qarşı olan məkrli planlara cavab verilməsi və təbii ki, işğaldan azad olunan ərazilərin inkişafına diqqətin yönəldilməsi Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətində xüsusi yer tutur. Xaricdə yaşayan soydaşlarımız bizim üçün hər biri dəyərlidir və onlar bu sahələrə öz töhfələrini verməkdədir.

Zaman göstərdi ki, bizim istənilən sahədə uğurlarımızın təməli birliyimizdir. Ona görə də Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi əsas fəaliyyətini məhz bu istiqamətdə qurub. Azərbaycan dövlətinin dəstəyi ilə müxtəlif xarici ölkələrdə 30 Azərbaycan Evi açılıb.

Azərbaycan dövləti xaricdə yaşayan soydaşlarımızın təhsil imkanlarının artırılması, yeni nəsil diasporun ana dilini öyrənməsi istiqamətində də xüsusi addımlar atır. Ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə açılan Qarabağ adlı həftəsonu məktəbləri uğurla fəaliyyət göstərir. Bu gün dünyada ümumilikdə 100-dən çox Azərbaycan həftəsonu məktəbi açılıb və onların hər biri lazım olan vəsaitlə təmin olunub. Xaricdəki yeni nəsil azərbaycanlılar həmin məktəblərin imkanlarından yararlana bilirlər. Həftəsonu məktəbləri üçün xüsusi dərslik nəşr olunub. Bundan başqa Azərbaycan dilini öyrənmək istəyən xaricilər üçün “A grammar of contemporary Azerbaijani” (“Müasir Azərbaycan dilinin qrammatikası”) adlı dərs vəsaiti də hazırlanıb.





Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, daha sonra Dünya Azərbaycanlılarının Şuşada keçirilən V Zəfər Qurultayı diaspor hərəkatına güclü təkan verdi. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Zəfər Qurultayındakı çıxışı ilə Azərbaycan diasporunun gələcək fəaliyyətini proqram şəklində müəyyənləşdirdi və diasporun qarşısında böyük vəzifələr qoydu. Mən deyərdim ki, bütün bunlardan sonra diaspor arasında sarsılmaz birlik yarandı və hər kəs Azərbaycanda gedən proseslərə dəstək göstərmək üçün böyük bir həmrəylik nümayiş etdirdi.

Biz xaricdəki alimlərin şəbəkələşməsi istiqamətində bir neçə ildir işləyirik, çoxlu görüşlər keçirmişik, problemləri müzakirə etmişik. Xaricdəki azərbaycanlı elm adamlarının bir yerə toplanması müəyyən zaman tələb etdi. Təbii ki, xaricdəki elm xadimlərinin təşkilatlanmasına Azərbaycan dövlətinin dəstəyi, qayğısı prioritet məsələdir, lakin bizim gözləntimiz ondan ibarətdir ki, sonrakı mərhələdə alimlərimiz həm yaşadıqları ölkəyə, həm də Azərbaycana töhfələr versinlər. Biz istəyirik ki, xaricdəki gənc alimlərimiz özündən əvvəlki nəslin təcrübəsindən istifadə edərək daha böyük nailiyyətlər əldə edə bilsin. Bunun üçün bütün imkanlar var. Mənə elə gəlir ki, Xankəndidə Qarabağ Universitetinin açılması da bu istiqamətdə yaxşı fürsətlər yaradacaq. Xaricdə yaşayan azərbaycanlı alimlər həmin ali təhsil ocağında çalışmaq istəsələr Diasporla İş üzrə Dövlət Komitəsi bu işdə onlara dəstək olacaq.

Xaricdə yaşayan azərbaycanlı həkimlərin, mühəndislərin, tələbələrin, eyni zamanda mədəniyyət xadimlərinin forumlarının təşkili də bu istiqamətdə atılan addımlardır. Avropada, ABŞ-də bu cür forumlar təşkil olunub. Tələbələrlə bağlı onu da əlavə etmək istəyirəm ki, hər il azərbaycanlı gənclər Azərbaycan dövlətinin imkanları çərçivəsində xaricdə təhsil almağa gedirlər. Bizi burada ən çox cəlb edən məsələ odur ki, həmin tələbələr mövcud diaspor təşkilatlarının güclənməsi üçün diaspor hərəkatına qoşulsunlar. Məhz bu məqsədlə 2 ilə yaxındır ki, müxtəlif xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin forumlarını təşkil edirik.

Bizim “Beyinqazanma” adlanan layihəmiz var. Biz bu layihə vasitəsilə nüfuzlu xarici elm ocaqları ilə ciddi əlaqələr qururuq. Əldə etdiyimiz məlumat bazasını alimlərimizə, universitetlərimizə təqdim edə bilərik. Bu yolla ali təhsil ocaqlarımız xarici universitetlərlə, elmi mərkəzlərlə birbaşa əlaqələr qura bilərlər və bu, elmi potensialın inkişafına ciddi töhfələr verər.

Əgər biz inkişaf istəyiriksə, problemlərdən də danışmalıyıq. Biz alimlərimizin inkişaf etməsini, xarici ölkələrdə nüfuz qazanmasını, həmin nüfuzdan istifadə edərək gələcəkdə Azərbaycan dövlətinə dəstək olmasını istəyiriksə, təbii ki, bir çox məsələləri, o cümlədən mövcud problemləri mütləq şəkildə müzakirə etməliyik. İnkişaf sahəsində ən böyük maneələrdən biri dil maneəsidir. Elmi mənbələrə əlçatanlığın təmin olunması üçün ingilis dilinin mükəmməl öyrənilməsi, texniki biliklərə sahib olmaq çox vacibdir. Digər vacib bir problem beynəlxalq elmi resurslar və məlumat bazasına keçidin olmamasıdır. Biz çox istəyirik ki, alimlərimiz bu məsələlərə diqqət yetirsinlər.

Eyni zamanda alimlərimizin elmi məqalələrinin daha çox beynəlxalq indeksli jurnallarda nəşri vacib məsələrdən biridir. Alimlərimizin həmin jurnallara çıxış imkanlarını da xaricdə yaşayan diaspor üzvlərinin xətti ilə həyata keçirmək olar.

Bir məsələni də qeyd etmək istəyirəm. Biz çox istəyirik ki, xaricdəki alimlərimiz daha çox kitablar nəşr etdirsinlər və bu kitablar beynəlxalq kitabxanalara təqdim olunsun. Yeri gəlmişkən qeyd edim ki, komitə xaricdəki 400-dən çox kitabxanaya müxtəlif nəşrlər təqdim edib.

Biz daha çox peşəkar birliklərin yaradılmasına fokuslanmışıq və bu birliklərin yaradılmasına dəstək və önəm veririk. Bütün bunların təməlində o durur ki, xaricdə yaşayan alimlərimiz Azərbaycan elminə və ölkəmizdə gedən proseslərə öz dəstəklərini göstərə bilsinlər.

Bir daha bildirirəm ki, hər birinizi doğma vətəndə görməyə şadıq. Forumun işinə uğur arzulayır, bu mühüm tədbirə dəstək göstərən hər kəsə minnətdarlığımı ifadə edirəm.





## DÜNYA AZƏRBAYCANLI ALİMLƏR BİRLİYİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ MƏSUD ƏFƏNDİYEVİN NİTQİ

Sizi Bakıda Dünya Azərbaycanlı Alimlər Birliyinin (DAAB) I Forumunda görməkdən böyük məmnunluq duyur və Azərbaycanımızda səmimi qəlbdən salamlayırıq.

Məşhur bir deyim var: “Elmin vətəni olmur”. Mən isə bu ifadəyə, öz növbəmdə, belə bir əlavə etmək istəyirəm: bu, tamamilə doğrudur, çünki elmin nailiyyətlərindən bütün bəşəriyyət faydalanır. Ancaq elmlə məşğul olan hər bir alimin bir vətəni olur və həmin vətən çox vaxt onun elmi nailiyyətlərinin əsas ilham mənbəyinə çevrilir. Bu gün burada forumda sizin iştirakınız, canınız, qanınızla Azərbaycanımıza bağlılığınız da bu fikrin bariz nümunəsidir.

Vaxt məhdudiyyətini nəzərə alaraq, fikirlərimi tezislər şəklində bölüşmək istərdim.

Təbii sual ortaya çıxır: bu Birliyin və forumun ərsəyə gəlməsi hansı zərurətdən doğdu? Niyə məhz indi? Kimlər bu forumun keçirilməsinə töhfə verdi?

Hörmətli akademikimiz, bugünkü tədbirin moderatoru Rafael müəllim, DAAB-nin qeyri-dövlət təşkilatı olduğunu qeyd etdi və Azərbaycanın son illərdə əldə etdiyi uğurların əsas səbəblərindən biri kimi dövlətlə xalq arasında möhkəm birliyin mövcudluğunu haqlı olaraq vurğuladı.

Məhz bu birlik, ölkə başçımızın həyata keçirdiyi düşünülmüş və uzaqgörən siyasət, memarı olduğu qələbələrimiz, son illərdə, sözün əsl mənasında, intibah dövrünü yaşayan Diaspor Komitəmiz (DK), xaricdə yaşayan vətənsevər alimlərin sayının əhəmiyyətli dərəcədə artması və onların müxtəlif forumlarda bir araya gəlməsi bu birliyin yaranmasını zəruri etdi.

Xaricdə yaşayan soydaşlarımız, o cümlədən elm adamlarımız DK-nı özləri üçün doğma bir məkan kimi qəbul edirlər. Onlar hər vətənə gəlişlərində Komitəni ziyarət edir, Komitə sədrindən tutmuş bütün digər əməkdaşlar tərəfindən səmimiyyətlə qarşılanırlar. Burada bizlər tərəfindən səsləndirilən əməli təkliflərin müzakirəsinə həmişə diqqət və zaman ayrılır.

Diaspor Komitəsini səciyyələndirən mühüm xüsusiyyətlərdən biri də onun Elm və Təhsil Nazirliyi ilə səmərəli əməkdaşlıq münasibətidir. Biz bu harmoniyanı həm 2022-ci ilin 8–10 dekabr tarixlərində İstanbulda xaricdə yaşayan bir

qrup alimimizin DAAB-nin təsis qurultayını keçirdiyi zaman, həm də hazırda bu forumun hazırlığı dövründə bir daha əyani şəkildə gördük. Hər iki dövlət qurumu bizə hər cür dəstək göstərdi. Bu, forumun hazırlanmasında, alimlərimizin seçimində və ümumi işimizin uğurla baş tutmasında özünü aydın büruzə verdi.

Xüsusilə də forumun təşkilində aramızda "Emin müəllimin elanı" adlandırdığımız təşəbbüsü vurğulamaq istərdim. Bu təşəbbüs nəticəsində 25-ə yaxın ölkədən 250-yə yaxın soydaşımız forumda iştirak üçün müraciət etdi.

*Forum üçün seçim meyarlarımız isə aşağıdakılar oldu:*

1. *Alimlik və elmi fəaliyyət səviyyəsi*
2. *Gənc, orta və yaşlı nəsil arasında balansın qorunması*
3. *Dövlətçilik və vətənpərvərlik ruhu*

Bu yanaşma əsasında 90-a yaxın xaricdə yaşayan alim soydaşımızın forumda iştirakını təmin etdik.

Gördüyünüz kimi, Vətənimizdə elmimizin, təhsilimizin və mədəniyyətimizin inkişafı üçün dövlət tərəfindən hər cür şərait yaradılıb. Belə bir münbit mühitin formalaşmasında isə Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın müstəsna xidmətləri vardır. Şəxsən mən onunla həm Almaniyada, həm də Bakıda bir neçə tədbirdə görüşmüşəm. Xüsusilə Azərbaycanın müstəqilliyinin bərpasının 20 illiyi münasibətilə Berlində Almaniyanın birinci xanımı Frau Vulfla keçirilən möhtəşəm tədbirdəki çıxışı bu gün də hamımızın yaddaşındadır.

Bugünkü forumda Azərbaycanımızın aparıcı universitetlərinin rektorları iştirak edirlər. Mən DAAB üzvlərini bu plenar iclaslardakı müzakirələrdə aktiv iştiraka səsləyirəm. Bu rektorların əksəriyyəti ilə şəxsən tanışam və əminliklə deyə bilərəm ki, biz DAAB olaraq onlardan çox şey öyrənə bilərik.

Çıxışımın sonunda bugünkü tədbirin moderatoru, hörmətli akademik Rafael Hüseynov haqqında da qısaca danışmaq istərdim. Sovet ideologiyasının güclü təsir göstərdiyi bir dövrdə Rafael müəllimin Hüseyn Cavid irsini mərdliklə təbliğ etməsi bu gün də yaddaşlardadır. Bu həmin dövr üçün olduqca cəsarətli bir addım idi. Bu kontekstdə Cavid Əfəndinin misraları xüsusilə yerinə düşür:

*Turana qılıncdan daha kəskin ulu qüdrət –*
*Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!*

Sağ olun, var olun!
Hörmətlə,
Məsud Əfəndiyev
*DAAB İdarə Heyətinin Sədri*





## AZƏRBAYCAN UNİVERSİTETLƏRİNİN REKTORLARININ NİTQLƏRİ

***Ceyran MAHMUDOVA***
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor*

2001-ci ildə Ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə Dünya Azərbaycanlılarının I qurultayı keçirildi. Sonrakı illərdə Prezident İlham Əliyev cənablarının sərəncamları və dəstəyi ilə bu qurultaylar davam etdirildi. Artıq 2022-ci ildə Dünya Azərbaycanlılarının V qurultayı keçirildi. 2024-cü ilin sentyabr ayında Bakı, Xankəndi və Şuşada keçirilən Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin I forumu dünya azərbaycanlılarının yeni formatda bir araya gəlməsi baxımından çox önəmli tədbir kimi dəyərləndirilməlidir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin forum iştirakçılarına müraciəti bu tədbirin mühüm əhəmiyyətini vurğulayaraq tədbirin gedişinə xüsusi ovqat qatdı.

Mənə 2024-cü ilin sentyabr ayında Bakıda keçirilən Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin I forumunda iştirak etmək nəsib oldu və bu tədbirdən çox xoş təəssüratlarla, maraqlı ideyalarla qayıtdım. Ən başlıcası isə, vətəndən uzaqlarda, Yer kürəsinin müxtəlif qitələrində yaşayan həmvətənlərimizin milli irsimizin, mədəni dəyərlərimizin təkcə daşıyıcısı deyil, həm də təbliğatçısı olmalarıdır.

Forumda biz həmvətənlərimizin müxtəlif elm sahələri üzrə fəaliyyətləri və nailiyyətləri ilə tanış olduq. Çox sevindirici haldır ki, alimlərimiz beynəlxalq elmi məkanda özlərinə layiqli yer tuta bilmiş və tanınmışlar. Müzakirə edilən elmi-nəzəri məruzələr, müasir Azərbaycan elmi və təhsilinin beynəlxalq elm, təhsil məkanına daha aktiv inteqrasiyası üçün verilən səmərəli təkliflər çox dəyərli idi.

Forum mənə müxtəlif ölkələrdə yaşayan alimlərimizlə unudulmaz tanışlıqlar, eyni zamanda uzun illərdir tanıdığım, lakin çoxdan görüşmədiyim həmkarlarımla görüşmək imkanı yaratdı.

Xaricdə, müxtəlif ölkələrdə yaşayan azərbaycanlı alimlərin bir araya gəlməsi və forum çərçivəsində bütün tədbirlərin yüksək səviyyədə keçirilməsində böyük zəhməti olan, DAAB-nin sədri, beynəlxalq elmi cameədə tanınmış riyaziyyatçı, Humboldt mükafatının ilk azərbaycanlı laureatı kimi adı tarixə düşən

alim, vətənpərvər və təvazökar şəxsiyyət Məsud Əfəndiyevə xüsusi təşəkkürümü bildirmək istəyirəm.

Belə bir aforizm var: "Gözəllik dünyanı xilas edəcək". Mən bu deyimi forumdakı çıxışlar, bütün iştirakçıların çıxışlarının leytmotivi olan sülh və əmin-amanlıqla bağlayaraq deyə bilərəm ki, bugünkü narahat dünyamızı təhsil, elm və mədəniyyət xilas edə bilər.

Gələn forumda görüşənədək!

***Ədalət MURADOV***
*Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor*

Hörmətli həmkarlar, dəyərli alimlər, möhtərəm qonaqlar!

Əvvəlcə Dünya Azərbaycanlı Alimlər Birliyinin bu mötəbər forumu münasibətilə hər birinizi UNEC adından salamlayıram. Dünyanın çeşidli guşələrində elmin müxtəlif sahələrində çalışan azərbaycanlı alimlərin bir araya gəlməsi bir millət olaraq həmrəyliyimizin, intellektual potensialımızın və milli kimliyimizin təntənəsidir. Bu forum yalnız akademik müzakirə platforması deyil, eyni zamanda Azərbaycanın gələcəyinə yönəlik elmi və texnoloji strategiyaların təməlinin atıldığı mühüm bir mərhələdir.

Bu gün burada toplaşaraq biz yalnız biliklərimizi bölüşmür, həm də elmimizin gələcəyini birlikdə dizayn edirik. Dünyanın nüfuzlu elm ocaqlarında fəaliyyət göstərən azərbaycanlı alimlərin bu forumda iştirakı Azərbaycanın intellektual diasporunun artıq beynəlxalq sistemin bir parçasına çevrildiyinin sübutudur.

İnanıram ki, bu birlik təkcə informativ məqsəd daşımır və praktiki nəticələr doğuracaq əməkdaşlıq formatına çevriləcəkdir. Biz dünya miqyasında güclü azərbaycanlı alimlər şəbəkəsi qurmaqla elm sahəsində milli güc mərkəzləri formalaşdıra bilərik. Bu isə həm diaspor siyasətimizin, həm də akademik diplomatiyamızın mühüm tərkib hissəsidir.

Forumun konkret nəticələrə yönəlməsi üçün aşağıdakı təklifləri diqqətinizə çatdırmaq istəyirəm:

1. Dünya azərbaycanlı alimlərinin məlumat bazası, fəaliyyət sahələri, elmi əsərləri və maraq dairələrini birləşdirən interaktiv portal yaradılmalıdır. Bu həm əməkdaşlıqları asanlaşdırar, həm də Azərbaycan elminin qlobal xəritədə tanınmasına xidmət edər;
2. Dünya azərbaycanlı alimlərinin iştirakı ilə aparılacaq ortaq tədqiqatlara maliyyə dəstəyi mexanizminin formalaşdırılması;





3. Təklif edirəm ki, forumun nəticəsi olaraq "Dünya Azərbaycanlı Gənc Alimlər Mentorluq Təşəbbüsü" adlı proqram başlasın. Bu proqram çərçivəsində təcrübəli alimlər gənc azərbaycanlı tədqiqatçıları yönləndirəcək, akademik və peşəkar inkişaflarına dəstək verəcəklər;
4. Orta və uzunmüddətli məqsədimiz Nobel mükafatı səviyyəsində elmi uğurlar əldə etməkdirsə, bu istiqamətdə sistemli şəkildə çalışmaq üçün institusional proqramlar hazırlanmalıdır. Burada həm xarici, həm də yerli akademik resurslar səfərbər edilməlidir.

Bu forum milli kimliyimizin elmi potensialla birləşdiyi, azərbaycançılıq düşüncəsinin elm dili ilə danışdığı məqamdır. Qoy bu toplantı bir rəmz olsun – Azərbaycanın yalnız neft və qazla deyil, eyni zamanda elmlə, innovasiya ilə, süni intellektlə dünyada tanınmasının rəmzi. UNEC olaraq biz bu əməkdaşlığı daha da dərinləşdirməkdə qərarlıyıq.

Qoy bu forum dünya azərbaycanlılarının elmi həmrəyliyinin başlanğıcı deyil, davamı və yüksəlişi olsun!

Təşəkkür edirəm!

***Elbrus İSAYEV***
*Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent*

Elm və təhsil hər bir xalqın inkişafının təməl daşı, gələcəyə gedən yolun ən etibarlı bələdçisidir. Bu yolun yolçuları olan alimlər cəmiyyətin düşüncə sərhədlərini genişləndirən, elmi yeniliklərə imza atan, dünyanı dəyişdirən insanlardır. Azərbaycanda da bütün dövrlərdə elmə, təhsilə böyük önəm verilmiş və bir çox görkəmli alimlər yetişmişdir.

Tarix boyu Azərbaycan xalqı elmə və maarifə dərin hörmətlə yanaşmış, adlı-sanlı alimləri ilə qürur duymuşdur. Bu gün isə dünyanın müxtəlif ölkələrində yaşayan alimlərimiz beynəlxalq elmi mühitdə öz sözlərini deməklə bərabər, milli kimliyimizi və intellektual potensialımızı da layiqincə təmsil edirlər. Son illərdə ölkəmizdən kənarda, dünyanın müxtəlif elm və tədqiqat mərkəzlərində fəaliyyət göstərən azərbaycanlı alimlər elmi uğurları ilə həm Azərbaycanı, həm də Türk dünyasını layiqincə təmsil edirlər.

Xaricdə yaşayan alimlərin fəaliyyətinin əlaqələndirilməsi, təcrübə mübadiləsinin təşkili və onların bir araya gətirilməsi istiqamətində Dünya Azərbaycanlı Alimlər Birliyi (DAAB) mühüm rol oynayır. Bu birlik azərbaycanlı elm adamlarının həm bir-biri ilə, həm də Ana Vətənlə elmi, mədəni və mənəvi bağlarını

gücləndirmək məqsədilə yaradılmış, bir sıra qlobal təşəbbüslərə imza atmışdır. DAAB-nin təşəbbüsləri sayəsində dünyanın dörd bir yanında fəaliyyət göstərən alimlərimizin səyləri daha sistemli və təsirli şəkildə birləşdirilir.

2024-cü il sentyabrın 9-da Bakı şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin dəstəyi, Dünya Azərbaycanlı Alimlər Birliyinin təşkilatçılığı ilə Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin birinci forumunun keçirilməsi müxtəlif ölkələrdə yaşayan alimlərimizi bir araya gətirmək, yerli alimlərlə görüşdürmək, bilik və təcrübə mübadiləsi aparmaq, dünya azərbaycanlı elm adamlarının şəbəkələşməsinə töhfələr vermək baxımından mühüm əhəmiyyət daşımışdır. Ölkə başçısı, Prezident cənab İlham Əliyevin göndərdiyi təbrik məktubu isə həmin forumun kəsb etdiyi əhəmiyyətin və ona olan diqqətin göstəricisi idi.

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumunun təşkili, dünyanın müxtəlif yerlərində fəaliyyət göstərən elm adamlarımızın Bakıda toplanması mühüm bir hadisə kimi yaddaşlarda qaldı. Bu forum 23 ölkədən 80-dən çox xaricdə yaşayan azərbaycanlı alimin bir araya gəlməsi, Azərbaycan elminin, təhsilinin nüfuzunun daha da artırılması, dünyanın elm və təhsil sahəsindəki yeniliklərin tətbiq edilməsi baxımından əhəmiyyət daşıyırdı.

Məhz bu baxımdan tədbirdə iştirak edən Almaniyanın Münhen Texniki Universitetinin professoru, Humboldt mükafatı alan ilk azərbaycanlı alim, Əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru, dünyaşöhrətli Məsud Əfəndiyevin forumun təşkilində əsas məqsədin Azərbaycan elminin inkişafına töhfə vermək, peşəkar və gənc alimlər arasında körpü yaratmaq olduğunu, Azərbaycanın beynəlxalq nüfuzunun daha da gücləndirilməsi, elmimizin yüksək səviyyədə inkişaf etdirilməsi üçün səylərin birləşdirilməsinin vacibliyini bildirməsi təqdirəlayiq idi.

Forumda bir daha göründü ki, Azərbaycan üçün elm və təhsil sahəsində son illərdə xeyli müsbət işlər görülmüş və elmimizin səviyyəsinin artırılması, yeni dövrün tələblərinə uyğun kadrların yetişdirilməsində xaricdə yaşayan Azərbaycan alimlərinin iştirakı günün əsas tələblərindəndir.

Dünyaşöhrətli azərbaycanlı alim Məsud Əfəndiyevin tədbirdə bir ayrıcalıq göstərib Naxçıvan Dövlət Universitetinin vizyonlarının onun üçün daha cəlbedici və maraqlı olmasını bildirərək, şəxsi təşəbbüslə Naxçıvana gəlmək, universiteti öz gözlərilə görmək istəməsi, Dünya Azərbaycanlı Alimlər Birliyi ilə Naxçıvan Dövlət Universiteti arasında qarşılıqlı əməkdaşlığı həyata keçirməkdən ötrü hansı işləri görməli olduğumuzu bildirməsi isə bizim üçün ən xoş duyğulardan biri idi.





Məsud müəllim bir müsahibəsində qeyd edir ki: “Bu qədim diyar ölkəmizə çox dəyərli alimlər bəxş etmişdir. Naxçıvana gəlişimin əsas səbəblərindən biri də bu idi. Həmin alimlər, həqiqətən də, Azərbaycanın taleyüklü məsələlərində elmlə bağlı böyük işlər görüblər. Elə dəyərli şəxsiyyətlərin doğulduğu yeri öz gözlərimlə görmək mənim üçün çox vacib idi. İki gündür ki, artıq Naxçıvandayam. Bizim Dünya Azərbaycanlı Alimlər forumunun İdarə Heyətinin planlaşdırdığı işlər barədə fikir mübadiləsi apardıq. Ən çox xoşuma gələn hadisə isə Naxçıvan Dövlət Universitetinə gələn zaman ilk olaraq məni elm ocağının kitabxanasına aparmaqları oldu. Düşünürəm, bu, müəyyən bir simvoldur. Yanaşma tərzi aparıcı universitetlərə xas olan bir cəhət idi... Almaniyada ikən Elbrus müəllimə demişdim ki, orada tələbələrlə yanaşı, şagirdlərlə də ünsiyyətim olsun, onlarla görüşmək istəyirəm. Onlar bizim gələcəyimizdir. Şagirdlərin gələcək təhsili üçün hansı məqamlara toxunmaq lazımdır? Bunların hər biri mənə maraqlı idi və öyrənmək istəyirdim. Zənnimcə, birbaşa ünsiyyət həm düzgün, həm də mənalıdır. Bütün informasiyaları müəllimlərdən deyil, birbaşa şagirdlərdən almaq istəyirdim. Azərbaycanın qədim adət-ənənələrinin qorunması və oradakı sərgiləri müsbət qiymətləndirirəm. Ümumilikdə burada olmağımdan çox məmnunluq duyuram”.

17–18 dekabr 2024-cü il tarixlərində Məsud Əfəndiyev Naxçıvan Dövlət Universitetində oldu. Naxçıvanda ilk dəfə səfərdə olan professor keçirilən görüşlərdə Dünya Azərbaycanlı Alimlər Birliyinin yaranması və məqsədləri barədə danışaraq, bu birliyin dünya elmi ictimaiyyətində azərbaycanlı alimlərin mövqeyinin gücləndirilməsi və onların arasında əməkdaşlığın genişləndirilməsinə xidmət etdiyini qeyd edirdi.

Səfər çərçivəsində Dünya Azərbaycanlı Alimlər Birliyinin sədri, tanınmış alim Məsud Əfəndiyev universitetin Elmi Kitabxanasında və Beynəlxalq məktəbində, Naxçıvan Qızlar liseyində, Ordubad şəhərində akademik Y.Məmmədəliyevin Ev Muzeyində, digər bir sıra tarixi yerlərdə oldu. Naxçıvan Dövlət Universitetinin Beynəlxalq məktəbindəki görüşdə professor şagirdlərə öz elmi və beynəlxalq təcrübələrindən danışaraq onları elmə, təhsilə daha çox maraq göstərməyə çağırdı. Hər bir şagirdin böyük potensialının olduğunu və bu potensialı üzə çıxartmaq üçün səbir, daim çalışmaq lazım gəldiyini bildirdi. Professor Almaniyanın Münhen şəhərində Helmholtz Tədqiqat Mərkəzində apardığı işlərdən və müxtəlif beynəlxalq layihələrdə iştirakından bəhs edərək şagirdlərin beynəlxalq platformalarda əməkdaşlıq etmələrinin onların bilik və bacarıqlarını artırmaq üçün böyük imkanlar yaratdığını söylədi.

Səfər müddətində Naxçıvan Dövlət Universiteti ilə Dünya Azərbaycanlı Alimlər Birliyi arasında əməkdaşlıq müqaviləsi imzalanması mühüm hadisələrdən biri idi. Naxçıvan Dövlət Universiteti uzun illərdir, xarici ölkələrlə yaradılmış əlaqələr sayəsində hər il onlarla yüksəkixtisaslı professoru universitetdə elmi-pedaqoji fəaliyyətə cəlb edir. Ancaq xaricdən gələcək professorların, yüksəkixtisaslı mütəxəssislərin azərbaycanlı olmaları Azərbaycan elminin dünyada mövcudluğu və nüfuzu haqqında hər zaman müsbət təəssüratlar yaradacaqdır. İmzalanan əməkdaşlıq müqaviləsi çərçivəsində Dünya Azərbaycanlı Alimlər Birliyi (DAAB) və Naxçıvan Dövlət Universiteti xaricdə yaşayan azərbaycanlı alimlərin NDU-da tədris prosesinə cəlb olunması, tərəflərin yerləşdiyi ölkələrin qanunvericiliyinə uyğun olaraq, ikili diplom imkanlarını təmin edən tələbə mübadiləsi proqramlarının hazırlanması, dünyanın müxtəlif ATM-lərində fəaliyyət göstərən azərbaycanlı alimlərlə birgə elmi tədqiqatların aparılması, NDU-nun rəsmi internet səhifəsində “Xaricdə yaşayan azərbaycanlı alimlər” bölməsinin yaradılması, Azərbaycan və ingilis dillərində onlar haqqında məlumatların yerləşdirilməsi, universitetin elmi kitabxanasında yaradılmış “Xaricdə yaşayan azərbaycanlı alimlərin elmi əsərləri” fondunun vaxtaşırı onların əsərləri ilə zənginləşdirilməsi, media mərkəzində xaricdə yaşayan azərbaycanlı alimlərin videomühazirələrindən ibarət arxiv yaradılması, DAAB tərəfindən NDU-da mütəmadi olaraq birliyə üzv alimlərin təlim və seminarlar təşkil etməsinin təmini, magistrant və doktorant hazırlığında DAAB-yə üzv alimlərin imkanlarından istifadə, akademik tədqiqat məlumatlarının və texniki materialların mübadiləsi, mədəni fəaliyyətlərdə əməkdaşlıq, konfrans, seminar, simpozium, konqres və s. birgə akademik və elmi fəaliyyətlərin təşkili, birliyə üzv alimlərin yaşadıqları ölkələrdəki ATM-lərlə NDU arasında əməkdaşlığın təşviqi əsas məqsədlər və prioritetlər kimi müəyyənləşdirilmişdir.

Dünya Azərbaycanlı Alimlər Birliyi ilə əməkdaşlıq müqaviləsi çərçivəsində ötən dövr ərzində 2 dəfə birliyin üzvü olan xaricdə yaşayan həkimlərin Naxçıvana səfərləri təşkil olunub. Onların iştirakı ilə universitetin Tibb fakültəsində ustad dərsləri, elmi seminarlar təşkil edilib, elmi konfranslar keçirilib.

Nəticə etibarilə, elm və təhsil yolunda göstərilən bu cür əhəmiyyətli təşəbbüslər – xüsusilə, Dünya Azərbaycanlı Alimlər Birliyi ilə Naxçıvan Dövlət Universiteti arasında qurulan əməkdaşlıq – milli elmi potensialımızın beynəlxalq səviyyədə tanıdılması və gələcək nəsillərin yetişdirilməsi baxımından mühüm addımdır. Azərbaycanlı alimlərin dünyanın müxtəlif elmi mərkəzlərində əldə etdikləri bilik və təcrübənin vətəndə paylaşılması, intellektual körpülərin qurulması və gənc nəslin elmə yönləndirilməsi ölkəmizin davamlı inkişafına güclü təkan verir. Bu əməkdaşlıqlar, sadəcə, elmi əlaqələrin genişləndirilməsi ilə kifayətlənmir, eyni zamanda milli kimliyimizi, mədəni irsimizi və vətənə bağlılığımızı gücləndirir. Elm yolunda birləşən səylərimiz gələcəyin daha işıqlı, daha bilikli və daha uğurlu Azərbaycanı naminə atılmış ən dəyərli addımlardır.





***Elçin BABAYEV***
*Bakı Dövlət Universitetinin rektoru, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru, dosent*

Hazırda xarici ölkələrdə yaşayan, dünya elminin inkişafına əhəmiyyətli töhfələr verən azərbaycanlı alimlərlə əlaqələrin gücləndirilməsi, bir tərəfdən, elm, təhsil, təcrübə mübadiləsi platformalarının qurulması, diaspor təşkilatlarının daha da inkişafı, digər tərəfdənsə, onların ölkəmizin elm və təhsil müəssisələri ilə sıx, effektiv əməkdaşlığa cəlb edilməsi yolu ilə qabaqcıl beynəlxalq təcrübə, elmi-texnoloji yeniliklərin ölkəmizin elm, təhsil mühitinə inteqrasiyası, tətbiqi, universitet və elmi-tədqiqat institutlarının (ETİ) elmi məhsuldarlığının artırılması, qlobal elmi məkanda mövqeyinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Ölkəmizdəki universitet və ETİ-lərin beynəlxalq akademik mühitlə əlaqələndirilməsi işinə Dünya Azərbaycanlı Alimlər Birliyi, o cümlədən xaricdə yaşayan alimlərimiz aşağıdakı istiqamətlər üzrə əlavə olaraq funksional və davamlı əməkdaşlıq imkanları yarada bilərlər:

- ölkənin iqtisadi-sosial sahələrdə ehtiyacları, regional və qlobal elmi prioritetlər, habelə universitet və ETİ-lərin kadr potensialı, infrastruktur və texniki imkanları nəzərə alınmaqla, elmi-tədqiqat prioritetlərinin müəyyənləşdirilməsi üçün birgə fəaliyyətin təşkili və həyata keçirilməsi;
- ölkədə müasir dünya əmək bazarının tələblərinə cavab verən peşəkar və ixtisaslı kadr potensialının yaradılması;
- universitet və ETİ-lərin təhsil – elmi-tədqiqat – sənaye əlaqələrini özündə ehtiva edən inteqrasiya olunmuş modern elmi-texnoloji ekosistemin qurulması və bu istiqamətdə institusional təşəbbüslərin dəstəklənməsi, tədqiqat infrastrukturundan birgə və effektiv istifadə imkanlarının yaradılması;

- dövlət, sənaye və özəl sektorun dəstəyi ilə prioritet istiqamətlər üzrə xarici ölkələrin aparıcı elm və təhsil mərkəzlərində ixtisasartırma və təcrübə proqramlarına hədəflənmiş məqsədli təqaüd mexanizmlərinin hazırlanması;
- prioritet elm sahələri üzrə birgə elmi-tədqiqat laboratoriya və ya mərkəzlərinin yaradılması, ortaq proqram və protokollar əsasında konkret nəticəyə yönəlmiş tədqiqat fəaliyyətlərinin təşkili və icrası;
- Azərbaycandakı elmi jurnalların beynəlxalq bazalara (Scopus, WoS və s.) daxil edilməsi məqsədilə müvafiq siyasətin beynəlxalq standartlara uyğunlaşdırılması və indekslənmə prosesinin metodiki dəstəklə təmin edilməsi;
- xarici universitetlər, tədqiqat mərkəzləri ilə, o cümlədən diaspor alimlərimizin çalışdığı qurumlarla elmi əməkdaşlıq müqavilələrinin bağlanılması, bu müqavilələr çərçivəsində qarşılıqlı maraqlara əsaslanan elmi-texniki layihələrin planlaşdırılması, maliyyələşdirilməsi, elmi nəticələrinin ortaq nəşrlər və patentlərlə təmin olunması.

Eyni zamanda aşağıdakı əlavə mexanizmlər də diaspor alimləri ilə əməkdaşlığın gücləndirilməsində effektiv ola bilər:
- diaspor alimlərinin ölkəmizdəki universitet və elmi müəssisələrlə əlaqələr qurması üçün vahid platforma və ya virtual şəbəkələrin yaradılması; Platformanın davamlı fəaliyyəti üçün dövlət strukturlarının və sənaye/biznes tərəfdaşlarının institusional və maliyyə dəstəyinin təmin olunması;
- diaspor alimlərinin universitet və ETİ-lər tərəfindən təşkil edilən müxtəlif elmi tədbirlərdə məruzələrlə çıxışa dəvət edilməsi, alimlər arasında təcrübə mübadiləsinə şərait yaradılması, xüsusilə elmi yeniliklər, tendensiyalar və yeni texnologiyalar haqqında məlumat vermələri üçün onların iştirakı ilə elmi yeniliklərə həsr olunmuş seminar və ustad dərslərinin, görüşlərin keçirilməsi;
- diaspor alimlərinin Azərbaycandakı elmi fəaliyyətlərə inteqrasiyasını təşviq edən məqsədli qrant proqramlarının hazırlanması və dayanıqlı maliyyələşmə mexanizmlərinin formalaşdırılması;
- xarici alimlərin Azərbaycan universitetlərində guest/visiting professor statusu ilə müvəqqəti tədris və tədqiqat fəaliyyəti göstərməsi üçün hüquqi-institusional bazanın formalaşdırılması;
- xaricdə çalışan alimlərimizin yerli tədqiqatçılara mentorluq etməsi üçün xüsusi proqramların hazırlanması; diaspor alimlərimizə Azərbaycanın





tədqiqat və təhsil sisteminə inteqrasiya olunmaq üçün xüsusi müqavilələr və stimullaşdırıcı paketlərin təqdim edilməsi;
- diaspor alimlərimizin birgə layihələr üçün beynəlxalq qrantlara müraciət etməsi və bu qrantların alınması üçün dəstək mexanizmlərinin yaradılması;
- yerli alimlər üçün xarici qrant proqramlarına çıxış imkanlarının artırılması və müraciət prosesinin optimallaşdırılması.

Bakı Dövlət Universiteti xaricdə fəaliyyət göstərən azərbaycanlı alimlərlə müxtəlif formatlarda əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində həmin alimlər beynəlxalq elmi tədbirlərə ekspert qismində dəvət olunur, onların iştirakı ilə açıq mühazirələr və tematik seminarlar keçirilir. Onlar doktorantların birgə rəhbərliyi üçün elmi məsləhətçi kimi də cəlb olunurlar. Bundan əlavə, alimlər beynəlxalq elmi layihələrin hazırlanması, icrası və elmi nəticələrin yayılması proseslərinə birbaşa elmi-təşkilati töhfə də verirlər.

***Gülçöhrə MƏMMƏDOVA***
*Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin rektoru, professor*

Hörmətli həmkarlar, əziz alimlər və forum iştirakçıları!

Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin adından hər birinizi salamlayır, bu mötəbər tədbirin təşkilində əməyi olan hər kəsə təşəkkürümü bildirirəm.

Bu gün biz çox mühüm bir hadisənin – Dünya Azərbaycanlı Alimlər Birliyinin (DAAB) təşəkkül tapmasının şahidiyik. DAAB təkcə bir təşkilat deyil, həm də bilik, həmrəylik və milli elmi potensialın qlobal səviyyədə birləşdirilməsi üçün strateji platformadır.

Müasir dövrdə elm və təhsil sərhədsizdir. Azərbaycanlı alimlər dünyanın müxtəlif ölkələrində nüfuzlu universitetlərdə və elmi-tədqiqat institutlarında uğurla fəaliyyət göstərirlər. Bu intellektual potensialı bir araya gətirmək, onun koordinasiyalı və məqsədyönlü istifadəsini təmin etmək olduqca vacibdir. DAAB məhz bu ehtiyacdan irəli gələrək, elm diplomatiyası, beynəlxalq elmi əməkdaşlıq və milli innovasiya potensialının gücləndirilməsi üçün yeni imkanlar yaradır.

AzMİU olaraq, biz DAAB ilə birgə əməkdaşlığa böyük maraq göstəririk. İnşaat, memarlıq, şəhərsalma, mühəndislik və rəqəmsal texnologiyalar sahəsində çalışan xaricdəki azərbaycanlı alimlərlə aşağıdakı istiqamətlərdə əməkdaşlıqları mümkün hesab edirik:

- Birgə tədqiqat layihələrinin həyata keçirilməsi – iqlim dəyişikliyi, dayanıqlı rəqəmsal infrastruktur, şəhər planlaşdırılması və yaşıl texnologiyalar kimi sahələrdə innovativ elmi işlər aparıla bilər;
- İxtisasartırma və doktorantura üzrə ortaq proqramlar – gənc alimlərimizin xaricdə təcrübə qazanması, dünya elminə inteqrasiya olunması üçün mübadilə proqramlarının təşkili;
- Onlayn seminarlar, vebinarlar və yay məktəbləri – DAAB şəbəkəsindəki mütəxəssislərin Azərbaycandakı universitetlərdə biliklərini paylaşması;
- Beynəlxalq elmi jurnallarda birgə nəşrlər və sitat bazalarında mövcudluğun gücləndirilməsi;
- Texnopark və startap layihələrinə dəstək – birlik üzvlərinin texnoloji və mühəndislik yönümlü startap ideyalarının kommersiyalaşdırılması istiqamətində birlikdə fəaliyyət.

DAAB-dən gözləntimiz təkcə elmi resursların paylaşımı deyil. Biz bu birliyi həm də dəyərlərin, milli kimliyin, elmi etikanın daşıyıcısı kimi görürük. DAAB vasitəsilə həm Azərbaycanın beynəlxalq elmi nüfuzunu artırmaq, həm də qlobal elmi çağırışlara milli baxışla cavab vermək mümkündür.

Sonda demək istəyirəm ki, DAAB-nin fəaliyyəti təkcə bu gün üçün deyil, gələcək nəsillər üçün də bir yol xəritəsidir. Biz bu yolda həmrəyliklə irəliləməliyik.

Diqqətinizə görə təşəkkür edirəm!

***Hamlet İSAXANLI***
*Xəzər Universitetinin rektoru, professor*

Azərbaycan Respublikasında, paytaxt Bakı şəhərində baş tutan Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumu Azərbaycan elmi və ali təhsili üçün ən əlamətdar hadisələrdən biridir. Çağdaş dünyamızda ölkələrin yarışında ön plana iqtisadiyyat deyil, elm və texnologiya çıxır. Çünki çağdaş iqtisadiyyat elmin və texnologiyanın törəməsidir. Elmi və texnologiyası yüksək olmayan ölkənin dayanıqlı və rəqabətədavamlı iqtisadiyyata malik olması çətin işdir. Elmin inkişafı ali məktəblərdə, universitetlərdə baş verir. Sosializm dövründə Elmlər Akademiyası da mühüm elm ocağı idi, indiki zamanda isə o ya tamam dəyişir, alimlər klubuna çevrilir, elmi araşdırma institutlarına malik olmur (Baltik ölkələri, Gürcüstan), ya da böhran keçirir, addım-addım şəklini və mahiyyətini dəyişdirir, xırdalaşır, zəifləyir – Azərbaycanda olduğu kimi.





Nə etməliyik, hara gedirik? Dünya Azərbaycanlı Alimlər Birliyinin (DAAB) təşkilatçılığı, Diasporla İş üzrə Dövlət Komitəsinin və Elm və Təhsil Nazirliyinin dəstəyi ilə keçirilən forum, yəqin ki, bu həyati vacib sualları müzakirə edəcək, onlara ağıllı cavab tapmağa, tövsiyələr verməyə çalışacaq.

Biz necə ali məktəb istəyirik? Ağla gələn təbii cavab: Güclü! Güclü ali məktəb nə deməkdir? Güclü dəqiq ifadə deyil. Keyfiyyətli? Bu, bir qədər daha anlaşılan ifadədir. Keyfiyyəti, birqiymətli olmasa da, ölçmək mümkündür. Keyfiyyət üçün ali məktəbin insanları və maddi qaynaqları yaxşı olmalıdır. Daha dəqiq olmağa ehtiyac var:

1) Ali məktəbdə öyrənən, öyrənmək üçün gələn yaxşı – istedadlı və çalışqan tələbə olmalıdır.
2) Ali məktəbdə öyrədən, müəllimlik edən yaxşı – istedadlı alim olmalıdır.
3) Müəllim tələbəyə nə öyrədəcək, necə öyrədəcək? Ali məktəbdə yaxşı təhsil modeli, çağdaş dünyanın problemləri ilə səsləşən tədris plan və proqramları olmalıdır.
4) Ali məktəbin yaxşı şəraiti və mühiti olmalıdır. Yetərli maddi baza, informasiya bazası, ciddi laboratoriyalar, sağlam və cazibəli mühit ali məktəbi müəyyən edən zəruri elementlərdir.

Bu keyfiyyət ölçüləri arasında ən vacib olanı nədir, hansıdır? Universal cavab: Hər biri. Üz vursaq, mən “istedadlı alim həlledicidir” deyərdim. Tanınmış alim işləyən ali məktəbə yaxşı, istedadlı tələbə gələcək, xəstə həkimi seçdiyi kimi tələbə də yaxşı müəllimi seçir, onun yanına gəlməyə, ondan öyrənməyə çalışır. Ali məktəbdə yaxşı idarəetmə və tanınmış alimlər varsa, dünyada mövcud olanlardan bəhrələnərək bir təhsil modeli seçiləcək. Nəhayət, bu işlər düzəldikcə ali məktəbdəki şərait və mühit də get-gedə yaxşılaşacaq, güclənəcək.

1809–1810-cu illərdə Berlin Universitetini (İndiki Vilhelm Humboldt Universitetini) qurarkən Vilhelm Humboldt yaxşı universitetin əsas parametrlərini belə ifadə etmişdi: “Güclü alim dəvət olunur, ona şərait yaradılır, o, tələbələrə dərs deyərkən onları öz yaradıcı mühitinə daxil edir, tələbə də bəzi müəllim və dərsləri seçə bilir və nəhayət, dövlət, maliyyələşdirməsinə baxmayaraq, universitetin işinə qarışmır”.

Beləliklə, yaxşı alimlər, mütəxəssislər olmadan keyfiyyətli ali məktəb qurmaq mümkün deyil. Azərbaycan ali məktəblərində çalışan alimlərlə kifayətlənmək mümkün deyil. Elmin çox şaxələndiyi, çox yeni sahələrin meydana girdiyi bir dövrdə hər sahədə güclü alimlər olmasa, iş getməz. DAAB üzərinə düşən işlərdən biri budur – alimlərin seyrək sıralarını doldurmaq, təkcə xaricdə çalışan

azərbaycanlı alimlərlə deyil (bu da bəs etmir), xarici ölkə universitetlərində çalışan, öz sahələrində lider sayılan alimləri cəlb etmək işində Azərbaycan universitetləri ilə (istəkli olan ali məktəblərimizlə!) birgə çalışmaq lazımdır. Daha bir mühüm məsələ – dünyanın yaxşı universitetləri ilə əməkdaşlıq işlərinə kömək etmək, o cümlədən ikili (double-degree) diplom proqramlarının təşkilinə kömək etməkdir.

Xəzər Universiteti olaraq söylədiyim keyfiyyətli ali təhsil prinsiplərinə əməl etməyə çalışmışıq. Böyük məmnuniyyətlə DAAB ilə yaxından əməkdaşlıq etmək, vətənimizin, xalqımızın inkişafına, az da olsa, birlikdə töhfə vermək istəyimizi ifadə edirəm.

Sağ olun!

*Natiq ƏLİYEV*
*Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, Azərbaycan Respublikasının Xalq rəssamı, professor*

"Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır" – Ulu öndər Heydər Əliyevin bu dərinmənalı kəlamı hər bir xalqın elm və mədəniyyət sahəsindəki nailiyyətlərinin onun beynəlxalq miqyasda tanınmasında nə qədər mühüm rol oynadığını ifadə edir.

Bu baxımdan, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı alimləri bir araya toplayaraq onların elmi bilik və təcrübələrinin əsaslandığı qlobal elmi nailiyyətləri yerli elmi müstəvidə təqdim etmək və bu sahədə beynəlxalq əməkdaşlıqları gücləndirmək Azərbaycan elminin inkişafına verilmiş ən böyük töhfələrdəndir.

Elmin bir çox sahələrinə dair strateji inkişafın təmin edilməsi və Azərbaycanın elmi mühitinin beynəlxalq miqyasda tanıdılması istiqamətində ölkəmizə dəstək məqsədilə təsis edilmiş Dünya Azərbaycanlı Alimlər Birliyinin bu sahədəki xidməti müstəsnadır.

Dünya Azərbaycanlı Alimlər Birliyinin təşkilatçılığı ilə 9–11 sentyabr 2024-cü il tarixində keçirilən Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin I forumu milli həmrəyliyi möhkəmləndirən, elmi potensialı bir araya gətirən və diasporla əlaqələri gücləndirən nümunəvi tədbirlərdən biridir. Dünyanın 24 ölkəsindən təşrif buyurmuş ziyalı həmvətənlərimizi bir araya gətirərək fikir mübadiləsi aparmaq, həqiqətən, qürurvericidir.





Azərbaycan elmi mühitinin beynəlxalq miqyasda tanıdılması istiqamətində görülən işlər, dünya elmi ictimaiyyətində yerli alimlərin qlobal elmi platformada təqdimatı forumun əsas prioritetlərindən idi.

Forum çərçivəsində baş tutan görüşdə təhsil ocaqlarının fəaliyyəti və onların inkişafyönümlü tələblərə əsaslanan strateji məqsədləri barədə məlumatlar təqdim olundu. Xaricdə yaşayan alimlərimizin elmi potensiallarının vətəndə səmərəli şəkildə reallaşdırılması, ali təhsil müəssisələri ilə qarşılıqlı əməkdaşlıq əlaqələrinin və bilik mübadiləsinin genişləndirilməsi kimi məsələlər əsas diqqət mərkəzində saxlanıldı.

Tədbirdə innovativ layihələrin həyata keçirilməsində beynəlxalq təcrübənin paylaşılması və müştərək proqramların layihələndirilməsi ilə bağlı təkliflərin irəli sürülməsinin milli elmin inkişafında mühüm rol oynayacağı xüsusi vurğulandı.

Eyni zamanda forum çərçivəsində işğaldan azad edilmiş ərazilərə, xüsusən, Qarabağ Universitetinə səfərin təşkil edilməsi bölgədə elmin yenidən dirçəldilməsi üçün böyük əhəmiyyət kəsb edəcək və bu, elmi potensialın artırılmasına geniş şərait yaradacaqdır.

Forum yalnız elmi və intellektual müzakirələrlə məhdudlaşmadı, eyni zamanda incəsənətin təbliği və inkişafı baxımından da mühüm bir platformaya çevrildi. İncəsənətlə elmin vəhdət təşkil etdiyi bu forumda iştirakım mənə bir daha göstərdi ki, yaradıcılıq və bilik bir-birini tamamlayan əsas dəyərlərdir. Bu təcrübə elm və incəsənətin qarşılıqlı təsirinin cəmiyyətin mənəvi tərəqqisi üçün nə qədər vacib olduğunun göstəricisidir. Tədbirdə Azərbaycanın təkcə iqtisadi və elmi deyil, həm də zəngin mədəni irsə, güclü ziyalı potensialına sahib dövlət olduğu bir daha nümayiş etdirildi.

Azərbaycan Rəssamlıq Akademiyasının rəhbəri kimi inanıram ki, bu cür təşəbbüslər gələcək nəsillərin yaradıcılıq və intellektual inkişafında önəmli rol oynayacaq. Dünya Azərbaycanlı Alimlər Birliyi mütəmadi olaraq elm və mədəniyyət sahəsində çalışan bütün ziyalılarımızı bir araya gətirərək, ortaq dəyərlər və məqsədlər ətrafında yeni əməkdaşlıqların əsasını qoyacaqdır.

Azərbaycan dövlətinə, eləcə də bu birliyin yaradılmasında və forumun təşkilində əməyi olan hər kəsə dərin təşəkkürümü bildirirəm. İnanıram ki, Dünya Azərbaycanlı Alimlər Birliyi Azərbaycanın elmi-mədəni yüksəlişinə xidmətini davam etdirəcəkdir.

***Rüfət ƏZİZOV***
*Forum keçirildiyi dövrdə Sumqayıt Dövlət Universitetinin rektoru, 2025-ci ildən Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, kimya üzrə fəlsəfə doktoru*

*Forum haqqında təəssüratlarım*

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumu qlobal miqyasda alimlərimizin şəbəkələşməsi, tanışlıq və qarşılıqlı əməkdaşlıq imkanlarının öyrənilməsi baxımından olduqca mühüm təşəbbüs idi. Forum müxtəlif ölkələrdə yaşayan alimlərimizin Azərbaycan elmi və təhsil mühiti ilə daha yaxından tanış olması üçün əlverişli platforma yaratdı. Bu həm də xaricdə çalışan mütəxəssislərimizin Azərbaycanın elmi inkişaf gündəliyi ilə bağlı məlumatlanması və bu istiqamətdə potensial töhfələrinin müəyyən olunması baxımından əhəmiyyətlidir.

Forumda müzakirə olunan mövzular, çıxışlar və iştirakçıların təklifləri göstərdi ki, dünyada fəaliyyət göstərən azərbaycanlı alimlərin intellektual potensialını Azərbaycan elminin inkişafı ilə əlaqələndirmək üçün real imkanlar mövcuddur. İnanırıq ki, forum çərçivəsində formalaşmış əlaqələr gələcəkdə konkret və praktiki elmi-tədqiqat layihələrinə çevriləcək, bu da həm Azərbaycan universitetlərinin, həm də alimlərimizin qlobal elm məkanında mövqeyinin möhkəmlənməsinə xidmət edəcək.

*DAAB ilə əməkdaşlıq perspektivləri*

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) olaraq yaxın perspektivdə əsas məqsədlərimizdən biri universitetimizin tədqiqat yönümlü ali təhsil müəssisəsinə çevrilməsidir. Bu istiqamətdə beynəlxalq tərəfdaşlıqlar və elmi şəbəkələr bizim üçün strateji əhəmiyyət daşıyır. DAAB ilə əməkdaşlıq bu baxımdan bir çox imkanlar yarada bilər.

Əməkdaşlığın mümkün istiqamətləri kimi aşağıdakıları qeyd etmək istərdim:

– Müştərək beynəlxalq elmi-tədqiqat layihələrinin hazırlanması və reallaşdırılması;
– Nüfuzlu beynəlxalq jurnallarda həmmüəlliflıklə elmi məqalələrin nəşri üçün ortaq tədqiqatların təşkili;
– Doktorantlarımız üçün xaricdə fəaliyyət göstərən azərbaycanlı alimlərin elmi rəhbər kimi cəlb olunması;
– DAAB üzvü olan tanınmış alimlərin qonaq müəllim kimi universitetimizdə mühazirə və seminarlar keçməsi;





– Tədqiqatçılar arasında təcrübə mübadiləsinin təşkili, ortaq seminar və simpoziumların keçirilməsi.

Əlavə olaraq, sənaye və innovasiya sahələrində ortaq layihələrin təşkili, bilik və texnologiya transferinin təşviqi sahəsində DAAB ilə birgə təşəbbüslərin reallaşdırılması da mümkündür.

Bu əməkdaşlığın həm ADNSU-nun beynəlxalq səviyyədə mövqeyinin möhkəmlənməsinə, həm də DAAB şəbəkəsinin ölkəmizdə daha geniş təmsil olunmasına töhfə verəcəyinə inanıram.

Zəhmətiniz və dəvətiniz üçün bir daha təşəkkür edir, forumun davamlı xarakter almasını və uğurlarının artmasını arzulayıram.

***Şahin BAYRAMOV***
*Qarabağ Universitetinin rektoru, iqtisad üzrə fəlsəfə doktoru, dosent*

9–11 sentyabr 2024-cü il tarixlərində Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Bakı forumu keçirildi. Bu forum çərçivəsində xaricdə yaşayan azərbaycanlı alimlərin işğaldan azad olunmuş ərazilərə – Xankəndi və Şuşa şəhərlərinə səfəri son dərəcə dəyərli və əlamətdar hadisə oldu. Soydaşlarımızın uzun illər düşmən nəzarətində olmuş doğma torpaqlara qayıdışdan duyduqları fərəh, onların burada aparılan quruculuq işləri ilə tanış olma həvəsi və Qarabağ Universitetinə göstərdikləri maraq bizi son dərəcə məmnun etdi. Bu forum təkcə elmi-mədəni inteqrasiyanın deyil, həm də milli həmrəyliyin təcəssümü idi.

Forum çərçivəsində keçirilən görüş zamanı universitetimizin fəaliyyəti, infrastrukturun müasir tələblərə uyğunlaşdırılması və qarşıya qoyulan strateji hədəflər haqqında ətraflı məlumat verdik. Bildirdik ki, xaricdə fəaliyyət göstərən alimlərimizin təcrübəsi, intellektual potensialı və elmi əməkdaşlığa olan açıq münasibəti gələcəkdə universitetimizlə qarşılıqlı layihələrin və birgə elmi-tədqiqat işlərinin həyata keçirilməsi üçün geniş imkanlar yaradır.

Qarabağ Universiteti olaraq xaricdəki alimlərimizlə daha sıx əməkdaşlıq əlaqələri qurmaq, onların bilik və bacarıqlarından yararlanmaqla ali təhsil sistemimizi daha da gücləndirmək niyyətindəyik.

Bu gün artıq Qarabağ Universiteti ilə Dünya Azərbaycanlı Alimlər Birliyi (DAAB) arasında əməkdaşlıq yeni praktik mərhələyə keçir. Qarabağ Universiteti olaraq xaricdə yaşayan azərbaycanlı alimlərlə əlaqələrin qurulmasını və möhkəmləndirilməsini əsas məqsədlərimizdən biri kimi görürük.

Bu əlaqələrin ardıcıl və sistemli şəkildə inkişaf etdirilməsi məqsədilə 18 oktyabr 2024-cü il və 28 aprel 2025-ci il tarixlərində Dünya Azərbaycanlı Alimlər Birliyinin üzvləri ilə onlayn formatda görüşlər təşkil etdik. Görüşlərdə müxtəlif ölkələrin nüfuzlu universitet və elmi-tədqiqat institutlarında çalışan soydaşlarımız iştirak etdilər. Onlarla Qarabağ Universitetinin gələcək inkişaf strategiyası, tədrisin keyfiyyətinin yüksəldilməsi, elmi tədqiqatların təşkili və universitetimizin beynəlxalq akademik məkanlara inteqrasiyası barədə geniş fikir mübadiləsi apardıq.

Xaricdə yaşayan alimlərimizin Qarabağ Universitetinə olan dərin marağı və əməkdaşlıq istəyi bizi məmnun etməklə yanaşı, eyni zamanda məsuliyyətimizi də artırır. Onların bilik və təcrübəsindən faydalanmaq, birgə layihələr həyata keçirmək, elmi və pedaqoji potensialımızı daha da inkişaf etdirmək istiqamətində geniş imkanlar mövcuddur.

Biz Qarabağ Universiteti olaraq gələcək əməkdaşlıq planlarımızda DAAB ilə birgə fəaliyyətə xüsusi önəm veririk. Qarabağ Universitetinin hərtərəfli inkişafına xidmət edən layihələrin hazırlanması və həyata keçirilməsi bu əməkdaşlığın əsas hədəflərindəndir. Bu çərçivədə biz aşağıdakı istiqamətlər üzrə konkret təşəbbüslərlə çıxış etməyi planlaşdırırıq:

- Elmi-tədqiqat layihələrinin birgə təşkili: DAAB üzvlərinin təcrübə və biliklərindən faydalanmaqla Qarabağ Universitetində prioritet sahələr üzrə yerli və beynəlxalq əhəmiyyət daşıyan birgə tədqiqatların aparılması;
- Ortaq elmi tədbirlərin təşkili: beynəlxalq simpoziumlar, elmi konfranslar, seminarlar və müzakirə platformalarının birgə keçirilməsi yolu ilə həm Qarabağ Universitetinin elmi nüfuzunun artırılması, həm də diaspor alimlərinin universitetlə birbaşa təmas imkanlarının genişləndirilməsi;
- Müasir elmi infrastrukturun qurulması: DAAB üzvlərinin tövsiyə və dəstəyi ilə qabaqcıl texnologiyaların tətbiq olunduğu müasir laboratoriyaların və tədqiqat mərkəzlərinin yaradılması, bu mərkəzlərin maddi-texniki bazasının gücləndirilməsi;
- Beynəlxalq tanıtım və imic quruculuğu: universitetimizin beynəlxalq akademik platformalarda, reytinq sistemlərində və elmi şəbəkələrdə daha geniş şəkildə təmsil olunması məqsədilə DAAB üzvləri ilə birgə fəaliyyətlər həyata keçirilməsi;
- Tələbə və əməkdaşların inkişafı: DAAB üzvlərinin tərəfdaş universitetlərlə əlaqələrindən yararlanmaqla tələbə və müəllim heyətinin beynəlxalq təlimlərə, akademik mübadilə və təcrübə proqramlarına cəlb olunması;





- İnnovativ tədris və mentorluq proqramlarının tətbiqi: xaricdə yaşayan azərbaycanlı alimlərin Qarabağ Universitetində qısa və uzunmüddətli tədris fəaliyyətinə cəlb olunması, ustad dərsləri, vebinarlar və mentorluq proqramlarında yaxından iştirakı.

Qarabağ Universiteti olaraq inanırıq ki, qeyd olunan istiqamətlər üzrə qurulacaq əməkdaşlıqlar həm universitetimizin strateji inkişaf hədəflərinə çatmasına, həm də doğma Qarabağın intellektual dirçəlişinə mühüm töhfə verəcəkdir.

Fikrimizcə, sadalanan istiqamətlər üzrə əməkdaşlıq təkcə Qarabağ Universitetinin deyil, ümumilikdə Azərbaycanın beynəlxalq elm və ali təhsil məkanında nüfuzunun yüksəlməsinə səbəb olacaq.

Biz universitet olaraq tədqiqat əsaslı ali təhsil modelinə keçidi prioritet hesab edir, DAAB ilə əməkdaşlığı da bu məqsədə doğru atılan strateji addımlardan biri kimi dəyərləndiririk. İnanırıq ki, dünyanın müxtəlif ölkələrində uğurla fəaliyyət göstərən alimlərimizin elmi potensialı və intellektual dəstəyi Qarabağ Universitetinin həm regional, həm də beynəlxalq miqyasda nüfuzlu bir elm və təhsil ocağına çevrilməsinə töhfə verəcək.

Qarabağ Universiteti DAAB ilə çoxşaxəli əməkdaşlığı yalnız elmi və pedaqoji bir proses kimi deyil, eyni zamanda milli birlik və diaspor potensialının səfərbər olunması baxımından strateji önəm daşıyan bir platforma kimi dəyərləndirir.

Bu önəmli təşəbbüsə verdikləri dəstəyə görə başda DAAB-nin rəhbəri professor Məsud Əfəndiyev olmaqla, bütün üzvlərinə təşəkkürümüzü bildirir və gələcək fəaliyyətlərində uğurlar arzulayırıq.

***Vazeh ƏSKƏROV***
*Forum keçirildiyi dövrdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru vəzifəsini müvəqqəti icra edən, dosent*

Öncə uzun müddət xaricdə yaşamış diaspor üzvü olan biri kimi qeyd etmək istərdim ki, Azərbaycanda ilk dəfə Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumunun Bakı, Xankəndi və Şuşada keçirilməsi çox böyük tarixi əhəmiyyət kəsb edən hadisəyə çevrildi. Bu həmçinin Azərbaycanın elm və təhsil sahəsindəki inkişafına əhəmiyyətli töhfələr verəcək tədbir kimi də tarixə düşdü. Forumun əsas məqsədlərindən biri, müxtəlif ölkələrdə yaşayan azərbaycanlı alimləri bir araya gətirmək, bilik və təcrübələrini bölüşmək, dünya azərbaycanlı elmi ictimaiyyətində şəbəkələşməni gücləndirmək idi.

Tədbir dünyanın 23 ölkəsindən 80-dən çox alim, ümumilikdə 200-ə yaxın elm adamını bir araya gətirərək, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi və Dünya Azərbaycanlı Alimlər Birliyinin təşkilatçılığı ilə reallaşdı. Bu hadisə Azərbaycan diasporu və elm dünyasının fəal əməkdaşlığını nümayiş etdirməklə ölkəmizin beynəlxalq elmi, mədəni əlaqələrini genişləndirmək məqsədinə töhfə verdi.

Forumun ən önəmli məqamlarından biri isə proqram çərçivəsində dünya azərbaycanlı alimlərinin işğaldan azad olunmuş Şuşa və Xankəndi şəhərlərinə səfər etməsi idi. Səfər zamanı Qarabağ Universiteti ilə tanışlıq yarandı, eləcə də universitetin professor-müəllim heyəti ilə məsləhətləşmələr aparıldı. Nəticə olaraq, birgə elmi fəaliyyətin dəstəklənməsi qərara alındı. Bu həm də Azərbaycanın ərazi bütövlüyü və dirçəlişi istiqamətində atılmış vacib addımdır.

Forumun Azərbaycanda keçirilməsi isə həm elmi sahədə əməkdaşlığı gücləndirməyə, həm də milli qürurumuzu və inkişaf strategiyalarımızı daha da möhkəmləndirməyə xidmət edir.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) ilə Dünya Azərbaycanlı Alimlər Birliyi (DAAB) arasında əməkdaşlıq, birgə fəaliyyət çox müxtəlif, səmərəli təşəbbüslər və layihələr vasitəsilə həyata keçirilə bilər.

Bu əməkdaşlıq elmi, tədris, tədqiqat, innovasiya sahələrində böyük imkanlar açır, həmçinin Azərbaycan və diaspor alimlərinin resurslarından daha effektiv istifadə etməyə şərait yaradır. ADNSU regionda ilk texniki universitet kimi fəaliyyətə başlayaraq bu gün də neft və qaz, energetika, ekologiya, yaşıl enerji, yer elmləri, informasiya texnologiyaları, innovasiya və s. sahələr üzrə dünyanın aparıcı universitetlərinin alimləri ilə əməkdaşlıq edir və əlaqələrin genişləndirilməsində maraqlıdır. Tezliklə tədqiqat universitetinə çevriləcək ADNSU həm də dünya reytinq sıralamalarında öz yerini ildən-ilə möhkəmləndirməkdədir.

Gələcəkdə ADNSU ilə DAAB-nin birgə fəaliyyət göstərə biləcəkləri sahələri və təşəbbüsləri vurğulamaq istərdim:

- Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində (neft, qaz, energetika, ekologiya, texnologiyalar və s.), innovasiya və texnologiya sahələrində əməkdaşlıq etmək;
- Diaspordan olan alimlərin və yerli mütəxəssislərin birgə tədqiqat qruplarını formalaşdıraraq sənaye sahələrində çoxşaxəli birgə tədqiqatlar həyata keçirmək;
- Hər il Azərbaycan və xaricdə keçirilən elmi konfranslarda alimlərin təmsil olunmasını təmin etmək və əməkdaşlıq çərçivəsində beynəlxalq elmi simpoziumlar, müzakirə və təcrübə mübadilələri təşkil etmək;





- ADNSU tələbə və müəllimlərinin, doktorantların DAAB-yə üzv olan alimlərin fəaliyyət göstərdiyi təhsil müəssisələrində təhsil proqramları çərçivəsində mübadiləsini həyata keçirmək;
- Birgə magistratura və doktorantura proqramlarının yaradılması, sənaye sahəsində pilot layihələrin həyata keçirilməsi;
- Diaspordan və yerli universitetlərdən hər iki tərəf üçün təlim və peşəkar inkişaf proqramları təşkil etmək;
- Birgə texnologiya və innovasiya mərkəzləri, laboratoriyalar, texnoparklar yaradaraq startap və texnoloji layihələri dəstəkləmək;
- Dünyadakı Azərbaycan diasporunun elmi-intellektual resurslarını, müasir texnologiyalarını inteqrasiya edən proqramlar, azərbaycanlı alimlərin, tədqiqatçıların xaricdə və ölkə daxilində əməkdaşlığını koordinasiya edən mərkəzlər formalaşdırmaq.

***Vilayət VƏLİYEV***
*Azərbaycan Texniki Universitetinin rektoru, professor*

9–11 sentyabr 2024-cü il Azərbaycan tarixində unudulmaz və strateji əhəmiyyətli bir hadisə baş verdi – Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin I forumu keçirildi. Bakı, Xankəndi və Şuşanı əhatə edən bu forum yalnız bir elmi tədbir deyildi. Bu, Azərbaycan elminin beynəlxalqlaşması, milli intellektual birliyin formalaşması və elm vasitəsilə diaspor gücünün səfərbər olunması baxımından dönüş nöqtəsi idi.

Forumun təşkilatçıları – Dünya Azərbaycanlı Alimlər Birliyi (DAAB), Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi və Elm və Təhsil Nazirliyi bu təşəbbüslə xaricdə çalışan azərbaycanlı alimləri vahid strateji gündəm ətrafında birləşdirməyi bacardı. 30-dan çox ölkədən 150-dən artıq azərbaycanlı alim və ziyalının iştirakı ilə reallaşan bu tədbir həmrəylik, elm və milli şüurun vəhdətinə çevrildi.

Açılış mərasimi Bakıda, Gülüstan Sarayında baş tutdu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin forum iştirakçılarına ünvanladığı müraciət tədbirin dövlət siyasətindəki yerini açıq şəkildə göstərdi. Cənab Prezident elm adamlarının Qarabağın bərpasında oynayacağı rola xüsusi diqqət çəkdi və xaricdə yaşayan ziyalıların milli inkişaf prosesinə qatılmasının vacibliyini vurğuladı.

Forum çərçivəsində müxtəlif elmi sahələri əhatə edən məruzələr təqdim olundu. Süni intellekt və data elmlərindən tutmuş bioinformatika, yaşıl enerji, iqlim dəyişikliyi, diaspor siyasəti, təhsil sistemləri və mədəni irsin qorunmasına qədər geniş spektri əhatə edən çıxışlar Azərbaycan alimlərinin dünyanın qabaqcıl bilik sistemlərinə inteqrasiya səviyyəsini bir daha nümayiş etdirdi.

Plenar sessiyalarda Nobel mükafatçıları Əziz Sancar və Arye Varşelin forum iştirakçılarına göndərdiyi məktublar tədbirin beynəlxalq elmi çevrələrdə yaratdığı rezonansı təsdiqlədi.

Forumun ən təsirli hissələrindən biri sentyabrın 11-də baş tutan Xankəndi və Şuşaya səfərlər oldu. İştirakçılar azad Qarabağın simvoluna çevrilmiş bu şəhərlərdə elmi-intellektual baxışlarını vətən sevgisi ilə birləşdirdilər. Qarabağ Universitetini ziyarət və orada səsləndirilən müraciətlər bu torpaqlarda yenidənqurma işlərinə xaricdəki alimlərin bilik və təcrübə ilə qatılmaq istəyini ortaya qoydu.

Dünya Azərbaycanlı Alimlər Birliyinin rəsmi olaraq formalaşdırılması və onun fəaliyyət prinsiplərinin müəyyən edilməsi forumun ən vacib nailiyyətlərindən biri oldu. Səslənən fikirlər bir daha göstərdi ki, Azərbaycanın elmi diasporu artıq təkcə müşahidəçi deyil, təşəbbüskar və qurucu tərəfdaşdır. Azərbaycan elmi yalnız daxildə deyil, diaspor vasitəsilə dünyada da mövqeyini möhkəmləndirə bilər. Elmin dili ilə danışan bu forum, Azərbaycanın gələcək qlobal tanıtımında və texnoloji inkişafında mühüm rol oynayacaq.

***Yaqub PİRİYEV***
*Bakı Mühəndislik Universitetinin rektoru, texnika elmləri üzrə fəlsəfə doktoru*

Bakı Mühəndislik Universiteti olaraq 2024-cü ilin 9–11 sentyabr tarixlərində Bakıda, Xankəndidə və Şuşada keçirilmiş Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumunu Azərbaycanın elmi və milli-mənəvi həyatında mühüm əhəmiyyət kəsb edən tarixi hadisə kimi yüksək qiymətləndiririk.

Forumun təşkilində məqsəd xaricdə yaşayan azərbaycanlı alimləri bir araya gətirmək, onların elmi və intellektual potensialını vətənimizin inkişafına yönəltmək, milli həmrəyliyi möhkəmləndirmək və beynəlxalq elmi əməkdaşlığı genişləndirmək idi. Hesab edirik ki, bu məqsədlər uğurla həyata keçirilmişdir.

Tədbirdə iştirak edən yüzlərlə alim müxtəlif elmi sahələr üzrə dəyərli məruzələrlə çıxış etmiş, Azərbaycanın elmi və mədəni irsinin qorunması, Qarabağ





bölgəsinin bərpasında müasir elmin və texnologiyanın tətbiqi, ekoloji problemlərin həlli, gənclərin elmə marağının artırılması və beynəlxalq elmi əlaqələrin gücləndirilməsi ilə bağlı bir çox aktual məsələləri gündəmə gətirmişlər. Forum çərçivəsində Prezident İlham Əliyevə ünvanlanmış müraciət və qəbul edilmiş təkliflər Azərbaycanın gələcək inkişafına dəyərli töhfələr verəcəkdir.

Bakı Mühəndislik Universiteti olaraq bu təşəbbüsü Azərbaycan intellektual diasporunun birliyi və potensialından səmərəli istifadə istiqamətində çox mühüm addım hesab edirik. Universitetimiz xaricdə fəaliyyət göstərən azərbaycanlı alimlərlə qarşılıqlı əməkdaşlığın qurulmasına və birgə elmi-tədqiqat layihələrinin həyata keçirilməsinə hər zaman açıqdır. Hesab edirik ki, xaricdə zəngin təcrübə toplamış alimlərimiz əsas iş yerlərindən ayrıldıqdan sonra ölkəmizə dönərək gənc alimlərin püxtələşməsində və yeni elmi məktəblərin formalaşdırılmasında mühüm rol oynaya bilərlər. Bu baxımdan onlara lazımi şəraitin yaradılması və elmi potensiallarının ölkə daxilində dəyərləndirilməsi xüsusi önəm daşıyır.

Eyni zamanda hesab edirik ki, belə forumlar həm də Azərbaycanın elmi brendinin beynəlxalq miqyasda daha geniş tanıdılmasına və gənc tədqiqatçıların inkişafına mühüm stimul olacaqdır.

Bakı Mühəndislik Universitetinin kollektivi adından forumun təşkilatçılarını, iştirakçı alimləri və bütün töhfə verən qurumları təbrik edir, onlara gələcək fəaliyyətlərində yeni-yeni nailiyyətlər arzulayırıq.

Əminik ki, bu forumun ənənəvi xarakter alması və davamlı şəkildə keçirilməsi Azərbaycanın elm və təhsil strategiyasına güclü dəstək verəcək, ölkəmizin beynəlxalq elmi mühitdə mövqelərini daha da möhkəmləndirəcəkdir.

# DİASPOR HƏRƏKATINDA MÜHÜM İSTİQAMƏT: ELMİ DİASPORUN TƏŞKİLATLANMASI

***İsa HƏBİBBƏYLİ***
*Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik*

Azərbaycanda diaspor hərəkatı hələ XX əsrin 80-ci illərindən, sovet siyasi rejimində aşkarlıq və demokratiya meyilləri başlandığı dövrdən ilk addımlarını atmışdır. Həmin dövrdə "Vətən" Cəmiyyətinin yaradılması dünyanın müxtəlif ölkələrində yaşayan tanınmış azərbaycanlıların ölkəmizə gəlib-getmələrinə, əlaqələr qurmalarına şərait yaratmışdır. Bu qurum əvvəlki dövrlərdə fəaliyyət göstərmiş Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqə Cəmiyyəti ilə müqayisədə nisbətən daha sərbəst bir təşkilat olub, dünya azərbaycanlıları ilə yalnız mədəni əlaqələr vasitəsilə deyil, daha geniş miqyasda münasibətlərin yaradılmasına meydan açan bir təşkilat idi. Məhz "Vətən" Cəmiyyətinin açdığı yol digər sahələrlə yanaşı, yazıçı və şairlərin, incəsənət xadimləri və elm adamlarının Ana Vətənlə əlaqələrinin genişləndirilməsinə təkan vermişdir. Bütün bunlara baxmayaraq, diasporla əlaqələrin miqyası bir qədər genişləndirilsə də, SSRİ adlanan imperiyanın tərkibindəki xalqlara verdiyi azadlıqların miqyasının məhdudluğu üçün xarici ölkələrdə yaşayan azərbaycanlıların tarixi vətənlə geniş və ardıcıl əlaqələr yaratması mümkün olmamışdır.

Dünya azərbaycanlıları ilə əlaqələrin sistemli və ardıcıl şəkildə təşkili ölkəmizin dövlət müstəqilliyi əldə etdiyi dövrdən etibarən formalaşdırılmışdır. Respublikamızda diaspor hərəkatının dünya azərbaycanlıları ilə mədəni əlaqə səviyyəsindən dövlət siyasəti səviyyəsinə çatdırılması görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlı olan tarixi xidmətdir. Bu uzaqgörən dahi şəxsiyyətin hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışarkən – 16 dekabr 1991-ci il tarixdə imzaladığı Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün təsis edilməsi haqqındakı Sərəncamı dövlət müstəqilliyi dövründə diasporla əlaqələrin geniş miqyas almasında mühüm əhəmiyyətə malik hadisəyə çevrilmişdir. Azərbaycan xalqının Ümummilli Liderinin 1993-cü ildən yenidən Azərbaycan Respublikasına rəhbərlik etdiyi dönəmdə ölkəmizdə diaspor quruculuğu işi müstəqil dövlətin əsas vəzifələrindən biri kimi siyasi gündəmdə ön mövqeyə çıxarılmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü və sədrliyi ilə keçirilən Dünya Azərbaycanlılarının I qurultayı ölkəmizdə diaspor quruculuğunun start nöqtəsi olmuşdur. Bundan sonra ölkəmizin tarixində ilk dəfə Dünya Azərbaycanlıları ilə Əlaqə üzrə Dövlət Komitəsinin təsis edilməsi Ulu öndər Heydər Əliyevin diaspor quruculuğu işi sahəsindəki tarixi xidmətidir. Artıq bu iş müstəqil Azərbaycan Respublikasının dövlət siyasətinin üzvi tərkib hissəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi diqqəti və qayğısı sayəsində ölkəmizdə diasporla əlaqələr ən yüksək səviyyəyə çatdırılmışdır. Dünya Azərbaycanlılarının V Qurultayının Qarabağda – Şuşada keçirilməsi, diasporumuzun fəal və tanınmış nümayəndələrinə fəxri adların verilməsi, onların dövlət təltifləri ilə rəğbətləndirilməsi, xarici ölkələrdə yaşayan həmvətənlərimizin fəaliyyətini təşkil edən və tənzimləyən Azərbaycan evlərinin qurulması müasir dövrdə diaspor hərəkatının mütəşəkkil xarakter almasına təminat verir.

Bununla belə, xarici ölkələrdə yaşayan həmvətənlərimizin sıralarında xüsusi çəkiyə malik olan elm adamları ilə əlaqələrin sistemli şəkildə qurulması, elmi diasporun təşkilatlandırılması qarşıda duran mühüm vəzifələrdən biri idi. Bu baxımdan 9–11 sentyabr 2024-cü il tarixdə Dünya Azərbaycanlı Alimlər Birliyi (DAAB), Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi (ARDİDK) və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin (ETN) təşəbbüsü və təşkilatçılığı ilə Bakı şəhərində və Xankəndidə keçirilən Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin I forumu elmi diasporun təşkilatlanması sahəsində dövlət səviyyəsində həyata keçirilən və mühüm tarixi əhəmiyyətə malik olan hadisədir. Xüsusən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin forum iştirakçılarına təbrik məktubu göndərməsi elmi diaspor işinin müstəqil dövlətimizin prioritetlərindən biri olduğunu nümayiş etdirmişdir. Dünya Azərbaycanlı Alimlər Birliyinin təsis edilməsi elmi diaspor üzrə işin ölkəmizin diaspor hərəkatının aparıcı istiqamətlərindən birinə çevrilməsinə səbəb olmuşdur.

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin I forumu elm tariximizdə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan alimlərinin birliyi və həmrəyliyinin yaradılması kimi tarixi bir missiyanın əsas müddəalarının formalaşdırılmasını həyata keçirmişdir. Bu forum xarici ölkələrdə yaşayan

alimlərimizin onların tarixi vətəni olan Azərbaycanda yaşayan alimlərimizlə əlaqələrinin fəaliyyət proqramını müəyyən etmişdir. Bu mənada Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin I forumunun qərarları Azərbaycan elmi diasporunun strategiyasıdır. Bu strategiya xaricdə yaşayan azərbaycanlı alimlərlə müstəqil Azərbaycan Respublikasının elmi qurumlarında və ali təhsil müəssisələrində çalışan alimlər arasında möhkəm əməkdaşlıq platformasının qurulmasına zəmanət verir, işıq salır.

Bütün bunlara görə Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin I forumunun keçirilməsi və  dünya üzrə elm adamlarının birgə fəaliyyətinin təşkili məqsədilə müstəqil bir qurumun yaradılması əlamətdar hadisədir. İnanırıq ki, Dünya Azərbaycanlı Alimlər Birliyi ölkəmizin elm və ali təhsil qurumları ilə xaricdəki elmi diaspor təşkilatları arasında möhkəm və əhəmiyyətli körpülər quracaq, nəticə etibarilə Azərbaycan elminin inkişafına böyük töhfələr verəcəkdir. Azərbaycan Milli Elmlər Akademiyası olaraq Dünya Azərbaycanlı Alimlər Birliyi ilə bütün səviyyələrdə qarşılıqlı surətdə əməkdaşlıq etməyi elmimizin daha da inkişaf etdirilməsi baxımından faydalı hesab edir, ölkəmiz üçün əhəmiyyət daşıyan bütün elmi proqram və layihələrdə təmsil olunmağa hazır olduğumuzu bildiririk.

Dünya Azərbaycanlı Alimlər Birliyinin işinə uğurlar arzulayırıq!





## AZƏRBAYCANLI ALİMLƏRİN QLOBAL BİRLİYİ

***Rasim ƏLİQULİYEV***
*Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik*

Mən həmişə Azərbaycandan kənarda elmi fəaliyyət göstərən həmvətənlərimlə yaxından maraqlanmış və onlarla qürur duymuşam. Bu səbəbdən hələ 2017-ci ildən xaricdə yaşayan 530 alim haqqında zəruri məlumatların toplanması ilə bağlı müəyyən işlər görmüşdük. 2019-cu ildə www.elmidiaspora.az adlı sayt yaradıb Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinə təhvil vermişdik. Ən böyük arzularımdan biri də o olub ki, xaricdə yaşayan azərbaycanlı alimlərin bir diaspor təşkilatı formalaşsın, müstəqil Azərbaycan ideyası ətrafında birləşsinlər, bir tərəfdən, ölkəmizin elm tutumlu problemlərinə dəstək versinlər, digər tərəfdən də, Azərbaycan həqiqətlərini dünya ölkələrinə, xalqlarına çatdırsınlar. Etiraf edim ki, bu çətin, məsuliyyətli məqsədə nail olmaq o qədər də asan iş deyildi...

9–11 sentyabr 2024-cü il tarixində Bakı şəhərində keçirilən Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumuna dəvət alanda, həmçinin bu tədbiri Dünya Azərbaycanlı Alimlər Birliyi (DAAB) təşkil etdiyini biləndə çox sevindim. Həm də ona görə ki belə şərəfli, ağır, məsuliyyətli işə şəxsiyyətlərinə çox hörmət etdiyim professor Məsud Əfəndiyev, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Bəxtiyar Siracov rəhbərlik edirdilər.

İlk olaraq, onu qeyd etmək istərdim ki, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və DAAB-nin təşkilatçılığı ilə keçirilən forum çox yüksək səviyyədə təşkil olunmuşdu. Seçilmiş problemlər, mövzular Azərbaycanda həyata keçirilən elmi islahatlar kontekstində çox aktual idi. Dünya ölkələrinin aparıcı elmi mərkəzlərində, universitetlərində çalışan həmvətənlərin müxtəlif formatlarda təşkil olunmuş diskussiyalarda fəal iştirak etmələri, qabaqcıl beynəlxalq təcrübənin Azərbaycana gətirilməsi, bu işlərdə özlərinin dəstəyini və köməyini əsirgəməyəcəklərini bildirmələri dinlədikcə qürur verirdi. Müşahidə olunan o idi ki, xaricdə yaşayan hər bir azərbaycanlı alim Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ probleminin həllindən sonra öz ərazisi üzərində tam suverenlik qazanmış Azərbaycan Respublikasının inkişafı naminə

vətən qarşısında məsuliyyətini hiss edir, bu işdə mənəvi-intellektual borclarını vermək istəyirlər.

Bu, olduqca sevindirici idi. Çox qısa müddət ərzində DAAB tərəfindən xaricdə yaşayan bu qədər azərbaycanlı alimi vahid Azərbaycançılıq ideyası ətrafında toplamaq, müstəqil ölkəmizin qarşısında elmi-intellektual problemlərin həllinə yönəltmək çox böyük uğurdur. Bu münasibətlə DAAB-nin rəhbərliyinə, bu işə dəstək verən hər bir qurum və təşkilata, millətini, dövlətini sevən insanlara dərin minnətdarlığımı bildirirəm.

Əlbəttə, bu hələ başlanğıcdır, irəlidə çox mühüm vəzifələr vardır. Əminəm ki, DAAB başladığı bu şərəfli və məsuliyyətli işi böyük vətən sevgisi ilə daha da yüksək səviyyədə təşkil edərək qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləyəcəkdir.

Onu da qeyd etmək istəyirəm ki, həm DAAB-nin fəaliyyətinə dəstək verməyi, onun işində yaxından iştirak etməyi, həm də ölkədə və xaricdə yaşayan azərbaycanlı alimlər arasında daha səmərəli münasibətlərin qurulması işlərinə yardımçı olmağı özümə mənəvi borc bilirəm.

P.S. 2017–2021-ci illərdə İnformasiya Texnologiyaları İnstitutunun əməkdaşları tərəfindən xaricdə yaşayan 530 azərbaycanlı alim haqqında toplanılmış məlumatları töhfə kimi DAAB-yə təqdim edirik.





## AZƏRBAYCAN ELM VƏ TƏHSİLİNİN İNKİŞAFINA DAİR YOL XƏRİTƏSİ

### *Forum iştirakçılarının təklifləri əsasında hazırlanmış strateji hədəflər*

Bu təkliflər Azərbaycan elmi və təhsilinin inkişafı üçün reallaşdırılması nəzərdə tutulan çoxşaxəli tədbirləri əhatə edir. Burada xarici və yerli müəllimlərlə ikili və mərhələli tədris proqramlarının təşkili, sertifikatlı kurslar, beynəlxalq universitetlərlə əməkdaşlıq və ikili diplom proqramları kimi təhsil təşəbbüsləri ön plana çəkilir. Elmi sahədə “Scopus” indeksli jurnallarda nəşrlər, beynəlxalq laboratoriyalarda təcrübələr, süni intellekt və rəqəmsal texnologiyalar üzrə tədqiqat mərkəzləri, patentləşdirmə və tərcümə layihələri qeyd olunur.

Bununla yanaşı, virtual universitetlər, onlayn platformalar, “YouTube” kanalları və bilik mübadiləsi sistemləri kimi rəqəmsal alətlər, diasporun iştirakı, ERASMUS və beynəlxalq qrant mexanizmləri ilə əməkdaşlıq təklif edilir. Mədəni və humanitar sahədə Qarabağla bağlı elmi missiyalar, Azərbaycan musiqisinin beynəlxalq səviyyədə təbliği nəzərə alınır. Təkliflər həmçinin bioinformatika, tibbi texnologiyalar, yaşıl enerji, regionların inkişafı kimi sahələrdə müasir yanaşmalar və beynəlxalq inteqrasiyanı təşviq edən fəaliyyətləri əhatə edir.

**Təhsil və akademik inkişaf**

- İkili və mərhələli tədris proqramlarının təşkili
- Sertifikatlı intensiv kurslar, yay və qış məktəbləri
- İkili diplom və iş-tədris modellərinin tətbiqi
- Bölgələrdə yeni fakültə və araşdırma mərkəzlərinin yaradılması
- Transliterasiya və tərcümə metodologiyasının tədrisi
- Xarici universitetlərlə tələbə və müəllim mübadiləsi proqramları

**Elmi tədqiqat və nəşrlər**

- “Scopus” və digər nüfuzlu platformalarda məqalələrin dərcinə dəstək
- Beynəlxalq reytinqli elmi jurnalların təsisi
- Toponimika, mühacirət tarixi, elat mədəniyyəti və s. sahələrdə tematik tədqiqat mərkəzləri

- Qarabağ Universiteti ilə əlaqəli elmi mərkəzlərin qurulması
- Elmi monoqrafiyalar, antologiyalar, ensiklopediyalar və tərcümə layihələri

**Rəqəmsal platformalar və virtual infrastruktur**
- Virtual universitetlərin qurulması
- Onlayn dərs və sertifikat sistemləri
- Alimlər üçün məlumat bazası və bilik mübadiləsi platformaları
- "YouTube" və sosial mediada maarifləndirici kontentin yayımı

**Beynəlxalq əməkdaşlıq və diaspor inteqrasiyası**
- Xaricdə fəaliyyət göstərən alimlərin tanıdılması və əməkdaşlığa cəlb olunması
- ERASMUS, Horizon Europe və digər qrant proqramlarında iştirak
- Xaricdəki diaspor təşkilatları ilə strateji əlaqələrin qurulması
- Xarici ölkələrdə Azərbaycan dili və ədəbiyyatının tədrisi
- Alimlərin və tələbələrin qarşılıqlı səfərlərinin təşkili

**Gənclər və ictimai maarifləndirmə**
- Məktəblərdə və universitetlərdə alimlərin çıxışları və motivasiya tədbirləri
- Gənclər üçün elmi maraq doğuracaq görüşlər və təlimlər
- Mentorluq proqramlarının təşkili (həm yerli, həm diaspor alimləri ilə)

**Səhiyyə və biotexnologiyalar**
- Bioinformatika və genetik tədqiqat mərkəzlərinin təşkili
- Tibbi məlumat bazalarının qurulması
- Həkimlər və tədqiqatçılar üçün elmi təlimlər, fellovşip proqramları

**İncəsənət, dil və mədəni irs**
- Azərbaycan musiqisi və bəstəkarlarının əsərlərinin yayımı və təbliği
- Borçalı antologiyası və digər regionlar üzrə ədəbi layihələr
- Türk toponimlərinin araşdırılması və nəşri
- Azərbaycan yazıçılarının əsərlərinin xaricdə tanıdılması
- Mühacirət irsi ilə bağlı ensiklopediya və monoqrafiyalar

**İdarəçilik, siyasət və hüquqi mexanizmlər**
- Təhsil və elm sahəsində strateji planlaşdırma və siyasət sənədlərinin hazırlanması





- PhD təhsilində və elmi rəhbərlik sistemində islahatlar
- Diplomların tanınması və qanunvericilik dəstəyi mexanizmlərinin yaradılması

**Enerji, ətraf mühit və regionların inkişafı**
- Yaşıl enerji, günəş texnologiyaları və aqroturizm sahəsində layihələr
- Elektrik stansiyaları üçün rəqəmsal həllərin tətbiqi
- Qarabağ və digər regionlar üçün təbii resurslara əsaslanan inkişaf modelləri

Təqdim edilmiş bu yol xəritəsi ölkənin qlobal elmi məkanla inteqrasiyasını gücləndirməyə, diaspor potensialını səmərəli şəkildə səfərbər etməyə və davamlı, innovasiya əsaslı inkişaf modelinin formalaşdırılmasına xidmət edən strateji hədəflərdir.

## FORUMA TƏQDİM OLUNMUŞ MƏRUZƏLƏR

***Asəf SALAMOV***
*Azərbaycanda bioinformatikanın və intensiv kompüter istifadəsi ilə aparılan digər tədqiqat sahələrinin inkişaf perspektivləri*

Bioinformatika, süni intellekt və Azərbaycanda elmi potensial: yeni imkanlar və strateji prioritetlər

Mən Kaliforniya ştatının Berkeley şəhərində yerləşən Lawrence Berkeley Milli Laboratoriyasının Genom İnstitutunda (Joint Genome Institute – JGI) məlumat (data) alimi kimi fəaliyyət göstərirəm. İşim müxtəlif mikroorqanizmlərin – xüsusilə göbələklər və yosunlar kimi təkhüceyrəlilərin genomlarının annotasiyası üzərində qurulub. Bu məqsədlə hesablama əsaslı ardıcıllıq analizi metodlarından istifadə edirəm ki, bu da bioinformatika elmi sahəsinin tərkib hissəsidir.

Əvvəllər bioinformatika əsasən genom (DNT) və zülal ardıcıllıqlarının analizinə yönəlsə də, son illərdə bu sahəyə təkhüceyrəli transkriptomika, proteomika və metabolomika kimi multi-omik yanaşmalar da daxil olmuşdur. Qeyd etməyə dəyər ki, Lawrence Berkeley Laboratoriyası ABŞ Energetika Nazirliyi (DOE) tərəfindən maliyyələşdirildiyi üçün burada insan və heyvan genomları üzrə araşdırmalar aparılmır. Tədqiqatlar yalnız enerji və ətraf mühit problemlərinin həllinə töhfə verə biləcək orqanizmlərlə məhdudlaşır.

*Azərbaycanda bioinformatikanın inkişaf potensialı*

Azərbaycanda bioinformatika sahəsi hələ inkişaf mərhələsindədir və bu sahədə fəaliyyət göstərən laboratoriyaların sayı çox azdır. Lakin son illərdə genetik sekvensləşdirmənin maya dəyərinin azalması və bir çox orqanizmlərin istinad genomlarının əlçatan olması bu sahədə yeni imkanlar yaradıb.

Bioinformatikanın Azərbaycanda kənd təsərrüfatı üçün əhəmiyyətli bitki növlərinin təkrar sekvensləşdirilməsi istiqamətində inkişafı genetik müxtəlifliyin müəyyən olunması, duza və istiyə davamlılıq, məhsuldarlığın artırılması və qida keyfiyyətinin yaxşılaşdırılması kimi məqsədlərə xidmət edə bilər.

Bundan əlavə, Azərbaycanın flora və faunası olduqca zəngindir və bəzi növlər yalnız bu coğrafiyaya xasdır. Bioinformatika bu endemik növlərin marker





genlərinin sekvensləşdirilməsi, onların kataloqlaşdırılması və biomüxtəlifliyin qorunması istiqamətində mühüm rol oynaya bilər.

Tibbi sahədə isə bioinformatika genetik məsləhətləşmələrin aparılmasına imkan verir. Bu, xüsusilə beta-talassemiya kimi genetik xəstəliklərin daşıyıcılığını müəyyən etmək və evliliyə hazırlaşan cütlüklərə risklər haqqında əvvəlcədən məlumat vermək baxımından əhəmiyyətlidir.

*Süni intellektin bioinformatikaya təsiri*

Son illərdə bioinformatika da daxil olmaqla, bir çox elmi sahələrdə süni intellekt (AI) və maşın öyrənməsi (ML) metodlarının tətbiqi sürətlə artır. Mən 2024-cü ilin iyul ayında Monreal şəhərində keçirilən, bioinformatika üzrə nüfuzlu beynəlxalq tədbir olan ISMB konfransında iştirak etdim. Təqdimatların və posterlərin yarıdan çoxu süni intellektin biologiyada tətbiqi ilə bağlı idi.

Bu metodların bəziləri qısamüddətli trend və ya şişirdilmiş gözləntilərlə bağlı olsa da, AlphaFold proqramı kimi dərin elmi nailiyyətlər bioinformatikada inqilabi dönüş yaratmışdır. AlphaFold-un zülal strukturlarının dəqiq proqnozlaşdırılması struktur biologiyasında böyük sıçrayışa səbəb olmuşdur.

Konfrans çərçivəsində keçirilən və zülal funksiyasının proqnozlaşdırılmasına həsr olunmuş beynəlxalq müsabiqədə 2000-dən çox laboratoriya iştirak edirdi. Ən yaxşı nəticələr isə Çin və Rusiya komandaları tərəfindən əldə olunmuşdu. Maraqlısı odur ki, qalib Rusiya komandası heç də bioloq və ya bioinformatiklərdən ibarət deyildi – bu qrup Sberbank-ın süni intellekt komandası idi. Bu fakt süni intellektin bioloji problemlərin həllində nə qədər sürətlə mövqeyini gücləndirdiyini sübut edir.

*Süni intellekt və elmi tədqiqatlar: ABŞ və qlobal prioritetlər*

ABŞ Energetika Nazirliyi süni intellekt üzrə FASST (Frontiers in Artificial Intelligence for Science, Security, and Technology) təşəbbüsünü işə salıb. Məqsəd milli laboratoriyaların AI sahəsində fəallığını artırmaqdır. ABŞ Konqresi bu sahəyə milyardlarla dollar investisiya yatırır, halbuki bir çox digər sahələrdə büdcə kəsintiləri müşahidə olunur.

Gənc tədqiqatçılar və tələbələr də AI və ML sahələrinə artan maraq göstərirlər. Berkeley laboratoriyasına təcrübəyə gələn tələbələr daha çox CRISPR texnologiyası və AI tətbiqləri ilə maraqlanırlar. Bu tendensiya göstərir ki, AI gələcəyin əsas elmi prioritetlərindən biri olacaq.

*Azərbaycanda süni intellekt təhsili: perspektivlər və imkanlar*

Azərbaycan güclü riyaziyyat ənənəsinə malik ölkədir və həm ölkə daxilində, həm də xaricdə yaşayan istedadlı alimlər bu sahədə fəaliyyət göstərir. Bu potensialdan istifadə edərək dərin öyrənmə (deep learning) və maşın öyrənməsi sahələrini riyazi və statistik əsaslarla öyrədən ixtisaslaşmış kursların təşkili mümkündür.

Dünya üzrə pulsuz və yüksək keyfiyyətli onlayn AI kurslarının mövcudluğu bu sahəyə maraq göstərən hər kəs üçün əlçatan imkanlar yaradır.

Qeyd edilməlidir ki, böyük dil modellərinin (LLM) sıfırdan yaradılması üçün güclü hesablama resursları və superkompüterlər tələb olunur – bu isə yalnız "Google", "Meta" və "OpenAI" kimi nəhəng şirkətlər üçün əlçatandır. Buna görə də Azərbaycanın diqqəti mövcud AI alətlərindən elmi və texnoloji tətbiq səviyyəsində istifadə istiqamətində olmalıdır.

*Nəticə*

Azərbaycanın elmi irsi, güclü riyaziyyat bazası və intellektual potensialı süni intellekt, maşın öyrənməsi və bioinformatika sahələrinə strateji yanaşma və investisiyanın vacibliyini göstərir. Bu sahələrin inkişafı, ölkənin elmi və texnoloji müstəqilliyini gücləndirə, qlobal elmi icmaya inteqrasiyasını sürətləndirə və gələcək nəsillər üçün rəqabətqabiliyyətli bilik ekosistemi formalaşdıra bilər.

***Bəxtiyar SİRACOV***

*Dünya Azərbaycanlı Alimlər Birliyinin virtual məkanda fəaliyyəti*

Bu məruzədə Dünya Azərbaycanlı Alimlər Birliyinin (DAAB) internet üzərindən təklif edə biləcəyi tədris və elmi xidmətlər barədə məlumat verilir. Birliyin məqsədi Azərbaycan alimlərinin bir araya gəlməsini və bilik mübadiləsini təmin etməklə yanaşı, müasir tədris yanaşmalarını tətbiq edərək Azərbaycanın elmi potensialını artırmaqdır. İnternet üzərindən təklif oluna biləcək xidmətlər bu məqsədə çatmağa kömək edə bilər.

*Birliyin veb-saytının qurulması*

Birliyin veb-saytı əsas kommunikasiya və məlumat mərkəzi kimi fəaliyyət göstərə bilər. Sayt üzərindən birliyin missiyası, vizionu və dəyərləri haqqında məlumatlar təqdim oluna bilər. Saytın digər funksiyaları arasında tədbirlər və layihələr haqqında məlumatların yerləşdirilməsi və onlayn resursların paylaşılması da mümkündür. Burada məqalələr, video dərsliklər və digər faydalı materiallar təqdim oluna bilər.





*Ziyalılarımızın data bankı*

Birlik alimlərin məlumatlarını toplamaq və onlarla əlaqə yaratmaq məqsədilə ziyalılarımızın data bankını yarada bilər. Bu məlumat bazasında aşağıdakı məlumatlar toplana bilər:

- Şəxsi məlumatlar: ad, soyad, əlaqə məlumatları, ünvan və s.
- Təhsil: ixtisas, alınan dərəcələr, təhsil müəssisələri, akademik nailiyyətlər.
- İş təcrübəsi: əvvəlki iş yerləri, vəzifələr və nailiyyətlər.
- Bacarıqlar: texniki və dil bilikləri, komanda işi və liderlik bacarıqları.
- Nailiyyətlər və sertifikatlar: qazanılmış sertifikatlar və təlimlər.
- İctimai fəaliyyətlər: könüllülük təcrübəsi və ictimai təşkilatlarda iştirak.
- Hobbilər: mütaliə, idman və şəxsi maraqlar.
- İnternet resursları: məqalələr, kitablar və mühazirələr.

Bu məlumatlar birliyin təklif etdiyi elmi əməkdaşlıq və tədris fəaliyyətlərini dəstəkləmək məqsədilə istifadə oluna bilər.

*Onlayn tədris ocaqları (virtual universitet)*

Birlik onlayn tədris ocaqları vasitəsilə müxtəlif sahələrdə tədris materialları təklif edə bilər. Bu ocaqlarda professor və müəllim heyəti tərəfindən dərslər və mühazirələr keçirilə bilər. Həmçinin fakültələr və kafedralar formalaşdırılaraq tədris prosesi genişləndirilə bilər.

Virtual universitetin bir hissəsi olaraq təcrübi laboratoriyalar və mühazirə auditoriyaları təşkil oluna bilər. Bu platformalar tələbələrə praktiki dərsləri izləmək və biliklərini tətbiq etmək imkanı yarada bilər. Beynəlxalq onlayn tədris platformalarına bağlantılar təmin edilərək tədris prosesi qlobal səviyyədə inteqrasiya oluna bilər.

*Tədris proqramları və dərsliklər*

Birlik müxtəlif sahələr üzrə Azərbaycan dilində, həm də xarici dillərdə tədris proqramları və dərsliklər hazırlaya bilər. Xüsusilə xarici dillərdə bestseller ədəbiyyatlarının tərcüməsi və "Amazon" platforması vasitəsilə dərsliklərin və tədris materiallarının kağız, elektron və audio formatlarda yayılması təmin oluna bilər.

*Elm sahələri üzrə ocaqlar*

DAAB müxtəlif elm sahələri üzrə ocaqlar təklif edə bilər. Bu ocaqlar ənənəvi elm sahələri ilə yanaşı, müasir elm sahələrini də əhatə edə bilər. Məsələn:

- Ənənəvi elm sahələri: riyaziyyat, fizika, kimya, biologiya, tibb elmləri və s.
- Müasir elm sahələri: nanotexnologiyalar, kvant fizikası, biotəbabət elmləri, süni zəka, kibertəhlükəsizlik və s.

Bundan əlavə, fənlərarası sahələr üzrə də fəaliyyətlər həyata keçirilə bilər, məsələn, sistemlər biologiyası, materialşünaslıq, fəza elmləri və s.

*Multimedia ocaqları*

Elmin populyarlaşdırılması məqsədilə multimedia ocaqları təşkil oluna bilər. Bu ocaqlar vasitəsilə podkastlar, video mühazirələr və cizgi filmləri təqdim etmək olar. Elmi mühazirələr, laboratoriya təcrübələri və alimlərin bioqrafiyaları bu platformalar üzərindən geniş şəkildə yayıla bilər.

*Müsabiqə və yarışlar*

Birlik müsabiqələr və yarışlar təşkil edə bilər. Məsələn:

- Proqramlaşdırma, kibertəhlükəsizlik, data texnologiyaları və s.
- Musiqi, təsviri sənət və s.
- Müxtəlif mövzuları əhatə edən intellektual oyunlar

*Tibbi ocaqlar*

Birlik tibbi ocaqlar vasitəsilə sağlam həyat tərzi, populyar tibbi biliklər və müasir tibbi araşdırmalar mövzusunda tədris fəaliyyəti həyata keçirə bilər.

*Sosial şəbəkələrdə fəaliyyət*

Birlik sosial şəbəkələrdə geniş fəaliyyət göstərə və üzvləri ilə əlaqə saxlamaq üçün “Instagram”, “LinkedIn”, “Facebook” və “YouTube” kimi platformalarda fəal ola bilər.

Beləliklə, Dünya Azərbaycanlı Alimlər Birliyi internet üzərindən təklif edə biləcəyi xidmətlər vasitəsilə Azərbaycan alimlərinin beynəlxalq səviyyədə tanınmasına və elm sahələrində yeniliklərin meydana gəlməsinə töhfə verə bilər. Bu xidmətlər tədrisin keyfiyyətini artırmaq və elmi əməkdaşlığı gücləndirmək üçün vacib bir addım ola bilər. Bizim məqsədimiz yalnız məlumat paylaşmaq deyil, həm də elmi əməkdaşlıq və tədrisin inkişafına töhfə verməkdir.





***Dinara ABBASOVA***

*Biliklərin strateji idarə olunması: təşkilati səmərəlilik və davamlılığın əsas hərəkətverici gücü*

*Annotasiya*

Müasir bilik əsaslı iqtisadiyyatda təşkilatların rəqabət qabiliyyəti və davamlı inkişafı, intellektual aktivlərin səmərəli idarə olunmasından birbaşa asılıdır. Strateji bilik idarəetməsi (Bİ) – biliklərin müəyyənləşdirilməsi, əldə olunması, saxlanması, paylaşılması və istifadəsini əhatə edən sistemli proseslər toplusudur. Bu məqalədə strateji Bİ-nin təşkilati inkişafdakı həlledici rolu araşdırılır, onun əsas üstünlükləri təqdim olunur və tətbiqi üçün strukturlaşdırılmış çərçivə təklif edilir. Təhlillər mövcud statistik məlumatlar və praktiki nümunələr əsasında aparılmış, Bİ-nin davamlı öyrənmə və dayanıqlılıq baxımından əhəmiyyəti vurğulanmışdır.

*Giriş*

Bilik əsaslı iqtisadi sistemlərə keçid təşkilatlarda uğurun açarını intellektual kapitala çevirib. Artıq bilik sadəcə dəstək vasitəsi deyil, istehsalın, innovasiyanın və rəqabətliliyin əsas strateji aktividir. Bununla belə, bir çox təşkilat biliklərin effektiv idarə olunması və ötürülməsi proseslərində ciddi çətinliklərlə üzləşir: məlumatların axtarışına sərf olunan vaxt, qeyri-strukturlu mühitlər, zəif bilik paylaşımı mədəniyyəti və s.

Belə bir şəraitdə strateji Bİ əməliyyat səmərəliliyini artırmaq, səhvlərin sayını azaltmaq, layihələrin icrasını sürətləndirmək və kritik biliklərin qorunmasını təmin etmək baxımından vacib rol oynayır.

*Müasir təşkilatlarda Bİ-nin zəruriliyi*

Empirik araşdırmalar aşağıdakı əsas problemlərin Bİ-yə olan ehtiyacı artırdığını göstərir:

- əməkdaşların 74%-i müvafiq təşkilati biliklərə çıxışda çətinlik çəkir.
- maliyyə xidmətləri təşkilatlarının 67%-ində ciddi bilik boşluqları mövcuddur.
- İşçilər həftəlik iş vaxtlarının, təxminən, 35%-ni məlumat axtarışına sərf edirlər.
- təşkilatların 60%-ində bilik paylaşımı mədəniyyəti formalaşmayıb.

Bu çatışmazlıqlar maliyyə itkisinə, layihələrin gecikməsinə və işçi məmnuniyyətsizliyinə səbəb olur. Strateji Bİ bu problemlərin qarşısını almaqla yanaşı, innovasiya və davamlı öyrənmə mədəniyyəti formalaşdırır.

*Strateji Bİ-nin təşkilatlar üçün faydaları*

Strateji Bİ tətbiq edən təşkilatlar aşağıdakı mühüm üstünlükləri əldə edirlər:

- Səhv hallarının azalması
- Layihələrin 30%-ə qədər daha sürətli həyata keçirilməsi
- Gəlirlərin orta hesabla 40% artması
- Yeni işçilərin adaptasiya müddətinin 25% qısalması
- Qərarvermə və risklərin idarə olunmasında keyfiyyətin yüksəlməsi

*Bİ strategiyasının məqsədləri və hədəfləri*

Effektiv Bİ strategiyası təşkilatın aşağıdakı əsas ehtiyaclarına cavab verir:

- Kritik biliklərin toplanması və saxlanması
- Keçmiş təcrübələrin təkrar istifadəsi
- Davamlı öyrənmə və inkişafın təşviqi
- Risklərin effektiv şəkildə idarə olunması

*Strategiyanın hazırlanması və tətbiqi*

Strateji Bİ-nin həyata keçirilməsi aşağıdakı mərhələləri əhatə edir:

| Mərhələ | Əsas fəaliyyətlər |
|---|---|
| Problem identifikasiyası | Bilik boşluqları və səmərəsizlikləri müəyyən etmək məqsədilə müsahibələr, sorğular və diaqnostik təhlillər aparın. |
| Strategiyanın hazırlanması | Müəyyən edilmiş ehtiyaclara əsaslanaraq beyin fırtınası keçirin və innovativ Bİ həlləri dizayn edin. |
| Tətbiq | Bilik bazaları, sənəd idarəetmə sistemləri, əməkdaşlıq platformaları kimi Bİ alətlərini tətbiq və təşkilatın əsas proseslərinə inteqrasiya edin. |
| İcra nəzarəti | Əsas fəaliyyət göstəricilərini (KPI-ləri) müəyyənləşdirin və izləyin; nəticələri qabaqcadan müəyyən olunmuş meyarlarla müqayisə edərək qiymətləndirin. |
| Daimi təkmilləşdirmə | Geribildirim dövrlərini təşviq edin və Bİ sistemlərinin müntəzəm yenilənməsi və təkmilləşməsi üçün davamlı mexanizmlər yaradın. |

*Öyrənmə modelləri və bilik transferi mexanizmləri*

Effektiv bilik ötürülməsi aşağıdakı yanaşmalarla həyata keçirilir:

- Formal təlimlər və e-learning modulları
- İş yerində təcrübə və təlim proqramları





- Mentorluq və kouçinq yanaşmaları
- Rəqəmsal həllər: bilik portalları, sənəd bazaları, ekspert kataloqları

Bu mexanizmlər həm səssiz (tacit), həm də aydın (explicit) biliklərin qorunmasına və təşkilatda geniş istifadəsinə imkan yaradır.

*Nəticə*

Strateji bilik idarəetməsi təşkilat üçün əlavə funksional sahə deyil, daxili səmərəliliyin, innovasiyanın və dayanıqlılığın əsas hərəkətverici qüvvəsidir. Hər bir təşkilat üçün vahid model olmasa da, məqsədəuyğun strategiyaların hazırlanması, liderliyin dəstəyi və maraqlı tərəflərin iştirakı sayəsində Bİ güclü rəqabət üstünlüyünə çevrilə bilər. Bİ-ni strateji prioritet kimi qəbul edən təşkilatlar davamlı təkmilləşmə və innovasiya mədəniyyəti quraraq bilik iqtisadiyyatında ön sıralarda mövqe tuturlar.

*Ədəbiyyat*


1. Axero Solutions (2023). The State of Knowledge Management in Organizations.
2. McKinsey & Company (2023). The Value of Knowledge in Business Performance.
3. Rezolve.ai (2023). Knowledge Gaps and Their Impact on Financial Services.
4. Procedureflow (2023). Knowledge Management Efficiency Studies.
5. The Conference Board (2022). Best Practices in Knowledge Transfer and Learning Curves.


***Eldar ƏHƏDOV***

*Sibir və Şərqi Sibir toponimikası: Türk irsinin qorunması və toponimik soyqırım fenomeni*

Sibir və Şərqi Sibir toponimiyasının regional xüsusiyyətlərini öyrənmək və Orta Asiyanın geniş coğrafiyasını əhatə edən toponimik-linqvistik irsin qorunub saxlanmasını təmin etmək istəyi “Mərkəzi və Şərqi Sibir Toponimikası haqqında” adlı kitabımın meydana çıxmasına səbəb oldu. Bəziləri üçün sırf elmi görünə biləcək bu mövzu biz azərbaycanlılara, mədəniyyətimizə və tariximizə nə dərəcədə aiddir?

Əgər mövzuya qərəzsiz və minimal toponimiya biliyi ilə yanaşılsa belə, aydın şəkildə görünür ki, Sibirin coğrafi adlarında, xüsusilə Anqara və Podkamennaya Tunquska çaylarının suayırıcı xəttindən cənubda əvvəlcə seyrək, daha sonra isə

cənuba doğru intensiv şəkildə türkmənşəli adlar üstünlük təşkil edir. Krasnoyarsk bölgəsində bu adlar artıq yer adlarının yarıdan çoxunu, Xakasiya və Minusinsk hövzəsində isə demək olar ki, 100%-ni təşkil edir. Niyə? Çünki son bir neçə min il ərzində bu ərazilərdə – Cənubi Sibir, Sayan, Altay dağlıq və meşə-çöl zonalarında yaşayan xalqların əsas ünsiyyət vasitəsi türk dilləri olmuşdur. Bu bölgədə yakut və dolqan dilləri də daxil olmaqla, türkmənşəli dillər Şimal Buzlu Okeanı adalarına qədər yayılan əhalinin dil tərkibini formalaşdırmışdır.

Bu irs təkcə Orta və Şərqi Sibirdəki Orxon-Yenisey abidələri ilə məhdudlaşmır. O həmçinin Sakit okeandan Karpat dağlarına, Qara dənizə qədər uzanan nəhəng bir coğrafiyada yaşayan qədim türk tayfalarının məişət əşyaları, incəsənət nümunələri, arxeoloji tapıntıları və ən başlıcası, dil izləri ilə sübut olunur. Bu izlər – toponimlər, yəni əcdadlarımızın danışıq dilini bu günədək yaşadan coğrafi adlardır.

Lakin tarixin müxtəlif dönəmlərində işğalçılar bu ərazilərə daxil olduqdan sonra əvvəlki əhalini məhv etmiş, sonra isə onların mənəvi izlərini – coğrafi adlarını sistemli şəkildə dəyişməyə başlamışlar. Şəhər, kənd, dağ, çay və göllərin adlarını dəyişdirmiş, xalqın bu torpaqlarla olan mənəvi bağlarını qırmağa çalışmışlar. Bu prosesə toponimik soyqırımı demək tamamilə ədalətlidir. Çünki bu, nasizmin ən təhlükəli ideoloji formalarından biri olan mədəni yaddaşın silinməsi aktıdır.

Sibirin türkmənşəli coğrafi adlarının fərqli cəhəti onların şəxsi adları deyil, təbiətə, coğrafi xüsusiyyətlərə və insanın torpağa qarşı duyduğu səmimi heyranlığa əsaslanmasıdır. Bu adlar rəhbərləri və ya hakimləri deyil, çayların rəngi, dağların forması, bitki örtüyü, heyvanlar, hava şəraiti və s. kimi konkret təbiət hadisələrini əks etdirir. Sibir türk toponimiyası, türk xalqlarının doğma torpağa duyduğu fədakar məhəbbətin və əbədi sədaqətin təcəssümüdür.

Coğrafi adlar müasir sivilizasiyanın tərkib hissəsidir. Onlar toplumların kollektiv yaddaşıdır, mədəni kimliyin daşıyıcısıdır. Toponimlər vasitəsilə biz keçmişə, əcdadlarımıza və tariximizə bağlanırıq. Qədim coğrafi adlar bizim yaddaş məbədlərimizdir. Bu məbədləri təsadüfi küləklər, modaya çevrilmiş dəyişikliklər və ya müvəqqəti idarəetmə rahatlıqları naminə məhv etməyə heç kimin haqqı yoxdur.

Bu səbəbdən təklif edirəm ki, qədim coğrafi adlara bəşəriyyətin qeyri-maddi mədəni irs nümunələri statusu verilsin. Bu adlar qorunmalı, öyrənilməli və gələcək nəsillərə olduğu kimi çatdırılmalıdır.

Ekspert rəyi: "Hörmətli Eldar, nə yaxşı ki, təkcə elmi deyil, həm də humanitar əhəmiyyət daşıyan mühüm bir məsələni gündəmə gətirdiniz. Bu hamımız üçün çox vacibdir. Sizə Sibirin toponimiyasına həsr olunmuş yeni kitabınız münasibətilə





təbriklərimi çatdırıram. Əminəm ki, bu əsər türkologiyaya dəyərli bir töhfə olacaq." – Tofiq Davud oğlu Məlikli, filologiya elmləri doktoru, professor, şərqşünas, ədəbiyyatşünas, tərcüməçi, yazıçı, Azərbaycan Respublikasının Əməkdar elm xadimi.

***Mehdi GƏNCƏLİ***

*"Azərbaycan" qəzetinin müasir zamanda əks-sədası*

Müasir Azərbaycan dövləti Azərbaycan xalqının müstəqil və suveren iradəsinin inikasıdır. Azərbaycan xalqının tarixində çox şərəfli səhifələr olmuşdur. Cümhuriyyət dövrü tariximizdəki şərəfli səhifələrin başında gəlir. Müasir Azərbaycan Respublikası özünü 1918-ci ildə qurulan Azərbaycan Cümhuriyyətinin varisi elan etdiyindən Cümhuriyyət tariximizin hərtərəfli öyrənilməsi xüsusi əhəmiyyət daşıyır.

Məmnuniyyətlə qeyd etmək lazımdır ki, Cümhuriyyət tariximizin tədqiqi sahəsində müstəqillik dövrümüzdə xeyli iş görülmüşdür. Yenə sevindirici haldır ki, bu tədqiqatlar, ümumiyyətlə, Cümhuriyyət tariximizlə bağlı bütün işlər xüsusilə gənc nəslin diqqətini çox cəlb edir, maraqla izlənilir.

Xalqımızın, dövlətçiliyimizin böyük və şərəfli tarixinin ən mühüm parçalarından biri olan Cümhuriyyət dövrünün araşdırılması baxımından "Azərbaycan" qəzetinin, lüğət, qeyd və şərhlər, indeks əlavə edilməklə müasir əlifbada yenidən nəşr edilməsi xüsusi əhəmiyyət daşıyır. ADA Universitetinin təşəbbüsü və himayəsi ilə həyata keçirilən bu böyük iş qeyd etməliyəm ki, "Azərbaycan" qəzetinin bəsit bir transliterasiyası olmayaraq, kifayət qədər ciddi, elmi bir işdir və vaxt baxımından nisbətən yavaş irəliləməklə birgə, yenə kifayət qədər müvəffəqiyyətlə həyata keçirilməyə davam edir.

Möhtərəm rektorumuz Hafiz müəllimin sözləri ilə ifadə etsək: "Qəzetin müasir oxucu üçün əlçatan olması tariximizin Cümhuriyyət dövrü kimi zəngin səhifəsinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir."

İlk nömrəsi 15 sentyabr 1918-ci ildə Gəncədə, sonuncu nömrəsi 27 aprel 1920-ci ildə Bakıda nəşr edilən "Azərbaycan" qəzetinin transliterasiyasının 20 cilddə nəşr edilməsi nəzərdə tutulmuşdur. Bu cildlərdən 11-cisi bu günlərdə mətbəədən çıxaraq oxucuların istifadəsinə verilmişdir.

Hər hansı bir dövrün tarixini ardıcıl və sistematik olaraq gündəlik qəzetdən izləmək o dövr haqqında düşüncələrinizin, dünya görüşünüzün tamamilə fərqli bir şəkildə formalaşmasına səbəb olur. Bu, dövrün tarixini kənardan, başqa

qaynaqlardan öyrənməkdən müəyyən dərəcədə fərqlidir. “Azərbaycan” qəzetini ardıcıl oxuyarkən özünüzü qəzetin çap edildiyi dövrdə, hadisələr burulğanının içində hiss edir, dövrün ab-havasını bütövlükdə tənəffüs edirsiniz. Siyasi, ictimai, hərbi, ədəbi-mədəni həyatın çox müxtəlif aspektlərindən, incə təfərrüatlarından xəbərdar olmaq imkanı əldə edirsiniz.

“Azərbaycan” qəzetinin nəşrindən yüz ildən çox vaxt keçsə də, oradakı məqalələr, xəbərlər, şərhlər bu gün də öz aktuallığını qorumağa davam edir. Yüz il ərzində dəyişməyən geopolitik balansı, bölgədəki problemlərin qaynaqlarını öyrənmək baxımından olduqca əhəmiyyətlidir. Qərblə Şərqin kəsişdiyi yerdə yerləşən Azərbaycan uğrunda böyük güclərin apardığı mübarizə həmin dövrdə olduğu kimi indi də bariz şəkildə görülməkdədir.

Nümunələrlə göstərmək lazım gələrsə:

Qarabağ məsələsi – 2020–2023-cü illərdə müzəffər Ordumuzun Qarabağı işğaldan azad etməsi tariximizin ən böyük qəhrəmanlıq salnamələrindən biridir. Ermənilərin Qarabağa iddiaları Azərbaycan Cümhuriyyətinin qurulmasından qısa bir müddət sonra başlamışdı. Bir tərəfdən, Ermənistanın dəstəyi ilə Qarabağdakı ermənilərin üsyan etmələri, digər tərəfdən, Anadoludan gələn silahlı erməni dəstələrinin Qarabağda və Zəngəzurda qətliam törətmələri 1991-ci ildə müstəqilliyimizin bərpasından sonra analoji şəkildə təkrarlanmışdır. 1918-ci ilin martında törətdikləri soyqırımı cinayətini 1992-ci ildə Xocalıda və digər ərazilərimizdə də təkrar etmişdilər. Bu baxımdan ermənilərin yüz ildən çoxdur Cənubi Qafqazda həyata keçirdiyi cinayətlərin tarixini bilməyimiz, milli hafizəmizdə unutmamağımız üçün “Azərbaycan” qəzetinin səhifələrindəki materiallarla tanış olmaq yetərlidir. Üzeyir Hacıbəylinin, Xəlil İbrahimin Qarabağla, erməni fitnəsi ilə bağlı yazdıqları məsələni dərk etməyimiz üçün olduqca əhəmiyyətlidir.

Azərbaycan adı məsələsi – Azərbaycan Cümhuriyyətinin elanından sonra Qacar dövləti yeni ölkənin adına qarşı etiraz etmiş, qonşu ölkə mətbuatında bir sıra məqalələr dərc olunmuşdur. Hətta Qacar hökuməti Məhəmməd Əmin Rəsulzadənin İstanbulda tanınma ilə bağlı təqdim etdiyi memoranduma mənfi cavab vermiş, Azərbaycan adlı dövləti tanımadıqlarını bildirmişdir. Təəssüf ki, bu mövqe indi də bu və ya digər şəkildə cənub qonşumuz tərəfindən irəli sürülməklə tarixi keçmiş yanlış şəkildə təhrif edilir. Türkmənçay müqaviləsindən bu yana yaşanan bəzi məsələlərin qaynağını bilmək, Azərbaycan-İran münasibətlərinin tarixini doğru şərh etmək üçün “Azərbaycan” qəzetindəki materiallara baxmaq gərəklidir.

Parlamentarizm məsələsi − Azərbaycan dövlətçiliyinin tarixini öyrənmək, müsəlman şərqində açılan ilk demokratik parlamentin fəaliyyətini araşdırmaq,





yüz il ərzində baş verən demokratik yeniliklərlə müqayisə etmək baxımından “Azərbaycan” qəzetində dərc olunan stenoqramları oxumaq olduqca önəmlidir. Bu gün olduğu kimi, yüz il öncə də Azərbaycanda milli və dini azlıqların hüquqlarının qorunduğunu, ölkənin bütün vətəndaşlarının bərabər haqlara sahib olduğunu göstərmək baxımından bu yazıları oxumaq vacibdir. Stenoqramlara baxdığımız zaman o dövrdə Azərbaycanın dünyaya parlaq bir nümunə olduğunu açıq şəkildə görürük.

Türkiyə-Azərbaycan münasibətləri – “Azərbaycan” qəzetində dövlət xadimlərinin müraciətlərinə, mühərrirlərin yazılarına, şairlərin şeirlərinə baxdığımız zaman Osmanlı Türkiyəsi ilə Azərbaycan Cümhuriyyəti arasındakı dostluq, qardaşlıq bağlarının möhkəmliyi açıq şəkildə görünür. Xüsusən də Qafqaz İslam Ordusunun zabit və əsgərlərinə olan münasibət olduqca yüksək ehtiram şəklindədir. Batum müqaviləsindən Şuşa bəyannaməsinə qədər keçilən yolu öyrənməyimiz, münasibətlərin tarixi fəlsəfəsini dərk etməyimiz baxımından “Azərbaycan” qəzetindəki bu yazılar çox əhəmiyyətlidir.

***Nigar MƏSUMOVA***

*Azərbaycan və Rusiya arasında təhsil sahəsində əməkdaşlıq: problemlər və perspektivlər*

Hörmətli forum iştirakçıları!

Hər kəsi burada, Azərbaycan torpağında, tarixi vətənimizin paytaxtında salamlamağa çox şadam!

Mən Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu (Universitetini) bitirmişəm. İxtisas etibarilə iqtisadçıyam. Türkiyə iqtisadiyyatı mövzusunda namizədlik dissertasiyası müdafiə etmişəm. Bu mövzu məni çox dərindən maraqlandırır. Bununla belə, elmi maraqlarımın əhatə dairəsi genişlənib, jurnalistika, reklam və ictimaiyyətlə əlaqələr sahələri əlavə olunub. Mən həm də Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Beynəlxalq Jurnalistika fakültəsinin dekan müavini, Reklam və ictimaiyyətlə əlaqələr şöbəsinə rəhbərlik edirəm.

*Təhsil və elm xərcləri*

İlk növbədə, ölkələrimizdə təhsil xərclərini xatırlatmaq istərdim.

Təhsilə dövlət xərcləri (Ümumi Daxili Məhsulun faizi):

| İl | Azərbaycan | Rusiya | Almaniya |
|---|---|---|---|
| 2000 | 3,9 | 2,9 | 4,5 |
| 2010 | 2,8 | 3,8 | 5,1 |
| 2020 | 4,3 | 3,7 | 5,6 |
| 2022 | 2,9 | - | 4,5 |

Dünya Bankının Məlumatı, 2024. URL: www.worldbank.org

Almaniyanı ona görə seçdim ki, o, təhsil və elm sahəsində inkişaf edib, qabaqcıldır.

Bu rəqəmləri təhlil edərək deyə bilərik ki, Azərbaycanda və Rusiyada dövlətin təhsilə ayırdığı vəsait hələ də inkişaf etmiş ölkələrin səviyyəsinə çatmayıb. Təhsilə sərmayə qoymaq lazımdır, gələcəyimiz bundan asılıdır.

Elmə və inkişafa çəkilən xərclər haqqında məlumat verə bilərəm. İnkişaf etmiş ölkələrdə elmə çəkilən xərclər Ümumi Daxili Məhsulun 2%-i qədər və ya ondan yuxarıdır. Bəli, təbii ki, elə inkişaf etmiş ölkələr də var ki, elmə o qədər də pul xərcləmir və qlobal elmi nailiyyətlərdən xeyli geri qalır.

| İl | Azərbaycan | Rusiya | Almaniya |
|---|---|---|---|
| 2000 | 0,34 | 1,05 | 2,41 |
| 2010 | 0,22 | 1,13 | 2,72 |
| 2020 | 0,22 | 1,09 | 3,13 |
| 2022 | 0,15 | 0,94 | - |

Dünya Bankının Məlumatı, 2024. URL: www.worldbank.org

Elmə, təhsilə çəkilən xərclər gələcəyə qoyulan sərmayədir. Xərcləri artırmaq lazımdır, düzdü, geri dönüş tezliklə olmayacaq, amma mütləq olacaq.

*Yumşaq güc (Soft Power/Smart Power)*

Biz hamımız yaxşı bilirik ki, həm elm, həm də təhsil yumşaq gücün alətləridir. Biz əcnəbi tələbələri ölkədə təhsil almağa cəlb edirik, vətəndaşlarımızı xarici ölkələrin universitetlərində oxumaq üçün xaricə göndəririk. Bütün bunlar gələcəkdə öz təsirini göstərəcək və həm tələbə göndərən, həm də qəbul edən ölkələrə fayda verəcək. Bu, ölkələr arasında gələcək əməkdaşlığın, əlaqələrin möhkəmləndirilməsinin və daha yaxşı dünyanın qurulmasının əsasını qoyur. Gələcək əməkdaşlıq üçün maneələr aradan qaldırılır. Ənənəvi olaraq Rusiya və Azərbaycan təhsil sahəsində əməkdaşlıq edir. Halbuki əgər əvvəllər bu tendensiya Azərbaycandan Rusiyaya tələbə axınının xeyrinə idisə, indi tələbələrin – Rusiya vətəndaşlarının Azərbaycanda təhsil almaq imkanı yaranıb. Məsələn, mənim universitetim (Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu) indi məni Azərbaycana – ADA Universitetinə təcrübə proqramında iştirak üçün göndərir. Bu, həqiqətən, maraqlıdır. Tələbələr üçün yeni üfüqlər açılır.





*Bir neçə əlavə nümunə.*

Ümumiyyətlə, rəqəmləri bəyənirəm, onlar obyektiv qiymət verirlər. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda hazırda 78 tələbə – Azərbaycan vətəndaşı təhsil alır. Cəmi 8400 nəfərin (bakalavr və magistr) təhsil aldığı institutda tələbələrin 12%-i əcnəbilərdir.

Mənim fikrimcə, hazırda içində olduğumuz çətin dövrlərdə təhsil, elm və təbii ki, mədəniyyət sahəsində əlaqələri kəsməyə dəyməz. Bu əlaqələr gələcəkdə ölkələr arasında əlaqələrin bərpası üçün körpü ola bilər.

*Dillər*

Nə qədər çox dil bilsə, müasir insanın qloballaşan dünyada yaşaması bir o qədər asan olar. Dil hər bir xalqın sərvətidir. Bu gün 255 milyon insan rus dilində danışır. Onlardan 148 milyonu bu dili ana dili hesab edir. Ayrılıqda Azərbaycan dili ilə bağlı heç bir statistik məlumat tapmadım, yalnız təxmin edə bilərəm, Rusiyada 10 milyon azərbaycanlı yaşayır (amma hamının öz ana dilini bilməsi fakt deyil), İranda yaşayan azərbaycanlıların sayı dəqiq deyil. Amma Rusiyada yaşayan türkdilli xalqların statistikası var, ümumilikdə 90 milyon təşkil edir.

Təbii ki, dili öz ölkənizdən kənara da yaymaq lazımdır. Məsələn, Rusiyada Moskvada etnomədəni Azərbaycan komponentli orta məktəb var. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda, məsələn, Azərbaycan dilini öyrədirlər, bizdə Azərbaycan dilini bilən mütəxəssislər var.

Azərbaycanda tədrisin rus dilində olduğu 300-ə yaxın məktəb var və rusdilli universitet və proqramı da seçə bilərsiniz. Bu, əhəmiyyətli nailiyyətdir, bu fakt hər zaman yüksək səviyyədə qeyd olunur, hər iki tərəf bu rəqəmlərlə fəxr edir. Bu gün əsas odur ki, əldə etdiyimiz uğurları itirməyək.

*Təhsil sahəsində birgə layihələr*

Uğurla həyata keçirilən layihələrimiz var. Azərbaycanda hal-hazırda Lomonosov adına Moskva Dövlət Universitetinin filialı, Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu və ADA universitetlərində maliyyə üzrə birgə MBA proqramı fəaliyyət göstərir.

Ümumiyyətlə, Azərbaycan və Rusiya hələ də gənc dövlətlərdir və dünya universitetləri reytinqlərində hər iki ölkənin az sayda universiteti təmsil olunur. Bunlar əsasən texniki universitetlər və ya fakültələrdir, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu və ADA kimi humanitar universitetlər üçün özlərini sübut etmək olduqca çətindir.

*RAGT (Rusiya Azərbaycanlı Gənclər Təşkilatı)*[1]

Mən xüsusilə gənclərlə işi qeyd etmək istərdim. Rusiyada 15 il əvvəl Azərbaycan gənclər təşkilatı – RAGT yaradılıb, abreviatura çox simvolikdir. Biz Rusiyada azərbaycanlı gənclərin birləşməsində böyük uğurlar görürük: müntəzəm görüşlər keçirilir, ictimai tədbirlər təşkil olunur, milliyyətcə azərbaycanlı olmayan Rusiya vətəndaşları arasında Azərbaycanın müsbət imici təbliğ olunur. Bu təşkilatın yaradılmasının başlanğıcında Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunları dayanıb. Bu, gözəldir!

Rusiyanın Azərbaycandakı fəaliyyətinə gəlincə, rusdilli gənclərin və ya etnik rus olan Azərbaycan vətəndaşlarının tarixi vətənləri ilə əlaqəni kəsməmək üçün toplaşa biləcəyi bir neçə platforma var. Bu, həqiqətən, gözəldir və qürur üçün başqa bir səbəb verir.

*Problemlər və perspektivlər*

İndiki ekstremal şəraitdə elm və təhsil sahəsində əməkdaşlığı dayandırmağa ehtiyac yoxdur. Başa düşməliyik ki, gənclərimizin gözəl gələcəyinə ümid verən elm və təhsildir. Yalnız savadlı gənclər yüksək nəticələr əldə edə, ölkəni daha da yaxşılaşdıra bilər. Elmə, təhsilə çəkilən xərc gələcəyə qoyulan sərmayədir.

***Nizami MƏMMƏDOV***

*Ekoloji sivilizasiyanın astanasında: Yaşıl enerjiyə keçid*

*Annotasiya*

Çıxışda yaşıl enerjiyə keçid, ekoloji sivilizasiyanın formalaşmasının mühüm göstəricisi kimi təqdim olunur. Məqalədə iqlim dəyişikliyinin enerji kontekstində təhlili aparılır, bu mürəkkəb və dinamik prosesdə təbii və texnogen amillərin qarşılıqlı nisbəti müəyyən edilir. İqlim dəyişikliyinin yaratdığı geofiziki, ekoloji və sosial-iqtisadi nəticələrə diqqət yetirilir, bu sahədə beynəlxalq sazişlərin rolu və iqlim dəyişikliklərinin idarə edilməsinin mövcud səviyyəsi qiymətləndirilir.

[1] – AMOR (Азербайджанская Молодёжная Организация России)





İqlimin təbii tənzimlənmə mexanizmlərinin qorunması zərurəti əsaslandırılır və bəşəriyyətin yeni enerji modelinə keçidinin iqlim şəraitindən asılılığı vurğulanır. Günəş, külək və hidrogen enerjisindən istifadənin

Azərbaycan modeli kontekstində spesifik xüsusiyyətləri araşdırılır.

Açar sözlər: iqlim, iqlim dəyişikliyi, iqlimin təbii tənzimlənməsi, texnogen təsir, istixana qazları, nəzarət mexanizmləri, dünya enerjisi, yaşıl enerji, ekoloji sivilizasiya, Azərbaycan modeli.

*Giriş*

Son əsrlərdə elmi-texniki tərəqqi bəşəriyyətin sosial və iqtisadi inkişafına mühüm təsir göstərmişdir. Ancaq bu gün aydın olur ki, bu inkişafın bəzi nəticələri həm biosferə, həm də insanın özünə qarşı yönəlmişdir. XX əsrin ortalarından etibarən təbii mühitə texnogen təsirin miqyası elə həddə çatmışdır ki, insanlıq öz mövcudluğunu və gələcək nəsillərə nə miras qoyacağını ciddi şəkildə düşünməyə başlamışdır.

İqlim dəyişikliyi, biosferin deqradasiyası, antropoloji böhran, yeni virusların yayılması və süni intellektin sosial nəticələri müasir dövrün qlobal problemləri sırasına daxildir. Əhalinin və tələbatların artması, texnoloji yeniliklərin nizamsız tətbiqi biosferin mühüm ekoloji parametrlərinin pozulmasına səbəb olmuşdur.

Bu vəziyyətdən çıxış yolu təbiətə sırf utilitar münasibətin yenidən nəzərdən keçirilməsidir. Təbii mühitin tam qorunması mümkünsüzdür, lakin insan-təbiət münasibətlərindəki ziddiyyətlər insan fəaliyyətinin yönü və mahiyyəti dəyişməklə tənzimlənə bilər.

*Ekoloji sivilizasiya və elmi-texniki paradiqmalar*

Günümüzdə aydın olur ki, insan fəaliyyətinin metodologiyasında fundamental dəyişikliklər baş vermədiyi halda, ekoloji və antropoloji fəlakətlərin qarşısını almaq mümkün olmayacaq. Bəşəriyyətin strateji çıxış yolu – bütün sahələrdə yaşıl transformasiya və ekoloji sivilizasiyanın formalaşdırılmasıdır.

Texnogen sivilizasiyanın ekoloji sivilizasiyaya transformasiyası – sadəcə texnoloji dəyişiklik deyil, həm də mənəvi, etik və fəlsəfi baxımdan yeni mərhələyə keçiddir. Bu kontekstdə epistemologiya ilə etika arasındakı əlaqə, bilik və məsuliyyətin vəhdəti xüsusi əhəmiyyət kəsb edir.

Tarixi prosesin həm obyektiv, həm də subyektiv amillərlə müəyyən olunduğu nəzərə alınaraq, bəşəriyyətin gələcək inkişafının biosferin qanunlarına uyğun planlaşdırılması zərurəti ortaya çıxır.

*Enerji, cəmiyyət və iqlim əlaqəsi*

Enerji müasir cəmiyyətin fəaliyyətinin əsas sütunlarından biridir. Yaşıl enerji inqilabı təkcə enerji sektorunu deyil, bütün mədəni və sosial sistemləri yenidən formalaşdırma potensialına malikdir.

Burada iki əsas məqsəd var:

1. Fosil yanacaqlardan istifadənin minimuma endirilməsi.
2. Hidrogen, günəş, külək və hidroenerji kimi bərpa olunan enerji mənbələrinin inkişafı.

Enerji istehsalı və istehlakı səviyyəsi cəmiyyətin sivil və iqtisadi inkişafının göstəricisidir. Odur ki bu sahədə baş verən hər bir dəyişiklik geniş miqyaslı təsirlərə malikdir. Neft, qaz və kömür kimi ənənəvi resurslardan istifadə hələ davam etsə də, bəşəriyyət artıq bərpa olunan enerji erasına keçid mərhələsindədir.

*Azərbaycanın yaşıl enerji modeli*

Azərbaycan bu sahədə strateji liderlik nümayiş etdirir. Günəşli və küləkli iqlimi, enerji keçidini dəstəkləyən dövlət siyasəti və texnoloji investisiyalar bu keçidi mümkün edən əsas amillərdəndir. Külək və günəş enerjisi üzrə paralel və tamamlayıcı potensial, enerji təhlükəsizliyinin və sabitliyinin təminatına xidmət edir.

2020-ci ildən etibarən külək və günəş elektrik stansiyalarının genişmiqyaslı tikintisi Azərbaycanın bu sahədəki iddiasını praktiki fəaliyyətlə sübut edir.

Azərbaycanın COP29 konfransına ev sahibliyi etməsi, ölkənin qlobal ekoloji siyasətdəki rolunun və nüfuzunun göstəricisidir. Bu hadisə həmçinin qabaqcıl texnologiyaların ölkəyə transferi və ekoloji innovasiyaların təşviqi baxımından strateji əhəmiyyət daşıyır.

*Nəticə və tövsiyələr*

Cəmiyyətin biosfer prosesləri ilə uzlaşması – bəşəriyyətin qarşısında duran əsas çağırışdır. Ekoloji sivilizasiyanın qurulması üçün vacib olan addımlar bunlardır:

- Beynəlxalq əməkdaşlığın genişləndirilməsi;
- Biosferə uyğun texnologiyaların tətbiqi;
- Karbohidrogen yanacağın istifadəsinin azaldılması;
- Hidrogen, günəş və külək enerjisinin inkişafı;
- Davamlı ekoloji təhsil və ekomədəniyyətin formalaşdırılması.

Bu dəyişikliklər yalnız texniki deyil, həm də mədəni və mənəvi transformasiyanı tələb edir. Təbiət öz qanunlarını diktə edir – bəşəriyyət isə bu şərtlərlə yaşamağı öyrənməlidir.





*ƏDƏBİYYAT*


1. İlham Əliyev. Xızı-Abşeron Külək Elektrik Stansiyasının təməlqoyma mərasimində nitqi.13.01.2022. //https://president.az/az/articles/view/55816/videos
2. Mamedov N.M. Harmonization of the biosphere and technosphere as a global problem of modern times. // Philosophical Aspects of Globalization: A Multidisciplinary Inquiry. Brill Rodopi, Leiden, Boston. 2022. – p. 196–210.
3. Məmmədov N.M., Məmmədəliyeva S.Y. Ekologiya və texnika. Bakı: “Səda”. 1999. – 96 s. T. 5, №1. – 2024. //https:// ecopoiesis.ru
4. Ван Ж., Фан М., Ван Ц. Экологическая цивилизация, органическое процессуальное мышление и будущее Китая в глобальном контексте // Экопоэзис: экогуманитарные теория и практика. –
5. Гусейнов А. А. Мораль и наука: характер их связи // Вопросы философии. – № 9. 2022. – 14–24 с.
6. Мамедалиев Ю. Г. Проблема водорода в Азербайджане. //За нефтяную технику. № 34. – 1934.
7. Мамедов Н. М. Становление экологической цивилизации – смысл исторического процесса. // Век глобализации. № 4. – 2024.
8. Мамедов Н. М. Экология и устойчивое развитие. Москва: МГАДА, 2013. – 365 с.
9. На пути к экологической цивилизации: экогуманитарная перспектива. Под редакцией А. И. Копытина и др. Москва: Когито-Центр, 2024. – 454 с.
10. Сидорович Владимир. Мировая энергетическая революция. Как возобновляемые источники энергии изменят наш мир. –Москва: «Альпина Паблишер». 2015.–208 с.


***Reza MORİDİ***

*İstedad və hökumət siyasətləri: yeni inkişaf amillərinə keçid*

Hörmətli xanımlar və cənablar,

Son onilliklər ərzində qlobal iqtisadiyyat fasiləsiz və sürətlə dəyişən bir transformasiya dövrünü yaşayır. Bu dəyişikliklər getdikcə daha sürətli tempdə davam edir.

Bu sürətli dəyişikliklərin əsas səbəbi texnologiyanın inkişafı olmuşdur. 1980-ci illərin sonlarında fərdi kompüterlərin yaranması və daha sonra internetin meydana çıxması bu prosesə böyük təkan vermişdir. İnternet sadəcə dünyanı bir neçə düymənin basılması ilə birləşdirməklə qalmadı, həm də gündəlik həyatımızın, demək olar ki, hər aspektini köklü şəkildə dəyişdirdi.

İnternetin təsiri istehsalatdan xidmət sektoruna, səhiyyədən maliyyəyə qədər hər bir sahəyə yayılmışdır. Bu gün dünya iqtisadiyyatı bilik və istedada əsaslanan dəyər yaratma prinsipi ilə idarə olunur və artıq ənənəvi maddi resurslardan daha çox intellektual kapitala üstünlük verilir.

Bilik iqtisadiyyatı şəraitində xüsusi bacarıqlara malik mütəxəssislər iş bazarında daha güclü mövqeyə sahib olurlar. Mikroçip istehsalının, proqram mühəndisliyinin və kompüter elmlərinin inkişafı bizə yeni imkanlar və yeni çağırışlar bəxş etdi.

Süni İntellekt, Robototexnika, Əşyaların İnterneti, Kvant Kompüterlər, 5G Şəbəkələri, Avtonom Nəqliyyat Vasitələri, Böyük Məlumat (Big Data) və FinTech sahələrindəki inqilabi yeniliklər bu dəyişiklikləri daha da sürətləndirəcəkdir.

Həyat elmləri sahəsində 1961-ci ildə Torontoda kök hüceyrələrin kəşfi və DNT-nin – həyatın genetik kodunun – deşifr edilməsi tibb elmini “incəsənət”dən dəqiq elmə çevirdi. Riyaziyyat, fizika, kimya, biologiya və kompüter elmlərindəki kəşflər regenerativ tibb və fərdi tibb kimi sahələrin yaranmasına səbəb oldu. Bu irəliləyişlər təkcə insan sağlamlığını yaxşılaşdırmır, həm də həyat müddətini əhəmiyyətli dərəcədə uzadır. Bununla yanaşı, uzunömürlülüyün artması cəmiyyətlər üçün yeni problemlər yaradır – yaşlı nəsillərin təminatı məsələsi hökumətlərin qarşısında duran əsas çağırışlardan biri olacaqdır.

Ölkələr bu sürətli dəyişikliklərə uyğunlaşmalı və çevik siyasət yürütməlidir. Qlobal iqtisadiyyat artıq dərin inteqrasiyadan keçmişdir və bu gün heç bir ölkə tam müstəqil şəkildə inkişaf edə bilməz. Bu qarşılıqlı asılılıq beynəlxalq ticarət və diplomatik münasibətlər üçün həm imkanlar, həm də çətinliklər yaradır.

Bu gün ölkələrin üzləşdiyi ən böyük problemlərdən biri istedad və bacarıqlı kadrların təmin olunmasıdır. Yeni texnologiyalar üçün doğru mütəxəssisləri tapmaq və yetişdirmək hər bir iqtisadiyyatın uğurunun açarıdır. Əgər bazarda tələblərlə təklif arasında uyğunsuzluq yaranarsa, bu, milli iqtisadi inkişaf üçün ciddi fəsadlar törədə bilər.

Bu gün istedad qloballaşıb və sərhədləri tanımır – eynilə kapital kimi! Dövlətlər və şirkətlər ən parlaq beyinləri öz tərəflərinə çəkmək və saxlamaq üçün ciddi rəqabət aparırlar, çünki gələcək insan kapitalı və innovasiyalara əsaslanan iqtisadiyyatların olacaqdır.

Bununla yanaşı, bilik və bacarıqların ömrü getdikcə qısalır. Texnologiyadakı sürətli yeniliklərə görə universitet və ya peşə təhsili alan bir şəxs yalnız bir neçə ildən sonra öyrəndiklərinin köhnəlmiş olduğunu görə bilər. Bu isə davamlı təhsil və





peşəkar inkişafın nə qədər vacib olduğunu göstərir. Universitet və kollec diplomları yalnız bir başlanğıcdır – real dünyada daimi öyrənmə və təkmilləşmə zəruridir.

Şirkətlər analitik düşüncəyə və çevikliyə malik mütəxəssislər axtarır. Bu cür ixtisaslı kadrların çatışmazlığı şirkətlərin inkişafına, onların maliyyə göstəricilərinə və nəticə etibarilə milli iqtisadiyyata mənfi təsir göstərir.

Dünyanın bir çox ölkəsində işsizlik yüksək olsa da, şirkətlər lazımi bacarıqlara malik mütəxəssislər tapmaqda çətinlik çəkir. Bunu həll etmək üçün onlar dünyanın hər yerindən istedadlı insanları cəlb etməyə çalışırlar. Hökumətlər isə bu prosesə uyğunlaşaraq immiqrasiya qaydalarını dəyişdirir və yüksək ixtisaslı kadrların ölkədə qalması üçün şərait yaradır.

Məsələn, Kanada beynəlxalq tələbələrə məzun olduqdan sonra burada işləmək və Kanada iş təcrübəsi qazanmaq imkanı yaradır. Daha sonra isə bu tələbələr daimi yaşayış icazəsi və vətəndaşlıq üçün müraciət edə bilirlər.

Güclü və rəqabətədavamlı bilik iqtisadiyyatı yalnız yüksək ixtisaslı, daim özünü təkmilləşdirən işçi qüvvəsinə arxalana bilər. Sürətlə dəyişən dünyada yaşlı işçi qüvvəsinin texnoloji yeniliklərə ayaq uydurması getdikcə çətinləşir, bu isə hökumətlərin təhsil və bacarıqların inkişafı siyasətinə yenidən baxmasını tələb edir.

Gələcəyin qlobal iqtisadi liderliyi aşağıdakı amillərdən asılı olacaqdır:

- Təhsilə və fasiləsiz bacarıq inkişafına investisiya;
- İstedadlı insanları cəlb etmək və saxlamaq üçün çevik siyasətlər;
- Səmərəli immiqrasiya qaydaları və işçi qüvvəsi üçün açıq qapı siyasəti;
- Xarici investisiyaların təşviqi;
- İntellektual mülkiyyətin qorunması.

Bu strategiyanın uğurlu nümunələrindən biri “Amazon” şirkətinin Torontonu ABŞ-dən kənarda ikinci qərargah yeri kimi nəzərdən keçirməsidir. Şirkətin bu qərarı verməsində əsas amillərdən biri Ontario əyalətində mövcud olan geniş istedad və kadr potensialı olmuşdur.

Ontario əyalətində 16 milyon əhali və 850 milyard dollar ÜDM var. Hər il burada 50 000 STEM (elm, texnologiya, mühəndislik və riyaziyyat) mütəxəssisi məzun olur. Süni intellekt sahəsində sənayenin artan tələbatına cavab vermək üçün Ontario universitetləri illik 1000 magistr məzunu yetişdirir.

Kanadanın innovasiya tarixi böyük ixtiralarla zəngindir – telefon, smartfon, elektrik lampası, insulin, ürək ritmini tənzimləyən cihaz (pacemaker), meningit-C vaksini, kök hüceyrə kəşfi, yüksək dəqiqlikli elektron mikroskop və IMAX texnologiyası bu ölkənin yetirdiyi dəyərlərdən yalnız bir neçəsidir.

*Hörmətli xanımlar və cənablar,*

Bu inkişaf Kanadada və dünyada davam edir. Gələcək insana, biliyə və innovasiyalara sərmayə qoyan ölkələrin olacaqdır.

Təşəkkür edirəm! Sağ olun!

***Səadət KƏRİMİ***

*Azərbaycan Respublikası ilə Skandinaviya və digər Qərbi Avropa dövlətləri arasında elm, təhsil münasibətləri – aktual məsələlər*

Hörmətli xanımlar və bəylər! Dəyərli alimlərimiz!

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin I Forumuna xoş gəlmisiniz!

Mən Dünya Azərbaycanlı Alimlər Birliyinin (DAAB) İdarə Heyətinin üzvü və Aİ üzrə, xüsusilə Şimali Avropa ölkələri təmsilçisi olaraq, öz adımdan və dərnəyimiz adından öncə bizə bu şəraiti yaradan ölkə başçısı Prezident cənab İlham Əliyevə minnətdarlığımı bildirirəm. Məhz Prezident İlham Əliyevin müdrik siyasəti və tapşırıqlarına əsasən, bu gün diasporun daha mütəşəkkil formada inkişafı üçün məqsədyönlü fəaliyyət aparılmaqdadır. Başda cənab Fuad Muradov olmaqla, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi rəhbərliyinə, başda cənab Emin Əmrullayev olmaqla, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə, həmçinin forumun Təşkilat Komitəsinə və DAAB-nin sədri, dünya şöhrətli professor, riyaziyyatçı məsləkdaşım Məsud Əfəndiyevə bu foruma verdikləri dəstəyə görə dərin təşəkkürümü bildirirəm.

Təxminən iki il öncə biz DK-nın təşəbbüsü və dəstəyi ilə təşkil olunmuş İstanbul görüşündə bir konsepsiya üzərində birləşərək müqəddəs bir yola çıxdıq. Mən bir-birindən dəyərli və təcrübəli elm xadimlərinin bu yeni yaranmış təşkilatda ulu Vətənimiz Azərbaycan üçün elm və təhsil sahəsində verimli layihələr hazırlayıb həyata keçirəcəyinə əminəm. Bu, DAAB-nin tərtib etdiyi Nizamnaməsindən və başından bəri ortaya qoyulan ambisiyalardan aydın olur.

Mən 2000-ci ildən İsveç Krallığında yaşayıram və ilk ildən öz vətənimdə aldığım akademik təhsilin təsdiqini almış, qürurla İsveç elm və təhsil sistemində alim olaraq elmi, pedaqoji fəaliyyət aparmış, Azərbaycanı təmsil etmişəm. 2007-ci ildən başlayaraq azərbaycanlı tələbələr ERASMUS+ proqramının, Avropa Komissiyası, EACEA, AB heyəti və Azərbaycan dövləti əməkdaşlığı sayəsində Avropada, o cümlədən İsveçdə təhsil alırlar. Müxtəlif proqramların çərçivəsində





azərbaycanlı tələbələrin və alimlərin Avropa ali təhsil ocaqlarında təhsilini davam etdirməsi çox əlamətdar hadisədir.

Sayğıdəyər forum iştirakçıları! Bildiyiniz kimi, Aİ və Azərbaycan münasibətləri 1999-cu ildən qüvvədə olan Aİ-Azərbaycan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə əsaslanır. Geniş spektrdə Aİ-Azərbaycan əməkdaşlığını əks etdirmək, əsas sektorlarda siyasi dialoqu gücləndirmək və ticarəti artırmaq üçün nəzərdə tutulmuş yeni və təkmilləşdirilmiş çərçivə sazişi üzrə danışıqlar qabaqcıl mərhələdədir. 30 ildən artıqdır ki, tələbələr və işçilər ERASMUS proqramı çərçivəsində Avropa universitetləri arasında hərəkət etmişlər. 2015-ci ildən ERASMUS+ həmçinin tələbələr, tədqiqatçılar və işçilər üçün dünyanın digər yerlərindən Avropaya qısamüddətli mobilliyə icazə verib. Bu ikitərəfli mobillik tələbələrə 3–12 ay müddətində xarici universitetdə təhsil almağa və daha sonra göndərən müəssisədə dərəcələrinin bir hissəsi kimi tanınan kreditlər əldə etməyə imkan verir. 2018-ci ildən etibarən təcrübə keçmək də mümkündür. İşçilərin 5–60 günlük mobilliyi üçün də qrantlar verilir. Azərbaycanlı tələbələr və doktorantlar, eləcə də 2014–2020-ci illər üçün təhsil, təlim, gənclər və idman sahələrində fəaliyyət yaratmaq məqsədi daşıyan beynəlxalq ali təhsil səviyyəsini təyin etmək üçün Yeni ERASMUS+ proqramı iştirak etmişlərdir. Bu, ölkəmizin həm böyük potensialının göstəricisidir, həm də Azərbaycan üçün yaranan yeni potensial deməkdir!

Azərbaycandan olan 2000-dən artıq universitet tələbəsi və təhsil işçisi 2015–2020-ci illər arasında ERASMUS+ mübadilə proqramı çərçivəsində Avropada təhsil almaq və ya dərs demək imkanı qazanıb, 62 azərbaycanlı tələbəyə isə adıçəkilən dövrdə magistr təhsili almaq üçün təqaüd verilib. ERASMUS+ bakalavr, magistr və doktorantura tələbələri, o cümlədən yaxın illərdə məzun olanlar üçün (universiteti bitirdikdən sonra bir il ərzində) xaricdə işə yerləşdirilmə və təcrübə keçmə ilə bağlı dəstək təmin edir. 2014–2020-ci illər arasında Azərbaycandan 4 000-ə yaxın gənc və gənclər təşkilatı işçisi müştərək ERASMUS+ və gənclər layihələrində (mübadilə, təlim, siyasətlərin müzakirəsi, könüllülük) iştirak etmişdir.

Təhsil sahəsinə gəldikdə, fəxrlə demək istəyirəm ki, “Swedish İnstitute” adlı müəssisə tərəfindən verilən qrantlar da daxil olmaqla, hər il İsveç universitetlərində çoxlu sayda azərbaycanlı istedadlı gənc təhsil alır. Artıq Swedish Alumni – İsveç–Azərbaycan Tələbələr və Məzunlar Şəbəkəsi fəaliyyət göstərir və Gənc Avropa Səfirlərinin AB səviyyəsində etdiyi kimi, İsveçlə Azərbaycanı hər baxımdan bir-birinə yaxınlaşdırmaqda mühüm rol oynayır. Proqram-ölkə insti-

tutları Şərq tərəfdaşlığı ölkələrinin universitetləri ilə ikitərəfli əməkdaşlıq edir və tərəfdaşları adından müraciət edirlər. Azərbaycan ERASMUS Mundus Birgə Magistr dərəcələrində (EMJMDs) Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və dünyanın hər yerindən magistr tələbələri üçün təhsil, səyahət və yaşayış müavinətini əhatə edən təqaüdlərdə iştirak etmişdir. Azərbaycan, həmçinin iki ildən üç ilə qədər davam edən ERASMUS+ Ali Təhsildə Potensialın Gücləndirilməsi (CBHE) layihələrində iştirak edib ki, bunlar ali təhsil müəssisələrinin modernləşdirilməsi və islahatına, yeni kurikulumların hazırlanmasına, idarəetmənin təkmilləşdirilməsinə, ali təhsil müəssisələri ilə müəssisələr arasında əlaqələrin qurulmasına yönəlib. Onlar həmçinin milli hökumət orqanları ilə əməkdaşlıq edərək ali təhsil islahatları üçün zəmin hazırlayaraq siyasət mövzularını və məsələləri həll edə bilərlər.

İsveçdə ali təhsil hamınızın tanıdığı temperatur şkalasının ixtiraçısı Anders Selsiusun (Celsius) da çalışdığı Uppsala Universiteti 1477-ci ildə qurulduğundan bəri və akademik təhsil 17-ci əsrdən bəri fəaliyyət göstərdiyindən böyük təcrübəyə əsaslanır. Bioloq Karl fon Linne (Carl von Linné) və azadlıq dövrünün ruhunun digər müdafiəçiləri İsveç Elmlər Akademiyasının yaradılması, iqtisadiyyat üzrə professorluğun yaradılması və təbiət elmlərinə xüsusi önəm verilməsi ilə təhsil sistemini dəyişdirdilər. Bu qüvvələr həmçinin 1745-ci ildə İsveç təhsil sistemində islahatların aparılmasına yönəlmiş uzun cəhdlər silsiləsində ilk olaraq təhsil komissiyası təyin edən hökumətin arxasında idi. Dövlət 19-cu əsrdə universitetlərin maliyyələşdirilməsini və beləliklə, idarəetməni öz üzərinə götürməyə başladı. 19-cu əsrdə Uppsala və Lundda iki universitet var idi. Onların fəaliyyəti ilk dəfə 1852-ci il tarixli universitet nizamnaməsi ilə əlaqələndirilmiş, bununla da universitetlərin yurisdiksiyası onlardan alınaraq dövlətə verilmişdir. Qadınlar 1873-cü ildə universitet təhsilinə qəbul edildi: Ellen Fries 1883-cü ildə tarixində ilk qadın həkim oldu.

Karolinska İnstitutu 1810-cu ildə yaradılmış, 1861-ci ildə ona tibb üzrə lisentiad (med.lic) vermək hüququ və 1906-cı ildə doktorluq dərəcəsi vermək hüququ verilmişdir. Bu dövrdə universitet və xəstəxana birləşməklə Karolinska İnstitutut Avropada ilk universitet xəstəxanası olmuşdur. 19-cu əsrdə bir neçə universitet yaradılmışdır: Stokholm Universiteti, Höteborg Universiteti, Chalmers və KTH. 20-ci əsrin ilk illərində Umea Universiteti, Luleo Universiteti, Karlstad Universiteti, Jönköping Universiteti, Örebro Universiteti, Mid University of Sundsvall, Södertorn Högskola, Högskolan i Boros və bir çox başqaları, biznes məktəbləri, kənd təsərrüfatı məktəbləri və Hərbi Akademiya yaradıldı.





Bu təcrübə səbəbindən İsveç universitetləri ilə əməkdaşlıq edib təcrübələrindən bəhrələnmək bizim üçün məqsədəuyğundur. Bu səbəbdən Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) 2022-ci ilin yanvar ayında Ali Təhsildə ERASMUS + KA2 Potensialın Gücləndirilməsi layihəsinə müraciət etməyi planlaşdırdığında mənə edilən müraciət əsasında, UNEC ilə o zaman çalışdığım İsveçin KTH-si (Royal University of Technology) arasında əməkdaşlığın yaranmasında, çox böyük və əhatəli əməkdaşlıq müqaviləsinin bağlanmasında birbaşa rolum olduğu üçün sevinirəm. Layihənin məqsədi Bərpa Olunan Enerji Mənbələri (RES) və enerji səmərəliliyi sahəsində akademik heyətin potensialını artırmaq, mövcud tədris proqramlarını yeniləməkdir. Enerji ölkəsi kimi Azərbaycan ənənəvi enerji mənbələrindən çox asılıdır, lakin tədqiqatlar göstərir ki, ölkənin RES-də böyük potensialı var və ondan istifadə edilmir. Əsas məqsəd RES-də yerli insan kapitalını stimullaşdırmaq və layihə vasitəsilə hökumət-akademiya-sənaye əməkdaşlığını gücləndirməkdir. 2022-ci ildə UNEC ERASMUS KA2 layihəsi çərçivəsində təklifdə bizə qoşulacaq Avropa İttifaqına üzv dövlətdən tərəfdaş universitet axtarırdı. Araşdırma aparmış və KTH (Kral Texnologiya İnstitutu) haqqında məlumat tapmışdırlar. KTH-nin KTH və digər dörd Avropa universiteti tərəfindən təklif olunan Bərpa Olunan Enerji proqramında MS-də iştirak etdiyini görmüşdürlər. Sənaye Mühəndisliyi və İdarəetmə Məktəbinin Enerji Texnologiyaları Departamentinin professor-müəllim heyəti bərpa olunan resurslar sahəsində tədris və tədqiqat işləri ilə məşğuldur.

Hörmətli forum iştirakçıları! Hesab edirəm ki, DAAB konsepsiyası sayəsində belə nümunələrimiz, layihələrimiz, uğurlarımız qarşıda daha çox və daha səmərəli olacaqdır.

Elmi tədqiqat davamiyyətli cəmiyyətin inkişafının əsasını təşkil edən bilik və biliklərin qurulması üçün təməl təşkil edir. AGENDA 2030 proqramında tərtib edilmiş davamiyyətli inkişaf naminə qlobal məqsədlərə nail olmaq üçün tədqiqat bizim fikrimizcə mərkəzi rola malikdir (USA. About the Sustainable Development Goals. 2019. )

Beynəlxalq nöqteyi-nəzərdən İsveç bir neçə ildir ki, tədqiqat və inkişafa böyük resurslar yatırır. 2017-ci ildə İsveçdə elmi-tədqiqat və təkmilləşdirməyə ümumi xərclər Ümumi daxili məhsulun (Gross Domestic Product (GDP)) 3,3 faizini təşkil edib. Bu o deməkdir ki, İsveç Aİ-nin 3 faizlik hədəfini üstələyir və GDP-yə nisbətdə elmi-tədqiqata, təkmilləşdirməyə ən çox xərc çəkən OECD ölkələrindən biridir.

İsveç əhalisi arasında tədqiqatçıların yüksək nisbətinə malik ölkədir. Digər Skandinaviya ölkələri ilə birlikdə İsveç əhalisinin təqribən 0,75 faizi tədqiqat-

çı kimi çalışır. Bunu Hollandiya, İsveçrə, Böyük Britaniya və Almaniya kimi ölkələrlə müqayisə etmək olar, onlarda müvafiq faiz 0,4-0,5 faiz arasındadır. Əhaliyə düşən elmi nəşrlərin nisbətinə gəldikdə belə, İsveç yüksək yerləri tutur.

2015–2017-ci illər ərzində İsveçdə hər min nəfər əhaliyə, təxminən, 1,6 ədəd dərc edilmiş elmi məqalə düşür. Bu göstərici ilə İsveç yalnız Danimarka və İsveçrədən geridə durur, lakin Hollandiya, Böyük Britaniya, ABŞ və Almaniyanı qabaqlayır. İsveç həmçinin biliyə və tədqiqata böyük inamla səciyyələnir ki, bu da tədqiqatın ictimai problemləri həll etmək bacarığı üçün vacib şərtdir. İsveçin beynəlxalq miqyasda aparıcı tədqiqat ölkəsi olması üçün şərait buna görə yaxşıdır.

Dəyərli alimlər! Gələcəyin tədqiqat sistemi üçün İsveç tədqiqat sistemi problemlər və irəliləmə yollarını təqdim edir. Tədqiqat cəmiyyətin inkişafı, biznesin rəqabət qabiliyyəti və dünyanın üzləşdiyi sosial çağırışların öhdəsindən gəlmək üçün əsas olan biliklərin başlanğıc nöqtəsidir. Qarşıya qoyduğumuz məqsədlərə nail olmaq üçün bütün tədqiqatlar yüksək keyfiyyəti qoruyub saxlamalıdır, bu isə o deməkdir ki, biz mükəmməlliyə üstünlük verməliyik. İstər İsveç tədqiqatının keyfiyyətinin gücləndirilməsi, istərsə də bilikdə yeni sıçrayışlar üçün əsas şərt fərdi tədqiqatçının bütünlüyü və azadlığıdır. Eyni zamanda, cəmiyyətin tədqiqata və tədqiqatçılara yüksək etimadını qorumaq üçün şəffaflığın artırılması və yaxşı tədqiqat təcrübəsi ilə bağlı əsas konsensusun olması çox vacibdir.

İsveçin tədqiqat siyasətində əsas məqsəd uzun müddətdir ki, İsveçin dünyanın aparıcı tədqiqat və innovasiya ölkələrindən biri və aparıcı bilik ölkəsi olmasıdır. Bu gün dövlətimizin dəstəyi və çağırışı ilə burada olmağımız Azərbaycan Respublikasının da eyni məqsədi daşımasıdır! Və bizlər bütün gücümüzlə bu işdə yaxından iştirak etməliyik! Əlbəttə, burada hər iki ölkənin başlanğıc nöqtəsi ondan ibarətdir ki, yüksək keyfiyyətli tədqiqat, innovasiya və ali təhsil cəmiyyətin inkişafı və rifahına, iş dünyasının rəqabət qabiliyyətinə əsaslı şəkildə töhfə vermək və həm İsveçdə, Azərbaycanda, həm də qlobal miqyasda üzləşdiyimiz ictimai çağırışlara cavab verməkdir.

İsveç uzun illərdir ki, GDP-yə nisbətdə geniş elmi-tədqiqat və inkişaf xərcləri ilə tədqiqat və inkişafa böyük sərmayə qoyub. Beynəlxalq müqayisədə İsveç həm də tədqiqatçıların yüksək nisbətinə, adambaşına düşən elmi nəşrlərin yüksək nisbətinə görə seçilən və tədqiqata yüksək etimadı olan bir ölkədir. Bu rəhbər prinsiplərə əsaslanaraq İsveç Tədqiqat Şurası dünya səviyyəli İsveç tədqiqat sistemi üçün xüsusilə vacib olan on iki məqamı müəyyən etmişdir. Onları sizlər üçün səsləndirməkdə məqsədim həmin məqamların Azərbaycan üçün də yerinə düşdüyünü vurğulamaq istəməyimdir.





1. Tədqiqatçının təşəbbüsü ilə aparılan tədqiqatlar və azad tədqiqatçılar: Azad tədqiqatçılar və azad marağa əsaslanan tədqiqatlar yeni biliklərin, innovasiyaların və cəmiyyətin inkişafının əsasını təşkil edir. Cəmiyyətin uzunmüddətli inkişafı üçün şərait yaratmaqda azad tədqiqat dəstəyi gücləndirilməli, milli və ya beynəlxalq müsabiqələrdə ekspertlər tərəfindən qiymətləndirilən tədqiqatın keyfiyyətinə əsaslanaraq bölüşdürülməlidir.
2. Extern maliyyələşdirmə və əsas maliyyələşdirmə: İsveç tədqiqat keyfiyyətinin inkişafını təmin etmək üçün extern maliyyələşdirmə tələb olunur. Əsas maliyyələşdirmənin başlıca məqsədi ən yaxşı tədqiqatçıları daha yaxşı, daha uzunmüddətli və sabit şərtlərlə təmin etmək olmalıdır. Baza ayırmaları və hökumətin extern maliyyələşdirməsi arasında qarşılıqlı əlaqə aydın rolların bölüşdürülməsini və müxtəlif fondlardan necə istifadə olunduğuna dair aydın mənzərəni nəzərdə tutur.
3. Tədqiqat infrastrukturu: Qabaqcıl tədqiqat infrastrukturu bir çox hallarda ən yüksək keyfiyyətli tədqiqatların aparılması üçün ilkin şərtdir. Tədqiqat infrastrukturuna çıxışı yaxşılaşdırmaq üçün İsveç Tədqiqat Şurası tədqiqat infrastrukturunun prioritetləşdirilməsi, əlaqələndirilməsi və maliyyələşdirilməsinə cavabdeh rolunu qorumaq və gücləndirmək üçün artan resurslar almalıdır.
4. Görkəmli tədqiqat mühitləri: Yaxşı və yaradıcı tədqiqat mühitləri yüksək keyfiyyətli tədqiqat aparmaq və tədqiqat, təhsil və cəmiyyətin qalan hissəsini əlaqələndirmək üçün mühüm amildir. Tədqiqat mühitinin yaradılması üçün əsas məsuliyyət universitetlərin üzərinə düşür, extern maliyyə isə mühüm tamamlayıcıdır. Universitetlər güclü tədqiqat və təhsil mühiti üçün ən yaxşı şərait yaratmaq naminə daha geniş əməkdaşlıq etməlidirlər.
5. Strateji tədqiqat təşəbbüsləri: Strateji tədqiqat təşəbbüsləri azad maraq əsaslı tədqiqatın vacib tamamlayıcısıdır. Hökumət İsveç Tədqiqat Şurasına strateji tədqiqat səyləri üçün sahələr təklif etmək vəzifəsi ilə yeni strateji tədqiqatlar şurası yaratmaq tapşırığını verməlidir.
6. Dəyərləndirmə və keyfiyyət təminatı: Tədqiqat nəticələrinin dəyərləndirilməsi keyfiyyətə təkan verir. İsveç tədqiqatının ən yüksək elmi keyfiyyətə nail olması üçün bütün tədqiqatlar ekspert tərəfindən nəzərdən keçirilməlidir. Təhsil müəssisələri və milli aktorlar tərəfindən dəyərləndirmələr elə aparılmalıdır ki, bir-birini tamamlasın.

7. Beynəlxalqlaşma: İsveç universitetlərində tədqiqatçıların beynəlxalq əməkdaşlıq və kontekstlərdə iştirak etməsi İsveç tədqiqatının keyfiyyəti və inkişafı üçün çox vacibdir. İsveç həm təhsili, həm də tədqiqatı əhatə edən beynəlmiləlləşmə üçün birgə milli strategiyalar hazırlamalıdır.
8. Karyera yolları və mobillik: İsveç tədqiqatının uzunmüddətli keyfiyyətli inkişafı universitetlər və kolleclər daxilində karyera yolları üçün işlək və aydın sistem tələb edir. Bunun üçün maliyyə, tədqiqat, tədris xidmətləri və mobilliyi nəzərə alan və insan ləyaqətinə əsaslanan işə götürmə sisteminə daha çox resurs yönəldilməlidir.
9. Gender bərabərliyi: Tədqiqatın keyfiyyəti bərabər tədqiqat sistemi ilə gücləndirilir. Buna nail olmaq üçün ali təhsil müəssisələrinin gender bərabərliyinin təşviqi üzrə məsuliyyəti inkişaf etdirilməli və məsələn, əsas qrantların genderlə bağlı necə bölüşdürüldüyünə dair təqiblər vasitəsilə hesabat verilməlidir.
10. Tədqiqatda etika, yaxşı tədqiqat təcrübəsi və səhv davranış: Tədqiqatda etika tədqiqatın həyata keçirilməsi, keyfiyyət və etibarın təməl daşıdır. Tədqiqatın etik müayinələri bütün elmi sahədə və beynəlxalq əməkdaşlıqlarda qənaətbəxş və oxşar şəkildə fəaliyyət göstərməlidir. Yaxşı tədqiqat təcrübəsi üçün milli davranış kodeksi yaradılmalı, tədqiqat etikası məsələləri ilə bağlı məlumatlılıq və biliklər gücləndirilməlidir.
11. Açıq çıxış: Açıq girişə keçidi mümkün etmək üçün tədqiqat sisteminin aktorları arasında həm milli, həm də beynəlxalq səviyyədə dialoq tələb olunur. Elmi nəşrlərə açıq çıxışa keçid nəşrlərdə keyfiyyətə diqqət yetirməklə və tədqiqatçıların etimadnaməsini nəzərə almaqla həyata keçirilməlidir. Tədqiqat məlumatlarına açıq çıxışa keçiddə uğur qazanmaq üçün milli strategiya və artan resurslar tələb olunur.
12. Tədqiqat kommunikasiyası: Elmi prosesin elmi əsaslandırılmış biliyə və anlaşılmasına ehtiyac artır. Tədqiqat kommunikasiyaları ilə iş gücləndirilməli və əlaqələndirilməlidir ki, tədqiqatçılar, universitetlər və tədqiqat maliyyələşdirənlər bir-birini tamamlaya bilsinlər. Bundan əlavə, tədqiqatçılara öz tədqiqatlarını çatdırmağı asanlaşdıran biliklərin ötürülməsi üçün yeni infrastrukturlar inkişaf etdirilməlidir.

Əlbəttə, bilik və tədqiqat cəmiyyətimiz üçün yaxşı iqtisadi inkişafı, gələcək firavanlığımızı və davamlı rifahımızı təmin etmək üçün təməl təşkil edir. Lakin! Bununla belə, biz bilik və tədqiqatın əhəmiyyətinin getdikcə daha çox şübhə





altına alındığı – “alternativ” adlandırılan faktların mövcudluğunun sosial müzakirələrdə təkrarlanan mövzu olduğu, bilik və məlumatlara çıxışın fərdiləşdirildiyi bir dövrdə yaşayırıq! Bu da, öz növbəsində, cəmiyyətin biliyə və elmə olan inamına təsir göstərir. Tədqiqatın rolu və onun gələcəkdə hansı rol oynaya biləcəyi barədə məlumatlılığı artırmaq üçün bu gündən daha çox dərəcədə tədqiqatın cəmiyyətin qalan hissəsi ilə açıq əməkdaşlıq şəraitində aparılması vacibdir. Buna cavab vermək və cəmiyyətin inkişafı üçün möhkəm bilik bazası yaratmaq üçün aparılan tədqiqatlar yüksək keyfiyyətlə səciyyələnməlidir.

Forumun gedişatında hər birinizə uğurlar diləyir, diqqətinizə görə təşəkkür edirəm!

***Seymur NƏSİROV***

*Ərəb mənbələrində Azərbaycan və azərbaycanlılar*

Uzun bir tarixi dövr ərzində Azərbaycan tarixi Ərəb-İslam dünyası ilə bağlı olduğu üçün islam mədəniyyətinin mərkəzlərindən biri hesab olunan Misirin məşhur və qədim kitabxanalarında, İslama aid elmi araşdırmalar mərkəzlərinin arxivlərində, xüsusilə də dünyanın ən qədim islam elmi mərkəzi sayılan Əl-Əzhər Universitetinin kitabxanasında Azərbaycana aid çoxsaylı mənbələrə rast gəlmək mümkündür.

Qeyd etmək lazımdır ki, sovet dövründə Azərbaycan alimlərinə bu mənbələrlə daha yaxından işləməyə lazımi şərait yaradılmamış, ideoloji əsasda məhdudiyyətlər qoyulmuşdur. Bir çox hallarda Azərbaycan tarixi, ədəbiyyatı və incəsənəti ilə bağlı olan məlumatlar Moskva və o zaman Leninqrad şərqşünaslıq məktəbləri vasitəsilə Azərbaycana çatdırılmışdır ki, burada da siyasi-ideoloji əsasda təhriflərə yol verilmiş və məhdudiyyətlər tətbiq olunmuşdur.

Nəzərə almaq lazımdır ki, ərəb mənbələrində Azərbaycana və azərbaycanlılara aid mənbələrin yenidən tədqiqi Azərbaycan tarixinə və ədəbiyyatına məlum olmayan adları, faktları ortaya çıxarar, eyni zamanda yaradıcılıqları haqqında səthi məlumatlar olan Azərbaycan alimlərinin yeni əsərləri barədə yeni istinadlar aşkarlana bilər.

Əl-Əzhər Universitetində təhsil aldığım müddət ərzində ərəb mənbələrində Azərbaycana aid olan bəzi tarixi həqiqətlərin üzə çıxarılması və bununla da Azərbaycan tarixinin bizə qaranlıq qalan səhifələrinin yenidən öyrənilməsi işinə

töhfə vermək məqsədilə həmin sahədə araşdırmalara başladım. 25 ildən artıq davam edən bu fəaliyyət çərçivəsində minlərlə müxtəlif mənbəyə müraciət edərək, hər bir azərbaycanlıya iftixar hissi verəcək şanlı tariximiz və görkəmli şəxsiyyətlərimiz barədə yeni faktları üzə çıxarmağa nail oldum.

IX əsrin böyük ərəb alimi, ədəbiyyatşünas Abdullah bin Muslim ibn Quteybə "Şeir və şairlər" əsərində Əbu Yəqəzan əl-Cuveyriyyədən nəql edərək yazır: "Mədinə şəhərində yaşayan məvalidən (islam dinini qəbul etmiş qeyri-ərəblərdən) olan bütün şairlərin əsli azərbaycanlıdır"(1).

XI əsr ərəb alimi Əbu Tahir Əs-Siləfi Azərbaycanla Əndəlüs arasında müqayisə apararaq yazır: Azərbaycan ölkəsinin Şərqdəki yeri, elm və ədəbiyyatda Əndəlüsün Qərbdəki yeri kimidir. Bu iki ölkənin əhalisi elm öyrənməyə çox həvəslidir (2).

XIII əsr ərəb alimi İmam Cəzəri isə Azərbaycanın Mərənd şəhəri haqqında yazır: "Azərbaycan elmin hər bir sahəsində dahi alimlər yetişdirmişdir" (3).

Digər Orta əsr ərəb mütəfəkkiri İmam Səməani isə "Əl-Ənsab" (Nəsəblər) əsərində yazmışdır: "Azərbaycan qədimdən ta bu günə qədər alimlər yetişdirən bir diyardır" (4).

Ərəb alimi İbn Aşur "Ət-Təhrir və Ət-Tənvir" (Redaktəetmə və işıqlandırma)  adlı təfsir əsərində müqəddəs Qurani-Kərimin "əl-Casiyə" surəsinin on altıncı ayəsində cənnətdə vəsfi verilən xalçanın Azərbaycanla bağlılığı olduğuna işarə etmişdir. Onun təfsirinə görə, həmin ayədə cənnətin Azərbaycan xalçaları ilə döşəndiyi bildirilmişdir.

Qeyd etmək lazımdır ki, İbn  Aşur Quran təfsirçiləri arasında xüsusi hörmətə və nüfuza malik olan alimdir. Müəllif "əl-Casiyə" surəsinin on altıncı ayəsini şərh edərkən yazır ki, burada işlənən "zərabiy" "zərbiyə" kəlməsinin cəmi olaraq, "boyanmış", "yumşaq yundan toxunmuş kilim" və ya "xalça" mənasındadır. Xalçanı varlı və maddi durumu yüksək olan insanların bəzək və üzərində oturmaq üçün yerə sərdiklərini yazan İbn Aşur "zərbiyə" kəlməsi ilə ərəb dilinə xas inversiya olunmuş formada Buxara ölkələrindən olan Azərbaycana işarə edildiyi qənaətindədir. Belə ki "Zurbiyyə" kəlməsinin kar "z" samiti ilə işlənən "Əzribiyyə"yə işarə olduğunu yazan alim "a" hərfinin silinməsinin tələffüzü asanlaşdırmaq üçün ərəb dilində geniş yayılmış fonetik qayda olduğunu qeyd edir (5).

Ərəb dilinin fonetik quruluşu və qrammatikası baxımından tutarlı dəlillər gətirən İbn Aşurun bu təfsiri ilə hamı hesablaşır. Digər tərəfdən, Azərbaycanın qədim xalçaçılıq sənətinin dünyada şöhrət qazandığını və bu ənənələrin günümüzə qədər gəlib çatdığını nəzərə alsaq, burada məntiqi əlaqənin təməlini görərik. Əlbəttə, İbn Aşurun təfsirinə istinadən sözügedən ayənin Azərbaycanla bağlı hər hansı bir ehtimalı ortaya qoyması xüsusi əhəmiyyət kəsb edə bilər.





XIII–XIV əsrlərdə yaşamış coğrafiyaşünas alim əl-Qəzvini "Asar əl-Bilad və Əxbar əl-İbad" (Ölkələrdən nişanələr və bəndələrdən xəbərlər) əsərində Hz. Məhəmmədin (s) hədisində Savalan dağından danışarkən Azərbaycan adının qeyd olunduğu rəvayəti nəql edir (6).

Qəzvini eyni mənbədə Azərbaycanın qədim şəhəri Gəncə haqqında yazarkən dahi Azərbaycan şairi Əbu Məhəmməd Nizamidən (Nizami Gəncəvidən) bəhs edir. Gəncənin coğrafiyası, tarixi və sakinlərinin əsas məşğuliyyətindən danışan alim Əbu Məhəmməd Nizaminin dahi və müdrik şair olduğunu və onun "Xosrov və Şirin", "Leyli və Məcnun", "Sirlər xəzinəsi" və "Yeddi gözəl" kimi əsərlərinin olduğunu yazaraq, Nizaminin hicri tarixi ilə təqribən 590-cı ildə vəfat etdiyini qeyd edir (7).

XIII əsrdə yaşamış böyük ərəb coğrafiyaşünası Məhəmməd bin Əbdul Munim Himyəri qələmə aldığı "Ər-Raudu əl-Mitar fi Xəbəri əl-Əqtar"(Ölkələrdən xəbər verən ətirli bağça) əsərində xəlifə Əbubəkrin özündən sonra Hz. Öməri xəlifə təyin etmək istədiyində Azərbaycan yununun adını çəkdiyini yazmışdır. Bundan başqa, Himyəri Azərbaycan haqqında məlumat verərkən azərbaycanlıların elmə bağlı olduqlarını və elmin müxtəlif sahələrində şöhrət tapdıqlarını xüsusilə qeyd etmişdir (8).

Azərbaycana aid mənbələrdə rast gəlinməyən digər maraqlı fakt isə ərəb tarixi mənbələrində Səlib yürüşlərinin qarşısının alınmasında, müsəlman torpaqlarının işğaldan azad edilməsində mühüm xidmətləri olmuş sərkərdə Sultan Səlahəddin Əyyubinin Azərbaycandan olması barəsində söylənilən fikirlərdir. XVI əsrin əvvəllərində yaşamış ensiklopedik biliyə malik ərəb alimi İbn Xallikən "Vəfiyyətu əl-Əyani və Ənbəi Əbnəi əz-Zəmən" (Tanınmış adamların vəfatları və zaman övladlarının xəbərləri) əsərində yazır ki, bütün tarixi mənbələrə görə, Sultan Səlahəddin Əyyubi və əyyubilər ailəsi Azərbaycanın qərbində yerləşən, gürcülərin ölkəsinə yaxın Dvin şəhərindəndir (9).

Həmçinin XIII əsrin ikinci yarısında yaşamış tarixşünas alim İbn əl-Əsir (10), XIV əsrdə yaşayıb yaratmış İmam Zəhəbi (11), XV əsrin əvvəllərində yaşamış Təğriberdi və başqaları Səlahəddin Əyyubinin Azərbaycandan olduğu qənaətindədirlər (12).

*ƏDƏBİYYAT*

1. Əbu Məhəmməd Abdullah ibn Muslim ibn Quteybə – "Əş-Şiir və aş-Şuəra" (Şer və şairlər). "Dəru əl-Məarifi" (Maarif evi) nəşriyyatı , Qahirə : 577
2. Əhməd ibn Məhəmməd əl-Muqri əl-Təlməsani – "Nafhu ət-Tib min Ğusni əl-Əndəlusi ər-Rətib" (Yaş Əndəlos budağından ətirli qoxu) ,"Dəru Sadir" (Sadir evi) nəşriyyatı , Beyrut: 3/224
3. Əli ibn Mahmud əş-Şeybani əl-Cəzəri – "Əl-lubab fi Təhzibi əl-Ənsəb"(Nəsəblərin düzgün tərtibində seçilmiş əsər) ,"Dəru Sadir" (Sadir evi), Beyrut. 3/198
4. Abdulkərim ibn Məhəmməd ət-Təmimi əs-Səməani – "Əl-Ənsəb"(Nəsəblər) , "Dər əl-cinan" "Mərkəz əl-Xədəmət və əl-Əbhəs əs-Səqafiyyə" (Mədəni xidmətlər və araşdırmalar mərkəzi nəşriyyatı): 5/261
5. Məhəmməd ət-Tahir ibn Aşur ət-Tunisi – "Ət-təhrir və ət-tənvir" (Redaktəetmə və işıqlandırma), "Muəssəsə ət-Tarix əl-Ərəbi" (ərəb tarixi müəssisəsi), Beyrut .30/268
6. Zəkəriyyə ibn Mahmud ibn Mahmud əl-Qazvini – "Asaru əl-Biləd və Əxbaru əl-İbəd"(Ölkələrdən nişanələr və bəndələrdən xəbərlər), "Dəru Sadir" (Sadir evi) nəşriyyatı , Beyrut.: 284
7. Zəkəriyyə ibn Mahmud ibn Mahmud əl-Qazvini – "Asaru əl-Biləd və Əxbaru əl-İbəd" (Ölkələrdən nişanələr və bəndələrdən xəbərlər),"Dəru Sadir" (Sadir evi), nəşriyyatı, Beyrut. 523
8. Məhəmməd ibn Abdulmunim əl-Himyəri – "Ər-Raudu əl-Mitar fi Xəbəri əl-Əqtar"(Ölkələrdən xəbər verən ətirli bağça) , "Muəssəsə Nasir Lissəqafə" (Nasir mədəniyyət müəssisəsi) , Beyrut.1/20.
9. Əhməd ibn Muhamməd ibn Xallikən –"Vəfiyyətu əl-Əyani və Ənbəi Əbnəi əz-Zəmən"(Tanınmış adamların vəfatları və zaman övladlarının xəbərləri), "Dəru əs-səqafə" (Mədəniyyət evi) nəşriyyatı, Livan. 1/259
10. İbn Əl-Əsir Ali ibn Məhəmməd əş-Şeybani – "Əl-Kəmil fi ət-Tərix" (Tarixdə kamil əsər"), "Dəru əl-Kutub əl-İlmiyyə" (Elmi kitablar evi) nəşriyyatı, Beyrut.10/16
11. Mahmud ibn Əhməd əz-Zəhəbi –"Siyər Ələmi ən-Nubələi" (Görkəmli şəxslərin həyatı), "Muəssətu ər-Risalə" (məktub müəssisəsi). 21/278
12. Yusif ibn Təğriberdi Əl-Atabəki – "Mərəddu əl-Lətafə"(Lütfkarlığın dönüş yeri) – "Dəru əl-Kutubi əl-Məsriyyə" (Misir kitabları evi) nəşriyyatı , Qahirə, 1997-ci il. 2/3





***Toğrul İSMAYIL***

*Azərbaycan və Türkiyə arasında elm və təhsil sahəsindəki əməkdaşlıq məsələlərinə aktual yanaşma*

Azərbaycan və Türkiyə arasında elm və təhsil sahəsindəki əməkdaşlıq illər boyu möhkəmlənmiş və strateji əhəmiyyət daşıyan bir əlaqə olaraq davam etmişdir. Hər iki ölkənin tarixi, mədəni və dil baxımından yaxınlıqları bu sahədə əməkdaşlığın inkişafına təkan vermişdir. Aşağıda bu əməkdaşlığın aktual istiqamətləri və əsas aspektləri təqdim olunur:

*1. Müqavilələr və protokollar*

Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası: Azərbaycan və Türkiyə arasında 2011-ci ildə təsis edilmiş bu şura iki ölkə arasında təhsil və elmi əməkdaşlığı gücləndirmək üçün bir platforma yaradır. Müxtəlif razılaşmalar çərçivəsində təhsil mübadiləsi, tədqiqat layihələri və birgə proqramların təşviqi ilə bağlı konkret addımlar atılmışdır.

YÖK (Türkiyə Ali Təhsil Qurumu) və Azərbaycan Təhsil Nazirliyi arasındakı anlaşmalar: Bu anlaşmalar çərçivəsində universitetlər arasında tələbə və müəllim mübadiləsi, birgə elmi tədqiqatlar və proqramlar həyata keçirilir.

*2. Universitetlərarası əməkdaşlıq*

Birgə Təhsil Proqramları: Azərbaycan və Türkiyənin bir çox universitetləri arasında tələbə və müəllim mübadiləsi proqramları fəaliyyət göstərir. Bu proqramlar tələbələrin hər iki ölkədə təhsil almasına, təcrübə keçməsinə və iki ölkənin akademik standartlarına uyğun tədris almasına imkan yaradır.

Türk Dünyası Universitetlər Birliyi: Bu birlik Azərbaycan və Türkiyə də daxil olmaqla, Türk dövlətləri arasında təhsil sahəsində əməkdaşlığı təşviq etmək üçün yaradılmışdır. Birlik çərçivəsində müxtəlif seminarlar, konfranslar və birgə layihələr təşkil olunur.

*3. Tələbə mübadiləsi və təqaüdlər*

Azərbaycanlı tələbələr üçün Türkiyə təqaüdləri: Hər il minlərlə azərbaycanlı tələbə Türkiyədə müxtəlif sahələr üzrə bakalavr, magistr və doktorantura təhsilinə qəbul olur. Türkiyə hökuməti azərbaycanlı tələbələrə müxtəlif təqaüdlər və maliyyə dəstəyi təklif edir.

ERASMUS+ proqramı: Bu proqram çərçivəsində Azərbaycan və Türkiyə universitetləri arasında tələbə mübadiləsi və qısamüddətli təhsil imkanları təmin

edilir. ERASMUS+ azərbaycanlı tələbələrə Avropa ölkələrində təhsil alma imkanı verir və Türkiyə bu proqramda fəal rol oynayır.

*4. Elmi tədqiqat və innovasiya əməkdaşlığı*

Birgə tədqiqat layihələri: Azərbaycan və Türkiyə alimləri müxtəlif sahələrdə, xüsusən enerji, mühəndislik, texnologiya və humanitar sahələrdə birgə tədqiqat layihələri həyata keçirirlər.

Texnoparklar və innovasiya mərkəzləri: Türkiyə və Azərbaycanda fəaliyyət göstərən texnoparklar və innovasiya mərkəzləri arasında əməkdaşlıq qurulmuşdur. Bu əməkdaşlıq çərçivəsində startaplar və innovativ layihələr dəstəklənir.

*5. Mədəniyyət və dil əlaqələri*

Türkiyə türk dili və mədəniyyət institutları: Bu institutlar Azərbaycanda türk dilinin və mədəniyyətinin tədrisi və təbliği ilə məşğuldur. Eyni zamanda Azərbaycanda türk dili və ədəbiyyatı sahəsində fəaliyyət göstərən mərkəzlər mövcuddur.

Türkiyədə Azərbaycan dili və mədəniyyət mərkəzləri: Bu mərkəzlər Türkiyədə Azərbaycan dili və mədəniyyətinin tədrisi, təbliği ilə məşğuldur, mədəni tədbirlər təşkil edir və iki ölkə arasında mədəni əlaqələrin güclənməsinə dəstək verir.

*6. Gələcək perspektivlər*

İki ölkə arasında akademik və elmi əməkdaşlığın genişlənməsi: Azərbaycan və Türkiyə təhsil nazirlikləri arasında əməkdaşlıq müqavilələrinin yenilənməsi, genişləndirilməsi planlaşdırılır. Yeni birgə tədqiqat layihələrinin başlanması və yeni təhsil proqramlarının həyata keçirilməsi gözlənilir.

Rəqəmsal təhsil platformaları və onlayn kurslar: Müasir texnologiyaların istifadəsi ilə hər iki ölkənin universitetləri arasında onlayn kurslar və virtual təhsil proqramları təşviq olunur.

Azərbaycan və Türkiyə arasında elm və təhsil sahəsində əməkdaşlıq iki qardaş ölkənin gələcəkdə də davam edəcək güclü əlaqələrinin təməlini təşkil edir. Bu əməkdaşlıq gənc nəslin daha yaxşı təhsil almasına və hər iki ölkənin elmi inkişafına töhfə verəcəkdir.

Azərbaycan və Türkiyə arasında elmi əməkdaşlıq çox güclü mədəni əlaqələr və ortaq tarixi keçmiş sayəsində perspektivli bir sahədir. Lakin bu sahədə müəyyən çətinliklər və problemlər yarana bilər. Əsas problemlər bunlardır:

- Maliyyə və resurs çatışmazlığı: Elmi layihələrin həyata keçirilməsi üçün kifayət qədər maliyyə dəstəyinin təmin edilməməsi əməkdaşlığı məhdudlaşdıra bilər. İki ölkə arasında əməkdaşlıq daha çox vəsaitlə dəstəklənməlidir.
- Bürokratik maneələr: Akademik əməkdaşlıqlarda vizalar və yaşayış icazələri kimi bürokratik proseslərin mürəkkəbliyi tədqiqatçı mübadiləsini çətinləşdirə, tədqiqat vaxtlarına təsir edə bilər.
- İnfrastruktur və texnoloji çatışmazlıqlar: Türkiyə son illərdə tədqiqat infrastrukturunu inkişaf etdirməkdə böyük addımlar atsa da, bəzi sahələrdə lazımi infrastruktur və texnoloji imkanlar hələ də qeyri-kafi ola bilər. Oxşar infrastruktur problemləri Azərbaycanda da yaşana bilər.
- Dil və ünsiyyət maneələri: Türk və Azərbaycan dilləri yaxın dil olsa da, akademik yazışmalar və terminoloji fərqlər ünsiyyəti çətinləşdirə bilər. Birgə layihələrdə dil uyğunluğu problemləri ola bilər. Buna diqqət edilməsi vacibdir.
- Strateji Planlaşdırmanın olmaması: İki ölkə arasında müəyyən tədqiqat sahələrində uzunmüddətli strateji planlar və məqsədlər tam olaraq müəyyən edilməmiş ola və bu, elmi əməkdaşlığın davamlılığına mənfi təsir göstərə bilər.
- Akademik standartların uyğunlaşdırılması: Akademik standartlar və meyarlar iki ölkədə fərqli ola bilər. Bu uyğunsuzluq birgə tədqiqat layihələrində və ya nəşrlərdə problemlər yarada bilər.

Bu cür problemlər daha güclü koordinasiya, siyasətin uyğunlaşdırılması və ümumi məqsədlərin müəyyən edilməsi ilə aradan qaldırıla bilər. İki ölkə arasında əməkdaşlıq potensialı qiymətləndirildikdə mövcud problemlərin həlli ilə elmi əməkdaşlığı daha da inkişaf etdirmək olar.

Eyni zamanda Türkiyədə yaşayan Azərbaycanəsilli alimlər müxtəlif elmi sahələrdə mühüm töhfələr veriblər. Bu elm adamları akademik aləmdə və tədqiqat mərkəzlərində, xüsusilə mühəndislik, tibb, sosial elmlər və fizika elmləri kimi sahələrdə diqqətəlayiq tədqiqatlar aparmışlar.

*1. Nəşrlər və beynəlxalq əməkdaşlıqlar*

Türkiyədəki Azərbaycanəsilli alimlər beynəlxalq jurnallarda çoxlu elmi məqalə dərc etdirmiş, müxtəlif konfranslarda məruzələrlə çıxış etmişlər. Bu nəşrlər Azərbaycan və Türkiyə arasında elmi əməkdaşlığı gücləndirmiş və iki ölkənin akademik dünyada tanınmasını artırmışdır.

Bundan əlavə, bu alimlər beynəlxalq tədqiqat layihələrində iştirak edərək qlobal elmi şəbəkələrə inteqrasiya və biliklərin mübadiləsində mühüm rol oynamışlar.

*2. Təhsil və akademik töhfələr*

Türkiyədə universitetlərdə çalışan azərbaycanlı alimlər tələbələrə mühazirə oxumaqla, elmi işləri aparmaqla yeni nəsil alimlərin yetişdirilməsinə öz töhfələrini verirlər. Bu elm xadimləri müxtəlif tədqiqat mərkəzlərində və laboratoriyalarda layihələr həyata keçirərək elmi tədqiqatların inkişafına da öz töhfələrini verirlər.

Türkiyədə yaşayan Azərbaycanəsilli alimlər iki ölkə arasında möhkəm mədəni və akademik əlaqələri daha da möhkəmləndirərək elmə və bəşəriyyətə dəyərli töhfələr verməkdə davam edirlər.

***Toğrul KƏRİMOV***

*Sənaye inqilablarında müasir riyazi metodların rolu*

Hörmətli xanımlar və cənablar,

İcazə verin Azərbaycan elmi ictimaiyyətinin həyatında çox əlamətdar hadisə olan bugünkü forumun iştirakçılarını salamlayım, belə mühüm əhəmiyyət kəsb edən tədbirin keçirilməsi təşəbbüsünü irəli sürən alimlərimizə və təşkilatçılara öz təşəkkürümü bildirim.

Sizə sənaye inqilablarında müasir riyaziyyatın rolu haqqında danışmaq istərdim.

Ölkəmiz öz zəngin resursları, kadr potensialı və uğurlu xarici siyasəti ilə dünya iqtisadi sisteminə getdikcə daha çox inteqrasiya olunur və hazırda 4-cü sənaye inqilabını yaşayır. Dövlətimizin başçısı cənab İlham Əliyev bu prosesə çox böyük önəm verir. Cəmiyyətin və iqtisadiyyatımızın bu çağırışlara hazır olması üçün hökumət qarşısında konkret vəzifələr müəyyən edilmişdir.

Sənaye inqilablarını qısaca xatırlayaq. 1-ci sənaye inqilabı buxar maşınının, 2-ci sənaye inqilabı dəmir yolları və teleqrafın yaranması, 3-cü inqilab isə rabitə və sənaye proseslərinin rəqəmsallaşdırılması ilə səciyyələnir. Bu inqilablar ayrı-ayrı iqtisadi, texnoloji və sosial sistemlərdə ciddi keyfiyyət dəyişikliklərinə səbəb olmuşdur.

Hazırkı dövrdə 4-cü sənaye inqilabı (Sənaye 4.0) baş verməkdədir ki, bu da süni intellekt, əşyaların interneti (IoT), kiber-fiziki sistemlərin meydana gəlməsi və onların insanların həyatına təsirinin artması ilə səciyyələnir.

Yaxın gələcəkdə 5-ci sənaye inqilabı da gözlənilir. Avropa Birliyinin təbirincə desək, bu zaman sənaye dəyərlərinin insan dəyərlərinə uyğunlaşdırılması baş verəcək.

Hazırda dünyada kiber-fiziki sistemlərin mövcudluğunun və iştirakının sürətlə artması baş verir. Nümunə olaraq müasir avtomobili göstərmək olar. Burada kiber – alqoritmlər, verilənlərin təhlili, qərar qəbul etmə, fiziki ifadəsi isə mexaniki hissələr, koordinatlar, enerji mənasını verir.





Sistemin proqram təminatı spesifikasiyasını (burada: “Avtomobilin sürəti verilmiş aralıqda tənzimlənsin”) yerinə yetirmək üçün mexaniki hissələri idarə edir.

Müasir tədqiqatların qarşısında duran ən vacib vəzifə kiber-fiziki sistemlər üçün zəmanətli alqoritmlərin hazırlanmasıdır.

- Verilənlər: sistemin modeli, tələb olunan spesifikasiyalardır.
- Nəticə: sistemi idarə edən proqram və ya zəmanətin (“Sistem, ən azı, 99.9% ehtimalla tələbləri təhlükəsiz şəkildə yerinə yetirir”) işlənib-hazırlanmasıdır.

Bu alqoritmlərin və zəmanətlərin əldə edilməsi hüquqi baxımdan da vacibdir: özü hərəkət edən avtomobil nə zaman istifadəyə buraxıla bilər?

*Riyazi metodlar*

Sistemlərin fiziki komponenti diferensial tənliklər vasitəsilə modelləşdirilir → klassik tədqiqat sahəsi

*Sənaye 4.0 üçün tələb olunan alqoritmlər*

- Verilən: diferensial tənlik, xassə (“t-nin bütün qiymətləri üçün $2x(t) + 3y(t) > 1$”)
- Nəticə: verilən tənliyin həlli verilən xassəyə malikdirmi?

*Son on ildə əldə olunmuş nəticələr*

- Bu alqoritmlərin yaradılması ədədlər nəzəriyyəsi və Diofant approksimasiyasında Fields mükafatına layiq görülmüş nəticələr tələb edir! (Məsələn, Baker teoremi.)
- Bu əlaqə iki istiqamətlidir: bəzi kiber-fiziki sistemlərin doğruluğunu və təhlükəsizliyini təmin edən alqoritmləri sintez edə bilsək, ədədlər nəzəriyyəsində yeniliklərə nail olacağıq. (Məsələn, Skolem probleminin həlli, “p-adic subspace” teoreminin effektiv versiyası).

*Mənim tədqiqat sahəm*

Kompüter elmlərinin nəzəriyyəsi, müasir ədədlər nəzəriyyəsinin kiber-fiziki sistemlərə tətbiqi, bu sistemlər üçün sürətli alqoritmlərin yaradılması

*Qısa xülasə:* Kiber-fiziki sistemlərin aktual alqoritmik problemləri ədədlər nəzəriyyəsinin aktual problemləri ilə sıx bağlıdır.

***Xədicə ZEYNALOVA***

*Qlobal mədəni əlaqələr, Azərbaycan mədəniyyətinin və zəngin musiqi tarixinin dünya miqyasında tanıdılması və təbliği*

Hörmətli forum iştirakçıları!

Əziz qonaqlar!

Mən öncə Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumunun nümayəndələrini və qonaqlarını salamlayır və hər bir iştirakçıya uğurlar diləyirəm.

Çıxışım *"Qlobal mədəni əlaqələr, Azərbaycan mədəniyyətinin, zəngin musiqi tarixinin dünya miqyasında tanıdılması və təbliği"* mövzusundadır.

Azərbaycan qədim mədəniyyətə malik bir ölkədir. Tarixə nəzər salsaq, Avropa ilə Asiyanın kəsişməsində yerləşən bu ölkənin mədəniyyəti, folkloru əsrlərə söykənir.

Bizim zəngin musiqimiz, aşıq sənətimiz, muğamlarımız, şifahi xalq ədəbiyyatımız, Şərqdə ilk operanın yaradılması – bütün bunlar Azərbaycan xalqına məxsusdur.

Son dövrlər Heydər Əliyev Fondunun gördüyü qlobal işlər – muğamımızın dünyada tanıdılması, tarixi abidələrimizin, musiqi alətlərimizin UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi çox mühüm təqdirəlayiq işlərdəndir. Mədəniyyət Nazirliyinin, Dövlət Diaspor Komitəsinin və Fondunun Azərbaycan mədəniyyətinin təbliğində gördüyü işlər danılmazdır.

Son illərdə bu uğurlara baxmayaraq, qlobal mədəni əlaqələri daha da artırmaq məqsədilə və eyni zamanda Azərbaycanın mədəni zənginliklərini dünyaya çatdırmaq üçün məlumatların rəqəmsallaşdırılmasına ehtiyac duyulur.

25 illik musiqişünas, bəstəkarlıq təcrübəmə əsaslanaraq, *"Bridge of Sound"* təşkilatının, *"Harmony of Sound"* Beynəlxalq Musiqi Festivalının təsisçisi və bədii rəhbəri olaraq topladığım təcrübə əsasında Azərbaycan mədəniyyətinin dünya miqyasında tanıdılması üçün aşağıdakı strategiyanı təklif etmək istəyirəm:

*1. Rəqəmsal platformanın yaradılması*

Hesab edirəm ki, ilk növbədə, Azərbaycan mədəniyyətini tanıtmağa imkan verən vahid rəqəmsal platformanın yaradılması zəruridir. Bu platforma Azərbaycan mədəniyyətinin tarixi, ənənələri və musiqisi barədə məlumatları bir araya gətirəcək və yeni resurslarla zənginləşdirəcək.

Azərbaycan mədəniyyəti haqqında bilgi əldə etmək üçün bu platformada bütün zəruri məlumatlar toplanmış olsun.

Fikrimcə, platforma çoxdilli olmalı, incəsənət nümunələri və musiqi əsərlərinin rəqəmsal formatda təqdim edilməsini təmin etməlidir.





*2. Rəqəmsal platformanın təbliği və yayımlanması*

Platforma fəaliyyətə başladıqdan sonra növbəti mərhələdə qarşıda duran məsələ bu resursların xaricdə təbliğidir. Musiqi sahəsində Azərbaycan bəstəkarlarının əsərlərinin xaricdə nəşri, tərcüməsi və ya CD formatında istehsalı və s. Məqsəd Azərbaycan mədəniyyəti haqqında məlumatları xarici auditoriyaya əlçatan etməkdir.

*3. Beynəlxalq əməkdaşlıqların qurulması*

Rəqəmsal platforma qurulduqdan sonra universitetlər, institutlar, fondlar və digər təşkilatlarla qarşılıqlı əlaqələr qurmaq çox vacibdir. Bu əməkdaşlıqların məqsədi ölkələrimiz arasında mədəniyyət əlaqələrinin qurulmasıdır. Azərbaycan mədəniyyəti ilə bağlı seminarlar, vorkşoplar keçirmək və bu mübadilələri daha əlçatan etmək üçün qısamüddətli təqaüd proqramları təşkil etmək məqsədəuyğun olardı. Həmçinin Qarabağ Universiteti ilə xarici təhsil ocaqları arasında qarşılıqlı əlaqələrin və proqramların təşkil edilməsi, simpozium və konfransların təşkili çox vacibdir. Xaricdə yaşayan və fəaliyyət göstərən azərbaycanlı musiqiçilərin Qarabağ Universitetində ustad dərslərinin keçirilməsinin təmin olunması da məqsədəuyğundur.

Eyni zamanda müəllif hüquqları sahəsində Azərbaycanın beynəlxalq hüquq təşkilatları ilə əlaqələrini gücləndirmək vacibdir. Almaniyada "GEMA" adlanan müəllif hüquqları beynəlxalq təşkilatı mövcuddur ki, müəlliflərin hüquqlarını qoruyur. Qeyd etmək istərdim ki, mən ilk azərbaycanlı qadın bəstəkar kimi 2007-ci ildən GEMA təşkilatının həqiqi üzvüyəm. Eyni zamanda 1999-cu ildən Azərbaycan Bəstəkarlar İttifaqının həqiqi üzvüyəm.

Beynəlxalq əməkdaşlıqların qurulması həmçinin xarici və yerli CD leybllar, xarici və yerli nəşriyyatlarla əməkdaşlıq proqramı çərçivəsində elmi kitab, dərslik və Azərbaycan bəstəkarlarının əsərlərinin dünyada nəşri ən vacib məsələlərdəndir.

*4. Xarici musiqiçilərlə birgə beynəlxalq layihələr və festivallar*

Azərbaycan musiqisinin dünya səviyyəsində tanıdılması üçün xarici musiqiçilərlə birgə beynəlxalq layihələr və festivalların təşkili çox vacibdir. Bu layihələr vasitəsilə musiqi mədəniyyətimizin bir-birinə inteqrasiyası və unikal Azərbaycan musiqisinin və mədəniyyətinin qlobal auditoriyalara çatdırılması mümkündür. Mənim təşəbbüsümlə yaradılan "Bridge of Sound" orkestri və "Harmony of Sound" festivalı bu məqsədə xidmət edən uğurlu nümunələrdəndir. Əlbət-

tə ki, bu işlər çox böyük enerji, güc və zəhmət tələb edir. Mən öz təcrübəmə əsaslanaraq onu qeyd etmək istərdim ki, xaricdə Azərbaycan musiqisinə çox böyük maraq var. Almaniyada fəaliyyət göstərdiyim 20 il ərzində müxtəlif beynəlxalq tədbirlərin, festivalların və layihələrin təşkilatçısı və ideya müəllifi olmuşam. Bu layihələrin həyata keçirilməsi ideyası Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsi və Diaspor Fondu, Almaniyanın Mədəniyyət Nazirliyi tərəfindən rəğbətlə qarşılanır.

Azərbaycanın zəngin musiqi irsini qorumaq, təbliğ etmək və gələcək nəsillərə ötürmək bizim hər birimizin vətəndaşlıq borcudur. Bu istiqamətdə birgə çalışmaqla biz istər elm sahəsində, istərsə də, mədəniyyət sahəsində böyük nailiyyətlər və uğurlar əldə edə bilərik. Mən də, öz növbəmdə, xaricdə topladığım təcrübəni, bilik və bacarıqları qalib Azərbaycanın çiçəklənməsi naminə öz ölkəmdə tətbiq etməyə hazıram.

Diqqətiniz üçün minnətdaram!

***Yulduz RƏHİMOV***

*Ətraf mühit nümunələrinin proqnozlaşdırılmasında və insan müdaxilələri təsirinin qiymətləndirilməsində riyazi modellərin rolu*

Belə bir deyim var: "Eyni çaya iki dəfə girmək qeyri-mümkündür!" Bu atalar sözü dərin məna kəsb edir və ümumilikdə ətraf mühit nümunələrinin proqnozlaşdırılmasında və insan müdaxiləri təsirinin qiymətləndirilməsində riyazi modellərdən istifadənin zəruriliyini əsaslandırır.

Məlumdur ki, 1960-cı illərin sonlarına qədər insan-biosfer münasibətləri sahəsi və biosferdə baş verən ümumi proseslərin öyrənilməsi, sadəcə olaraq, diqqət mərkəzindən kənarda qalmışdır. Elm sahəsinə belə hallar kifayət qədər xarakterikdir: tədqiqatçının gördüyü işdə ən vacib hesab etdiyi nöqtələr bir qayda olaraq başqaları üçün eyni əhəmiyyət kəsb etmir, çünki tədqiqatçının baxış bucağı, adətən, onun oxucularının nöqteyi-nəzərindən fərqli olması istisna edilmir.

Hər hansı bir alim biosferin təkamülü və onun inkişaf prosesləri ilə insan cəmiyyəti prosesləri arasındakı əlaqələrlə bağlı problemlər üzərində işləməyə başlayanda dərhal hiss edir ki, o, müqəddəslərin ən müqəddəsinə toxunmuş olur və əvvəllər onun üçün tamamilə əlçatmaz olan nəyisə görmək ərəfəsindədir.

Hazırda biosfer proseslərinin modelləşdirilməsinə aid tədqiqatlar ildən-ilə





daha cəlbedici olmaqdadır. Eyni zamanda biosferin insan cəmiyyəti ilə yanaşı, cansız və orqanik təbiəti də əhatə edən vahid sistem (noosfer) kimi tədqiqi, onların kosmosla qarşılıqlı əlaqəsi həmin tədqiqatların məqsədlərini tam dərk edən və bir-biri ilə bölüşən yüksək səviyyəli həmfikir mütəxəssislərin etibarlı kooperasiyasını tələb edir. Buna görə də bu cür işdə böyük vahid nəzəri və praktiki tədqiqatçı komandasının kollektiv səyləri tələb olunur. Komanda üzvlərinin hər biri komandaya fərdi töhfə verərkən layihənin ümumi məqsədini anlamalı və digər komanda üzvləri ilə sinxron hərəkət etməyi bacarmalıdır.

Məlum olduğu kimi, 2023-cü ildə dünya enerjisinin təqribən yalnız 12–13%-i bərpa olunan mənbələrdən əldə edilib. Buraya təbii təkrar emal prosesində iştirak edən və davamlı hesab olunan günəş, külək, su və biokütlə kimi mənbələrdən alınan enerji də daxildir. Dəqiq faiz rəqəmlər mənbəyindən və hesablamalar üçün istifadə olunan metodologiyadan asılı olaraq bir qədər dəyişə bilər. Eyni zamanda enerjiyə tələbat sürətlə artmaqdadır. 1969-cu ildə adambaşına düşən qlobal enerji istehlakı, təxminən, 7.7 qiqacoul olmaqla bərabər, 2023-cü ildə, təxminən, 82 qiqacoula qədər yüksəlmişdir, yəni həmin müddət ərzində artım faktoru $82/7.7 \approx 10.6$-ya bərabər olmuşdur. Beləliklə, 2023-cü ildə adambaşına düşən qlobal enerji istehlakı 1969-cu ildəkindən, təxminən, 10.6 dəfə çox olmuşdur. 2024-cü ilə qədər bərpa olunan mənbələr, o cümlədən günəş, külək, su və biokütlə mənbələrindən alınan enerji nüvə enerjisi ilə birlikdə ümumdünya illik enerji istehlakının, təxminən, 22–23%-ni təşkil edir.

1960-cı illərin sonlarında alimlər həmin illərdə mövcud olan texnoloji inkişaf səviyyəsində və materialların təbii təkrar emalı şəraitində planetimizin nə qədər insanı təmin edə biləcəyini müəyyən etməyə çalışırdılar. Dəqiq qiymətləndirmə üçün qeyri-müəyyənlik dərəcəsinin çox yüksək olmasına baxmayaraq, bəzi hesablamalar təqribən 500 milyon rəqəmini vermişdir!

O zaman əsaslandırma belə idi: Müşahidə edilmişdir ki, insanların istifadə etdiyi enerjinin yalnız on faizi bərpa oluna bilən mənbələrdən əldə edilən enerjidir, yəni təbii təkrar emal prosesində iştirak edir. Qalan doxsan faizi isə əvvəlki biosferlərin qalıqları anbarından və ya Yerin "doğum" zamanı yaranan radioaktiv materiallar yataqlarından alınır. Buradan belə nəticəyə gəlinirdi ki, Yer kürəsinin bərpa olunmayan ehtiyatlarını qorumaq, onun təbii təkrar emal prosesini pozmamaq və bütün digər canlı orqanizm növləri kimi təbiətlə harmoniyada yaşamaq üçün bəşəriyyət ya öz iştahını ciddi şəkildə cilovlamalıdır, ya bu iştahı təmin etmək üçün yeni texnoloji vasitələr yaratmalı, ya da ki, öz əhalisinin mövcud zaman sayını, təxminən, səkkizdə birə endirməli imiş!

Digər hesablamalara əsasən, 2019-cu ildə dünyada illik enerji istehlakı 1969-cu ildəki 62,949 teravatt-saatdan (TWh) 173,340 TWh-a qədər, yəni üç dəfəyə yaxın artmışdır. Buna görə də yuxarıda qeyd edilmiş nisbətdən istifadə etsək, alınır ki, 2020-ci illərdə təbiətlə harmoniyada yaşamaq üçün bəşəriyyət ya öz iştahasını ciddi surətdə cilovlamalıdır, ya bu iştahanı təmin etmək üçün yeni texnoloji vasitələr yaratmalıdır, ya da ki, əhalisinin 2023-cü ildə mövcud olan sayını təqribən 8 000 000 000 / 3 ≈ 2 666 666 666-ya qədər azaltmalı, yəni, təxminən, 2.7 milyarda endirməlidir!

Yuxarıda göstərilən üç variantdan hansı bizim üçün daha məqbul hesab edilə bilər? Təbii ki, iştahamızın təmin edilməsi üçün yeni texnoloji vasitələrin yaradılması!

1970-ci illərdə elm adamlarının və siyasətçilərin dilində "qlobal problemlər" ifadəsi getdikcə tez-tez istifadə edilməyə başladı və bu problemlərə həsr edilmiş bir neçə göz oxşayan əsərlər meydana çıxdı. Məşhur histoloq, professor Moris Marua tərəfindən yaradılmış Həyat Elmləri Beynəlxalq İnstitutu bu qəbildən olan problemlər üzərində işə başladı və Roma klubu yaradıldı.

Həmin sahəyə həsr edilmiş əsərlər sırasında professor Cey Forresterin, həqiqətən də, qabaqcıl işi olan "Dünya dinamikası" ("World Dynamics") əsəri idi. Orada Forrester cəmi beş dəyişəndən ibarət olan model vasitəsilə iqtisadiyyatda, demoqrafiyada və ətraf mühitin çirklənməsinin artmasında əsas saydığı prosesləri və onların qarşılıqlı əlaqələrini planetar miqyasda tədqiq etməyə çalışırdı. "Dünya dinamikası" əsərində istifadə olunan funksional asılılıqların çoxu sanki havadan götürülmüşdü və ən xoşniyyətli tənqidlərə belə tab gətirmirdi. Eyni zamanda əsərin elmi dərinliyi qənaətbəxş olmasa da, orada istifadə olunan metodlara görə biosferdə baş verən proseslərin hərtərəfli təsvirinə insan fəaliyyətini daxil etməyə çalışan müəllifin cəsarəti heyranedici idi. Təəssüf ki, əsərdə alternativ yanaşmalar, mürəkkəb dinamik sistemlərin ədədi təhlili haqqında, ümumiyyətlə, heç nə deyilməmişdir.

Bu arada qlobal problemlər, yəni planet miqyaslı problemlər beynəlxalq təşkilatların, xüsusilə UNESCO-nun qayğıları arasında yer almağa başladı. 1971-ci ildə UNESCO rəsmisi professor Fortinin təşəbbüsü ilə Venesiyada qlobal problemlərə dair ilk konfrans keçirildi. Konfransın əsas hadisəsi, Forresterin aspirantı Dennis Medouzun "İnkişaf Məhdudiyyətləri" ("The Limits of Growth") adlı məruzəsi oldu. Məruzənin sonradan nəşr olunan kitab versiyası "bestseller" olub böyük tirajla nəşr edildi.





Artıq o dövrdə uyğun kompüter modellərinə böyük ehtiyac hiss edilirdi. Onların geniş təbliğinin aparılması vacib idi ki, müasir həyat tərzimizin özü ilə bir çox təhlükələr daşıdığı barədə geniş ictimaiyyət məlumatlandırılsın. Yaxınlaşan fəlakətin xəbərdarlıq edilmədən baş verə biləcəyi, burulğana doğru gedən gəminin kursunu son anda dəyişməyin mümkün olmayacağı xəbərdarlığına mümkün qədər çox insan qulaq asmalı idi.

Ona görə də Medouzun əsərinə həqiqi elmi status vermək çətin idi. O, ali məktəb auditoriyalarında tələbə nümayişləri üçün istifadə edilə bilən bir nümunəni xatırladırdı. Medouzun (və onun müəllimi Forresterin) yanaşmasındakı əsas qüsur ondan ibarət idi ki, o, planetimizdə baş verənlərin faktiki dinamikasını tədqiq etmək üçün öz yanaşmasını həddən artıq ciddi qəbul edir və problemi həll etmək üçün, əslində, bunun kifayət olduğunu düşünürdü. Medouz şübhələrin çoxunun səbəblərini başa düşə bilmirdi. Məsələn, o, hesab edirdi ki, tarazlığın (homeostazın) itirilməsindən sonra müşahidə oluna biləcək eksponensial artım fenomeni yeni bir kəşfdir.

Əslində, problem Medouz və Forresterin texnikasından istifadə edərək planetar inkişafı modelləşdirən digər alimlərin hesab etdiklərindən daha mürəkkəb və çətindir. Problemin düzgün həlli üçün həm təbiət daxilində baş verən, həm də təbiətlə interaktiv olan proseslərin daha etibarlı təsvirinin vacib olduğu başa düşülürdü.

İlk addım olaraq okeanların, atmosferin və biotanın qarşılıqlı təsirini simulyasiya edən və müxtəlif fərdi ssenarilərdə iqtisadiyyatla bağlı insan fəaliyyətini nəzərə alan kompüter modellərinin yaradılması təklif oluna bilərdi. Və bu səpkidə improvizasiya səviyyəsində olsa da, belə bir kompüter simulyasiyası üçün bir plan hazırlamaq zərurəti hiss edilirdi.

Son bir neçə onillikdə bu istiqamətdə mühüm işlər görülmüşdür və biz hal-hazırda iqlim dəyişikliyi ilə bağlı illik qlobal sammit və konfransların şahidi oluruq. Ən sonuncusu 2023-cü il noyabrın 30-dan dekabrın 12-dək BƏƏ-nin Dubay şəhərində keçirilib.

Təmiz enerjiyə keçidi sürətləndirmək məqsədilə COP 28 iqlim konfransında 200-ə yaxın ölkədən nümayəndələr, biznes və maliyyə liderləri, vətəndaş cəmiyyəti nümayəndələri iştirak edirdi. ABŞ prezidentinin həmin dövrdəki xüsusi nümayəndəsi konfransda qeyd etmişdir: "Bu gün müstəsna bir gündür. Biz rəsmi olaraq Paris Sazişinə qayıtdıq – bu, yenidən qlobal iqlim dəyişikliyi səylərinin bir hissəsidir. Heç bir ölkə bu mübarizəni təkbaşına apara bilməz". O, gələcək məhsuldar illərin və uğurlu görüşlərin də səbirsizliklə gözlənildiyini bildirdi.

Bütün qeyd olunanların ruhuna uyğun olaraq, 2022-ci il oktyabrın 10–12-də Bakıda keçirilmiş "“Yeni yaşıl iqtisadi model”ə keçid: qlobal çağırışlar, imkanlar və perspektivlər" adlı konfrans və "Heydər Əliyev İli" çərçivəsində 15–16 dekabr 2023-cü il tarixlərində Gəncə Dövlət Universitetində keçirilmiş "Milli ekoloji prioritetlər və qlobal iqtisadi təhdidlər: yeni çağırışlar, imkanlar və perspektivlər" mövzusunda beynəlxalq elmi konfransın Azərbaycan sənayesinin bu istiqamətdə inkişafına mühüm töhfə verdiyini müşahidə etməkdəyik.

Kanada Azərbaycanın "yaşıl iqtisadiyyat" yolunda irəliləyişinə əsaslı dəstək göstərə bilər. Bu sahədə nələrin edilməsi, ilk növbədə, vacib olardı:

*Bərpa olunan enerji layihələri*

Kanada bərpa olunan enerji texnologiyaları, o cümlədən hidroelektrik, külək və günəş enerjisi sahəsində əhəmiyyətli təcrübəyə malikdir. Neft və qaz ehtiyatlarına malik Azərbaycan öz enerji kompleksini şaxələndirmək üçün Kanada texnologiyalarından və "know-how"-sundan faydalana bilər. Günəş fermaları və külək enerjisi qurğuları kimi bərpa olunan enerji layihələrində birgə əməkdaşlıq təşkil edilə bilər.

*Enerji effektivliyi texnologiyaları*

Kanada enerji səmərəliliyi texnologiyaları və davamlı tikinti təcrübələrindəki irəliləyişləri ilə tanınır. Azərbaycanın sənaye sektorunda və binalarında enerji səmərəliliyini artırmaq üçün bu texnologiyalardan istifadə edilə bilər.

*Texnologiya transferi*

Kanada alüminium istehsalı üçün yaşıl texnologiyaların işlənib hazırlanması və həyata keçirilməsində liderdir. Buraya istixana qazları emissiyalarının azaldılması və enerji səmərəliliyinin artırılması sahəsində yeniliklər daxildir. Kanada bu sahədə olan texnologiya və qabaqcıl təcrübələrini, o cümlədən daha təmiz enerji mənbələrindən və daha səmərəli proseslərdən istifadə edən qabaqcıl əritmə texnologiyalarını Azərbaycana ötürə bilər.

*Tədqiqat və innovasiya*

Kanada və Azərbaycan universitetləri və tədqiqat institutları arasında tədqiqat tərəfdaşlığının yaradılması yaşıl texnologiyalarda innovasiyaya təkan verə bilər. Təmiz enerji yanaşmaları, tullantılardan səmərəli istifadə edilməsi və





davamlı kənd təsərrüfatı üzrə birgə tədqiqatlar yeni irəliləyişlərə və tətbiqlərə səbəb ola bilər.

*Təlim və bacarıqların artırılması*

Kanada Azərbaycan mütəxəssislərinə yaşıl texnologiyalar və davamlı təcrübələr üzrə təlim proqramları və seminarlar təklif edə bilər. Buraya karbon idarəçiliyi, ətraf mühitə təsirin qiymətləndirilməsi və yaşıl biznes təcrübələrinə aid biliklərin ötürülməsi daxil ola bilər.

*Ətraf mühitin idarə edilməsi və mühafizəsi*

Hər iki ölkə biomüxtəlifliyin qorunması, təbii resursların davamlı şəkildə idarə edilməsi və çirklənmə ilə mübarizə layihələrində əməkdaşlıq edə bilər. Birgə təşəbbüslər iqlim dəyişikliyinin təsirlərini azaltmaq üçün təbiətin mühafizəsi layihələrini və strategiyalarını əhatə edə bilər.

*Yaşıl maliyyə və investisiya*

Kanada inkişaf etmiş yaşıl maliyyə sektoruna və davamlı layihələrin maliyyələşdirilməsində qabaqcıl təcrübəyə malikdir. Azərbaycan ekoloji layihələr üçün yaşıl istiqrazların strukturlaşdırılması və investisiyaların cəlb edilməsində Kanada təcrübəsindən yararlana bilər. Birgə səylər yaşıl layihələr üçün maliyyə alətlərinin və investisiya strategiyalarının hazırlanmasına yönəldilə bilər.

*Siyasət inkişafında təcrübələr mübadiləsi*

Yaşıl sənayelərin təşviqi üçün ən yaxşı təcrübələrin və siyasət çərçivələrinin mübadiləsi faydalı ola bilər. Kanadanın ətraf mühitlə bağlı qanun və qaydaları, yaşıl siyasətlərin tətbiqi təcrübəsi Azərbaycana davamlı sənaye təcrübələrini təşviq etmək üçün oxşar siyasətlər hazırlamağa və tətbiq etməyə kömək edə bilər.

*Davamlı nəqliyyat*

Kanada elektrik və hidrogen yanacaq elementli nəqliyyat vasitələrinin inkişafında irəliləyir. Azərbaycan elektromobil infrastrukturu və ictimai tranzit sistemləri də daxil olmaqla, davamlı nəqliyyat texnologiyaları hazırlamaq və tətbiq etmək üçün Kanada şirkətləri ilə əməkdaşlıq edə bilər.

Bu sahələrə diqqət yetirməklə Kanada və Azərbaycan güclü yaşıl iqtisadiyyatı inkişaf etdirə, davamlı inkişaf üçün yeni imkanlar yarada və ekoloji problemləri birgə həll edə bilər.

2024-cü ilin mart ayında Toronto Universitetində "COP 29 üçün birləşmək: Dünyamız – Sizin məsuliyyətiniz – Gələcəyimiz" mövzusunda panel konfransı keçirilmişdir. Bu konfransda apardığımız araşdırmaların iqlim dəyişiklikləri sahəsində potensial tətbiq imkanları xüsusi olaraq vurğulanmışdır.

Prezident İlham Əliyev 2024-cü il martın 2-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası nazirlərin 10-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası nazirlərin 2-ci iclası zamanı "Euronews" telekanalına müsahibəsində bildirmişdir: "Azərbaycan "neft lənəti"ndən yaxa qurtara bildi. COP 29 bizim ortaq "yaşıl" gündəmimizin və məsuliyyət hissimizin bir hissəsidir, çünki qalıq yanacaqlarla zəngin bir ölkə "yaşıl enerji"yə keçid prosesində olan ölkələr arasında ön sıralarda olmalıdır".

Ümid edirik, DAAB bütün dünyada və xüsusilə Azərbaycan Respublikasında ekoloji tarazlığın qorunması ilə məşğul olan bütün təşkilat və qurumların səylərinin vahid akademik platforma ətrafında birləşməsində layiqli rol oynayacaq. Əldə edilmiş elmi tədqiqat nəticələrinin Azərbaycanda tətbiqinin təşkil edilməsinə və respublikamızda "yaşıl sənaye"nin inkişafına mühüm töhfələr verəcək.





# XARİCDƏ YAŞAYAN AZƏRBAYCANLI ALİMLƏR

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI

***Asəf SALAMOV, PhD***
*Staff data scientist, Birləşmiş Genom İnstitutu, Lawrence Berkeley Milli Laboratoriyası*

2014–2020-ci illərdə "Clarivate Analytics" tərəfindən dünyanın ən çox istinad edilən alimlərindən biri seçilmişdir.

Hazırladığı "Fgenesh" kompüter proqramı genomlarda genlərin proqnozlaşdırılması üçün nəzərdə tutulmuşdur və bu proqram 50-dən çox aparıcı əczaçılıq, biotexnoloji və kənd təsərrüfatı şirkətləri tərəfindən lisenziyalaşdırılmışdır. Amerika Elmin İnkişafı Assosiasiyasının (AAAS) üzvüdür.

***Aytəkin HÜSEYNLİ, PhD***
*Asistent Tədqiqat Professoru, Vaşinqton Universiteti (St. Louis)*

Aytəkin Hüseynli sosial siyasət, sosial iş, uşaq və ailə rifahı üzrə beynəlxalq mütəxəssisdir. Doktor Hüseynli Vaşinqton Universitetində Asistent Professordur. Onun tətbiqi tədqiqatı sosial siyasətlərin formalaşması, xüsusilə ailə və uşaq rifahının yaxşılaşdırılmasına yönəlmişdir. Aytəkin Hüseynli həmçinin neft, qaz və minerallarla zəngin ölkələrdə təbii sərvət gəlirlərin sosial inkişafa yönləndirmək üçün strategiyaları və yolları araşdırır. Aytəkin Hüseynlinin doktorluq dissertasiyası Qazaxıstanda 7 milyon uşağı əhatə edən, neft-qaz sərvətinin müəyyən hissəsi hesabına maliyyələşdirilən Milli Uşaq Fondu dövlət proqramının yaradılmasına səbəb olmuşdur.

Sosial siyasət, sosial iş və sosial inkişaf sahəsində 3 kitabda 3 fəslin, 15 beynəlxalq elmi jurnalda 15 elmi məqalənin, 20-dən çox nəşrin müəllifi, sosial inkişaf, sosial siyasət və sosial iş sahəsində 2 elmi jurnalda redaksiya heyətinin üzvüdür. 20-dən çox beynəlxalq elmi konfransda məruzələrlə çıxış etmiş, elmi işinə görə 2 beynəlxalq mükafat almışdır. 10-dan çox tələbənin elmi rəhbəri ol-

muşdur. Aytəkin Hüseynli sosial tədqiqat, statistika, proqramların qiymətləndirilməsi və sosial siyasət üzrə dərslər deyir. Hal-hazırda bir neçə tədqiqat layihəsinin rəhbəridir.

Öz sahəsində qabaqcıl olan Aytəkin Hüseynli postsovet məkanında sosial iş sahəsində təhsil almış ilk peşəkar sosial işçilərdən biridir və Azərbaycanda sosial iş peşəsini və təhsilini yaradanlardandır. Azərbaycanı beynəlxalq və regional sosial inkişaf sahəsində təmsil edən "Azərbaycan Sosial İş" İctimai Birliyinin təsisçisidir.

O, Vaşinqton Universitetinin Braun Məktəbinin Qlobal Proqramının İdarə Heyətinin üzvüdür, Sosial İnkişaf Mərkəzinin Beynəlxalq Proqramlarının direktor müavinidir, Uşaq Zorakılığı Tədqiqat, Təlim və Təhsil Mərkəzinin tərəfdaş professorudur. Qlobal səviyyədə Aytəkin Hüseynli UNİCEF-nin Avrasiya üzrə Tədqiqat və Statistika mütəxəssisidir, Sosial İş Məktəbləri üzrə Beynəlxalq Assosiasiyasının Tədqiqat Komitəsinin üzvüdür.

***Cəmilə CAVADOVA-SPİTZBERQ, Dr.***

*Tətbiqi orqan və klavesin professoru, musiqi ifaçılığı üzrə incəsənət doktoru, Texas Dövlət Universiteti, Arlinqton*

- Konsert proqramları ABŞ, keçmiş SSRİ və Qərbi Avropa ölkələrini, o cümlədən Hollandiya, Almaniya, Fransa, Danimarka, Çexiya və İngiltərəni əhatə edir.
- Holland barokko bəstəkarı Antoni Van Noordt və onun 1659-cu ildə yazdığı "Tabulatuurboeck van Psalmen en Fantasyen" əsərinə həsr olunmuş doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir.
- Azərbaycan bəstəkarlarının orqan əsərlərinin beynəlxalq səviyyədə təbliğatçısıdır.
- 2022-ci ilin dekabrında Hollandiyanın Den Haaq şəhərindəki Elandstraat kilsəsində Azərbaycan bəstəkarlarının orqan əsərlərini ehtiva edən videofilmlər təqdim etmişdir.
- 2016-cı ildə dahi Azərbaycan bəstəkarı Qara Qarayevin (1918–1982) əsərlərindən ibarət audio diski (CD) hazırlamış və onu "Tritonus Musicproduction" vasitəsilə nəşr etdirmişdir.
- 2023-cü ildə alman-avstriyalı bəstəkar Yohan Ernst Eberlinin əsərlərini lentə almışdır və 2025-ci ilin yanvarında bu səsyazma Almaniyanın "Ambiente-Audio" qrupu tərəfindən disk şəklində buraxılmışdır.
- Azərbaycanda orqan musiqisinin tarixi və inkişafı ilə bağlı biliklərə sahib olan C.Cavadova dünyanın müxtəlif ölkələrində və onlayn konfranslarda məruzələrlə çıxış edib.





***Elşad ALLAHYAROV, PhD***

*Tədqiqat professoru, Fizika, "Case Western Reserve" Universiteti, Klivlend, Ohayo, Tədqiqat professoru, Yumşaq Maddə İnstitutu, Nəzəri fizika II, HHU, Düsseldorf, Professor, Nəzəri fizika bölməsi, Yüksək Temperaturlar İnstitutu, Rusiya Elmlər Akademiyası, Moskva*

200-dən çox elmi məqaləsi 40-a yaxın elmi jurnalda dərc olunub. 30-a yaxın elmi jurnalda rəyçi kimi çalışır. 10-a yaxın tələbəyə elmi rəhbərlik edir. 100-ə yaxın elmi konfransda iştirak etmişdir.

*Elmi maraqları:*

- Protonu keçirən ionomerlərin morfoloji dəyişiklikləri, ionomerlərin keçiriciliyi, sudan azad keçirici nanokompozit ionomerlərin inkişafı.
- Elastomer kompozitlərinin hərəkətə gətirilməsi, dipol sistemlərində elektrostriksiyon təsirləri, tətbiq sahələrində hərəkət qabiliyyətinə malik nanokompozitlərin inkişafı.
- Kolloid fizika, elektrolitlərdə təsirli qarşılıqlı təsir potensialının nəzəriyyəsi, yüklü sistemlərdə faza keçidi, maye-kristal nüvə əmələ gəlmə prosesləri, nanoporlarda kritik elektrolitlər.
- Çox cisimli sistemlərdə korrelyasiya effektləri, DNA-DNA kondensasiya təsirləri, protein-DNA qarşılıqlı təsirləri.
- Tozlu plazma sistemlərində nüvələmə prosesləri və şablonla idarə olunan faza keçidi.
- Əyri səthlərdə maye kristalları, defekt-defekt qarşılıqlı təsirləri, sahə asılı morfologiyalar.
- Enerji saxlama tətbiqləri üçün yeni kompozit materiallar, induksiya edilmiş dipollar üçün Coulomb korrelyasiya effektləri.
- Material araşdırmalarında süni intellekt və dərin öyrənmə tətbiqləri.

***Sevinc MƏMMƏDOVA, Ed.D.***
*Dekan müavini, Təhsil Siyasəti və Təhsilin İdarə Edilməsi üzrə professor, Corc Vaşinqton Universiteti*

Sevinc Məmmədova təhsil siyasəti sahəsində çox təcrübəli bir mütəxəssisdir. O, təhsil sistemlərinin təkmilləşdirilməsinə yönəlmiş strategiyaların hazırlanması və tətbiqi sahəsində ixtisaslaşıb. Sevinc Məmmədova təhsilin keyfiyyətinin və əlçatanlığının artırılmasına və təhsil almaq istəyən hər bir şəxsin mənşəyindən, sosial-iqtisadi vəziyyətindən, cinsindən, etnik mənsubiyyətindən və digər amillərdən asılı olmayaraq, bərabər imkanlar, resurslar və dəstək əldə etməsini təmin edən genişmiqyaslı beynəlxalq layihələrə rəhbərlik etmişdir. Onun fəaliyyəti, təhsil sistemlərinin daha effektiv işləməsinin təmin edilməsi və milli prioritetlərlə uyğunluğunun gücləndirilməsinə yönəlmişdir.

Sevinc Məmmədova irihəcmli layihələrin idarə edilməsi, resursların səmərəli istifadəsinin təmini və təhsil nəticələrini yaxşılaşdıran mühüm qərarların qəbulu sahəsində geniş bacarıqlara malikdir. Bundan əlavə, qlobal tərəfdaşlıqların qurulması, tədris proqramlarının ölkənin ehtiyaclarına uyğunlaşdırılması və elmi tədqiqatlara əsaslanaraq təhsil islahatlarının həyata keçirilməsi sahəsində də əhəmiyyətli fəaliyyətlər göstərir.

Sevinc Məmmədova təhsil proqramları üçün maliyyə idarəetməsi sahəsində də geniş təcrübəyə malikdir. O, müəllimlər, tələbələr və hökumət nümayəndələri kimi əsas tərəfləri qərar qəbul etmə prosesinə cəlb edir və uzunmüddətli təhsil hədəflərinin müəyyənləşdirilməsində fəal iştirak edir.

Sevinc Məmmədova Təhsil İdarəetməsi və Strategiyaları sahəsində doktorluq elmi dərəcəsi alıb ki, bu da onun təhsil islahatlarına rəhbərlik etmək və tövsiyələr irəli sürmək bacarığını daha da gücləndirir. O həmçinin beynəlxalq səviyyədə təhsil strategiyalarının və təcrübələrinin formalaşmasında mühüm rol oynayır, dünya miqyasında daha yaxşı təhsil nəticələrinə nail olunmasına töhfə verir.

Mükafatları:

- ABŞ Dövlət Departamentinin "Ayın beynəlxalq məzunu" mükafatı – fevral 2013
- Texas Universiteti, Arlinqton – "Universitet alimi" – noyabr 2009
- ABŞ Dövlət Departamenti – Edmund S. Muskie məzun təqaüdü – aprel 2008
- ABŞ Dövlət Departamenti – Bakalavr UGRAD təqaüdü – iyul 2005.





***Şuay ABDULLAYEV, Dr.***
*Əczaçılıq və biotibbi elmlər departamenti və Kompleks Karbohidratlar Araşdırma Mərkəzi – postdoktorant, Corciya Universiteti*

Fransanın Lion şəhərində Klod Bernard Lion 1 Universitetində magistratura təhsili alıb. Təhsil müddətində Molekulyar və Supramolekulyar Kimya və Biokimya İnstitutunda və ABŞ-nin Miçiqan ştatında Ueyn Dövlət Universitetində elmi təcrübə keçib. 2016–2021-ci illərdə Kanadada Kvebek Universitetində "Terapevtik nanomaterialların sintezi" üzrə PhD dərəcəsi alıb.

2022-ci ildən ABŞ-nin Corciya Dövlət Universitetində post-doktoral alim-tədqiqatçı kimi fəaliyyət göstərir.

Yüksək impact-faktorlu beynəlxalq jurnallarda dərc edilmiş 10 elmi məqalənin müəllifidir. Onun H-indeksi "Scopus" data bazasına görə 4 olaraq qiymətləndirilmişdir.

Elmi fəaliyyəti karbohidrat molekullarının bioaktiv kimyəvi sintezini əhatə edir. Xüsusilə xərçəngin diaqnostikasında istifadə olunan di- və trisaxaridlərin səmərəli sintezi ilə bağlı məqalələrini "Carbohydrate Research" və "International Journal of Molecular Science" jurnallarında dərc edib. Nadir "Fabri xəstəliyi" üçün istifadə olunan "Migalastat" dərmanının yeni və effektiv sintezini inkişaf etdirib və bu metodologiyanın patentləşdirilməsi məqsədilə müraciət etməyi planlaşdırır.

***Toğrul TALIŞİNSKİ, PhD***
*St. Joseph Universiteti Minimal invaziv cərrahiyyə irektoru, Seton Hall Universitetinin Hackensack Meridian Tibb Məktəbində cərrahiyyə üzrə dosent*

Nyu-York Tibb Kollecinin Westchester Sound Shore Tibb Mərkəzində təcrübə keçmiş və Nyu-York Universitetinin Cərrahiyyə Departamentində rezidentura proqramını tamamlamışdır.

O, Miçiqan Universitetinin Cərrahiyyə Departamentində cərrahi kritik baxım sahəsində, həmçinin Hackensack Universitetinin Tibb Mərkəzində minimal invaziv cərrahiyyə sahəsində təqaüd proqramlarını uğurla bitirmişdir.

Amerika Metabolik və Bariatrik Cərrahiyyə Cəmiyyəti, Amerika Cərrahlar Kolleci, Kritik Baxım Tibb Cəmiyyəti, Miçiqan Dövlət Tibb Cəmiyyəti kimi nüfuzlu tibbi təşkilatların üzvüdür.

## ALMANİYA

***Məsud ƏFƏNDİYEV, Prof. Dr.***
*DAAB İdarə Heyətinin Sədri*
*"Helmholtz" Elmi-Tədqiqat Mərkəzində "Dinamik sistemlər" şöbəsinin müdiri, Münhen, Almaniya*
*Marmara Universitetində Rector's Distinguished Visiting Professor, İstanbul, Türkiyə*

Professor Məsud Əfəndiyev həm qazandığı nüfuzlu beynəlxalq mükafatlar, həm də şərəfinə təşkil olunan beynəlxalq konfranslarla tanınan, xaricdə yaşayan ilk azərbaycanlı alimdir. 35 ildən artıqdır ki, Almaniyada yaşayıb yaratsa da, Azərbaycan vətəndaşı olaraq qalır.

*Qeyri-xətti analiz və riyazi fizikaya töhfələri*
- Qeyri-xətti tənliklərin qlobal həlli üçün yeni topoloji invariantlar nəzəriyyəsini yaratmışdır.
- Bu invariantlar qeyri-xətti sistemlərin keyfiyyət dəyişikliklərinin (lokal və qlobal bifurkasiya) analizində mühüm rol oynayır.

*Riyazi modelləşdirmə*
- Biologiya, tibb, ekologiya, mexanika və fizika sahələrində qarşılaşılan problemlərin riyazi modelləşdirilməsi üzrə fundamental tədqiqatlar aparmışdır.
- Təkamül tənliklərinə uyğun dinamik sistemlərin attraktorlarının yeni siniflərini yaratmış və onların sistematik şəkildə öyrənilməsinə mühüm töhfə vermişdir.

*Beynəlxalq elmi jurnallarda fəaliyyəti*
- Ondan çox aparıcı beynəlxalq jurnalın redaksiya heyətinin üzvüdür.
- "International Journal of Biomathematics and Biostatistics" jurnalının başredaktorudur.

*Elmi nəşrləri*
- Yaponiya, Almaniya, ABŞ, Kanada və İsveçrədə nəşr olunan 8 kitabın müəllifidir.
- 200-dən çox elmi məqalə yazmış, dünyanın 15 ölkəsindən həmmüəlliflərlə əməkdaşlıq etmişdir.





*Beynəlxalq universitetlərdə fəaliyyəti*
- 2018-ci ildə Kanada Toronto Universiteti və Fields İnstitutunda "Dean's Distinguished Visiting Professor" kimi yüksək statusda 6 ay müddətində mühazirələr oxumuş və "Emerging Challenges in Mathematical Biology" tematik proqramının həyata keçirilməsində mühüm rol oynamışdır.
- 2019-cu ildə Vaterloo Universitetinə "James D. Murray Distinguished Visiting Professor" statusu ilə dəvət olunmuşdur.

*Mükafatlar və təltiflər*
- 1991-ci ildə Almaniya hökumətinin təsis etdiyi "Aleksandr von Humboldt" mükafatını qazanan ilk azərbaycanlı alim olmuşdur.
- 2005-ci ildə Yaponiyanın nüfuzlu "Japan Society for the Promotion of Science – JSPS" mükafatına layiq görülmüşdür.
- 2007-ci ildə Danimarka hökumətinin nüfuzlu "Otto Monsted" mükafatını qazanmışdır. Bu mükafatları qazanan ilk azərbaycanlı alimdir.
- 2022-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən Əməkdar elm xadimi fəxri adı ilə təltif edilmişdir.
- 2023-cü ildə Fields İnstitutunun ömürlük mükafatına ("The Life Achievement Award") layiq görülmüşdür.

*Beynəlxalq konfranslar və tanınma*
- Məsud müəllimin 60 illik yubileyi Almaniyada (Münhen), 70 illik yubileyi isə Bakıda (dövlət səviyyəsində) beynəlxalq elmi konfranslarla qeyd olunmuşdur.
- Münhendə keçirilən konfransda 25 ölkədən 75 aparıcı alim iştirak etmişdir.
- Bakıda keçirilən konfransa isə 23 ölkədən 55 tanınmış alim qatılmışdır.

***Mirzə MÜTƏLLİMOV, PhD***
*Mainz Universitetinin Tədris Klinikasında Ritmologiya şöbəsinin müdiri, baş tədqiqatçı həkim, Saarland Universitet Klinikasında aparıcı baş mütəxəssis-kardioloq, dosent*

10-dan çox elmi məqalənin müəllifidir və tədqiqatları nüfuzlu beynəlxalq elmi jurnallarda dərc olunmuşdur. Doktorantura təhsilini Köln Universitetində

tamamlamışdır. Hazırda Nürnberq-Erlangen Universitetində səhiyyənin idarə edilməsi üzrə magistratura təhsili alır. Bir çox beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış etmişdir. Dəfələrlə Azərbaycanda keçirilən Beynəlxalq Kardiologiya konfranslarında Almaniya Federativ Respublikasını təmsil edərək məruzəçi qismində iştirak etmişdir. Həmkarlarını ən son elmi tədqiqatlar və müasir kardioloji əməliyyatlarla bağlı məlumatlandırmışdır. "Clinical Research in Cardiology" jurnalında rəyçi (reviewer) kimi fəaliyyət göstərir. Saarland Universiteti və Mainz Universitetinin Tədris Klinikasında dosentdir. Avropa Kardiologiya Cəmiyyətinin (ESC) fəxri üzvüdür (Fellow of the ESC). Bu fəxri ad kardiologiya sahəsinə elmi və kliniki baxımdan mühüm töhfələr vermiş tibb mütəxəssislərinə təqdim edilir.

***Rasim CƏNNƏTƏLİYEV, PhD***
*Ağıllı Enerji Sistemləri üzrə layihə meneceri, EnBW AG, Stuttgart, Almaniya*

2013-cü ildən etibarən Almaniyanın "EnBW AG" konsernində ağıllı enerji sistemləri sahəsində mühəndis və layihə meneceri kimi fəaliyyət göstərir. Beynəlxalq indeksli jurnallarda dərc olunmuş 14 elmi məqalənin və 1 dərsliyin müəllifidir. Müxtəlif ölkələrdə beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış etmişdir. Hal-hazırda külək, günəş və hibrid elektrik stansiyalarının optimallaşdırılması üzərində işləyir və bu sahədə kompüter modelləri və süni intellekt metodikalarından istifadə edir.

***Rauf ABDULLAYEV***
*"Stadler" şirkəti*

Fransanın Strasburq və Almaniyanın Duisburq-Essen universitetlərinin məzunu olub. "Programming of a data storage application with an in-mobile app option to change the data entry templates" mövzusunda araşdırmalar aparmışdır. "Stadler" şirkətində İT üzrə sistem administratoru vəzifəsində çalışır. Eyni zamanda İT yenilikləri sahəsində elmi araşdırmaları davam etdirir.





***Sevda KƏRİMOVA, PhD***
*Bochum Ruhr Universiteti Tibb etikası və tarixi İnstitutunda beynəlxalq tədqiqatçı, Hacettepe Universiteti Bioetika Mərkəzində beynəlxalq tədqiqatçı, "Vice Versa Consulting" hüquq şirkətində hüquqşünas*

Əsas tədqiqat sahəsi bioetika olmaqla, tibb hüququ, cinayət hüququ və insan hüquqları sahəsində 10-dan çox elmi, eləcə də elmi-publisistik məqalə və metodik vəsaitin müəllifi olmuş, bir çox beynəlxalq konvensiya və digər baza materialları Azərbaycan dilinə tərcümə etmişdir. 10-dan çox yerli və beynəlxalq konfrans və seminarda məruzələrlə çıxış, eləcə də təşkilatçı kimi iştirak etmişdir.

***Toğrul KƏRİMOV, PhD***
*Max Planck Institute for Software Systems, postdoktoral tədqiqatçı*

Kompüter elmləri sahəsində Oksford Universitetində bakalavr və magistr təhsili alıb. Doktorluq dissertasiyası nəzəri kompüter elmləri üzrə nüfuzlu Akerman mükafatına və Maks Plank Cəmiyyətinin "Otto Hahn Medal"ına layiq görülüb. Beynəlxalq jurnallarda və konfranslarda 20-dən çox məqalənin müəllifidir. Həmmüəllifi olduğu məqalələr "ACM SIGBED Best Paper Award" və nüfuzlu "Logic in Computer Science" konfransında "Distinguished Paper Award" mükafatlarına layiq görülüb.

***Valeh RÜSTƏMOV, PhD***
*Mannhaym Tətbiqi Elmlər Universiteti, Biotexnologiya fakültəsi, Hüceyrə və molekulyar biologiya İnstitutu və həmçinin CeMOS[1] Tədqiqat və Transfer Mərkəzinin elmi işçisi və qrup rəhbəri*

"2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın dəstəyi ilə Haydelberq Universitetinin Mannhaym Tibb fa-

[1] CeMOS (Center for Mass Spectrometry and Optical Spectroscopy) Almaniyanın Mannhaym şəhərində yerləşən Mannhaym Tətbiqi Elmlər Universitetinin (Hochschule Mannheim) tərkibində fəaliyyət göstərən bir tədqiqat mərkəzidir. Bu mərkəz kütləvi spektrometriya və optik spektroskopiya sahələrində tədqiqatlar aparır və müxtəlif elmi sahələrdə, xüsusilə biotibb və material elmlərində tətbiqlərə malikdir.

kültəsinin doktorantura pilləsini fərqlənmə ilə bitirmişdir. Əsas elmi istiqaməti şiş xəstəliklərinin öyrənilməsi üçün "in vitro" mürəkkəb 3D hüceyrə kulturalarının yaradılması və həmin kulturalarda şiş hüceyrələrinin dərmanlara təsirinin müxtəlif biomarkerlər vasitəsilə araşdırılmasıdır. Bu elmi işlərin məzmunu indiyə qədər iki resenziyalı məqalədə dərc olunmuşdur. Sonuncu məqaləsi "Frontiers in Oncology" jurnalı tərəfindən yüksək qiymətləndirilmiş və xüsusi buraxılışda yenidən nəşr olunmuşdur. Bundan əlavə, böyük həcmli konfokal mikroskopik şəkillərin seqmentasiyası üçün yazdığı proqram hazırda ixtira olaraq qeydiyyata alınma mərhələsindədir. Qrup rəhbəri olaraq 2 magistr və 1 doktoranta elmi rəhbərlik edir.

***Xədicə ZEYNALOVA, Dr.***

*Bəstəkar, musiqişünas, alim tədqiqatçı, dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Bakı Musiqi Akademiyası, Detmold Musiqi Akademiyası (Hochschule für Musik Detmold), və Paderborn Universitetinin məzunu, Almaniya BRİDGE OF SOUND təşkilatının sədri və eyniadlı orkestrin təsisçisi, bədii rəhbəri, HARMONY OF SOUND Beynəlxalq Musiqi Festivalının yaradıcısı, kuratoru və bədii rəhbəri*

Almaniyada nüfuzlu "Friedrich-Ebert-Stiftung" doktorluq təqaüdünə layiq görülən ilk azərbaycanlı bəstəkar və musiqişünasdır. Bundan əlavə, "DAAD" təqaüdü mükafatı, Almaniya Mədəniyyət Nazirliyinin təqaüdünə Almaniya Şimali Reyn Vestfaliya Mədəniyyət Nazirliyinin təqaüd mükafatı, "GVL" Fondunun təqaüd mükafatı, "GEMA" fondunun və "Musikfonds" fondunun təqaüd mükafatları laureatıdır.

2020-ci ildə Xədicə Zeynalova Azərbaycan Respublikasının "Diaspor quruculuğu işində göstərdiyi xüsusi fəallığa görə" Təşəkkürnamə ilə təltif edilmişdir.

2021-ci ildə Azərbaycan Respublikasının "Nizaminin 880 illiyi" medalı ilə təltif edilmişdir.

2021-ci ildə – Nizami və Yunus Əmrə İlində TÜRKSOY-un təşkil etdiyi "Türk Dünyasının Şah Əsərləri" layihəsində bəstəkar kimi iştirakına görə Təşəkkürnamə ilə təltif edilmişdir.





2022-ci ildə Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V qurultayında Azərbaycan Respublikasının "Diaspor Fəaliyyətində Xidmətə görə" medalı ilə təltif edilmişdir.

2024-cü ildə o, Almaniyada ilk azərbaycanlı bəstəkar kimi Almaniya Mədəniyyət Nazirliyinin və "Klosterlandschaft OWL"in "İlin bəstəkarı və incəsənət xadimi" adlı nominasiyasına layiq görülmüşdür.

2025-ci il 3–5 noyabr tarixlərində Antalyada keçirilən Azərbaycan Mədəniyyət Elçiləri I Forumunda Xədicə Zeynalova bəstəkar kimi Azərbaycan musiqi mədəniyyətinin dünyada təbliğinə verdiyi töhfəyə görə Fəxri Fərmanla təltif olunmuşdur.

Musiqişünaslıq və sənətşünaslıq üzrə doktorluq dissertasiyasının, bəstəkarlıq sahəsində Almaniyada nəşr edilmiş 1 elmi kitabın, Azərbaycan, Hollandiya, Yaponiya, İngiltərə və Almaniya nəşriyyatlarında çap olunmuş 35 kitabın, elmi jurnallarda dərc edilmiş 10 məqalənin müəllifidir. 20 beynəlxalq elmi konfransda bəstəkar və musiqişünas kimi elmi məruzələrlə çıxış etmiş, 20-yə yaxın müxtəlif beynəlxalq layihənin, festivalların, konsertlərin müəllifi və bədii rəhbəridir.

Xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsində xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2026-cı ildə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

***Yaşar MUSAYEV, Dr.-İng.***

*"Siemens Energy" şirkəti, senior management*

Yaşar Musayev bərpa olunan enerji, avtomobil innovasiyaları, e-mobilitet, yaşıl hidrogen və nanotexnologiya sahələrində mütəxəssisdir. O, sənaye və akademik sahədə mühüm tədqiqat layihələrinə rəhbərlik edərək yeni enerji texnologiyalarının inkişafına töhfə vermişdir. 80-dən çox patenti və 150-dən çox elmi məqaləsi var.

*Əsas tədqiqat sahələri:*

- Yaşıl hidrogen və bərpa olunan enerji: Elektroliz və yanacaq elementləri texnologiyalarının inkişafı.

- Səth texnologiyaları və tribologiya: Örtük texnologiyaları, nazik təbəqəli sensorlar və nanotexnologiyalar.
- Avtomobil və e-mobilitet: Yanacaq səmərəliliyi və dayanıqlı mobillik həlləri.
- Strateji elmi-tədqiqat rəhbərliyi: Strateji yol xəritələri, qlobal universitetlər və tədqiqat institutları ilə əməkdaşlıqlar.

*Peşəkar təcrübə:*
- Siemens Energy AG (2020–indiyədək): Yaşıl hidrogen və yeni enerji texnologiyaları, Senior Management
- Schaeffler AG (2005–2020): Nanotexnologiya, tribologiya və yanacaq elementi texnologiyaları üzrə qlobal tədqiqat işləri, 100+ alim və mühəndisdən ibarət qruplara rəhbərlik, Senior Vice Prezident
- SIA Schaeffler Baltic, CEO (2016–2018): Naco Technologies-in Schaeffler AG tərəfindən alınmasına və inteqrasiyasına rəhbərlik.
- Digər vəzifələr: H-O-T GmbH, Erlangen-Nürnberg Universiteti, Daimler AG Azərbaycan tərəfdaşı, Azərbaycan Texniki Universiteti.

*Mükafatlar və tanınma:*
- Qlobal yapon avtomobil istehsalçısının "Təchizatçı" mükafatı (2017).
- Materialica Dizayn + Texnologiya mükafatı (2016, 2014).
- Almaniyanın TOP-5 innovatorlarından biri (2005–2020).
- Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu, 2022

*Təhsil və peşəkar hazırlıq:*
- Doktorantura (Dr.-Ing.), Erlangen-Nürnberg Universiteti (2001).
- DAAD təqaüdçüsü, Erlangen-Nürnberg Universiteti (1997–1998).
- Mexanika Mühəndisliyi (Dipl.-Ing.), Azərbaycan Texniki Universiteti (1991).

*Üzvlük və beynəlxalq əlaqələr:*
- "Nano in Germany e.V." təsisçi üzvü.
- "BalticNet-Plasmatech e.V." İdarə Heyətinin sədri.
- "Bakı-Nürnberg e.V." İdarə Heyətinin sədri.
- Alman Mühəndislər Birliyinin (VDI) üzvü.
- Avropa Azərbaycanlıları Mühəndislər İttifaqı İdarə Heyətinin sədri





## AVSTRİYA

***Bəxtiyar SİRACOV, PhD***
*DAAB-nin İdarə Heyətinin həmsədri*
*Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) "Safeguards" Departamentində "İnformasiya Sistemləri Yaradılması" şöbəsinin rəhbəri olmuşdur*

1995–2021-ci illər ərzində Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) "Safeguards" Departamentində həyata keçirilən proqram təminatı yaradılması üzrə layihələrdə iştirak etmiş, layihə meneceri, qrup rəhbəri və şöbə müdiri vəzifələrində çalışmışdır.

2006-cı ildə AEBA tərəfindən "Komanda İşinə Müstəsna Töhfəsinə Görə" (*Outstanding Team Award*) mükafatına layiq görülmüşdür.

2005-ci ildə Norveç Sülh Komitəsinin qərarı ilə AEBA-nın Baş Direktoru Məhəmməd əl-Baradei və Agentliyin əməkdaşları, nüvə enerjisinin hərbi məqsədlərlə istifadəsinin qarşısının alınması və onun dinc məqsədlərlə təhlükəsiz istifadəsinin təmin edilməsi sahəsindəki mühüm xidmətlərinə görə Nobel Sülh mükafatına layiq görülmüşlər. Bəxtiyar Siracov da AEBA-nın digər əməkdaşları ilə birlikdə Nobel Sülh mükafatına layiq görülənlər sırasındadır.

Diaspor fəaliyyətindəki xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2023-cü ildə "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalı ilə təltif edilmişdir.

Xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsində xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2026-cı ildə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

***Dinara ABBASOVA, PhD***
*Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) məsləhətçisi,*
*Qadınlar Nüvə Sahəsində" ("Women in Nuclear") Ümumdünya Assosiasiyasının Azərbaycan üzrə rəsmi nümayəndəsi*

Dinara Abbasova nüvə enerjisi, nüvə təhlükəsizliyi, radioaktiv tullantıların idarə olunması və nüvə biliklərinin saxlanması sahələrində ixtisaslaşmış alimdir. Onun əsas tədqiqat sahələrinə radiasiya kimyası, izotop və biomarker analizləri, xromatoqrafiya texnologiyaları və nüvə materiallarının təhlükəsiz-

liyi üzrə beynəlxalq standartların öyrənilməsi daxildir. O, Atom Enerjisi üzrə Beynəlxalq Agentlikdə (AEBA) məsləhətçi, Helmholtz-Zentrum Dresden-Rossendorf (HZDR) Resurs Ekologiyası İnstitutunda tədqiqatçı alim, Polşa Elmlər Akademiyasında dəvətli professor və AMEA Radiasiya Problemləri İnstitutunda rəhbər vəzifələrində çalışmışdır. 80-dən çox elmi məqalə və təqdimatın müəllifi olan Abbasova 40-dan artıq beynəlxalq konfransın təşkilatçısı və spikeri olmuş, AEBA və Avropa Komissiyası üçün e-öyrənmə materialları hazırlamışdır. O, "Elmdə Nailiyyətlər" (2010), AEBA-nın "Gənc Nüvə Mütəxəssisi" (2012), Simon's Fellowship (2015–2020) və OECD/NEA üzrə İDKM (information–data–knowledge management) eksperti mükafatı (2022) ilə təltif olunmuşdur. "Women in Nuclear" təşkilatının üzvü, AEBA Ekspertlər Şəbəkəsinin və Avropa Komissiyasının nüvə təhlükəsizliyi üzrə ekspertidir.

***Kamal ƏKBƏROV, PhD***
*Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), radiasiya, nüvə, kimyəvi və bioloji təhlükələrə qarşı mütəxəssis, Ukrayna və Avropa regionu*

Tibb üzrə fəlsəfə doktoru və tibb elmləri doktoru, onkologiya və radioterapiya sahəsində 100-dən artıq elmi nəşrin, məqalənin və metodik tövsiyənin müəllifidir.

Şüa onkologiyası və səhiyyə idarəçiliyi üzrə geniş akademik və klinik təcrübəyə malik mütəxəssisdir. Səhiyyə layihələrinin idarə olunması, xərçənglə mübarizə proqramlarının təşkili, radioterapiya texnologiyalarının inkişafı və beynəlxalq əməkdaşlıqların qurulması sahələrində yüksək ixtisasa sahibdir.

2018–2023-cü illərdə Atom Enerjisi üzrə Beynəlxalq Agentlikdə (AEBA) çalışdığı müddətdə 15–24 ölkənin iştirakı ilə həyata keçirilən dörd beynəlxalq multisentrik elmi-tədqiqat layihəsinə rəhbərlik etmişdir.

*Əsas nailiyyətləri:*

- 60-dan çox texniki əməkdaşlıq layihəsinə rəhbərlik etmişdir (ümumi büdcə: 331 milyon ABŞ dolları);
- BMT-nin servikal xərçənglə mübarizə üzrə qlobal proqramında rəhbər ekspert qismində çıxış etmişdir;
- Radioterapiyada süni intellekt texnologiyalarının tətbiqinə yönəlmiş "ELAISA" e-öyrənmə layihəsinə rəhbərlik etmişdir;





- ICARO3, ESTRO tədris kursları və GEC-ESTRO seminarlarının təşkilində aparıcı rol oynamışdır.

Hal-hazırda Ümumdünya Səhiyyə Təşkilatının əməkdaşı kimi Ukraynada radiasiya və nüvə təhlükəsizliyi proqramlarına elmi və texniki dəstək göstərir.

***Murad ABUZƏRLİ, PhD***
*Vyana Universiteti (University of Vienna) Fizika fakültəsi, "kvant optikası, kvant informasiya və nanofizika" qrupunda postdoktorantura*

2022-ci ildə Parisin Sorbon Universitetində eksperimental kvant optikası sahəsində fəlsəfə doktoru dərəcəsini əldə edib. Beynəlxalq jurnallarda çap olunmuş 6 elmi məqalənin və 1 elmi patentin müştərək müəllifidir. 2023-cü ildə çoxcisimli kvant optomexanikası sahəsində post-doktoral araşdırmaları layihəsini həyata keçirmək üçün "Horizon Europe" proqramı tərəfindən "Marie Skłodowska-Curie Actions" elmi qrantına layiq görülmüşdür.

## BİRLƏŞMİŞ KRALLIQ

***Qərib MÜRŞÜDOV, PhD***
*Birləşmiş Krallığın Kembric şəhərində MRC Molekulyar Biologiya laboratoriyası*
*Bakıda Azərbaycan ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu qrup rəhbəri və laboratoriya müdiri*

*Tədqiqat sahələri:*

Prof. Dr. Qərib Mürşüdov molekulyar biologiya, kristalloqrafiya və struktur biologiya sahəsində dünyanın aparıcı alimlərindən biridir. Onun əsas tədqiqat istiqamətləri aşağıdakılardır:

- Makromolekulyar kristalloqrafiya və struktur biologiya (zülalların və nüvə turşularının üçölçülü quruluşlarının analizi).
- Krio-elektron mikroskopiya (Cryo-EM) və bioinformatika (molekulyar modelləşdirmə, struktur təhlil və məlumatların emalı).
- Statistik və riyazi modelləşdirmə (maksimum ehtimallılıq və Bayes statistika üsullarının bioloji sistemlərdə tətbiqi).

*Akademik və peşəkar təcrübə:*

- MRC Molekulyar biologiya laboratoriyasında (Cambridge, Böyük Britaniya) qrup rəhbəri və Azərbaycan Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiya İnstitutunda (Bakı) laboratoriya müdiri olaraq fəaliyyət göstərir.
- Böyük Britaniya, Rusiya və Azərbaycanın nüfuzlu elmi-tədqiqat institutlarında və universitetlərində çalışıb.
- Makromolekulların eksperimentdən istifadə edərək atomik model quran, şəffaflaşdıran və statistik yoxlayan proqram təminatlarının əsas müəlliflərindədir (REFMAC, BALBES, Servalcat, AceDRG və s.)

*Mükafatlar və tanınma:*

- Azərbaycan Respublikasının "Əməkdar alim" fəxri adı ilə təltif edilib.
- Wellcome Trust Senior Fellowship mükafatı – biologiya sahəsində Böyük Britaniyada ən nüfuzlu Fellowship qazanıb
- Avropa Molekulyar Biologiya Təşkilatının (EMBO) üzvü.
- Böyük Britaniyanın Kral Statistika Cəmiyyətinin üzvü.
- CCP4 icraiyyə komitəsinin üzvü – bu komitə hesablama struktur biologiya sahəsində aparıcı beynəlxalq tədqiqatçıları birləşdirir.

*Nəşrlər və elmi töhfələr:*

- 120-dən çox yüksək impakt faktorlu elmi məqalənin müəllifidir, o cümlədən Nature, Science, PNAS və Acta Crystallographica kimi nüfuzlu jurnallarda.
- Molekulyar strukturların analizi və modelləşdirilməsi üçün innovativ proqram təminatlarının (REFMAC5, SERVALCAT, EMDA, BALBES, AceDRG) hazırlanmasında aparıcı tədqiqatçı olub.
- Beynəlxalq simpozium və konfranslarda müntəzəm iştirak edir və müxtəlif ölkələrdə elmi seminarlar təşkil edir (Böyük Britaniya, Yaponiya, Çin, ABŞ, Braziliya, Hindistan və s.).

***Vəhid GƏRUSLU, Prof. Dr.***
*Birləşmiş Krallığın Belfast şəhərindəki "Queen's" Universitetinin proqram təminatı mühəndisliyi professoru*

Vəhid Gəruslu İT mütəxəssisi və akademik olaraq iki əsas rolda fəaliyyət göstərir. O, 1998-ci ildən etibarən proqram təminatı mühəndisliyi, test və keyfiyyət təminatı (QA) sahələrində beynəlxalq İT şirkətlərinə konsaltinq və təlim verir. Eyni zamanda İngiltərənin Belfast şəhərində yerləşən Queen's Universitetində Proqram Təminatı Mühəndisliyi professoru kimi çalışır.

Bundan əlavə, Azərbaycanda ProSys MMC və Türkiyədə Testinium A.Ş. şirkətlərində Proqram Testi Strategisti və Komanda Lideri vəzifələrində fəaliyyət göstərir.

*Elmi nailiyyətlər və tanınma:*

- 2018-ci ildə "Journal of Systems and Software" jurnalında nəşr olunan bibliometrik araşdırmaya görə, Dr. Gəruslu dünya üzrə ən aktiv 8-ci orta karyera proqram mühəndisliyi tədqiqatçısı kimi qiymətləndirilib (4000-dən çox aktiv tədqiqatçı arasında).
- 150-dən çox elmi məqalənin müəllifidir və sahəsində geniş akademik töhfələr verib.
- 2012–2015-ci illərdə IEEE Kompüter Cəmiyyəti tərəfindən Seçkin Natiq (Distinguished Speaker) olaraq seçilib.
- IEEE Kompüter Cəmiyyətinin üzvüdür və Kanadanın Alberta əyalətində lisenziyalı peşəkar mühəndisdir (PEng).

## CƏNUBİ KOREYA

***Rövşən İBRAHİMOV, Prof. Dr.***
*Regionşünaslıq üzrə Hankuk Universitetinin professoru*

Rövşən İbrahimov Azərbaycan, Türkiyə, Almaniya, Polşa, Qazaxıstan və Cənubi Koreyanın müxtəlif universitetlərində beynəlxalq əlaqələr və enerji siyasəti sahəsində professor vəzifəsində çalışıb və hazırda Hankuk Xarici Dillər Universitetində (HUFS) və Xəzər Universitetində professor kimi fəaliyyət göstərir.

O, Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzində Xarici Siyasət Analizi, beynəlxalq əlaqələr və diaspor sahəsindəki fəaliyyətlərinə görə təltif edilib.

Professor R.İbrahimov, Oxford Universiteti, Soros Fondu, Sasakava Fondu və Soyuq Müharibə Araşdırmaları Proqramı kimi nüfuzlu institutlardan təqaüd və elmi mükafatlar alıb. Enerji təhlükəsizliyi, xarici siyasət və beynəlxalq münasibətlər sahəsində 200-dən çox elmi məqalənin müəllifidir.

2024-cü ildə "Kiçik Dövlətlərin Xarici Siyasəti: Müasir Dünyada Cənubi Qafqaz Dövlətləri və Onun Hüdudlarından Kənar" adlı kitabı nəşr olunub. "Springer Nature Switzerland", "Routledge" və "Caspian Report" kimi beynəlxalq nəşriyyat və tədqiqat institutlarında məqalələri dərc olunub.

Beynəlxalq enerji, geosiyasət mövzularında elmi konfrans və zirvə görüşlərində mütəmadi çıxışlar edir. Prof. Dr. Rövşən İbrahimov, Azərbaycanın enerji diplomatiyası və xarici siyasəti sahəsində aparıcı mütəxəssislərdən biri olub, geniş akademik təcrübəyə və zəngin elmi araşdırma portfelinə malikdir. Beynəlxalq strateji müzakirələrdə fəal iştirakı ilə fərqlənir.

Eyni zamanda Qafqaz Universitetində Beynəlxalq Əlaqələr Departamentinin rəhbəri, Beynəlxalq Əlaqələr üzrə prorektor və kafedra müdiri vəzifələrində çalışmışdır.

Alim beynəlxalq elmi jurnalların redaksiya heyətinin üzvüdür və müxtəlif beyin mərkəzlərinə elmi töhfələr verir. Beynəlxalq əlaqələr və diaspor sahəsindəki fəaliyyətlərinə görə 2024-cü ildə Azərbaycan Respublikasının "Diaspor fəaliyyətlərində xidmətlərə görə" medalı təltif edilmişdir.

## ESTONİYA

***Xaqani QAYIBLI, PhD***
*Fin-Uqor və Türk Xalqları Araşdırma Mərkəzinin sədri*
*Tartu Universiteti – Türk Dili Mərkəzinin müdiri, professor*

Xaqani Qayıblı şair, tərcüməçi, alim və ictimai xadimdir. O, Azərbaycan ədəbiyyatı, dilçiliyi və jurnalistikası sahəsində geniş tədqiqatları ilə yanaşı, beynəlxalq arenada diaspor fəaliyyəti və akademik əməkdaşlıqları ilə də tanınır. "Eston və türk dillərində feil quruluşlarının müqayisəsi" adlı elmi işi ilə dünya dilçiliyində Fin-Uqor və Türk-Tatar dilləri arasındakı qohumluq əlaqələrini araşdıran ilk azərbaycanlı alimdir.

*Əsas elmi araşdırmaları və tədqiqat sahələri*

- Türkologiya və dilçilik:
  - "Eston və türk dillərində feil quruluşlarının müqayisəsi"
  - "Türkcə və estonca arasında dil əlaqələri və struktural fərqlər"
- Siyasi və mədəni əlaqələr:
  - "Estoniya ilə Türk Dünyası arasında siyasi və mədəni əlaqələr"





- Jurnalistika və vizual media:
  - "Yazılı mətbuatda fotoqrafiyanın əhəmiyyəti"

*Mükafatlar və fəxri adlar*

- "Tərəqqi" medalı (2022) – Azərbaycan diasporunun inkişafına verdiyi töhfəyə görə Azərbaycan Prezidenti tərəfindən təltif edilib.
- "Altın Yıldız Madalyası" (2024) – Türkiyə Respublikası Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası tərəfindən verilib.
- "Diaspor fəaliyyətində xidmətə görə" medalı (2024) – Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən təqdim edilib.

*Nəşrlər və ədəbi fəaliyyət*

Xaqani Qayıblı həm elmi-publisistik məqalələrin, həm də şeir və nəsr əsərlərinin müəllifidir. Əsərləri eston, gürcü, rus, latış, alman, ingilis və əksər türk dillərinə tərcümə olunub.

- 40-dan çox ictimai-siyasi, tarixi və elmi-mədəni məqalənin,
- 6 kitab və 1 monoqrafiyanın,
- 2 elmi jurnalda dərc olunmuş 4 elmi məqalənin müəllifidir.
- 20-dən çox beynəlxalq simpozium və konfransın məruzəçisi və iştirakçısıdır.

*Peşəkar və akademik fəaliyyət*

- Fin-Uqor və Türk Xalqları Araşdırma Mərkəzi – sədr
- Tartu Universiteti (Estoniya) – Türk Dili Mərkəzinin müdiri
- Dünya Azərbaycanlıları Konqresi – İdarə Heyətinin üzvü, sədr müavini
- Estoniya-Azərbaycan Cəmiyyəti – sədr
- Dünya Azərbaycanlı Alimlər Birliyi – Təşkilat Komitəsinin üzvü
- Azərbaycan Yazıçılar Birliyi – üzv
- Estoniya Akademik Şərqşünaslar Cəmiyyəti – üzv
- Türk Ədəbiyyatı Vakfı – fəxri üzv

*Diplomatik və tərcüməçilik fəaliyyəti*

Xaqani Qayıblı Estoniyada və Türkiyədə yüksək səviyyəli rəsmi görüşlərdə tərcüməçi kimi iştirak edib. O, Azərbaycan, Türkiyə və Estoniya prezidentlərinin, parlament sədrlərinin və nazirlərinin rəsmi səfərlərində xüsusi tərcüməçi olub.

## FRANSA

***Aynur QULİYEVA, PhD***
*Fransa Toulouse Universitetləri nəzdində Milli Tarbes Mühəndislik Akademiyasında (ENIT/UTTOP) dosent, Fransa dövlət qulluqçusu*

2019-cu ildə Fransanın Orleans Universitetində Materialların Kimyası üzrə PhD dərəcəsi əldə etmişdir. Onun tədqiqat sahələri polimer materiallarının struktur-xüsusiyyət əlaqələri, nanostrukturlaşdırma, funksional materialların hazırlanması və bu sahələrin müasir texnologiyalarda tətbiqi kimi geniş istiqamətləri əhatə edir. Çoxsaylı beynəlxalq laboratoriyalarla əməkdaşlıq etmiş və Fransanın ENSAM/PIMM laboratoriyası və ABŞ-də University of Delaware-də postdoktoral araşdırmaları olub. Aynur Quliyeva eyni zamanda sənaye təcrübəsinə də malikdir – o, Lonza şirkətinin tərkibində fəaliyyət göstərən Capsugel-də 2 il ərzində dərman kapsulları üzrə layihə rəhbəri kimi çalışmışdır. Hal-hazırda universitetdə dosent vəzifəsində çalışır, pedaqoji fəaliyyətlə yanaşı, "ağıllı polimer materiallar" üzrə tədqiqat qrupu yaratmış və bu sahədə elmi araşdırmalar aparır. O həmçinin universitetdə müxtəlif tədris və inzibati vəzifələri yerinə yetirir, qadın alimlərin inkişafını dəstəkləmək məqsədilə mentorluq fəaliyyəti göstərir. Aynur Quliyevanın bir sıra elmi məqalələri mövcuddur və beynəlxalq konfranslarda həm şifahi, həm də poster formatında təqdimatlarla çıxış etmişdir.

***Günel SƏFƏROVA, PhD***
*Paris-Sakle Universitetinin (Université Paris-Saclay) iqtisad elmləri üzrə fəlsəfə doktoru, Fransada təsis edilmiş ALİM elmi assosiasiyasının rəhbəri və assosiasiyanın layihələri çərçivəsində elmi konfransların təşkilatçısı*

7 il ərzində Fransanın Versal Universiteti (Université de Versailles – Saint-Quentin-en-Yvelines) ilə ABŞ-ın Corctaun Universiteti (Georgetown University) arasında elmi tədqiqat və təhsil layihələrinin rəhbəri vəzifəsində işləmişdir. Hal-hazırda Onepoint beynəlxalq konsaltinq şirkətində menecer-konsultant vəzifəsində çalışır. Fransanın Versal Universitetində və Azərbaycanın ADA Universitetində MBA tələbələrinə "Project Management", "Change Management" və "Leadership" fənnlərindən mühazirələr keçir.

Müxtəlif ölkələrdə bir çox beynəlxalq elmi konfrans və seminarlarda məruzələrlə çıxış etmişdir. Associate Researcher kimi üzvü olduğu LAREQUOİ elmi laboratoriyasının təşkil etdiyi beynəlxalq elmi konfransların Təşkilat Komitəsində yer alıb. Bir neçə elmi, eləcə də elmi-publisistik məqalələrin müəllifidir. Fransız dilli mətbuatda Azərbaycanla bağlı məqalələri nəşr olunub. Hər il təxminən 10–15 MBA və magistr tələbələrinin tezislərinə rəhbərlik edir. 2019-cu ildən Fransanın Gənc Səfirlər Assosiasiyasının ilk Azərbaycanlı nümayəndəsidir. 2020-ci ildən Fransa Akademik Tədqiqatlar İnstitutun Mərkəzi Asiya ölkələri üzrə əlaqələndiricisidir. 2020-ci ildə "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı ilə təltif edilmişdir.





***Reyhan HƏSƏNOVA, PhD***
*Beynəlxalq şirkət olan "Oracle France"da tədqiqat məsləhətçisi*

İlk təhsilini həkim bioloq olaraq başa vuran Reyhan Həsənova daha sonra Fransada molekulyar biologiya və genetikada tədqiqat istiqamətli iki master təhsili almışdır. Bunun ardınca, "bağırsaq xərçəngində biomarkerlərin tədqiqi" mövzusunda tibb elmləri üzrə fəlsəfə doktoru dərəcəsini qazanmışdır. Hazırda Parisdə dünyanın ən böyük şirkətlərindən biri olan "Oracle" şirkətinin Life Sciences bölümündə onkologiya və nadir xəstəliklər üzrə tədqiqatçı konsultant olaraq fəaliyyət göstərir. Bu sahədə həyata keçirilən layihələr vasitəsilə dərmanların, müalicələrin təhlükəsizliyini, effektivliyini və dəyərini qiymətləndirmək, müalicələrin gündəlik klinik praktikada necə həyata keçirildiyinə dair fikirlər verməklə klinik sınaqları tamamlamaq mümkündür. Layihələri beynəlxalq elmi jurnallarda çap edilir və konfranslarda təqdim olunur. Çalışdığı şirkət 200-ə qədər müxtəlif farmakoloji və biotexnoloji şirkətlə əməkdaşlıq edir.

## GÜRCÜSTAN

***Aygül İSAYEVA, PhD***
*SOCAR-Enerji Gürcüstan, biznes kommunikasiyaları və ictimaiyyətlə əlaqələr üzrə mütəxəssis*

İqtisadiyyat sahəsində 2 kitabın və 8 elmi məqalənin müəllifidir. 12 beynəlxalq elmi konfransda elmi məruzələrlə çıxış etmişdir. Məqalələri yerli və beynəlxalq elmi jurnallarda dərc olunmuşdur.

Beynəlxalq Qara Dəniz Universitetində İdarə Heyətinin üzvü olmuş, doktorant (PhD) tələbələrin dissertasiya və elmi işləri üzrə daxili ekspert kimi fəaliyyət göstərmişdir. Həmçinin həmin universitetdə magistr tələbələrinin elmi işlərinə rəhbərlik etmişdir.

"Maarif" təşkilatının direktoru kimi Gürcüstan azərbaycanlılarının təhsil və maarif məsələləri ilə bağlı müxtəlif layihələr həyata keçirir. Onun təşəbbüsü və təşkilatçılığı ilə Gürcüstanda Azərbaycandilli Məktəblərin Müəllimlərinin I və II Qurultayları keçirilmişdir. Bu tədbirlər azərbaycandilli məktəblərin problemlərinin müzakirəsi, müəllimlər arasında əməkdaşlığın gücləndirilməsi və təhsilin keyfiyyətinin artırılması baxımından mühüm platforma olmuşdur.

Onun fəaliyyəti Gürcüstanda yaşayan azərbaycanlıların milli-mədəni kimliyinin və ana dilinin qorunması baxımından böyük əhəmiyyət kəsb edir.

2013-cü ildə "Borçalı" İctimai Birliyi tərəfindən elmdə nailiyyətlərinə görə "Şərəf" medalı ilə təltif edilmişdir. 2020-ci ildə isə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən icmaya xidmətlərinə, eləcə də Azərbaycan dilinin və mədəniyyətinin qorunmasına verdiyi töhfələrə görə Azərbaycan Respublikasının medalı ilə təltif edilmişdir.

Şuşa şəhərində keçirilmiş Dünya Azərbaycanlılarının V Qurultayının – Zəfər Qurultayının iştirakçısı olmuşdur.

## İSRAİL

### ***Lev V. EPPELBAUM, Prof. Dr.***

*Təl-Əviv Universitetinin professoru,*
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin fəxri professoru*

Professor Lev Eppelbaum (Təl-Əviv Universiteti, Geofizika Departamenti) təxminən 460 elmi nəşrin müəllifidir. Bunlar arasında beynəlxalq elmi nəşriyyatlar (Kluwer Academic Publisher, Springer, Elsevier, Chapman and Hall, Institute of Physics (Böyük Britaniya)) tərəfindən nəşr edilmiş 12 kitab, 18 kitab fəsli, 194 rəyçi tərəfindən təsdiqlənmiş jurnal məqaləsi, 81 konfrans materialı və 171 tezis təqdim olunan elmi konfrans məruzələri yer alır. Prof. Eppelbaumun əsas tədqiqat sahələri geodinamika və textonik rekonstruksiyalar, tətbiqi və ətraf mühit geofizikası, arxeoloji geofizika, həmçinin geofiziki, geoloji və əlaqəli məlumatların inteqrasiya edilmiş təhlilidir.





O, beynəlxalq konfranslarda 26 dəfə elmi bölmələrin rəhbəri seçilmişdir. Professor Lev Eppelbaum "Geology, Geophysics, and Earth Sciences" jurnalının baş redaktoru və "Positioning", "Open Petroleum Engineering Journal", "Archaeological Discovery", "Stratigraphy, Petroleum, Sedimentology, Geochemistry", "ANAS Transactions, Earth Sciences", "International Journal of Earthquake Engineering", "Discover Geoscience", "Academy Green Energy", "Contributions to Geosciences", "Geosciences", "Russian Journal of Physical Chemistry", "World Journal of Physics" kimi nüfuzlu jurnalların redaksiya heyətinin üzvüdür. Eyni zamanda, "Advances in Geosciences", "Journal of Geophysics and Engineering", "Continent and Life Evolution", "Frontiers in Earth Sciences", "Geosciences (Switzerland)", "Land" və "Applied Sciences (Switzerland)" jurnallarında qonaq redaktor vəzifəsini icra etmişdir.

Professor Lev Eppelbaum iki beynəlxalq geofizika komissiyasının üzvüdür: "Rotation of the Earth" komissiyası və "WebmedCentral Ecology Advisory Board".

2020-ci ildə o, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin fəxri professoru adına layiq görülmüş, 2023-cü ildə isə Gürcüstan Elmlər Akademiyasının xarici üzvü seçilmişdir.

Professor Eppelbaum bir sıra mükafatlara layiq görülmüşdür; bunların arasında Avropa Yer Elmləri Birliyinin (European Geosciences Union) Kristian Hüygens medalı (2019) da vardır.

Google Scholar məlumatına görə, onun elmi nəşrlərinə təxminən 8000 istinad verilmişdir.

### ***Mark APPLEBAUM, Prof. Dr.***

*Riyaziyyat təhsili üzrə professor və Kaye Akademik Təhsil Kollecində İnteqrativ STEM Təhsili Magistr Proqramının rəhbəri*

Professor Mark Applebaum 16 kitabın və ingilis, ivrit, rus, ispan, ərəb, ukrayna və polyak dillərində elmi jurnallarda və konfrans materiallarında dərc olunmuş 90-dan çox məqalənin müəllifidir. Onun tədqiqat maraqları arasında riyaziyyatın populyarlaşdırılması, istedadlı uşaqlar üçün riyaziyyatın tədrisi, yaradıcı və tənqidi düşüncənin inkişafı, həmçinin STEM təhsilinin inkişaf etdirilməsi kimi sahələr yer alır.

Akademik karyerası ərzində professor M. Applebaum 30-dan çox beynəlxalq konfransda çıxış etmiş, tez-tez əsas məruzəçi (keynote speaker) və elmi komitələrin üzvü olaraq fəaliyyət göstərmişdir. 2022-ci ildə o, Beynəlxalq Riya-

ziyyat Yaradıcılığı və İstedadlılıq Qrupu (IGMCG) Beynəlxalq Komitəsinə və Avropa Riyaziyyat Cəmiyyəti (EMS) Təhsil Komitəsinə üzv seçilmişdir. 2023-cü ildən etibarən isə Kaye Təhsil Kollecində İnteqrativ STEM Təhsili üzrə magistr proqramının rəhbəri vəzifəsini icra edir.

Son 15 il ərzində professor M.Applebaum, Azərbaycanın universitetləri və məktəblərində keçirilən müxtəlif akademik tədbirlərdə dəvət olunmuş məruzəçi kimi iştirak etmişdir. Bu müəssisələr arasında Bakı Dövlət Universiteti (BDU), Moskva Dövlət Universitetinin Bakı filialı (MDU), Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti, 134 nömrəli məktəb və digər təhsil müəssisələri də yer alır.

## İSVEÇ

***Səadət KƏRİMİ, PhD***
*DAAB İdarə Heyətinin üzvü, mətbuat katibi*
*Boras Universiteti, dosent, universitet lektoru, kurs rəhbəri*
*Gothenborq, Stokholm və Umea Universitetlərində 2021-ci ilə qədər həmin vəzifələrdə çalışıb. Bu universitetlərin birgə SONOMA elmi mərkəzinin elmi işçisi – tədqiqatçısıdır*

1999-cu ildə elmlər namizədi dərəcəsinə yiyələnmək üçün dissertasiyasını Bakıda AMEA-nın Riyaziyyat-Mexanika İnstitutunda müdafiə etmişdir. 2000-ci ildə həmin dissertasiyasını İsveçdə təsdiq etmiş və Umea Universitetində postdoktor vəzifəsində işləməyə başlamışdır. 10 elmi jurnalda bu sahədə 20 məqalənin müəllifi və həmmüəllifidir. 2006-cı ildə yeni dissertasiyasını Gothenborq Universitetində müdafiə etmişdir. Həmçinin riyaziyyatın didaktikası üzrə mütəxəssisdir. Bu sahədə 12 məqaləsi çap olunmuşdur. Dil və filologiya üzrə dissertasiya müdafiə etmişdir, master dərəcəsi vardır. Rus-ingilis-isveç dilləri və sosioloji yönümlü filologiya üzrə mütəxəssisdir. Bu sahədə 100-ə yaxın məqaləsi vardır. 50 beynəlxalq elmi konfransda məruzə ilə çıxış etmişdir. Riyaziyyatın didaktikası üzrə 1 doktor, 20 master və 60 magistr işinə elmi rəhbərlik, 5 PhD işinin müdafiəsində opponentlik etmişdir.

2000-ci ildən İsveçdə fəaliyyət göstərən Azərbaycan Federasiyasının (AFİ) İdarə Heyətinin üzvüdür. "Qobustan-Azərbaycan Aydınlar Ocağı" təşkilatının rəhbəridir.





2022-ci ildə Azərbaycan dilinin və mədəniyyətinin xarici ölkələrdə təbliğinə verdiyi töhfəyə görə Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən Azərbaycan Respublikasının "Diaspor fəaliyyətində xidmətə görə" medalı ilə təltif olunub.

## İTALİYA

***Zərifə OSMANLI, PhD***
*Padova Universiteti, Biotibbi Elmlər departamenti, postdoktoral tədqiqatçı*

2023-cü ildə Fransanın Monpelye Universitetində struktur bioinformatika sahəsi üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. Altı elmi məqalənin müəllifidir. Marie Skłodowska-Curie Tədqiqat və İnnovativ Mübadilə qrantının idarəetmə heyətində Avropa üzrə nümayəndə kimi fəaliyyət göstərmişdir. Onun əsas tədqiqat sahəsi süni intellekt və maşın öyrənməsi metodlarının neyrodegenerativ xəstəliklər kontekstində zülal quruluşları və funksiyalarının öyrənilməsinə yönəlib.

## KANADA

***İlham AXUNDOV, PhD***
*Vaterloo Universiteti (University of Waterloo), riyaziyyat, biznes və mühasibat proqramları direktoru*

Ehtimal nəzəriyyəsi və riyazi statistika sahəsində 24 elmi məqalə və 3 dərs vəsaitinin müəllifidir. Üç elmi jurnal və bir kitab üçün rəyçi (referee) kimi çıxış etmişdir.

Sankt-Peterburq Universitetində, Azərbaycan Milli Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda və Azərbaycan Dövlət İqtisad Universitetində müxtəlif elmi seminarlarla yanaşı, 18 beynəlxalq seminar və konfransda məruzəçi kimi iştirak etmişdir.

İki doktorant və dörd magistrantın elmi rəhbəri olmuş, həmçinin imtahan komissiyalarında fəaliyyət göstərmişdir.

2017-ci ildə Vaterloo Universitetinin Ən yüksək performans mükafatına layiq görülmüşdür.

Azərbaycan diasporunun inkişafına verdiyi töhfəyə görə 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Tərəqqi" medalı ilə təltif edilmişdir.

***Reza MORİDİ, PhD***
*Toronto Universiteti, Massey Kolleci, böyük elmi işçi*
*Kanada Radiasiya Təhlükəsizliyi İnstitutu, Direktorlar Şurasının sədri*

Ser Nevill Mottun (Nobel mükafatı laureatı) kristal olmayan yarımkeçiricilər nəzəriyyəsinin eksperimental yoxlanılması üzrə apardığı tədqiqat 1986-cı ildə Böyük Britaniyanın Fizika İnstitutu tərəfindən təqaüdlə mükafatlandırılmışdır. 1992-ci ildə isə Böyük Britaniya Mühəndislik və Texnologiya İnstitutunun təqaüdünü alaraq qeyri-kristal yarımkeçirici cihazlarda yaddaş kommutasiya mexanizminin eksperimental yoxlanılması sahəsində tədqiqat aparmışdır.

O, 27 resenziyalı elmi məqalənin, 18 konfrans tezisinin, 81 texniki hesabat və sənədin, 13 radiasiya təhlükəsizliyi üzrə təlim kitabçasının və əlavə olaraq 18 məqalənin müəllifi və ya həmmüəllifidir.

50-dən çox beynəlxalq konfransda məruzələrlə çıxış və elmi ictimaiyyət qarşısında tədqiqat nəticələrini təqdim etmişdir.

***Səbinə İSGƏNDƏROVA, PhD***
*Kalqari Universiteti Ətraf Mühitin İdarə Edilməsi Proqramının təlimatçısı, Bay River kolleci, Kalqari, Alberta, Kanada, Tətbiqi ətraf mühit texnologiyaları fakültəsinin üzvü və təlimatçısı*

Tədqiqat nəticələri tanınmış elmi jurnallarda (məsələn, *Journal of Biological Chemistry* (JBC), *Biochemistry*) nəşr olunmuş 18 elmi məqalə və bir sıra konfrans materiallarında təqdim edilmişdir. Elmi fəaliyyətinə görə bir sıra fərdi mükafatlara, o cümlədən Max Planck Society Doktorantura Təqaüdü (2003–2004), Alberta Innovates Health Solutions Təqaüdü (2008–2010) və Merck-Frosst Sənaye Tədqiqat Mükafatına (2008) layiq görülmüşdür. Son 11 il ərzində 1000-dən artıq şagird və tələbəyə təlim keçmişdir.

***Yulduz RƏHİMOV, PhD***
*Kanada, York Universitetinin Elm fakültəsinin Riyaziyyat və Statistika departamenti, mövsümi dosent (Uzun Xidmət Tədris Təyinatlı)*

Əməliyyatların tədqiqi ve riyazi modelləşdirmə sahəsində mütəxəssisdir. 1981-ci ildə keçmiş SSRİ Elmlər Akademiyasının Hesablama Mərkəzində (Moskva şəhəri) Tətbiqi Riyaziyyat üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. 1991-ci ildə Hesablama Texnikasının, Riyazi Modelləşdirmənin və Riyazi Metodların Tədqiqatda Tətbiqi sahəsində Baş Elmi Tədqiqatçı diplomuna layiq görülmüşdür. 1999–2024-cü illərdə Kanadanın York və Toronto Universitetlərində 25-dən çox müxtəlif PhD, magistr və bakalavr kursları tədris etmişdir. Müxtəlif beynəlxalq elmi jurnallarda 25-dən çox məqaləsi dərc olunmuşdur. Bir dərs vəsaiti və bir kitabın müəllifidir. ABŞ, Kanada, Avstraliya, İtaliya, Çin və Rusiyada keçirilmiş 12 beynəlxalq elmi konfransda məruzələrlə çıxış etmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Kibernetika İnstitutunun, Kanadanın Fields Riyazi Tədqiqatlar İnstitutunun, Toronto və York Universitetlərinin və ADA Universitetinin elmi seminarlarında məruzələrlə çıxış etmişdir. 2008-ci ildə Vyanada (Avstriya) keçirilən Modelləşdirmə, İdarəetmə və Avtomatlaşdırmada Hesablama İntellekti üzrə Beynəlxalq Konfransın Təhlil Komitəsində fəaliyyət göstərmişdir. İNFOCOMP 2013 (Lissabon, Portuqaliya) və İNFOCOMP 2015 (Brüssel, Belçika) beynəlxalq konfranslarının proqram komitələrinin üzvü olmuşdur. İki ali məktəb dərs vəsaitində istinad olunmuşdur. 2013-cü ildə York Universitetinin Elm fakültəsi tərəfindən "Tədrisdə Mükəmməllik Mükafatı" ilə təltif olunmuşdur – bu mükafat ona tədris mükəmməlliyinə və fakültə qarşısında göstərdiyi xidmətlərə görə verilmişdir. Professor Robert G.Burns ilə birlikdə keçmiş SSRİ Elmlər Akademiyasının akademiki N.N.Moiseyevin "*İnsan və Noosfera*" və "*Sabah nə qədər uzaqdır*" adlı əsərlərini İngilis dilinə tərcümə etmişdir. Sonuncu kitabın tərcüməsi 2022-ci ildə Birkhauser nəşriyyatı tərəfindən nəşr edilmişdir.





## MEKSİKA

***Natiq ATAKİŞİYEV, PhD***
*Meksika Milli Muxtar Universitetinin Riyaziyyat İnstitutu, Fizika-riyaziyyat elmləri doktoru, Meksikanın Əməkdar milli tədqiqatçısı (Emeritus National researcher) Meksika Elmlər Akademiyasının üzvü*

Riyazi fizika sahəsində dünyanın aparıcı jurnallarında dərc edilmiş 131 elmi məqalənin və Avropa, Şimali və Cənubi Amerikanın 15 ölkəsində keçirilən beynəlxalq konfranslarda 62 elmi məruzənin müəllifi və həmmüəllifi. Bu elmi işlərə oxşar problemlərin tədqiqi ilə məşğul olan alimlərin 2825 nəşrində istinad edilmişdir (Google Scholar h-indexi 28-dir). Azərbaycanda dissertasiya müdafiə etmiş 4 aspirant və Meksikada bir doktorantın elmi rəhbəri olub.

## MİSİR ƏRƏB RESPUBLİKASI

***Seymur NƏSİROV, PhD***
*DAAB İdarə Heyətinin həmsədri*
*Qahirə Universitetinin Ədəbiyyat fakültəsində Azərbaycan dili və ədəbiyyatı müəllimi, fakültənin Şərq dilləri və Ərəb dili kafedrasında elmi rəhbər, Misir-Azərbaycan Xalqlar Dostluğu Akademiyasının prezidenti, Ümumdünya Fətva Qurumları Baş Katibliyinin xarici əlaqələr üzrə müşaviri, Misir-Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyətinin sədri, Misirdə Azərbaycan Diasporunun rəhbəri.*

2016–2017-ci tədris ilindən etibarən Misirin Qahirə Universitetinin Ədəbiyyat fakültəsində Azərbaycan dili müəllimi, fakültənin Şərq Dilləri və Ərəb Dili kafedrasında elmi rəhbər kimi fəaliyyət göstərir. 2026-cı ilə qədər 1700-dən çox misirliyə Azərbaycan dilini tədris etmişdir.

*İctimai və peşəkar fəaliyyəti:*
- Misir-Azərbaycan Xalqlar Dostluğu Akademiyasının təsisçisi və prezidenti
- Ümumdünya Fətva Qurumları Baş Katibliyinin xarici əlaqələr üzrə müşaviri
- Misir-Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyətinin sədri
- Misirdə Azərbaycan Diasporunun rəhbəri
- Halqa Fondunun icraçı direktoru
- Misir-Azərbaycan parlamentlərarası dostluq qrupunun koordinatoru.
- 2003-cü ildən etibarən Misirdə 100-dən çox ölkədən təhsil almağa gələn 1000-lərlə tələbəyə rəhbərlik etmiş və onların vasitəsilə Azərbaycan həqiqətlərini dünyada təbliğ etməkdədir. Hazırda (2025-ci ildə) dünyanın 65 ölkəsindən Misirdə təhsil alan 2000-dən çox tələbəyə rəhbərlik edir.

*Elmi və tədqiqat fəaliyyəti:*
- 25 ildən artıqdır ki, ərəb mənbələrində Azərbaycanla bağlı tədqiqatlar aparır. Bu araşdırmaların nəticəsi olaraq, ərəbcə 250-dən çox azərbaycanlı alim haqqında iki kitab qələmə almışdır.
- "Ərəb mənbələrində azərbaycanlı alim və ədiblər" əsəri 2022-ci ildə Azərbaycan dilində çap olunmuşdur.
- Misir kitabxanalarında yüzlərlə azərbaycanlı alimin əlyazma əsərlərini üzə çıxarmış, onların tədqiqi ilə məşğul olmuşdur.





- 15-dən çox elmi və publisistik məqaləsi ərəb ölkələrinin və Azərbaycanın nüfuzlu jurnallarında, ərəb və Azərbaycan dillərində dərc olunmuşdur.

*Beynəlxalq fəaliyyət:*
- Dünyanın müxtəlif ölkələrində keçirilən 20-dən çox beynəlxalq konfransda iştirak və Azərbaycanla bağlı elmi, mədəni mövzularda çıxışlar etmişdir.

*Təltifləri:*
- 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin sərəncamı ilə xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsindəki xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunmuş;
- Misirlə Azərbaycan arasında mədəni və elmi əlaqələrin inkişafında göstərdiyi müstəsna xidmətlərinə görə, 2018-ci il 18 iyul tarixində Misir Təhsil Nazirliyinin medalı ilə təltif olunmuş;
- 2019-cu ildə Misirdə yaşayan Özbəkistan Diasporuna verdiyi dəstəyə görə Özbəkistanın Misirdəki səfirliyi tərəfindən mükafatlandırılmış;
- 2019-cu ildə Misirlə Azərbaycan arasında əlaqələrin inkişafında göstərdiyi müstəsna xidmətlərinə görə Misirdə Seyidlərin Həmkarlar İttifaqı tərəfindən mükafatlandırılmış;
- 2020-ci ildə ölkəmizin diaspor siyasətinə verdiyi böyük töhfələrə görə "Diaspor fəaliyyətində xidmətə görə" medalı ilə təltif olunmuş;
- 2024-cü ildə əl-Əzhər Universitetində təhsil alan Ərəb Ölkələri Tələbələr Birliyi (ƏÖTB) tərəfindən fəxri mükafatla təltif olunmuş;
- 2024-cü ildə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin sərəncamı ilə Azərbaycançılıq ideyasının həyata keçirilməsində və dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsində xidmətlərinə görə "Heydər Əliyevin 100 illiyi" (1923–2023) yubiley medalı ilə təltif olunmuşdur.
- 2025-ci il sentyabrın 3-də Misir Prezidenti Əbdülfəttah Əs-Sisi tərəfindən birinci dərəcəli "Elm və fənlər" ordeni ilə təltif edilib. Seymur Nəsirov Misirdə yaşayan əcnəbilər arasında bu ordenlə təltif olunan ilk şəxsdir.
- 2025-ci il oktyabrın 1-də Misir Ərəb Respublikası ilə Azərbaycan Respublikası arasında elmi-mədəni əlaqələrin inkişafında xidmətlərinə görə Misir Təhsil Nazirliyinin medalı ilə təltif olunub və Bakıda Misir Mədəniyyət Mərkəzi tərəfindən təşəkkürnamə ilə mükafatlandırılıb.

- 2025-ci il dekabrın 16-da, dini və intellektual işə verdiyi böyük töhfələrə, eləcə də tolerantlıq, mötədillik və mədəniyyətlərarası dialoq dəyərlərinin təşviqindəki səylərinə görə Misirin Müftisi və Dünya Fətva Evləri və Qurumları Baş Katibliyinin sədri professor Nəzir Məhəmməd Əyyad tərəfindən, dünyanın 50 ölkəsindən olan müfti və böyük alimlərin iştirakı ilə təltif olunub.
- 2026-cı il martın 17-də elm və biliyə xidmət sahəsində səmərəli fəaliyyəti, tolerantlıq dəyərlərinin təşviqi və xalqlar arasında dostluq əlaqələrinin möhkəmləndirilməsinə verdiyi mühüm töhfələrə görə Misirdə "Peyğəmbərin Möhürü" ordeni ilə təltif edilib.

## OMAN

***Səidə XƏLİLOVA, PhD***
*Muskat (Oman) şəhərində yerləşən Kral Konservatoriyasının təsisçisi və direktoru*

Yeddi jurnal məqaləsinin, iki metodik və bir tədris kitabının müəllifidir. Oman Royal Opera House-da beş seminar, Sultan Qaboos Universitetində isə bir seminar keçirmişdir. 20-dən çox proqramın tərtibatçısı, həmçinin 20-yə yaxın müxtəlif layihənin, müsabiqənin və konsertin müəllifi və bədii rəhbəridir.

Dəfələrlə Yaponiya, Türkiyə, Fransa və Rusiya səfirliklərində çıxışlar etmiş, göstərdiyi fəaliyyəti üçün təşəkkürnamə və sertifikatlarla təltif olunmuşdur. Aşağıdakı iki iri həcmli konsert proqramlarının həyata keçirilməsində iştirak etmişdir:

- 31 may 2024-cü il – Şuşa şəhərində keçirilmiş "Şərq mədəniyyətinin beşiyi" adlı təxminən 250 nəfərlik auditoriya üçün təşkil edilmiş konsert proqramı.
- 30 may 2025-ci il – Oman–Azərbaycan dostluğuna həsr olunmuş və təxminən 300 nəfərlik auditoriya üçün təşkil edilmiş konsert proqramı.

Omanın nüfuzlu mətbuat orqanlarında Dr. Səidə Xəlilovanın yaradıcılığı və fəaliyyəti haqqında dəfələrlə məqalələr dərc olunmuşdur.





## POLŞA

***Şəhriyar MUXTAROV, Prof. Dr.***
*Vistula Universitetində doktorantura proqramının rəhbəri, İqtisadiyyat və Maliyyə kafedrasının professoru, eyni zamanda Koreya Universitetinin İqtisadiyyat kafedrasının professoru.*

İqtisadiyyat sahəsində 2 dərsliyin, 3 kitab fəslinin, 1 tədqiqat qrantının və 100-dən çox elmi məqalənin müəllifidir. Bu məqalələrin 70-dən çoxu "Web of Science" və "Scopus" məlumat bazalarında indekslənən nüfuzlu jurnallarda dərc edilmişdir.

Bundan əlavə, 30-dan artıq beynəlxalq elmi konfransda məruzələrlə çıxış etmiş, həmçinin 4 dərsliyin ingilis dilindən Azərbaycan dilinə tərcüməsində iştirak etmişdir.

Şəhriyar Muxtarov, 2023, 2024 və 2025-cü illərdə Stanford Universiteti tərəfindən hazırlanmış, dünyanın ən nüfuzlu alimlərini əhatə edən "Top 2%" siyahısında yer almışdır. O həmçinin "Journal of Sustainable Development Issues" jurnalının baş redaktorudur.

## QAZAXISTAN

***Akif SÜLEYMANOV, PhD***
*Qazaxıstan Respublikasının Konstitusiya Məhkəməsi yanında Elmi Məsləhət Şurasının üzvü, Turan Universitetinin Beynəlxalq hüquq və hüquq kafedrasının professoru, hüquq elmləri doktoru; Parlamentarizmin İnkişafı Fondunun layihə proqramının rəhbəri*

Professor Akif Süleymanov – konstitusiya hüququ və dövlət idarəçiliyi sahəsində tanınmış hüquqşünas və alimdir. Hüquq üzrə fəlsəfə doktoru (PhD) və hüquq elmləri doktoru elmi dərəcələrinə malikdir. Elmi tədqiqatları əsasən Qazaxıstan Prezidentinin Konstitusiya Şurası ilə qarşılıqlı münasibətləri və icraedici hakimiyyət orqanları üzərində ictimai nəzarətin nəzəri və praktiki aspektlərinə həsr olunmuşdur.

İyirmi ildən artıq akademik təcrübəyə malik olan professor Süleymanov Qazaxıstanın bir sıra nüfuzlu ali təhsil müəssisələrində – İqtisadiyyat və Hüquq Akademiyası, Abay adına Milli Pedaqoji Universitet, Narxoz Universiteti və hal-hazırda fəaliyyət göstərdiyi Turan Universitetində pedaqoji və inzibati vəzifələrdə çalışmışdır.

O, dövlət idarəçiliyi, konstitusionalizm, ictimai nəzarət, insan və vətəndaş hüquqları sahələrinə dair 2 dərsliyin və 8 dərs vəsaitinin müəllifi və ya həmmüəllifidir. Konstitusiya hüququ, ictimai nəzarət, gender siyasəti və Qazaxıstanın siyasi sistemi üzrə aparılmış tədqiqatları nəticəsində 100-dən çox elmi məqaləsi dərc olunmuşdur. Bu məqalələrdən 6-sı nüfuzlu beynəlxalq elmi jurnallarda və "Scopus" indeksli bazalarda yer alır. Eləcə də onun elmi yazıları Qazaxıstan və MDB ölkələrinin Ali Attestasiya Komissiyalarının təsdiqlədiyi jurnallarda, habelə yaxın və uzaq xarici ölkələrin nüfuzlu elmi nəşrlərində dərc edilmişdir.

Elmi fəaliyyəti ilə yanaşı, dövlət idarəçiliyi sahəsində də fəal iştirak edən professor Süleymanov Qazaxıstan Xalq Assambleyasının, Konstitusiya Məhkəməsinin və Parlamentarizmin İnkişafı Fondunun ekspert və müşavirə şuralarının üzvüdür.

Elmi nailiyyətlərinə və ictimai xidmətlərinə görə "Birlik" qızıl medalı ilə, habelə Qazaxıstan Respublikasının Ədliyyə və Təhsil Nazirliklərinin fəxri fərmanları ilə təltif edilmişdir. Bundan əlavə, Qazaxıstan, Azərbaycan və Qırğızıstanda hüquq sahəsinə dair bir sıra elmi jurnalların redaksiya heyətlərinin üzvü kimi fəaliyyət göstərir.

***Arzu QURBANOVA, PhD***
*Pedaqoji elmlər namizədi,*
*Orta Asiya İnnovasiya Universitetinin Dillər və Ədəbiyyat kafedrasının professoru*

Professor Arzu Qurbanova "İngilis dilinin stilistikası", "İngilis dilinin qrammatikası", "İngiltərə tarixi", "İngilis dilinin praktiki fonetikası" və digər fənlər üzrə mühazirələr aparmışdır. "İngilis dilinin qrammatikası", "İngilis dilinin fonetikası", "İngilis dilinin stilistikası" dərsliklərinin və "Ali məktəb tələbələrinin ingilis dili dərsində müstəqil işinin artırılması üçün pedaqoji şərtlər" adlı monoqrafiyanın müəllifidir.

Yerli və xarici nəşrlərdə, o cümlədən "Scopus" bazasında indekslənən jurnallarda 250-dən çox elmi məqalənin müəllifidir. Müxtəlif ölkələrdə keçirilmiş beynəlxalq elmi konfrans və seminarlarda məruzələrlə çıxış etmişdir. İngilis dilinin tədrisi metodikası üzrə 100-dən çox magistr dissertasiyasının elmi rəhbəri olmuş, 2 namizədlik dissertasiyasının müdafiəsində opponent kimi iştirak etmişdir.

2020-ci ildə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi





tərəfindən diaspor quruculuğu işində göstərdiyi xüsusi fəallığa görə Təşəkkürnamə ilə təltif edilmişdir.

Azərbaycanın tanınmış yazıçısı Kamal Abdullanın "Sehrbazlar dərəsi" əsərini Azərbaycan dilindən qazax dilinə tərcümə etmişdir (2012). Həmçinin məşhur pəhləvan Hacımükan Mınaytpasovun 150 illik yubileyi münasibətilə çap olunmuş "Güc sahibi – Hacımükan" kitabını qazax dilindən rus və ingilis dillərinə tərcümə etmişdir (2021).

Elmi-pedaqoji fəaliyyəti çərçivəsində 150-dən çox magistrantın dissertasiya işinə rəhbərlik etmişdir.

*Mükafatlar:*

- "Bilik sahəsinin əlaçısı" medalı («Білім беру ісінің үздігі»), 2013
- Qazaxıstan Xalq Assambleyasının 20 illik yubiley medalı, 2015
- "Birlik" qızıl medalı («Бірлік»), 2018
- "Mehriban ana" qızıl medalı, Azərbaycan Respublikasının Dədə Qorqud Fondu, 2019
- Qazaxıstan Xalq Assambleyasının 25 illik yubiley medalı, 2020
- Qazaxıstan Xalq Assambleyasının "Meyirim" döş nişanı («Мейірім»), 2020
- Beynəlxalq əlaqələr və diaspor sahəsindəki fəaliyyətlərinə görə 2024-cü ildə Azərbaycan Respublikasının "Diaspor fəaliyyətlərində xidmətlərə görə" medalı ilə təltif edilmişdir
- Qazaxıstan Xalq Assambleyasının 30 illik yubiley medalı, 2025

***Tofiq AYDAROV, PhD***
*M.Auezov adına Cənubi Qazaxıstan Universiteti, Menecment və Marketinq kafedrasının müdiri*

5 monoqrafiyanın, reytinqli elmi jurnallarda dərc olunmuş 7 məqalənin və Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Nazirliyinin tövsiyə etdiyi jurnallarda çap olunmuş 15 məqalənin müəllifidir.

Beynəlxalq elmi-praktik konfranslarda çıxışlarla təqdim olunmuş 70-dən çox məqalənin müəllifi, həmçinin 15 magistr tələbənin elmi rəhbəridir.

Qazaxıstan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 22.05.2023-cü il tarixli 36257 nömrəli və 26.05.2023-cü il tarixli 36258 nömrəli iki əqli mülkiyyət şəhadətnaməsinin müəllifidir.

Bundan əlavə, 3 elmi layihənin qalibi olmuş və tədris, eləcə də istehsalat proseslərində 70-dən artıq icra aktının müəllifi və iştirakçısıdır.

## QIRĞIZISTAN

***Akif ALAFERDOV, PhD***

*Qırğızıstan Respublikasının Əməkdar həkimi, tibb üzrə fəlsəfə doktoru, "Qırğızıstan-Azərbaycan" Dostluq və Əməkdaşlıq Cəmiyyətinin sədri*

Akif Alaferdov 1933-cü ildə Qırğızıstana deportasiya edilmiş azərbaycanlıların nəslindən olan tanınmış travmatoloqdur.

Akif doktor femur (bud sümükləri) boynu sınıqlarının cərrahi müalicəsi metodologiyasına mühüm töhfələr vermişdir. Mak-Merrey əməliyyatında istifadə olunan "sökülə bilən fiksator"un ixtirasına görə patent almışdır. Akif Alaferdov bir monoqrafiya, 35-dən çox elmi məqalə, 3 metodik vəsait və femur boynu sınıqlarının cərrahi müdaxilə ilə müalicəsinə dair 20-dən çox səmərələşdirici təklifin müəllifidir.

Peşəkar fəaliyyəti dövründə Alaferdov, Qırğızıstan Respublikasının Səhiyyə Nazirliyinə aid Milli Hospitalda Mürəkkəb travmalar şöbəsinin rəhbəri və Qırğızıstan Dövlət Tibb İnstitutunun Xüsusi Elmi Şurasının üzvü olmuşdur. O, minlərlə əməliyyat həyata keçirmiş, yüksək ixtisaslı mütəxəssislər yetişdirmişdir. Onun bu sahədəki xidmətləri 1997-ci ildə Qırğızıstan Respublikasının Prezidenti tərəfindən Fəxri Fərmanla qiymətləndirilmiş və 2003-cü ildə isə "Əməkdar həkim" adına layiq görülmüşdür.

Tibb sahəsindəki nailiyyətlərindən əlavə, Alaferdov ictimai və mədəni fəaliyyətlə də məşğul olmuşdur. 1997–2013-cü illər ərzində o, Qırğızıstanda yaşayan azərbaycanlıların "Azəri" İctimai Birliyinin sədri olmuşdur. Onun rəhbərliyi altında Azərbaycan dilində bazar günü məktəbləri açılmış, məscidlər inşa edilmiş və "Ulduzlar" adlı folklor ansamblı yaradılmışdır. O, Azərbaycan və Qırğızıstan arasındakı əlaqələri möhkəmləndirmək məqsədilə bir çox tədbirlərdə iştirak etmiş, hər iki tərəfi təmsil edən deputatlar, yazıçılar, ictimai xadimlər və diaspor nümayəndələrinin iştirakı ilə bir çox illər "Bişkek-Bakı" adlı telekörpülər təşkil etmişdir.

Uzunmüddətli ictimai fəaliyyətinə görə Akif Alaferdov 2008-ci ildə "Dank" dövlət mükafatı, həmçinin Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsindən "Diaspor fəaliyyətində xidmətə görə" medalı ilə təltif edilmişdir.





2023-cü ildə Qırğızıstan Prezidenti tərəfindən xalqlar arasında sülh, dostluq və əməkdaşlığın gücləndirilməsinə verdiyi töhfələrə görə "Dostuk" ordeni ilə təltif edilmişdir. Mədəniyyət, elm, ədəbiyyat və ictimai fəaliyyət sahələrindəki nailiyyətlərinə görə "Çingiz Aytmatov" medalı ilə mükafatlandırılmışdır.

Xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsində xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2026-cı ildə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

## RUSİYA FEDERASİYASI

***Ağamalı MƏMMƏDOV, Prof. Dr.***

*Lomonosov adına Moskva Dövlət Universiteti Kommunikasiya və Sosiologiya Kafedrasının müdiri, Rusiya Yazıçılar Birliyinin üzvü*

Professor Məmmədov sosiologiya sahəsində 42 kitabın, 128 elmi məqalənin və 250-dən çox ictimai-publisistik məqalənin müəllifidir. O, 60-dan çox beynəlxalq və yerli elmi konfransda məruzəçi kimi iştirak etmiş, 54 monoqrafiyanın və dərsliyin müəllifi və ya həmmüəllifi olmuşdur. Elmi rəhbərliyi altında 25 elmlər namizədi və 3 elmlər doktoru yetişmişdir.

Elmi və pedaqoji fəaliyyətinə görə Rusiya Prezidentinin Mədəniyyət üzrə mükafatına və V. Potanin Fondunun "Education-Online Grant" mükafatına layiq görülmüşdür. Onun elmi fəaliyyətinin təsir gücünü əks etdirən Hirsch indeksi 49-dur. Eyni zamanda professor A.Məmmədovun yaradıcılığı təkcə elmi sahə ilə məhdudlaşmır. O, bir sıra cizgi filmləri, teatr əsərləri və ssenarilərin müəllifidir. Məqalələri bir çox nüfuzlu beynəlxalq elmi jurnallarda dərc olunmuşdur və müxtəlif ölkələrlə birgə elmi layihələrdə fəal iştirak etmişdir.

***Eldar ƏHƏDOV***

*Yazıçı və şair, Rusiya Yazıçılar Birliyinin üzvü, Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü, Dünya Yazıçılar Təşkilatının Koordinasiya Şurasının rəhbəri*

Sankt-Peterburq Mədən Universitetinin məzunudur. TNK-BP və ROSNEFT kimi nüfuzlu şirkətlərdə çalışmışdır. Azərbaycan, ingilis, ispan, italyan, çin, rus

və serb dillərində nəşr olunmuş 100-ə yaxın kitabın müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü (2021), Rusiya Yazıçılar Birliyinin üzvü (2000), Rusiya Milli Coğrafiya Cəmiyyətinin üzvü (2016), PEN International-ın üzvü, Arktika və Sibirin səyyahı və tədqiqatçısıdır.

Avrasiya və Afrika Xalqları Assambleyası Ədəbi Şurasının həmsədri, Dünya Yazıçılar Təşkilatının Koordinasiya Şurasının rəhbəri və Rusiya Milli Coğrafiya Cəmiyyətinin Krasnoyarsk bölməsinin Toponimik Komissiyasının sədridir. "Sülh naminə" (Rusiya), "Za-Za Verlag" (Almaniya), Vincenzo Padula (İtaliya), Naci Naaman (Livan) mükafatlarına, eləcə də Dünya Yazıçılar Təşkilatının üç gümüş medalına, o cümlədən "Dünya ədəbiyyatının inkişafına töhfəyə görə" medalına layiq görülmüşdür.

***Emil ƏHMƏDOV, Prof. Dr.***
*Moskva Fizika-Texniki İnstitutu, L. D. Landau adına Nəzəri Fizika kafedrasının müdiri*

Nəzəri fizika və riyaziyyat sahəsində 6 elmi kitabın və bir dərsliyin müəllifidir. Nüfuzlu beynəlxalq jurnallarda 80-ə yaxın elmi məqaləsi dərc olunmuşdur. Avropa, Amerika, Hindistan, Koreya və Yaponiyada keçirilən mötəbər beynəlxalq konfranslarda 100-ə yaxın məruzə ilə çıxış etmişdir.

6 PhD tələbəsinin elmi rəhbəri olmuşdur.

Rusiya Elm və Təhsil Nazirliyi, Prezident Fondu və beynəlxalq elmi qurumlar tərəfindən dəfələrlə qrant və təltiflərə layiq görülmüş, Almaniya və Yaponiyada dəvətli professor kimi çalışmış, elmdə və təhsildə fəal xidmətlərinə görə medallarla təltif edilmişdir.

***Əliheydər RƏHİMOV, Prof. Dr.***
*İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Anesteziologiya və Reanimatologiya kafedrasının professoru, tibb elmləri doktoru, professor, ali dərəcəli transfuzioloq həkim*

1976-cı ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib. 1980-ci ildə tibb üzrə fəlsəfə doktoru, 1988-ci ildə tibb elmləri doktoru elmi dərəcəsi alıb, 1993-cü ildən professordur.





Transfuziologiya sahəsində 390-dan çox elmi işin, o cümlədən 18 monoqrafiyanın və 13 dərs və metodik vəsaitin müəllifidir. 4 ixtiranın müəllifidir, 15 fəlsəfə doktoru və 6 elmlər doktoru hazırlamışdır. Elmi fəaliyyəti və xidmətlərinə görə "İlin adamı" (2000), "Ən yaxşı elmi monoqrafiya" (2001) mükafatları və "Akademik B.V.Petrovski medalı" (2009) ilə təltif olunmuşdur.

Rusiya və beynəlxalq elmi jurnalların redaksiya heyətinin üzvü, bir sıra nüfuzlu beynəlxalq konfransların iştirakçısı və təşkilatçısıdır. Transfuziologiya sahəsində Rusiya və Azərbaycan elmi cəmiyyətlərində fəal iştirak edir.

***Ələddin ALLAHVERDİYEV, Prof. Dr.***
*Keçmiş SSRİ Elektron Sənayesi Nazirliyi, Elmi Tədqiqat "Fonon" İnstitutu – şöbə müdiri, Moskva Dövlət Biznes İdarəetmə Akademiyası – professor, kafedra müdiri, dekan, prorektor, birinci prorektor, "MİET" Milli Tədqiqat Universiteti – professor, Təhsil Prosesinin Keyfiyyəti sahəsinin rəhbəri, prorektor müavini*

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinin və onun aspiranturasının məzunudur.

Dünya okeanı və kosmik fəzanın tədqiqi, dəniz seysmik kəşfiyyatı, elektronika, müdafiə və tibb sənayesində istifadə olunan piezoelektrik cihazların və aparatların yaradılmasında dalğa və rəqs proseslərinin öyrənilməsinə dair riyazi modellərin və metodların işlənməsi sahəsində tanınmış Sovet, Rusiya və Azərbaycan alimidir.

Uzun illər ərzində həllini tapmayan, dinamik rejimdə əvvəlcədən tələb olunan fiziki xüsusiyyətlərə cavab verən, minimum kütləyə və ya həcmə malik olan pyezoelektrik elementlərin optimal formasının müəyyən edilməsi problemini ilk dəfə həll etməyə nail olmuşdur. Bu problemin həlli dünya okeanında su altında hərəkət edən obyektlərin yerini və ayrı-ayrı xarakteristikalarını müəyyən etməyə, müvafiq elmi sahələrin mütəxəssislərini maraqlandıran informasiyaların kosmik obyektlərdən – süni peyklərdən və kosmik gəmilərdən qeydə alınıb, Uçuşları İdarəetmə Mərkəzinə ötürmək və qəbul etmək üçün qəbuledici-ötürücü qurğularının yaradılmasına imkan yaratmışdır. Hərbi texnikada istifadə olunan pyezoelektrik cihazların yaradılmasında vacib olan iki və üçölçülü dinamik məsələlərin həll metodunu da ilk dəfə uğurla tətbiq etmişdir. Disk formalı pyezokeramik membranlarda "kənar effektinin" mövcudluğu da nəzəri cəhətdən ilk dəfə onun

tərəfindən açılmışdır. Həmmüəllifləriylə birgə hazırlanmış pyezokeramik ötürücü süni ürək yaratmaq probleminin həllində uğurla istifadə edilmişdir. 450-dən çox açıq və qapalı (məxfi) elmi əsərin, ixtiraların, monoqrafiyaların, ali təhsil dərsliklərinin, ali peşə təhsilinin təşkili problemlərinə və təhsil texnologiyalarına dair bir sıra elmi məqalənin müəllifidir. Elmi rəhbərliyi altında 7 aspirant, o cümlədən 3 azərbaycanlı namizədlik dissertasiyasını müdafiə etmişdir. Ümumiyyətlə, əldə edilmiş elmi nəticələr əsasında 30 beynəlxalq və ümumittifaq qurultay, konqres, konfrans və simpoziumlarda 60-dan çox, o cümlədən 12 sifarişli plenar elmi məruzə ilə çıxış etmişdir.

Professor Ələddin Allahverdiyevin elm, texnika və təhsil sahələrində qazandığı nailiyyətlərə görə aldığı bəzi mükafat və təltifləri:

- Rusiya Kosmonavtika Federasiyasının Sosialist Əməyi Qəhrəmanı, general-leytenant, Lenin mükafatı laureatı, professor, kosmik proqramlar üzrə Dövlət komissiyasının sədri Georgi Aleksandroviç Tyulin adına medal;
- Rusiya Elmlər Akademiyasının nəzəri və tətbiqi mexanika üzrə Milli Komitəsinin Sosialist Əməyi Qəhrəmanı, akademik, dörd Lenin ordenli, bir neçə Dövlət mükafatı laureatı Xəlil Əhmədoviç Raxmatulin adına medal;
- “Rusiya Federasiyasının ali peşə təhsilinin fəxri işçisi” adı;
- Üç dəfə – 1975, 1977 və 1980-ci illərdə – Sov.İKP MK-nın, keçmiş SSRİ Nazirlər Sovetinin, Həmkarlar İttifaqı MK-nın, ÜİLKGİ MK-nın təsis etdiyi “Sosializm yarışının qalibi” döş nişanları;
- “Moskvanın 850 illiyi” dövlət medalı;
- “M.V.Lomonosov adına MDU-nun 250 illiyi” yubiley medalı;
- Ümum-Rusiya Sərgi Mərkəzinin qızıl medalı;
- Ümumittifaq Elmi Tibbi-Texniki Cəmiyyətinin Mərkəzi İdarəsi Rəyasət Heyətinin baxış-müsabiqəsinin qalibi diplomu;
- 4 il dalbadal (2001–2004) Moskva Hökumətinin təhsil sahəsində elm və texnologiyalara dair təsis etdiyi “Moskva Qrantı” müsabiqəsinin laureatı adı və pul mükafatları;
- Rusiya Federasiyasının, bəzi xarici ölkələrin, bir çox beynəlxalq qurumların, təşkilatların çoxsaylı fəxri fərmanları, diplomları, sertifikatları və s.





***İsmayıl ƏLİYEV, Prof. Dr.***
*Sankt-Peterburq Dövlət İqtisad Universitetində kafedra müdiri (2020–2023)*
*Sankt-Peterburq Dövlət İqtisad Universiteti “Müəssisələrin və Sənaye Komplekslərinin İqtisadiyyatı və İdarə Edilməsi” kafedrasında professoru*

Professor İsmayıl Əliyevin 150-dən artıq elmi işi çap olunmuşdur. Bu əsərlərə monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri, eləcə də yerli və beynəlxalq elmi jurnallarda dərc olunmuş məqalələr daxildir. Əsas nəşrləri sırasında Rusiya Federasiyası Təhsil Nazirliyi tərəfindən qrif verilmiş və “Yurayt” nəşriyyatında dəfələrlə nəşr olunmuş *“Əməyin iqtisadiyyatı”* dərsliyi (V nəşr), *“İnsan resurslarının idarə edilməsi”* dərsliyi (IV nəşr, sertifikatlaşdırılmış) və *“Gəlir və əməkhaqqı siyasəti”* dərsliyi xüsusi yer tutur.

Onun elmi fəaliyyəti əməyin iqtisadiyyatı, dövlətin sosial siyasət strategiyası, əhalinin həyat səviyyəsi və keyfiyyəti, sosial-iqtisadi siyasətin formalaşdırılması, əmək və əməkhaqqının idarə edilməsi, iqtisadiyyatın dövlət tənzimlənməsi, həmçinin insan resurslarının idarə olunması kimi prioritet istiqamətləri əhatə edir.

Professor Əliyev elmi-pedaqoji kadr hazırlığı sahəsində də ciddi töhfələr vermişdir. Onun rəhbərliyi altında 10 elmlər namizədi və 2 elmlər doktoru dissertasiya müdafiə etmişdir.

2002–2019-cu illərdə Sankt-Peterburq Dövlət İqtisad Universitetinin “Əməyin İqtisadiyyatı” kafedrasında müdir müavini vəzifəsində çalışmış, 2020–2023-cü illərdə isə həmin universitetin kafedra müdiri olmuşdur. 2023-cü ildən etibarən “Müəssisələrin və sənaye komplekslərinin iqtisadiyyatı və idarə edilməsi” kafedrasının professoru kimi fəaliyyətini davam etdirir.

2022-ci ildə Regional və Sahə İqtisadiyyatı (Əməyin iqtisadiyyatı) üzrə Dissertasiya Şurasının sədri təyin edilmiş və həmin ildən etibarən universitetin “Əməyin İqtisadiyyatı” elmi məktəbinin rəhbəridir.

Təhsilin inkişafına verdiyi töhfələr və uzunmüddətli səmərəli fəaliyyəti dövlət səviyyəsində də yüksək qiymətləndirilmişdir. O, 4 may 2018-ci il tarixli, №333/k-n saylı sərəncamla Rusiya Federasiyası Təhsil və Elm Nazirliyinin Fəxri Fərmanı ilə, eləcə də Sankt-Peterburqda ali təhsilin inkişafında şəxsi töhfəsinə görə Sankt-Peterburq Qanunvericilik Məclisinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

**_Kamran RÜSTƏMOV, Prof. Dr._**
*Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Rusiya Memarlıq və İnşaat Elmləri Akademiyasının (RAAİSN) əcnəbi üzvü, Azərbaycan və Rusiya jurnalistlər ittifaqlarının üzvü*

Elm və texnikanın neft və qaz yataqlarının işlənməsi və istismarı, qazma hidravlikası, qeyri-Nyuton mexanikası, boru kəmərləri sistemləri kimi müxtəlif sahələri üzrə 300-dən çox elmi məqalə və dərsliyin müəllifidir.

K.E.Rüstəmovun yetişdirdiyi elmlər doktorları, namizədlər, mühəndislər və mütəxəssislər bu gün yalnız Azərbaycanda deyil, ölkə hüdudlarından kənarda da fəaliyyət göstərirlər.

Publisist kimi Azərbaycanın tarixi, mədəniyyəti, adət-ənənələri və dövlət siyasəti ilə bağlı həqiqətləri rusdilli auditoriyaya çatdırır.

Onun fəaliyyət göstərdiyi Dzen platforması – İsveçrənin "Yandex Services AG" şirkətinə məxsus internet üzərindən məqalə paylaşımı və məzmun tövsiyəsi xidməti göstərən qlobal platformadır və təxminən 50 dildə istifadə olunur.

**_Nigar MƏSUMOVA, PhD_**
*İqtisad elmləri namizədi, dosent, Reklam və İctimaiyyətlə Əlaqələr kafedrasının müdiri, Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) Beynəlxalq Jurnalistika fakültəsinin dekan müavini*

Türkiyə iqtisadiyyatı üzrə ekspertdir. "XX–XXI əsrlərin qovşağında Türkiyə iqtisadiyyatının modernləşdirilməsinin xüsusiyyətləri" monoqrafiyasının müəllifi, "Türkiyə iqtisadiyyatı" dərsliyinin həmmüəllifidir.

Bundan əlavə, "Sənaye siyasəti" və "World Economy and International Business: Theories, Trends and Challenges" (Scopus indeksli) adlı monoqrafiyaların da həmmüəllifidir.

**_Nizami MƏMMƏDOV, Prof. Dr._**
*Rusiya Prezident Akademiyasının (RANEPA) professoru, Rusiyanın fəxri təhsil işçisi, Rusiya Təbiət Elmləri Akademiyasının, Rusiya Ekologiya Akademiyasının və Beynəlxalq Kommunikologiya Akademiyasının həqiqi üzvü, UNESCO-nun rəsmi eksperti*

400-dən çox nəşrin, o cümlədən azərbaycan, ingilis, ispan və rus dillərində çap olunmuş monoqrafiyaların və dərs vəsaitlərinin müəllifidir. Onun 10–11-ci





siniflər üçün hazırladığı "Ekologiya" dərsliyi 1996-cı ildən etibarən nəşr olunur və MDB ölkələrində geniş yayılmışdır. Elmi rəhbərliyi altında 40 namizədlik və doktorluq dissertasiyası uğurla müdafiə olunmuşdur.

**_Sevinc ƏSGƏROVA, Prof. Dr._**
*Tibb elmləri doktoru, Rusiya Təbiət Elmləri Akademiyasının (TEA) akademiki, Əməkdar elm və təhsil xadimi, N.İ.Piroqov adına Rusiya Milli Tədqiqat Tibb Universitetinin professoru və baş elmi işçisi*

Avropanın Plastik və Rekonstruktiv Oftalmoloji Cərrahlar Cəmiyyətinin (ESOPRS) həqiqi üzvü, Türkdilli Ölkələrin Oftalmoloqlar Cəmiyyətinin fəxri üzvü və koordinatorudur. Eyni zamanda Amerika Oftalmoloqlar Cəmiyyətinin, Beynəlxalq Dakrioloji Cəmiyyətin, Beynəlxalq Uşaq Oftalmoloqları Cəmiyyətinin, Rusiya Oftalmologiya Cəmiyyətinin, Rusiya Plastik, Rekonstruktiv və Estetik Cərrahlar Cəmiyyətinin, Beynəlxalq Alimlər, Müəllimlər və Mütəxəssislər Birliyinin, həmçinin "Elm və Təhsilin Müasir Problemləri" internet nəşrinin Ekspert Şurasının üzvüdür.

Doktorluq dissertasiyasını 2005-ci ildə Moskva şəhərində S.N.Fyodorov adına Elmi-Texniki Kompleksin Gözün Mikrocərrahiyyəsi İnstitutunda uğurla müdafiə etmişdir.

18 ixtira patentinin, 15 səmərələşdirici təklifin və 140-dan çox elmi məqalə və tezisin müəllifidir. Elmi və pedaqoji fəaliyyətinə görə Hippokrat və V.İ.Vernadski adına qızıl medallarla təltif olunmuşdur.

**_Süleyman ALLAHVERDİYEV, Prof. Dr._**
*Biologiya elmləri doktoru, Rusiya Elmlər Akademiyasının (REA) müxbir üzvü, REA-nın K.A. Timiryazev adına Bitki Fiziologiyası İnstitutunun "İdarə olunan Fotobiosintez" laboratoriyasının müdiri (Moskva), REA-nın Biologiyanın Fundamental Problemləri İnstitutunun baş elmi işçisi (Puşçino), M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin və Moskva Fizika və Texnologiya İnstitutunun professoru, Türkiyədə isə Bahçeşehir Universitetinin "Fotosintez və Hidrogen Enerjisi" laboratoriyasının müdiridir*

Biofizika, biokimya və molekulyar biologiya sahəsində 12 elmi kitabın müəllifidir – onlardan 4-ü rus, 8-i ingilis dilində nəşr olunmuşdur. Beynəlxalq

elmi jurnallarda 450-dən çox məqaləsi dərc olunmuş, 48 kitab fəsli isə Rusiya və xaricdə nəşr edilən elmi toplularda çap olunmuşdur.

"Google Scholar" məlumatına görə, elmi işlərinə 35 000-dən çox istinad edilmiş, H-indeksi 91-dir.

Son 30 il ərzində 75 beynəlxalq elmi konfransda məruzələrlə çıxış etmiş, 7 ixtiranın müəllifi, 11 PhD və 2 elmlər doktorunun elmi rəhbəri olmuşdur.

Elmi nailiyyətlərinə görə Rusiya Federasiyasının Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, həmçinin Beynəlxalq Qlobal Enerji mükafatının laureatıdır.

***Vahid QƏDİMOV, Prof. Dr.***
*Rusiya Texnologiya Universiteti (MİREA), Ali Riyaziyyat və Proqramlaşdırma kafedrasının professoru*

250-dən çox elmi və tədris əsərinin, o cümlədən bir sıra elmi-texniki hesabatların və 6 müəlliflik şəhadətnaməsinin müəllifidir. Magistrantların, PhD tələbələrinin və dissertantların elmi işlərinə rəhbərlik etmiş, onlardan 5 nəfəri namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir.

Almaniya, Yuqoslaviya, Macarıstan, Yunanıstan, Azərbaycan, Türkiyə və ABŞ-də keçirilən ümum-Rusiya və beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış etmişdir.

Beynəlxalq elmi cəmiyyətlərin – GAMM və EUROMECH-nin üzvüdür. Tətbiqi riyaziyyat və mexanikanın seçilmiş sahələri üzrə mühazirələr oxumaq və birgə elmi tədqiqatlar aparmaq məqsədilə dəfələrlə Almaniyanın müxtəlif universitetlərinə dəvət olunmuşdur.

***Zahid QOCAYEV, Prof. Dr.***
*Federal Elmi Aqrotexnika Mərkəzi VIM-in (FGBNU) İnnovasiya və Tətbiqetmə üzrə direktor müavini, Moskva Politexnik Universitetinin və N.E.Bauman adına Moskva Dövlət Texniki Universitetinin professoru, texnika elmləri doktoru, professor, Rusiya Elmlər Akademiyasının müxbir üzvü*

150-dən çox elmi işi, monoqrafiyası və ixtirası vardır. Maşınqayırma, tətbiqi riyaziyyat və informatika sahələri üzrə bir sıra dərsliklərin müəllifidir. Son illərdə "İntellektual maşın texnologiyaları"nın yaradılması və nanotexnologiyanın maşınqayırma sahəsində tətbiqi üzrə elmi layihələrə rəhbərlik edir. 2019-cu ildə Rusiya Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.





2000-ci ildə Z.Qocayev Rusiya Federasiyası Prezidentindən təşəkkürnamə almış, dəfələrlə keçmiş SSRİ Kənd Təsərrüfatı Avtomobilləri Nazirliyinin fəxri fərmanları ilə təltif olunmuşdur. 2011-ci ildə ona "Rusiyanın fəxri maşınqayırmaçısı" nişanı təqdim edilmişdir.

## SƏUDİYYƏ ƏRƏBİSTANI

***Azər ABDULLAYEV, PhD***
*Səudiyyə Ərəbistanında Kral Fahad və Sabya xəstəxanalarında Ortopediya şöbəsinin müdiri, cərrah-konsultant*

Tibb elmləri doktoru, travmatoloq-ortoped cərrah, ixtiraçı professor Azər Cəfər oğlu Abdullayev travmatologiya və ortopediya sahəsində zəngin elmi-praktik təcrübəyə malik tibb alimidir. O, uzun illər Azərbaycan Tibb Universitetində müəllim, assistent və dosent kimi çalışmış, 2004-cü ildən etibarən Səudiyyə Ərəbistanının Gizan şəhərində yerləşən Kral Fahad və Sabya xəstəxanalarında Ortopediya şöbəsinin müdiri və cərrah-konsultant vəzifəsini icra edir.

1955-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur şəhərində anadan olan Abdullayev 1972-ci ildə Azərbaycan Tibb Universitetinin Müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1979-cu ildə cərrahiyyə üzrə internaturanı bitirmişdir. O, 1989-cu ildə tibb üzrə fəlsəfə doktoru, 2012-ci ildə isə tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür.

Alimin elmi fəaliyyəti yüksək ixtiraçılıq qabiliyyəti ilə müşayiət olunur. Onun müəllifi olduğu 6 ixtira – xarici fiksasiya aparatı, kompressiyaedici ştift və sağaldıcı məlhəm və s. – tibbi praktikada geniş istifadə olunmaqla "Abdullayev aparatı", "Abdullayev ştifti" və "Abdullayev məlhəmi" kimi adlarla tanınmışdır. Bu ixtiralar minlərlə xəstənin müalicəsində tətbiq edilmiş və müsbət nəticələr vermişdir.

Professor Abdullayevin elmi-pedaqoji fəaliyyəti də zəngindir: 70-dən çox elmi məqalənin, 2 tədris-metodik vəsaitin müəllifi, 6 ixtiranın patent sahibidir. Onun fəaliyyəti travmatologiya və ortopediya sahəsində mühüm elmi yeniliklərlə yanaşı, praktik səhiyyənin inkişafına da əhəmiyyətli töhfələr vermişdir.

***Elvin ƏFƏNDİ, PhD***
*İslam İnkişaf Bankı Qrupu, Korporativ strategiya və tədqiqatlar şöbəsinin rəhbəri*

Elvin Əfəndi iqtisadiyyat və inkişaf sahəsində zəngin beynəlxalq təcrübəyə malik bir iqtisadçıdır. Hazırda o, İslam İnkişaf Bankı Qrupuna daxil olan İslam Özəl Sektorun İnkişafı Korporasiyasının (ICD) Strateji departamentində strategiya və tədqiqat bölməsinin rəhbəri kimi fəaliyyət göstərir. Bu vəzifədə o, korporativ və ölkə strategiyalarının hazırlanmasına, iqtisadi tədqiqatların və siyasət sənədlərinin idarə olunmasına, aparıcı hesabatların nəşrinə, həmçinin üzv ölkələrdə özəl sektorun inkişafına yönəlmiş təşəbbüslərin hazırlanmasına rəhbərlik edir.

Bundan əvvəl Elvin Əfəndi Azərbaycan Mərkəzi Bankı, Dünya Bankı və Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi kimi qurumlarda iqtisadi təhlil və siyasət planlaşdırılması sahəsində mühüm vəzifələrdə çalışmışdır. O, London Universiteti, Miçiqan Dövlət Universiteti və Bakı Dövlət Universitetində təhsil almış, iqtisadiyyat üzrə PhD dərəcəsi əldə etmişdir.

Elmi fəaliyyəti çərçivəsində Elvin Əfəndi akademik jurnallarda 20-dən artıq rəyli (peer-reviewed) elmi məqalənin, həmçinin 25-dən çox tədqiqat sənədinin (working paper) müəllifidir. O, 10-dan çox beynəlxalq elmi konfransda məruzələrlə çıxış etmiş, 15-dən artıq ölkədə keçirilən tədbirlərdə iştirak etmişdir. İlk dəfə islam ölkələrində özəl sektorun inkişaf səviyyəsini qiymətləndirən "İslam Ölkələrinin Özəl Sektorun İnkişaf İndeksi"ni işləyib hazırlamış və bu akademik yenilik nüfuzlu elmi jurnalda nəşr olunmuşdur. O, Dar Al Hekma Universiteti də daxil olmaqla, müxtəlif universitetlərdə iqtisadi inkişaf, makroiqtisadiyyat, mikroiqtisadiyyat və ekonometriya fənləri üzrə 300-dən çox magistr və bakalavr tələbəsinə dərs demişdir. Xəzər Universiteti və UNEC-də də pedaqoji fəaliyyət göstərmişdir.

Elvin Əfəndi iqtisadi siyasət, inkişaf iqtisadiyyatı, sahibkarlıq və sosial kapital sahələrində dərin tədqiqat təcrübəsinə malikdir. O, bir sıra nüfuzlu akademik jurnalların redaksiya heyətinin üzvü olmuş, müxtəlif beynəlxalq layihələrin rəhbəri və iştirakçısı kimi geniş elmi və təşkilati fəaliyyət göstərmiş, həmçinin müxtəlif mükafat və təqaüdlərə layiq görülmüşdür.





## TÜRKİYƏ

***Afina MƏMMƏDLİ BARMANBAY, Dosent, PhD***
*Qars şəhəri, Qafqaz Universiteti Fən və ədəbiyyat fakültəsi*
*Çağdaş türk ləhcələri və ədəbiyyatları şöbəsində müəllim*

Elmi işləri müasir Azərbaycan ədəbiyyatı, dialektologiya, aşıq ədəbiyyatı, Azərbaycan folkloru ilə bağlıdır. Azərbaycan ədəbiyyatı, Azərbaycan ədəbi tənqidinin tarixi və Azərbaycan ədəbi dili tarixi fənlərini tədris edir. Elmi rəhbərliyi ilə Türkiyənin Qars şəhərində Azərbaycan ədəbiyyatı üzrə 10 magistr dissertasiyası müdafiə olunmuşdur.

30-dan çox beynəlxalq elmi konfransda məruzələrlə çıxış etmiş, bu məruzələrin əksəriyyəti elmi kitablarda çap olunmuşdur. 10-dan artıq beynəlxalq kitabda və 30-dan çox beynəlxalq jurnalda elmi məqalələri dərc olunmuşdur. Elmi redaktorluğu ilə 10 elmi kitab, Azərbaycan dili və ədəbiyyatı üzrə müəllifi olduğu 4 kitab nəşr olunmuşdur. "Web of Science" və "Scopus" elmi bazalarında indekslənən nüfuzlu jurnallarda məqalələri dərc olunmuşdur.

"Əhməd Cavad və Türkiyə" adlı doktorluq dissertasiyası Azərbaycanda və Türkiyədə geniş əks-səda doğurmuşdur. "Azərbaycan Romantik Ədəbiyyatında Vətən" kitabı Türkiyədə bu mövzuda yazılmış ilk elmi araşdırmadır. Vasif Sadıqlı ilə birgə hazırladığı "Gürcüstandan Azərbaycana Ağız sözlüyü (Borçalı, Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Şəmkir, Gəncə)" adlı dialektoloji lüğət kitabı Azərbaycan, Türkiyə, Gürcüstan, Rusiya kimi ölkələrin dövri mətbuatında və elmi jurnallarda geniş müzakirə olunaraq çox yüksək qiymətləndirilib.

***Cavid QASIMOV, Prof. Dr.***
*Van Yüzüncü Yıl Universiteti Tarix və beynəlxalq münasibətlər fakültəsinin professoru*

Azərbaycanda ilk dəfə olaraq Osmanlı dövlətinin idarəetmə sistemi ilə bağlı tədqiqat aparmışdır. Osmanlı mənbələrində Qarabağ mövzusunda geniş araşdırmalar etmiş və bu sahədə uzun müddət Türkiyə arxivlərində tədqiqatlar aparmışdır. Atatürk Araşdırma Mərkəzi və Türk Tarix Qurumunun üzvüdür. Osmanlı-Rusiya əlaqələri sahəsində tanınmış mütəxəssisdir.

***Elçin BƏDƏLOV, Dosent, PhD***
*İstanbul Aydın Universiteti Diş Həkimliyi fakültəsi Ağız Diş və Çənə Cərrahiyəsi kafedrasının professoru*

Dosent Elçin Bədəlov 2002-ci ildə Azərbaycan Tibb Universitetinin Stomatologiya fakültəsinə qəbul olunmuşdur. 2003-cü ildə Azərbaycan Tibb Universiteti ilə İstanbul Universiteti arasında imzalanmış əməkdaşlıq müqaviləsinə əsasən, əlaçı tələbələr üçün keçirilən seçim imtahanından uğurla keçərək xüsusi istedadlı tələbə kimi təhsilini dövlət proqramı çərçivəsində İstanbul Universitetinin Diş Həkimliyi fakültəsində davam etdirmişdir.

2007-ci ildə İstanbul Universitetinin Diş Həkimliyi fakültəsini fərqlənmə ilə bitirmiş və həmin universitetin Oral İmplantologiya kafedrasında doktorantura təhsilinə başlamışdır. 2014-cü ildə "Vasküler Endotelyal Büyüme Faktörünün Deneysel Siçan Modeli Üzerinde Kemik Dokusu Büyümesi Üzerine Etkileri" mövzusunda dissertasiya işini müdafiə edərək tibb elmləri üzrə fəlsəfə doktoru (PhD) elmi dərəcəsini almışdır.

2014-cü ildən etibarən İstanbul Aydın Universitetinin Diş Həkimliyi fakültəsinin Ağız, Diş və Çənə Cərrahiyyəsi kafedrasında elmi-pedaqoji fəaliyyət göstərir. 2023-cü ildə dosent elmi dərəcəsinə layiq görülmüşdür.

Dosent E. Bədəlovun rəhbərliyi altında doktorantura təhsili üzrə 7 dissertasiya mövzusu hazırlanmış və hazırda bu istiqamətdə elmi rəhbərlik fəaliyyəti davam edir. O, beynəlxalq indeksli elmi jurnallarda dərc olunmuş 30-dan çox məqalənin, 3 kitabın müəllifidir. Eyni zamanda onun soyadını daşıyan iki cərrahi üsul tibbi praktikaya tətbiq edilmişdir.

Elmi fəaliyyəti çərçivəsində müxtəlif ölkələrdə keçirilmiş 100-dən artıq beynəlxalq elmi konfransda məruzələrlə çıxış etmiş, cərrahi metodlar və klinik təcrübə ilə bağlı ixtisasartırma kursları və təlimlər təşkil etmişdir.

Son 10 ildən artıq müddətdə Amerika, Almaniya, Türkiyə və İsrail mənşəli dörd beynəlxalq dental implant markasının elmi komitələrinin üzvü (Opinion Leader) kimi fəaliyyət göstərir və həkimlər üçün nəzəri və praktik təlim proqramları həyata keçirir.

Dosent Elçin Bədəlov dental implantologiya sahəsində ixtisaslaşmış və Türkiyədə fəaliyyət göstərən məhdud sayda aparıcı alimlərdən biridir. O, bu sahədə fəaliyyət göstərən azərbaycanlı mütəxəssislər arasında seçilən elm adamlarından hesab olunur.





***Əbülfəz SÜLEYMANLI, Prof. Dr.***
*Üsküdar Universiteti sosiologiya kafedrasının müdiri, Beynəlxalq Türk Akademiyasının eksperti, Türk Dünyası Sosioloqlar Birliyinin vitse-prezidenti, Beynəxalq Fəlsəfə Tədqiqatlar Mərkəzinin (UFAD) idarə heyətinin üzvü*

Azərbaycan, Türkiyə, ABŞ, Rusiya, İngiltərə, Almaniya, İsveç, İtaliya, Qazaxıstan və digər xarici ölkələrdə miqrasiya, ailə, gənclik və milli kimlik məsələlərinə həsr olunmuş 150-dən çox elmi əsərin, o cümlədən 5 monoqrafiyanın müəllifidir. 12 məqaləsi "Web of Science" və "Scopus" indeksli jurnallarda dərc olunmuşdur.

Xarici ölkələrdə keçirilən elmi konfrans və simpoziumlarda 100-dən çox məruzə ilə çıxış etmişdir.

Google Scholar bazasında elmi metrik göstəriciləri: h-indeksi: 11, i10-indeksi: 14.

Sosioloq alim müntəzəm olaraq Türkiyə mediasında elmi araşdırma sahəsi və Azərbaycanın həqiqətləri ilə bağlı müsahibələr və elmi-sosioloji təhlillər yayımlayır.

***Əmirulla MƏMMƏDOV, Prof. Dr.***
*Azərbaycanlı Bilim İnsanları Dərnəyinin (Türkiyə) sədri,*
*Bilkənd Universitetinin fəxri professoru, Nanotexnologiya Elmi Tədqiqat Mərkəzinin aparıcı elmi işçisi*

Professor Əmirulla Məmmədov (elmi nəşrlərdə Emirullah M.Mehmetov kimi tanınır) optika, qeyri-xətti optika, lazer fizikası, metamateriallar, topoloji izolyatorlar, fotonika, nanofotonika və bio-tibbi modelləşdirmə sahələrində beynəlxalq səviyyədə tanınan görkəmli alimdir. O, keçmiş SSRİ Elmlər Akademiyasının "İoffe" adına Fiziki-Texniki İnstitutunda fizika və riyaziyyat üzrə fəlsəfə doktoru (PhD), daha sonra elmlər doktoru (habilitatus doctor) elmi dərəcəsi almış və 1988-ci ildə "Optika" üzrə professor adına layiq görülmüşdür.

Tədqiqat fəaliyyətini dünyanın aparıcı elm və texnologiya mərkəzlərində – Stanford, Kaltek, Viskonsin və Roma "La Sapienza" universitetlərində, ABŞ hərbi laboratoriyalarında, eləcə də Yaponiyada və müxtəlif Avropa ölkələrində davam etdirmişdir. Hazırda Bilkent Universitetinin Nanotexnologiya Tədqiqat Mərkəzində (NANOTAM) professor-araşdırmaçı kimi fəaliyyət göstərir.

Professor Məmmədov 350-dən çox nüfuzlu beynəlxalq elmi məqalənin müəllifi, 50-dən artıq beynəlxalq konfransın dəvətli məruzəçisidir. O, ASELSAN və Türkiyə Müdafiə Nazirliyində elmi məsləhətçi kimi də çalışmışdır.

Görkəmli elmi və ictimai fəaliyyətinə görə o, keçmiş SSRİ və Azərbaycan Respublikasının Dövlət Mükafatları ilə təltif olunmuş, Azərbaycan Respublikasının Əməkdar elm xadimi fəxri adına, "Dostluq" ordeninə, "Diaspor fəaliyyətində xidmətə görə" medalına və Bakı Dövlət Universitetinin 100 illik yubiley medalına layiq görülmüşdür. Eyni zamanda Türkiyə-Azərbaycan Dostluq, İşbirliyi və Həmrəylik Xeyriyyə Cəmiyyətinin Qəyyumlar Şurasının üzvü və Türkiyədə fəaliyyət göstərən Azərbaycanlı Alimlər Assosiasiyasının (ABİD) sədridir. Onun çoxşaxəli elmi fəaliyyəti regionda və dünyada elmi əməkdaşlığın inkişafına mühüm töhfələr vermişdir.

***Hacalı NƏCƏFOĞLU, Prof. Dr.***

*Qars şəhəri, Qafqaz Universitetinin Xarici əlaqələr ofisinin rəhbəri, Universitet İdarə Heyətinin üzvü, Qafqaz və Orta Asiya Araşdırma Mərkəzinin müdiri, Qeyri-üzvi kimya kafedrasının müdiri*

Professor Hacalı Nəcəfoğlu Azərbaycan Dövlət Universitetində kimya üzrə ali təhsil almış, daha sonra Azərbaycan Milli Elmlər Akademiyasında anorganik kimya üzrə doktorluq dərəcəsini qazanmışdır. 1990-cı illərdən etibarən Türkiyənin müxtəlif universitetlərində, xüsusilə də Qafqaz Universitetində dosent və professor kimi akademik fəaliyyət göstərmişdir.

Elmi yaradıcılığı son dərəcə zəngindir: Kimya sahəsində "Web of Science" və "Scopus" elmi bazalarında indekslənən nüfuzlu jurnallarda 200-dən çox məqaləsi dərc olunmuşdur. Bundan əlavə, humanitar sahələrdə 3 kitab və 26 məqalənin müəllifi, 7 kitabın isə redaktorudur. O həmçinin 104 beynəlxalq elmi konfransda məruzə ilə çıxış etmiş, 1988-ci ildə 1471352 və 1471353 nömrəli ixtiraların müəllifi kimi qeydiyyatdan keçmişdir.

Professor Nəcəfoğlu bu günədək 11 fəlsəfə doktoru (PhD) və 19 magistrantın elmi rəhbəri olmuşdur. Onun əsas tədqiqat sahələri metal komplekslərinin sintezi və onların kristalloqrafik, termik və bioloji xüsusiyyətlərinin öyrənilməsidir. Xüsusilə nikotinamid və müxtəlif metal karboksilat kompleksləri üzərində apardığı fundamental tədqiqatlar kimya elminin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Kristal quruluşların analizi, termik analiz və bioaktiv maddələrin sintezi sahəsindəki işləri ilə elmi ictimaiyyətdə yüksək nüfuz qazanmışdır. Onun





çoxşaxəli elmi və pedaqoji fəaliyyəti kimya sahəsində regional və beynəlxalq əməkdaşlığın inkişafında da mühüm rol oynamışdır. Google Scholar bazasında elmi metrik göstəriciləri: h-indeksi: 25, i10-indeksi: 82. WOS h-indeksi: 19.

***İlkin QULUSOY, Prof. Dr.***

*Türkiyə Respublikası Qafqaz Universiteti Çağdaş türk ləhcələri və ədəbiyyatları (Azərbaycan türkcəsi və ədəbiyyatı) bölümünün rəhbəri*

Qafqaz Universitetində fəaliyyət göstərən Çağdaş Türk Ləhcələri və Ədəbiyyatları bölümü Türkiyədə yeganə 4 illik bölümdür ki, Azərbaycan dili və ədəbiyyatı üzrə mütəxəssis yetişdirir. 2014-cü ildən etibarən İlkin Qulusoyun təşəbbüsü ilə bölümdə magistratura şöbəsi açılmış və bu müddət ərzində 60-a yaxın magistr məzun olmuşdur.

2023-cü ildə "Heydər Əliyev İli" çərçivəsində Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə 5 beynəlxalq elmi konfrans, Qarabağ Zəfərinin müəllifi, ali baş komandan İlham Əliyevə həsr olunmuş 2 beynəlxalq elmi konfrans, və 2024-cü ildə Naxçıvan Muxtar Respublikasının 100 illiyi çərçivəsində 3 beynəlxalq konfrans təşkil etmişdir. Konfrans materialları Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən ISBN alınaraq nəşr olunmuşdur.

İlkin Qulusoy 12 elmi kitabın müəllifidir. Beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan dövri elmi nəşrlərdə 27 məqaləsi dərc olunmuşdur. 70-dən çox beynəlxalq elmi konfransda məruzə ilə çıxış etmiş, 60-dan artıq kitabın elmi redaktorudur. Rəhbərliyi altında 10 nəfər Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə magistr dissertasiyası müdafiə etmişdir.

Türkologiya elminə verdiyi töhfələrinə görə 3 dəfə mükafatla təltif edilmişdir. Sema Şahin Dede ilə birgə hazırladığı "Türkiyə Türkcəsi ilə Azərbaycan Türkcəsinin Müqayisəli Frazeologiyası" kitabı bu sahədə yazılan ilk tədqiqat əsəri kimi yüksək qiymətləndirilmişdir.

***İsmixan BAYRAMOV, Prof. Dr.***

*İzmir İqtisad Universitetinin professoru, Elmlər fakültəsinin qurucu dekanı və dekanı (2001–2022), Riyaziyyat Kafedrasının müdiri (2001–2014)*

Professor İsmixan Bayramoğlu ehtimal nəzəriyyəsi, statistika və stokastik proseslər sahəsində ixtisaslaşmışdır. Onun elmi maraqları riyaziyyat, ehtimal və

statistika, etibarlılıq mühəndisliyi kimi sahələri əhatə edir. Xüsusilə ehtimal və statistika, etibarlılıq nəzəriyyəsi, sıralı təsadüfi dəyişənlər, kopula nəzəriyyəsi və asılılığın modelləşdirilməsi istiqamətlərində apardığı araşdırmalar bu sahələrdə yeni konsepsiya və nəzəri yanaşmaların inkişafına mühüm töhfələr vermişdir. 1988-ci ildə Kiyev Dövlət Universitetində fəlsəfə doktoru elmi dərəcəsi almış, elmi karyerası boyunca Azərbaycan və Türkiyədə bir sıra nüfuzlu elmi və akademik qurumlarda çalışmışdır.

2001-ci ildən etibarən İzmir İqtisadiyyat Universitetində professor və dekan vəzifələrini icra edir. Bundan əvvəl Ankara Universitetində professor, Azərbaycan Milli Aerokosmik Agentliyində isə elmi işçi kimi fəaliyyət göstərmişdir. Tədris fəaliyyəti bakalavr və magistr səviyyələrində Statistika və Riyaziyyat fənlərini əhatə edir. Professor Bayramov 17-dən artıq fəlsəfə doktoru hazırlamış, onların bir çoxu hazırda müxtəlif beynəlxalq universitetlərdə akademik karyeralarını davam etdirirlər. O, yüksək impakt faktorlu beynəlxalq jurnallarda 120-dən çox elmi məqalə dərc etdirmiş, bunlardan 75-i SCI və SCI Expanded indeksli jurnallarda yer almışdır. Eyni zamanda ehtimal və statistika sahəsində üç beynəlxalq kitabın müəllifidir. Bir sıra beynəlxalq jurnalların redaksiya heyətinin üzvü olan alim "İstatistik" jurnalının baş redaktoru vəzifəsini də icra edir.

Elmi fəaliyyəti "Web of Science", "ORCID" və "Google Scholar" kimi nüfuzlu elmi platformalarda ətraflı şəkildə əks olunmuş, çoxsaylı beynəlxalq konfranslara dəvətli spiker kimi qatılmışdır ki, bu da onun sahəsində beynəlxalq nüfuzunun göstəricisidir.

### *Məqbulə SƏBZİYEVA, Prof. Dr.*

*Anadolu Universitetinin Rus dili və Ədəbiyyatı bölümünün müdiri*

Professor Məqbulə Səbziyeva rus dili və ədəbiyyatı sahəsində mütəxəssisdir və hazırda Anadolu Universitetinin Ədəbiyyat fakültəsində Rus Dili və Ədəbiyyatı bölməsinin rəhbəri kimi fəaliyyət göstərir. Moskva Dövlət Universitetində bakalavr və magistr, Bakı Dövlət Universitetində isə doktorantura təhsili almışdır. Doktorluq dissertasiyasını Lev Tolstoyun "Savaş və Sülh" romanının Azərbaycan dilinə tərcüməsi mövzusunda müdafiə etmişdir.

Elmi fəaliyyətində cinsiyyət məsələləri, intertekstuallıq, tərcümə nəzəriyyəsi, folklor, uşaq ədəbiyyatı, metodologiya və rus-türk ədəbi əlaqələri kimi sahələrə fokuslanmışdır. O bu sahələrdə üç elmi kitabın və bir sıra kollektiv əsərlərin müəllifidir. Elmi dövri nəşrlərdə və beynəlxalq indeksli jurnallarda 14 elmi məqaləsi dərc olunmuş, 50-dən çox beynəlxalq elmi konfransda məruzələrlə çıxış etmişdir.

Eyni zamanda 20-dən artıq elmi kitab, monoqrafiya və tərcümənin müəllifi və ya redaktoru olan professor Məqbulə Səbziyeva, Tolstoy, Aytmatov kimi klassiklərin əsərlərinin tərcüməsi və tədqiqi sahəsində də tanınır. Türkiyədə dövlət səviyyəsində həyata keçirilən "Türk Ədəbiyyatının Tanıtımı" proqramı çərçivəsində Türkiyə və Rusiyada nəşr olunmuş 20-dən çox kitabı tərcümə etmişdir.

Professor Məqbulə Səbziyeva həmçinin bir sıra beynəlxalq münsiflər heyətinin və redaksiya heyətlərinin üzvü olmuş, nüfuzlu elmi jurnallarda redaktor kimi fəaliyyət göstərmişdir. Türk dünyasına elmi və mədəni töhfələrinə görə iki dəfə beynəlxalq mükafata layiq görülmüşdür. Onun elmi və pedaqoji fəaliyyəti türk və rus ədəbiyyatları arasında körpü rolunu oynayaraq bu sahədə mühüm elmi və mədəni əlaqələrin inkişafına ciddi töhfə vermişdir.

### *Mehdi GƏNCƏLİ Dosent, Dr.*

*Marmara Universitetinin dosenti*

Ədəbiyyat və tarix sahəsində beş kitabın müəllifi olan Dr. Mehdi Gəncəli, eyni zamanda bu sahələrdə nəşr olunmuş beş digər kitabda bölmə müəllifi kimi çıxış etmişdir. ADA Universitetinin təşəbbüsü ilə həyata keçirilən "Azərbaycan" Qəzeti layihəsinin həmmüəlliflərindən biridir. Elmi fəaliyyəti çərçivəsində beş nüfuzlu elmi jurnalda səkkiz məqaləsi dərc olunmuş, səkkiz beynəlxalq elmi konfransda məruzələrlə çıxış etmişdir. Eyni zamanda, 11 magistrantın elmi rəhbəri kimi fəaliyyət göstərmişdir. Onun akademik maraq dairəsinə Azərbaycan və türk ədəbiyyatı, mətbuat tarixi, Qarabağ məsələsi, Azərbaycan-Türkiyə ədəbi əlaqələri və fikir adamlarının irsi kimi mövzular daxildir. O, iki monoqrafiyanın, çoxsaylı elmi məqalə və kitab fəsillərinin müəllifi olmaqla yanaşı, müxtəlif elmi simpozium və konfranslarda da fəal iştirak etmişdir. "Mevlana Değişim Programı" və institut rəhbərliyi kimi akademik və inzibati vəzifələrdə çalışmış, tərcüməçi və redaktor kimi də mühüm layihələrə imza atmışdır. Yeni türk ədəbiyyatı, milli kimlik və türklük ideologiyası, Azərbaycan mətbuatının inkişaf tarixi və türk dünyasına dair fəlsəfi məsələlər onun əsas tədqiqat istiqamətlərini təşkil edir. Rus dilini mükəmməl bilən M.Gəncəli elmi fəaliyyətini hal-hazırda İstanbulda davam etdirir.

***Mehmet RIZA HEYƏT, Dr.***
*Ankara Universitetinin Çağdaş türk ləhcələri və ədəbiyyatları bölümü müəllimi*

Tarixi mövzuda bir cildlik kitabın tərcüməsini həyata keçirmiş, iki cildlik elmi və iki cildlik ədəbi kitabın tərtibinə rəhbərlik etmişdir. İki elmi-tədqiqat kitabının elmi redaktoru olmuş, bununla yanaşı 18 elmi məqalə dərc etdirmişdir. 11 elmi simpoziumun təşkilat komitəsinin sədri kimi çıxış etmiş, 8 beynəlxalq elmi konfransda məruzəçi qismində iştirak etmişdir. Bir beynəlxalq elmi jurnalın elmi şurasının üzvü, iki beynəlxalq simpoziumun təşkilat komitəsinin sədri, bir elmi jurnalın isə baş redaktoru olmuşdur. Uzun illər "Varlıq" jurnalında redaktor və baş redaktor kimi çalışmış, hazırda da bu nəşrin imtiyaz sahibi və baş redaktoru olaraq fəaliyyət göstərir. TRT-də spiker və tərcüməçi kimi çalışmış, Tehran və Ankara universitetlərində pedaqoji fəaliyyət göstərmişdir.

Hal-hazırda Ankara Universitetində mühazirəçi, eyni zamanda Təbriz Araşdırmaları İnstitutunun (TEBAREN) rəhbəridir. Çağdaş türk ləhcələri və ədəbiyyatları sahəsində elmi fəaliyyət göstərən Professor Mehmet Rıza Heyət 10-dan artıq beynəlxalq simpozium və konfransın təşkilatçılığında rəhbər rol oynamışdır. Onun elmi maraq dairəsinə türkcə mətbuat, İran türkləri, dil siyasəti, milli kimlik məsələləri və Güney Azərbaycan mövzuları daxildir. Bu istiqamətlərdə 100-dən çox elmi məqalə, 5 kitab və çoxsaylı tərcümə əsərlərin müəllifi və ya redaktorudur. Tərcümə və elmi-tədqiqat fəaliyyətində Mirzə Mehdi Xan Əstərabadinin əsərləri, Atatürkün "Nutuk"u və Dr. Cavad Heyətin məqalələr toplusu mühüm yer tutur. Bir sıra nüfuzlu akademik jurnalların redaksiya heyətində təmsil olunur.

Elmi-praktik fəaliyyəti əsasən Türkologiya, Güney Azərbaycan türklərinin dili və mədəniyyəti, iranlı türklərin kimlik məsələləri və dil hüquqları mövzularına yönəlib.

***Oruc ALLAHVERDİYEV, Dosent, PhD***
*Bolu Abant İzzət Baysal Universitetinin Tibb fakültəsi, Farmakologiya kafedrası, təhsil üzrə koordinator*

Oruc Allahverdiyev İstanbul Universiteti Cərrahpaşa Tibb fakültəsinin Tibbi Farmakologiya sahəsində doktoranturadan məzun olub. Tibb və əczaçılıq sahəsində 4 elmi kitabın və 1 dərsliyin, 100-dən çox elmi əsərin həmmüəllifidir. Bir çox elmi simpoziumda, həmçinin Türkiyə və digər ölkələrdə iştirak edib.





Oruc Allahverdiyev orta məktəbdən sonra Azərbaycan Tibb Universiteti Əczaçılıq fakültəsinə qəbul olub. Türk hökumətinin təhsil imtahanında uğur qazanaraq təhsilini İstanbul Universitetində davam etdirmək üçün Türkiyəyə göndərilib. 2006-cı ildə İstanbul Universiteti Əczaçılıq fakültəsindən məzun olduqdan sonra İstanbul Universitetinin Tibb fakültəsi Farmakologiya və Klinik Farmakologiya kafedrasında magistratura təhsilinə başlayıb və 2009-cu ildə məzun olub. Magistratura dövründə baş beyin xəstəlikləri üzərində bir çox elmi tədqiqatlar aparıb və bu tədqiqatlar dünyaca məşhur beynəlxalq jurnallarda dərc olunub. Təhsil müddətində apardığı bir neçə elmi-tədqiqat TÜBİTAK tərəfindən mükafatlandırılıb.

Daha sonra İstanbul Universiteti Cərrahpaşa Tibb fakültəsinin Tibbi Farmakologiya kafedrasında doktorantura təhsilinə başlayıb. 2014-cü ildə "Honor Student" olaraq doktorantura təhsilini başa vurub və tibb elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb. Doktorantura dövründə maddə asılılığı, epilepsiya, depressiya, parkinson və dağınıq skleroz kimi baş beyin xəstəlikləri üzrə bir sıra elmi tədqiqatlar aparıb. Bu tədqiqatlar dünyaca məşhur beynəlxalq simpozium, konqres və konfranslarda təqdim edilib və nüfuzlu jurnallarda dərc olunub.

Oruc Allahverdiyev 2017-ci ildə İstanbul Universiteti Tibb Müəssisələrinin İdarə Edilməsi fakültəsindən məzun olub və Türkiyə Yüksək Öğretim Kurulu (YÖK) tərəfindən Tibbi Farmakologiya sahəsində dosent elmi adını alıb. Elmi rəhbərliyi altında 10-dan çox magistratura tələbəsi yetişdirib. Hazırda 100-dən çox elmi əsərin, 1 dərsliyin və 4 elmi kitabın, eləcə də bir sıra elmi-kütləvi məqalənin həmmüəllifidir. Onun 30-dan çox elmi əsəri "Science Citation Index"li jurnallarda çap olunub. Hal-hazırda dosent Dr. O.Allahverdiyev elmi fəaliyyətini Türkiyədə davam etdirir.

***Qafar ÇAXMAQLI (MEHDİYEV), Prof. Dr.***
*Erciyes Universiteti (Kayseri) Ədəbiyyat fakültəsi Erməni dili və mədəniyyəti bölümü rəhbəri*

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdikdən sonra uzun illər Azərbaycan mətbuatında jurnalist və redaktor kimi fəaliyyət göstərmişdir. O, "Kommunist" qəzetindən başlayaraq "Millət", "Yeni Azərbaycan", "Respublika", "Azərbaycan Ordusu" və digər nüfuzlu mətbu orqanlarda məsul vəzifələrdə çalışmış, həmçinin BDU-da mətbuat xidmətinə rəhbərlik etmiş və müəllim kimi dərs demişdir. 2007-ci ildə "Erməni məsələsi" mövzusunda dissertasiya

müdafiə edərək siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. 2010-cu ildən Türkiyənin Kayseri şəhərindəki Erciyes Universitetində Erməni dili və mədəniyyəti bölməsində professor kimi fəaliyyət göstərir.

Prof. Qafar Mehdiyev, həmçinin Azərbaycan Ermənişünaslıq Mərkəzinin və Müstəqil Araşdırmaçı Jurnalistlər Liqasının rəhbəridir. O, erməni məsələsi, erməni ideologiyası, Qarabağ münaqişəsi və erməni faşizmi ilə bağlı 20-dən çox kitabın və 100-dən artıq elmi məqalənin müəllifidir. Əsərləri Azərbaycan, Türkiyə və bir sıra xarici ölkələrdə nəşr olunmuşdur. "Ermənicə dərslər" adlı dərsliyi Türkiyə universitetlərində tədris olunur. 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Tərəqqi" medalı ilə təltif edilmişdir. Türk, erməni, rus və alman dillərini bilir.

***Ramin ƏLİYEV, Prof. Dr.***
*Hasan Kalyoncu Universiteti, kafedra müdiri*

Türkiyədə öz sahəsində ilk professor ünvanını almış biri olaraq, Təhsil Psixologiyası (Educational Psychology) və Pozitiv Psixologiya (Positive Psychology) sahələrində 3 elmi kitabın, beynəlxalq indeksli jurnallarda 35 elmi məqalənin müəllifi və 40 beynəlxalq elmi konfransda məruzəçi olmuşdur. Həmçinin, 6 PhD (doktorantura) və 19 magistratura tələbəsinə elmi rəhbərlik etmişdir. Təhsildə innovativ yanaşmalar və məktəblərdə pozitiv psixologiyanın tətbiqi sahəsində inkişaf etdirilən 7 beynəlxalq layihədə tədqiqatçı kimi çalışmışdır. Elmi fəaliyyəti və təhsil sahəsinə verdiyi töhfələrə görə müxtəlif mükafatlar və təltiflər almışdır. American Psychological Association və Türk Psixoloji Danışma və Rehberlik Derneği kimi nüfuzlu təşkilatların üzvüdür. Onun rəhbərlik etdiyi layihələr, xüsusilə gənclərin psixoloji rifahı və təhsildə motivasiya sahəsində əhəmiyyətli nəticələr vermişdir. Həmçinin Türkiyədə bir çox universitet və dövlət layihələrində, o cümlədən TÜBİTAK və UNICEF ilə əməkdaşlıqda aktiv iştirak etmişdir. Onun akademik fəaliyyəti təhsil psixologiyası, ailə terapiyası, sosial dəstək sistemləri və pandemiya dövründə psixoloji davamlılıq mövzularını əhatə edir.

***Şahin ƏHMƏDOĞLU, Prof. Dr.***
*Kilis 7 Aralık Universiteti, Kilisli Muallim Rıfat Eğitim fakültəsi dekanı*

İlahiyyat və İslam Məzhəbləri Tarixi sahəsində Azərbaycanın ilk professoru olan şəxsdir. İslam Məzhəbləri Tarixi üzrə 6 elmi kitabın, 10 elmi kitab bölümünün və çox sayıda elmi məqalənin müəllifidir. Həmçinin çox sayıda beynəlxalq elmi konfransda məruzələrlə çıxış etmişdir.





"İslam Mədəniyyətində Birgəyaşayış Təcrübəsi" adlı Beynəlxalq Simpoziumun (The International Symposium On 'Practice of Coexistence in Islamic Culture') ideya müəllifi və təşkilatçılarındandır. Bu simpoziumun birincisi Azərbaycanda (2022), ikincisi Türkiyədə (2023) üçüncüsü isə İndoneziyada (2024) keçirilmişdir. O həmçinin bir sıra beynəlxalq konfransların təşkilatçısı və iştirakçısıdır. Onun elmi fəaliyyəti yalnız akademik deyil, həm də dinin tədrisi və maarifləndirmə sahələrində mühüm təsirə malik olmuş, müxtəlif universitetlərdə dərs demiş, beynəlxalq konfranslarda məruzələrlə çıxış etmişdir.

Əlavə olaraq, farsça və ərəbcə bir sıra dini və elmi mətnlərin tərcüməsini etmiş, elmi redaktor və tənqidçi kimi də fəaliyyət göstərmişdir. Professor Ş.Əhmədoğlu, həmçinin magistr dissertasiyalarına rəhbərlik etmiş, İslam mədəniyyəti və məzhəblər tarixi sahələrində pedaqoji fəaliyyətlərini davam etdirir.

***Saleh SULTANSOY, Prof. Dr.***
*Türkiyə Odalar və Borsalar Birliyinin (TOBB) İqtisadiyyat və Texnologiya Universiteti*

Yüksək Enerji Fizikası və Sürətləndirici Texnologiyaları sahəsində 1500-dən çox elmi məqalənin müəllifi, 100-dən çox beynəlxalq elmi konfransda məruzəçi olmuş, 20-dən çox PhD tələbəsinə elmi rəhbərlik etmişdir.

Professor Saleh Sultansoy hal-hazırda Ankarada yerləşən TOBB İqtisadiyyat və Texnologiya Universitetində çalışır. O, yüksək enerji fizikası, hissəcik sürətləndiriciləri, elm tarixi və elmi siyasət sahəsində ixtisaslaşıb. 1969–1974-cü illərdə Azərbaycan Dövlət Universitetində təhsil alıb, 1985-ci ildə isə Rusiyanın Serpuxov şəhərində yerləşən Yüksək Enerjili Fizika İnstitutunda fəlsəfə doktoru dərəcəsini alıb. Karyerası boyunca Azərbaycan Milli Elmlər Akademiyası, Ankara Universiteti, DESY (Almaniya), Qazi Universiteti və TOBB ETÜ kimi nüfuzlu qurumlarda çalışmışdır.

Onun əsərlərinə "Web of Science"da 81 000-dən çox, "Google Scholar"-da 275 000-dən çox, HEP Inspire tərəfindən isə 235 000-dən çox istinad edilir. H-indeksi müvafiq olaraq 127, 208 və 215-dir.

Onun əsas tədqiqat sahələri yüksək enerji fizikası, sürətləndirici texnologiyaları və elmi strategiyalardır. 2013-cü ildə Türk Fizika Cəmiyyətinin "Engin Arık" elm mükafatına, 2016-cı ildə isə Türk dünyası "Qızıl Alma" elm mükafatına layiq görülüb.

Saleh Sultansoy CERN və digər beynəlxalq araşdırma mərkəzlərində elmi şuraların üzvü olmuş, Türkiyə və Türk dünyasında elmi siyasətin inkişafında fəal iştirak etmişdir. O, uzunmüddətli milli elmi-tədqiqat təşəbbüsü olan Türk Sürətləndirici Kompleksi (TAC) layihəsinin yaradıcısı və rəhbərlərindən biri, ATAM (Ankara Fundamental Araşdırma Mərkəzi) təşəbbüsünün müəllifi, ATLAS, CLIC, LHeC, FCC və digər CERN layihələrində iştirakçı olmuşdur. Həmçinin DPT-TAEK və TÜBİTAK çərçivəsində aparılan sürətləndirici texnologiyaları üzrə bir sıra qabaqcıl layihələrin elmi rəhbəri olmuşdur.

***Teymur RZAYEV, Prof. Dr.***
*DAAB İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Əməkdar Rəssamı, Türkiyə Cümhuriyyəti Yeditepe Universiteti Gözəl sənətlər fakültəsi, plastik sənətlər-rəsm bölümü müəllimi*

Azərbaycan Respublikasının əməkdar rəssamı, Prof. Dr. Teymur Rzayev 2008-ci ildə Türkiyə Cümhuriyyəti Yeditepe Universitetinin Gözəl sənətlər fakültəsində "Desen Anfisi" (qara qələm rəsm emalatxanası) layihəsinin müəllifi və rəhbəri olmuşdur. Emalatxana Türkiyədə bu sahədə ilk və yeganə nümunə olaraq tələbələrin böyük maraq və zövqlə təhsil aldıqları nüfuzlu bir sənət məkanına çevrilmişdir.

Akademik fəaliyyəti dövründə Prof. Dr. Rzayev çoxsaylı tələbə yetişdirmişdir: bakalavr səviyyəsində onlarla tələbə, 18 magistr və 7 doktorant məzun etmişdir. Eyni zamanda 8 yerli və 5 beynəlxalq elmi jurnalda məqalələri dərc olunmuş, 3 kitab-albomu çap edilmişdir. İndiyədək 43 yerli və 18 beynəlxalq sərgidə, 26 yerli və 12 beynəlxalq simpoziumda iştirak etmiş, sənət əsərləri 3 yerli və 8 beynəlxalq muzeyin daimi kolleksiyalarında nümayiş etdirilməkdədir.

Aldığı rəsmi elmi və fəxri titullar, mükafatlar, vəzifələr:

- 1991-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür.
- 2014-cü ildə Türkiyə Cümhuriyyəti Universitetlərarası Şurası tərəfindən ona dosent elmi adı və vəzifə səlahiyyəti verilmişdir.
- 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşdür.
- 2011-ci ildə Azərbaycan Respublikasının Əməkdar rəssamı fəxri adı ilə təltif edilmişdir.





- 2013-cü ildə Rusiya Rəssamlıq Akademiyasının "Şuvalov" medalı ilə təltif olunmuşdur.
- 2015-ci ildə Rusiya Rəssamlıq Akademiyasının "Akademiyaya xidmətə görə" qızıl medalı ilə təltif edilmişdir.
- 2016-cı ildə Azərbaycan Respublikasının "III dərəcəli Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.
- 2017-ci ildə Rusiya Rəssamlıq Akademiyasının Fəxri akademiki seçilmişdir.
- 2020-ci ildə Türkiyə Cümhuriyyəti Yeditepe Universitetinin İdarə Heyəti tərəfindən "professor" elmi adı və səlahiyyəti verilmişdir.
- 2022-ci ildə Azərbaycan Diasporuna göstərdiyi xidmətlərə görə xüsusi medalla təltif edilmişdir.
- 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlıların Əlaqələndirmə Şurasının üzvü seçilmişdir.
- 2024-cü ildə Dünya Azərbaycanlı Alimlər Birliyinin İdarə Heyətinə üzv seçilmişdir.

***Toğrul İSMAYIL, Prof. Dr.***
*DAAB İdarə Heyətinin üzvü,*
*Kahramanmaraş Sütçü İmam Universiteti, Siyasət elmi və beynəlxalq əlaqələr bölümünün rəhbəri*

*Akademik karyerası və elmi fəaliyyəti*

Prof. Dr. Toğrul İsmayıl müxtəlif universitetlərdə müəllim və tədqiqatçı kimi fəaliyyət göstərmişdir:

- 2003–2010-cu illər – Bakı Slavyan Universitetinin Beynəlxalq münasibətlər bölməsində müəllim olaraq çalışmışdır.
- 3 may 2004-cü il – Bakı Slavyan Universitetində Türkiyə Araşdırmaları Mərkəzini təsis etmiş və uzun müddət həmin mərkəzə rəhbərlik etmişdir.
- Hazırda – Türkiyənin Kahramanmaraş Sütçü İmam Universitetində (KSÜ) İqtisadiyyat və idarəetmə fakültəsinin Siyasi elmlər və beynəlxalq münasibətlər bölməsində professor vəzifəsində çalışır. Onun akademik araşdırmaları əsasən beynəlxalq münasibətlər, Türkiyə-Azərbaycan əlaqələri, Cənubi Qafqaz və Orta Asiya siyasəti, Rusiya-Türkiyə münasibətləri və digər geosiyasi məsələləri əhatə edir.

*Elmi əsərləri və konfranslar*

Prof. Dr. Toğrul İsmayıl müxtəlif beynəlxalq və yerli elmi konfranslarda çıxışlar etmiş, bir çox məqalə və kitablar nəşr etdirmişdir. O, Qafqaz və Orta Asiya regionunun siyasi problemləri, təhlükəsizlik məsələləri, beynəlxalq əlaqələr və diplomatiya mövzularında tədqiqatlar aparmışdır.

*Media və cəmiyyətə təsiri*

Beynəlxalq və yerli media qurumlarında tez-tez çıxış edir və ekspert kimi siyasi analizlər aparır. Xüsusilə Azərbaycan-Türkiyə münasibətləri, Qarabağ münaqişəsi, Rusiya-Türkiyə əlaqələri və bölgədəki geosiyasi dəyişikliklər barədə mülahizələri ilə tanınır.

*Mükafatlar və fəxri adlar*

Azərbaycan və Türkiyə arasındakı elmi, mədəni əlaqələrin inkişafına verdiyi töhfələrə görə Azərbaycan dövləti tərəfindən mükafatlandırılmışdır.

Akademik fəaliyyəti və beynəlxalq münasibətlər sahəsindəki uğurlarına görə müxtəlif mükafatlar və sertifikatlarla təltif edilmişdir.

***Varqa KƏLƏNTƏROV, Prof. Dr.***
*Hacettepe Universiteti, Koç Universiteti*

Riyaziyyat sahəsində müxtəlif elmi jurnallarda dərc olunmuş, “Google Scholar”a görə 2000-dən çox istinad almış, 75 elmi məqalənin, 1 kitabın və 2 dərsliyin müəllifidir. Elmi rəhbərliyi altında 17 namizədlik (PhD) dissertasiyası müdafiə olunmuşdur. Riyaziyyat və tətbiqi riyaziyyat sahəsində 6 beynəlxalq və 3 Azərbaycan jurnalının redaksiya heyətinin üzvüdür. V.A.Steklov Riyaziyyat İnstitutu (Rusiya), Tennessee Universiteti (ABŞ), Fəza Gürsey İnstitutu (Türkiyə), Autonoma Barcelona Universiteti (İspaniya), İpək Yolu Riyaziyyat Mərkəzi (Çin) və digər elmi mərkəzlərdə tədqiqatlar aparmış, silsilə leksiyalar oxumuşdur. 50-dən çox beynəlxalq elmi konfransda məruzəçi olmuşdur.

***Vəfa QURBAN, Prof. Dr.***
*Ege Universiteti Türk Dünyası Araşdırmaları İnstitutunun*
*Sosial, iqtisadi və siyasi əlaqələr şöbəsinin müdiri*

Türkiyə və digər ölkələrdə elmi konfranslarda və simpoziumlarda iştirak etmişdir. Dosent və professor kimi elmi vəzifələrdə fəaliyyət göstərmişdir. Türkiyədə müxtəlif mükafatlara layiq görülmüşdür. 86 elmi nəşrin redaktoru olmuşdur. Beynəlxalq nəşrlərdə məqalələri dərc edilmişdir. Ege və Dokuz Eylül universitetlərində müxtəlif məsul vəzifələrdə çalışmışdır.





## UKRAYNA

***Arif QULİYEV, Dr.***
*“Odessa Hüquq Akademiyası” Milli Universitetinin Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetində Elmi Şuranın üzvü, Konstitusiya, Beynəlxalq hüquq və İctimai-hüquqi fənlər kafedrasının professoru, hüquq elmləri doktoru, professor, diplomat, Ukraynanın Əməkdar təhsil işçisi, Ukrayna Ali Təhsil MEA-nın Akademiki, “Ukrayna Azərbaycanlıları Alimlər Şurası” və “Xalq Diplomatiyası İnstitutu” ictimai təşkilatlarının rəhbəri*

2005-ci ildə Ukrayna Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında “Ukraynada və Azərbaycan Respublikasında Prezidentlik İnstitutunun xüsusiyyəti: dövlət-idarəçilik aspekti” mövzusunda namizədlik dissertasiyası müdafiə edərək Dövlət idarəçiliyi və hüquq elmləri namizədi elmi dərəcəsi almışdır.

2012-ci il Ukrayna Ali Radasının Qanunçuluq İnstitutunda “Beynəlxalq Terrorizmə qarşı mübarizədə Prezidentlik İnstitutu rolunun müqayisəli-hüquqi təhlili (Ukrayna və Azərbaycan Respublikasının nümunəsi əsasında)” mövzusunda doktorluq dissertasiyası müdafiə edərək hüquq elmləri doktoru elmi dərəcəsi almışdır. 8 monoqrafiya, 3 dərslik, 2 tədris vəsaiti, 250-dən çox elmi və publisistik məqalə müəllifidir, 35-dən çox beynəlxalq elmi konfransda məruzələrlə çıxışı, 3 skopus məqaləsi çap olunub. 25 hüquq elmləri namizədinə və 2 doktora elmi rəhbərlik etmişdir. Hazırda Ukraynada 7 elmlər namizədi aspirantı vardır. 70 nəfərə yaxın alim soydaşımızı birləşdirən “Ukrayna Azərbaycanlıları Alimlər Şurası” və “Xalq diplomatiyası İnstitutu” ictimai təşkilatlarının rəhbəridir. Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının akademikidir. 2013-cü ildə “Ukraynanın Əməkdar təhsil işçisi” fəxri adına, 2016-cı ildə Azərbaycanın “Tərəqqi” medalına layiq görülmüşdür. Diplomatik rütbəsi var.

***Eldar VƏLİYEV, Prof. Dr.***
*Ukrayna Milli Texniki Universiteti Xarkov Politexnik İnstitutunun (NTU "KPI") elmi və pedaqoji işləri üzrə prorektoru*

Beynəlxalq elmi konfrans olan "Elektromaqnit Nəzəriyyəsində Riyazi Metodlar" (MMET) təşkilat komitəsinin sədridir. 1997-ci ildə Amerika Bioqrafiya İnstitutu tərəfindən ilin adamı elan edilmiş, 1999-cu ildə isə İEEE (Radio Engineers) Beynəlxalq İnstitutunun (ABŞ) baş üzvü seçilmişdir. 2008-ci ildən 2012-ci ilə qədər Əsas Kimya Elmi-Tədqiqat və Layihə İnstitutunun (NIOCHIM, Xarkov) direktoru olaraq çalışmışdır. Ukrayna Milli Texniki Universiteti Xarkov Politexnik İnstitutu (NTU KPI)-da Uzaqdan Təhsil Mərkəzinin rəhbəridir. 2016-cı ildən etibarən həmin institutun elmi və pedaqoji işlər üzrə prorektorudur. Aparıcı milli və beynəlxalq jurnallarda 150-dən çox orijinal elmi məqalənin müəllifi və həmmüəllifidir. Yaponiya və Avropada nəşr olunan 3 kitabın həmmüəllifidir. 7 elmlər namizədi və bir elmlər doktoru yetişdirmişdir. 2000-ci ildən Tətbiqi Radio Elektronika Akademiyasının akademikidir (Xarkov, Ukrayna).

2011-ci ildə  Azərbaycan Respublikasının "Əməkdar elm xadimi" fəxri adı ilə təltif olunmuşdur.

***Murad ÖMƏROV, Prof. Dr.***
*Beynəlxalq əməkdaşlıq üzrə prorektor, Xarkov Milli Radio elektronika Universiteti, Ukrayna Tətbiqi Radioelektronika Elmlər Akademiyasının akademiki*

150-dən çox elmi əsərin həmmüəllifi (onlardan 17-si "Scopus" bazasında indekslənmişdir), 3 monoqrafiyanın və 11 dərsliyin həmmüəllifidir. Ukraynanın 12 müəlliflik şəhadətnaməsi və ixtira patentinə malikdir. 5 aspirantın namizədlik dissertasiyasının yazılmasına və müdafiəsinə elmi rəhbərlik etmişdir. Ukraynanın Xarkov Milli radioelektronika universitetində beynəlxalq əməkdaşlıq üzrə prorektor vəzifəsində çalışır. O, texnika elmləri namizədi (Fiber-optik informasiya ötürmə sistemlərinin tədqiqi və təkmilləşdirilməsi), texnika elmləri doktoru (Paylanmış və kvazipaylanmış qeyri-xətti elementlərlə elektrodinamika cihazlarının layihələşdirilməsi nəzəriyyəsinin inkişafı) elmi dərəcələrinə malikdir. Ali təhsil və elmi-tədqiqat sahəsində 40 ildən artıq təcrübəyə malik olan prof. Ömərov müxtəlif akademik və inzibati vəzifələrdə – professor, kafedra müdiri, xarici tələbələr mərkəzinin direktoru və dekan kimi çalışmışdır.





Onun rəhbərliyi altında bir neçə namizədlik  dissertasiyası müdafiə olunmuşdur; bu işlər məsafədən təhsil sistemləri, istehsalat logistikası, robotların ağıllı idarəetmə modelləri və metodları, elektronika sahəsində idarəetmə sistemlərini əhatə edir. O, kompüterləşdirilmiş rabitə sistemləri, robototexnika və ali riyaziyyat kimi fənləri tədris etmişdir. Prof. Ömərov həmçinin milli ekspert şuralarının və beynəlxalq elmi konfransların fəal üzvüdür. 2019-cu ildən etibarən ICONAT konfranslar seriyasına sədirlik edir.

Alimin elmi maraqları informasiya-ölçmə sistemləri, lifli-optik rabitə və qeyri-xətti elementlərə malik elektrodinamik qurğuların layihələndirilməsi sahələrini əhatə edir. O, 2004-cü ildən Ukrayna Tətbiqi Radioelektronika akademiyasının akademikidir. 2016-cı ildə isə "Azərbaycan Respublikasının Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

## YAPONİYA

***Xəlil KƏLƏNTƏR, PhD***
*Qlobal Optik Həllər və Kepler layihələri üzrə baş tədqiqatçı*

Həm Naqoya, həm də Tohoku universitetlərində doktorluq dərəcəsi almışdır. Elektron displeylər və sensorların hazırlanması, istehsalı sahəsində aparıcı mütəxəssislərdən biri kimi Yaponiya, ABŞ, Kanada, Avropa, Cənubi Koreya və Tayvan daxil olmaqla, müxtəlif ölkələrdə 105 patent və 28 texniki sənədin müəllifidir. Beynəlxalq elmi jurnallarda 35, yerli nəşrlərdə isə ekran texnologiyaları üzrə 59 məqalə və təqdimatı dərc olunmuşdur. Yapon dilində 5 kitab, ingilis dilində tezislər, 15 kitab fəsli və 7 IEC standart sənədi dərc etdirmiş, eləcə də 9 hökumət layihəsində iştirak etmişdir. Bu layihələri Yaponiyanın aparıcı universitetləri ilə əməkdaşlıq çərçivəsində həyata keçirmişdir. Bundan əlavə, bir sıra xarici universitetlərdə doktorluq dərəcəsi alan tədqiqatçılara elmi rəhbərlik etmişdir.

Xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsində xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2026-cı ildə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

## FORUM HAQQINDA TƏƏSSÜRATLAR

***Afina MƏMMƏDLİ BARMANBAY***
*Qars şəhəri, Qafqaz Universiteti Fən – ədəbiyyat fakültəsi Çağdaş türk ləhcələri və ədəbiyyatları şöbəsində müəllim*

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumu çərçivəsində Azərbaycanda bizə göstərilən diqqət və qayğının vətənimizə xidmət etmək üçün motivasiyamızı artırdığı bir həqiqətdir. Hətta forumun arxa planındakı təfərrüatlar belə çox həyəcanverici idi. Tədbir boyu bütün səfərlərimizin yol polisi və təcili yardım maşınlarının müşayiəti ilə keçməyi Azərbaycanı xaricdə təmsil edən alimlərə göstərilən böyük diqqət və qayğının təzahürü idi. Tədbirimizin Bakının ən mühüm tədbir məkanı olan Gülüstan Sarayında keçirilməsi hal-hazırda və gələcəkdə görəcəyimiz işlərin ciddiliyini və əhəmiyyətini vurğuladı. Rəsmi ziyafət müzakirə işimizin son mərhələsi kimi çox gözəl keçdi. Eləcə də Bakının ən yaxşı hotellərindən birində biz qonaqlara ayrıca otaqlar ayrılması alimlərə fərdi yanaşma baxımından çox incə bir jest idi. Nəticə etibarilə bu tədbirə böyük zəhmət sərf olunduğu və xeyli büdcə ayrıldığı göz qabağında idi.

Forumun ilk günündəki protokol və rektorların çıxışları məndə dərhal tədbirin ciddiliyi və faydalılığı barədə təəssürat yaratdı. Doğrudan da, forumda hökumət rəsmilərinin iştirakı tədbirin effektivlik səviyyəsinə təsir etdi. Xəzər Universitetinin təsisçisi, professor Hamlet İsaxanlının suallara verdiyi adekvat cavablar yaddaşımda iz buraxdı. Forumun ikinci günündə qarışıq masalarda tanış olduğum alimlərimizlə apardığımız fikir mübadiləsi dünyagörüşümü genişləndirdi. Hörmətli Bəxtiyar Siracovun moderator olduğu qarışıq masada Rusiya Federasiyasından yazıçı, şair, ədəbiyyatşünas Eldar Əhədov, Almaniyadan musiqiçi, bəstəkar Xədicə Zeynalova, Qazaxıstandan hüquqçu Akif Süleymanov, Gürcüstandan iqtisadiyyatçı Aygül İsayeva öz bilik və təcrübələri ilə məndə çox xoş təəssürat yaratdılar. Doktorant Namiq Namazovun aktivliyini də qeyd etmək istərdim. Dünyanın müxtəlif yerlərində, müxtəlif elm sahələrində çalışan bu alimlərlə fikir mübadiləsi aparmaq, ölkəmiz üçün nələr edə biləcəyimiz barədə söhbətlərimiz həm beynimi, həm də ruhumu canlandırdı. Elm sahələrinə uyğun olaraq təşkil edilən masanın moderatoru hörmətli Seymur Nəsirov idi. Burada müzakirələr daha dar çərçivədə aparılsa da, daha konkret nəticələr əldə edildi.





Mövcud problem və çatışmazlıqlar müzakirə edilərək təkliflər ortaya qoyuldu. “Nə etmək lazımdır və biz nə edə bilərik?” sualı çərçivəsində konkret olaraq şəxsən nə edə biləcəyimiz barədə yekun nəticələr əldə edildi. Hesab edirəm ki, masalardakı fikir mübadiləsi çox məhsuldar keçdi. Hər iki masada alimlərlə aparılmış müzakirələri, təklifləri və qərarları qeyd edərək rəsmi hesabat vermək mənim üçün çox vacib və həyəcanverici təcrübə oldu. Bundan əlavə, forum çərçivəsində mənim Vasif Sadıqlı ilə birlikdə hazırladığım və diaspor tərəfindən maliyyələşdirilən “Gürcüstandan Azərbaycana dialekt lüğəti” (“Gürcistandan Azerbaycana Ağız Sözlüğü”) adlı kitabın təqdimatı keçirildi. Bu kitabın müxtəlif ölkələrdən gələn həmvətənlərimizə çatdırılmasını mədəniyyətimizin bir parçasını dünyaya yaymaq kimi qiymətləndirirəm.

Gürcüstandan foruma qatılan Aygül İsayevanın Gürcüstandakı soydaşlarımızın təhsil problemləri ilə bağlı göstərdiyi səylər də xatirimdə iz buraxdı. Qeyd edim ki, əslən Borçalıdan olduğum üçün Gürcüstandakı azərbaycanlıların problemlərini hər zaman yaxından izləməyə çalışmışam. Borçalıda təhsil sahəsindəki son durumla bağlı Aygül İsayevanın verdiyi məlumatlar məni kədərləndirsə də, təklifləri xeyli həyəcanlandırdı. Bu məndə Gürcüstan azərbaycanlılarının problemlərinə daha çox diqqət yetirməli olduğum haqqındakı fikri formalaşdırdı.

Forumun planlı və möhtəşəm təşkilinin yaratdığı təəssüratı daha əvvəl də qeyd etdim. Almaniyadan foruma qatılan gənc alim Toğrul Kərimovla Qarabağdakı söhbətimi heç vaxt unutmayacağam. Bu forumun onda necə fərqindəlik yaratdığını və hazırda “mən ölkəm üçün nə edə bilərəm” düşüncəsinə köklədiyini deyən Toğrul Kərimov bu sözləri ilə məni necə sevindirdiyini təsəvvür belə edə bilməz. Bilirik ki, çağımızda hər şey sürətlə inkişaf edir. Yaşlı, hətta orta yaşlı nəsillə yeni yetişən gənc nəsil arasında praktiklik və özünü mərkəzləşdirmə baxımından böyük fərq var. Gənc alimimizin bu fərqindəliyi dövlətimizin gənc nəslə daha çox sərmayə qoymasının nə qədər vacib addım olduğunu bir daha xatırlatdı. Düşünürəm ki, bu məqam forumun əhəmiyyətini ən sadə şəkildə izah edir.

Forumun son günündəki Qarabağ səfərimiz xatirimdə çox dərin iz buraxdı. Qarabağ səfərimizdə çox emosional, təsirli, həm kədərli, həm də qürurlu anlar yaşadıq. Həyəcan və yüksək emosional gərginlik məni yol boyu tərk etmədi. 1990-cı illərin ağrı-acısı, yaşadığımız fəlakətlər, şəhidlərimiz, qazilərimiz gözümün önündə canlandı. Bu səbəblərə görə azad edilmiş torpaqlarımızda gəzərkən şən və bayram əhvali-ruhiyyəsində olmaq çox çətin idi. Yalnız minnətdarlıq, acı bir hüzur və rahatlıq hissi var idi. Şəhidlərimizin xatirəsini könül rahatlığı ilə yad edib ruhlarının şad olmasını dilədim.

Xocalıdan keçərkən amansız qətliamın qurbanları, onların donmuş cəsədlərinin vertolyotlarla necə daşındığı, mərhum jurnalistimiz Çingiz Mustafayevin fəryadı, itkin düşən soydaşlarımızın qeyri-müəyyən aqibəti gözlərimin önündə canlandı… Ağdam rayonundan keçərkən daşları belə sökülüb daşınmış evlərin bünövrələrindən başqa heç nə qalmadığını görəndə, Ağdamın, sözün əsl mənasında, necə yerlə yeksan edildiyini seyr edəndə qəzəbdən ürəyim parçalandı. Amma yeni torpaqlarda tikilən evləri gördükcə dövlətimizin quruculuq işlərinə olan qətiyyətli münasibətini xatırladım, köhnə qəbiristanlığa çevrilmiş Ağdamın yenidən doğulacağına və bu doğuluşun daha möhtəşəm olacağına inanmaq istədim.

Ümumiyyətlə, yol boyu gördüyüm xarabalıqlar və yeni tikililər sanki ölümü və həyatı simvolizə edirdi. Bu hiss biz Xankəndiyə çatana qədər davam etdi. Xankəndidəki abadlıq və əhalinin çoxluğu göz oxşayırdı. Bu dəfə də qələbəmizdən əvvəl mənfur düşmənlərimizin dəbdəbəli şəraiti olan yerlərdə necə firavan yaşadıqları və əşyalarını necə yavaş-yavaş yığıb rahat bir şəkildə getdikləri məni hiddətləndirdi. Halbuki bizim insanlarımız evlərini tərk etmək məcburiyyətində qalanda canlarını çətinliklə qurtara bilmişdilər. Bu ağır və ürəksıxıcı düşüncələrdən qurtulmağa çalışdım… Ətrafda doğma insanlarımıza, meydançalarda oynayan şən uşaqlarımıza baxdıqca ürəyim rahatladı.

Möhtəşəm Qarabağ Universitetimizi görmək, hörmətli və əziz rektorumuz professor Şahin Bayramovla görüşümüz ürəyimdə əsl bayram şənliyi yaratdı. Birlikdə gəzdiyimiz Şuşa isə mənim Qarabağ xatirələrimin zirvəsi idi. Könüllərimizin paytaxtı Şuşa torpağına ilk dəfə qədəm basırdım. İllərdir verdiyi kədər, üzüntü və həsrət hisslərindən fərqli olaraq “Bayatı-Şiraz” ilk dəfə qulaqlarımda fərqli şəkildə səsləndi. Şuşa ilə görüşümüzün himni kimi təntənəli şəkildə ürəyimi və ruhumu oxşadı. Qarabağ xanlığının möhtəşəm dövrü Cıdır düzündə gözümün önündə canlandı. Şuşa dağlarını seyr edərkən İkinci Qarabağ müharibəsində Şuşanın necə alındığını böyük həyəcanla təsəvvür etməyə çalışdım. Necə də qürurverici anlardı… Xan qızı Natəvanın heykəlinin yanında şəkil çəkdirərkən o dövrün çətinlikləri, Natəvanın bir qadın kimi bu çətinliklərin öhdəsindən gəlmək üçün necə mübarizə apardığı haqqında duyğulara qapıldım. Üzeyir Hacıbəylinin heykəlinin qarşısında millətimin dünya miqyasında qazandığı uğurunu bir daha öz uğurum kimi hiss edərək qürur və şərəf duydum. Bülbülün heykəlinin yanındaykən onun xəyalımda canlandırdığım şən və şaqraq səsi könlümü oxşadı.

Birinci forumun belə yüksək səviyyədə təşkil olunması çox qürurverici haldır. İntellektual şəxsiyyəti ilə diqqət çəkən DAAB İdarə Heyətinin sədri Məsud Əfəndiyevin tədbir boyu aramsız səyləri, təşkilatçılıq qabiliyyəti və müsbət enerjisi təqdirəlayiqdir. Azərbaycan Diasporuna Dəstək Fondundan cənab Əkrəm Abdullayev, Şahin Camalov və diaspor komandasının forumun təşkilində göstərdikləri səylər çox mühüm amil kimi yaddaşıma həkk olundu. Bizləri salamlayan qalib ölkəmizin qalib Prezidenti İlham Əliyevə, forumu təşkil edən və dəstəkləyən bütün qurumların idarə heyəti üzvlərinə və əməkdaşlarına ürəkdən təşəkkür edirəm. Forumda atılan uğurlu addımlar münasibətilə hamını təbrik edirəm. Biz birlikdə daha güclüyük!

*“Sən bizimsən, bizimsən durduqca bədəndə can,*
*Yaşa, yaşa, çox yaşa, ey şanlı Azərbaycan!”*

Hörmət və məhəbbətlə…

***Arif QULİYEV***
*“Odessa Hüquq Akademiyası” Milli Universitetinin Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetində Elmi Şuranın üzvü, Konstitusiya, Beynəlxalq hüquq və İctimai-hüquqi fənlər kafedrasının professoru, hüquq elmləri doktoru, professor, diplomat, Ukraynanın Əməkdar təhsil işçisi, Ukrayna Ali Təhsil MEA-nın Akademiki, “Ukrayna Azərbaycanlıları Alimlər Şurası” və “Xalq Diplomatiyası İnstitutu” ictimai təşkilatlarının rəhbəri*

Xaricdə yaşayan azərbaycanlı alimlərin Dünya Azərbaycanlı Alimlər Birliyinin (DAAB) təşkilatçılığı, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin (ETN) dəstəyi ilə təşkil olunan forumuna dəvətə görə dərin minnətdarlığımı bildirirəm.

Tədbirin təşkilatçısı DAAB rəhbəri Məsud Əfəndiyevə, Azərbaycan Respublikasının Elm və Təhsil naziri Emin Əmrullayevə, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradova, Azərbaycan Respublikasının müvafiq dövlət qurumları, universitetlərin nümayəndələrinə, alim soydaşlarımıza və bütün təşkilatçılara səmimi məhəbbət və hörmətimi yetirməyi özümə böyük şərəf bilirəm. Böyük minnətdarlıqla qeyd etmək istərdim ki, Azərbaycan Respublikasının Prezidenti, əzizimiz İlham Əliyevin Ulu öndərimiz Heydər Əliyevin

Azərbaycanımızın elmi dəyərlərinə söykənən fikirlərinin ifadəsini əks etdirən təbrik məktubu da bizim gələcək elmi fəaliyyətimiz üçün əsl enerji dəyərləri ilə forumumuza xüsusi diqqətin nümunəsi kimi yaddaqalan oldu.

Biz 2013-cü ildə Ukraynada mənim rəhbərliyimlə "Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatını yaratmışıq. Ukraynada 65 nəfər azərbaycanlı alimimiz var. Əgər diqqət yarada bilsək, bəlkə də, çoxdur. Bu baxımdan, istərdim tədbirimiz zamanı çıxışlarımda qeyd etdiyim qısa fikirlərimi çatdırım. Mən həm də əvvəlcə məhz Ulu Öndərimizin təşəbbüsü ilə Ukraynadakı səfirliyimizdə işlədiyimə, diplomat rütbəsinə layiq bilindiyimə görə elmi fəaliyyətimdə tədrisi ilə məşğul olduğum diplomatik fikirləri bölüşmək istərdim... Tədbirimizdə, qeyd edildiyi kimi, xaricdəki alimlərimizin fəaliyyətinin daha da səmərəli olması üçün onlarla Xarici İşlər Nazirliyinin, səfirliklərimizin müəyyən məsləhətləşmələr aparmasına çox böyük ehtiyac var. Bu cür diqqət alimlərimizə həm dəstək olar, həm də onların öz məsuliyyətləri ilə Azərbaycanımız qarşısında hesabat verməsinə şərait yaradardı. Qeyd edim ki, Azərbaycan Respublikasının ETN-nin forumumuzun işinə diqqəti də xoş təəssüratlarla yadda qalacaqdır. Bizim gələcək elmi fəaliyyətimizə xüsusi qayğı və dəyərlə yanaşılması üçün alimlərimizin sanki bir elmi mərkəzə çevrilməsinə çalışmalıyıq. Bu baxımdan, Forumda Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevlə və Qarabağ Universitetinin rektoru Şahin Bayramovla hal-hazırda işlədiyim Kiyev Universiteti ilə əməkdaşlıq yaratmaq barədə fikirlər də təqdirəlayiqdir... Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Ukraynada soydaşlarımızla səmərəli tədbirlər keçirməkdədir. İstərdik ki, bu sahədə tədbirimizdə Azərbaycançılığın dəyərlərinin arqumentləri barədə elmi və təcrübi fikirlər diasporaların səmərəli işlərində nəzərə çatdırılsın. Nəzərə almaq lazımdır ki, Azərbaycan tərəfindən razılıq olmadan heç kim şəxsi istəklərə, müəmmalı və həm də bizə məhəbbəti olmayan dairələrin maraqlarına uyğun hərəkətlərə yol verməməlidir. Bu məsələlər ancaq hüquqi baxımdan və qarşılıqlı maraqlar çərçivəsində təşkil olunmalıdır.

Məqsədə müvafiq olarsa, DAAB və onun əsl təşkilatçıları üzərindən də ayrı-ayrı ölkələrdəki alimlərimizlə yekdillik yaratmaqla əlbir şəkildə xaricdə yaşayan azərbaycanlı alimlərin əlaqələri yeni vasitə və istiqamətlərdə həyata keçirilə bilər.





***Hacalı NƏCƏFOĞLU***
*Qars şəhəri, Qafqaz Universitetinin Xarici əlaqələr ofisinin rəhbəri,*
*Qafqaz və Orta Asiya Araşdırma Mərkəzinin müdiri*

Prezident İlham Əliyev bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibə verən zaman "Bizim əsas milli ideyamız ərazilərimizi azad etmək idi. Yəni bütün xalq bu ideya ətrafında, bu amal ətrafında birləşmişdi. Biz bunu artıq əldə etmişik. Ona görə gələcək inkişafla bağlı, əlbəttə ki, mənim fikirlərim var və bir çox hallarda onlar həlledici olacaq təbii ki. Ancaq mən istərdim ki, cəmiyyətdə də bu məsələ ilə bağlı diskussiyalar getsin, siyasətçilər, politoloqlar, elm adamları, ziyalılar, yəni bizim gələcək inkişafımızla bağlı əsas milli ideya və ideyalarımız nə olmalıdır. Bu, bir ictimai müzakirə mövzusu olmalıdır", – demişdi. Mənə elə gəlir ki, xalqımız "Azərbaycanı regionun ən güclü, ən qüvvətli dövlətinə çevirmək" ideyası ətrafında birləşməli, bunun üçün lazım olan fəaliyyəti yürütməlidir. Böyük Nizami Gəncəvinin "Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz" sözləri bizə nə etməmiz lazım olduğunu göstərir. Hüseyn Cavidin

*"Gərçi xilqətdə bəşər birsə, yenə*
*Eş deyil bilməyən əsla biləninə.*
*Kişi irfan işığından parlar,*
*Şübhəsiz, bilgidə Allah gücü var…"*

misraları da güclü dövlət hədəfinə ulaşmaq üçün bilginin, elmin önəmini vurğulayır. Elmi rəhbərim rəhmətlik professor Xudu Məmmədov deyirdi ki, "hər bir xalq dünya elm xəzinəsinə verdiyi qədər bu xəzinədən pay ala bilər".

Bu gün azərbaycanlı elm adamları istər vətəndə, istərsə də xarici ölkələrdə dünya elm xəzinəsinə müəyyən töhfələr verirlər. Azərbaycanın daha da gücləndirilməsi üçün elmimizin yüksək səviyyədə inkişaf etdirilməsi lazımdır. Ölkə rəhbərinin andiçmə mərasimində səsləndirildiyi: "Biz gələcəyə baxırıq və gələcək də elmi-texnoloji inkişafla bağlıdır. Məhz buna görə biz təhsilə, elmə diqqət veririk, növbəti illərdə daha da böyük diqqət göstərməliyik. Çünki hər bir dövlətin uğurlu inkişafı texnoloji təminata əsaslanır. Biz ən müasir texnologiyaları Azərbaycanda tətbiq etməliyik. Buna nail olmaq üçün bizdə hazırlıqlı kadr potensialı olmalıdır, bu istiqamətdə bundan sonrakı illərdə də işlər görüləcəkdir", sözləri vətənimizdə elmin inkişafının dövlətin öncəlikli hədəflərindən biri olduğunu göstərir. Bu hədəfə çatmaq üçünsə dünyanın çeşidli ölkələrində çalışan azərbaycanlı alimlərin

vətəndəki elm adamları ilə səylərinin birləşdirilməsi vacibdir. Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumu bu yolda atılan ilk addımdır. Bundan sonrakı addımların da uğurlu olacağına, harada yaşamasından asılı olmayaraq, alimlərimizin əl-ələ verərək elmimizin səviyyəsini yüksəldəcəklərinə, ölkəmizin zəka gücünü artıracaqlarına, daha güclü və müzəffər Azərbaycan naminə bundan sonra da əllərindən gələni əsirgəməyəcəklərinə inamım sonsuzdur.

***İlkin QULUSOY***
*Türkiyə Respublikası Qafqaz Universiteti Çağdaş türk ləhcələri və ədəbiyyatları (Azərbaycan türkcəsi və ədəbiyyatı) bölümünün rəhbəri*

2024-cü ilin 8–12 sentyabr tarixlərində Bakı şəhərində Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Dünya Azərbaycanlı Alimlər Birliyinin təşkil etdiyi Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumu keçirildi. Bu forumda dünyanın müxtəlif ölkələrindən 80-ə yaxın azərbaycanlı alim və ümumilikdə 200-dən çox elm adamı iştirak edirdi.

Forumun yüksək səviyyədə təşkili və xaricdə fəaliyyət göstərən azərbaycanlı alimlərin bir araya gəlməsi dünya, o cümlədən Azərbaycan elminə töhfə vermək məqsədi daşıyırdı. Forum çərçivəsində müxtəlif ixtisaslar üzrə alimlərin dəyirmi masalarda qruplaşması, konkret sahələrdə daha səmərəli müzakirələr aparmasına və iş birliyi qurmasına imkan yaratdı. Müzakirə olunan məsələlər arasında Azərbaycan elminə faydalı olacaq bir çox mövzular yer aldı və eyni zamanda, gələcək fəaliyyət üçün bir yol xəritəsi hazırlandı.

Xaricdə yaşayan alimlərimizin Azərbaycan elm və təhsil mühitini mütərəqqi dünya standartları ilə yaxınlaşdırma məsuliyyəti vardır. Bu, eyni zamanda, Azərbaycan təhsil və elminin müasir tələblər səviyyəsində inkişafını təmin etmək üçün qüvvələrin birləşdirilməsi zərurətini ortaya qoyur.

Forum çərçivəsində Qarabağa səfərimiz zamanı işğaldan azad olunmuş Ağdam, Xankəndi, Şuşada, Cıdır düzündə olmaq, Birinci Qarabağ müharibəsi zamanı işğal edilərək maddi və mənəvi soyqırımına məruz qalmış ana yurdumuzu yenidən azad və abad görmək bizi sözlə ifadə edilməyəcək qədər dərin və zəngin hisslərə bürüdü, qürur hissi yaşadıq. Xüsusilə Qarabağ Universitetinin fəaliyyətə başlaması bizim üçün mənəvi dəyəri yüksək olan hadisələrdən biridir. Universitetin rəhbərliyi ilə görüşmək və fikir mübadiləsi aparmaq, bu möhtəşəm yeniliyi görmək bütöv Azərbaycanımız üçün əhəmiyyətli bir dönüş nöqtəsidir. Şuşanın





işğaldan azad edilməsindən sonra əldə olunan böyük qələbə xalqımızın tarixində yeni bir dövr açmışdır. Bayrağımızın Cəbrayılda, Hadrutda, Füzulidə, Zəngilanda, Şuşada, Ağdamda, Kəlbəcərdə və Laçında dalğalanması, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında ordumuzun, xalqımızın qırılmaz gücü və birliyi ilə bağlıdır.

Türkiyənin Qafqaz Universitetində Azərbaycan dili və ədəbiyyatı üzrə mütəxəssislər hazırlayan yeganə bölümün rəhbəri olaraq bu forumda iştirak etmək mənim üçün qürurverici bir hal idi. Dəyirmi masadakı müzakirələr zamanı Azərbaycan dili və ədəbiyyatının xarici ölkələrdə tədrisi, eləcə də ana dilimizin qlobal miqyasda təbliği məsələlərindən bəhs etdik. Forum yalnız elmi müzakirələrlə deyil, həm də bədii proqramlarla yadda qaldı. Müsafirlərin şərəfinə keçirilən ziyafətdə xanəndələrin və rəqqasların ifası, dəyərli alimlərimizin söhbət və zarafatları da unudulmaz anlar arasında yer aldı.

Bu forumda dünyanın müxtəlif ölkələrindən gələn azərbaycanlı alimlərin bir araya gəlməsi, onların bir-biri ilə tanış olmasına və gələcəkdə iş birliyi qurmasına şərait yaratdı. İnanıram ki, forumda müzakirə olunan məsələlər və hazırlanan tədbirlər planı yaxın zamanlarda həyata keçiriləcək. Bu forum dünya azərbaycanlıları, hər iki tərəfdən Azərbaycanımız və ümumilikdə bütün Türk dünyası üçün əhəmiyyətli nəticələrlə yadda qalacaq və Diasporla İş üzrə Dövlət Komitəsi bu cür tədbirləri davam etdirərək Azərbaycan elminə və mədəniyyətinə yeni töhfələr verəcəkdir.

Bir daha forumun təşkilində əməyi keçən hər kəsə təşəkkürümü bildirirəm.

***Lev EPPELBAUM***
*Təl-Əviv Universitetinin professoru, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin fəxri professoru*

Keçirilən forumdan məndə gözəl təəssürat yarandı. “Möhtərəm” alimlərlə yanaşı, Amerika və Avropanın tanınmış universitetlərini yenicə bitirmiş gənc mütəxəssislər də var idi. Mən “möhtərəm” fiziklərdən birinə seysmik kəşfiyyat üzrə həmkarımla birlikdə hazırladığım optikada orijinal məlumatların şərhi sistemindən istifadə etməyi təklif etdim. Əvvəlcə bunu fizik birmənalı şəkildə qəbul etdi. Axır seysmik kəşfiyyatın özü həndəsi optika qanunları əsasında “doğulmuşdu”. Lakin sonra alim bu yanaşmanın nələr vəd etdiyini anladı. Qərbin nüfuzlu universitetlərini yenicə bitirmiş iki gənc riyaziyyatçı geologiya və geofizikada müasir asimptotik metodlardan istifadənin mümkünlüyü barədə mənə

uzun müddət bəhs edərək, demək olar ki, işgəncə verdi. Biz ayrıldıq, e-poçt ünvanları mübadiləsi və onlayn seminar təşkil edəcəyimizə söz verdik. Ümumiyyətlə, qeyd etməliyəm ki, effektiv həllər ("atlama həlləri") hazırda yalnız müxtəlif ixtisasların kəsişməsində əldə edilə bilər və çox vaxt iki deyil, üç və ya dörd. Gözlənilməz təkliflər də var idi, məsələn, neft hasilatı ilə, "yaşıl enerji"yə keçidlə bağlı futuristik proqnozları əlaqələndirmək.

Ümumiyyətlə, nəinki fikir mübadiləsi aparmaq, həm də gələcək üçün möhkəm problem ehtiyatı yaratmaq mümkün idi. Düşünürəm ki, Azərbaycan alimlərinin illik konfransları Azərbaycan elminə yaxşı xidmət göstərəcək. Burada iştirak edən universitet rektorları və institut direktorları köklü alimlərdən yan keçmədən perspektivli "gənc qvardiya" ilə şəxsən tanış ola bilərlər.

Eyni zamanda İsrail təcrübəsini nəzərə alaraq hesab edirəm ki, universitetlərdə əvvəlcə onlarla, sonra isə bəlkə də, yüzlərlə yeni vəzifənin yaradılması dövlət dəstəyi olmadan mümkün deyil. Nəzərə almaq lazımdır ki, universitetlər çox mühafizəkar təşkilatlardır və tez-tez istənilən yeniliyə müqavimət göstərirlər.

Deməliyəm ki, mən Bakıya gəlməyi çox sevirəm. Bu mənim özünəməxsus aurası, memarlığı və isti, mehriban insanları ilə doğma şəhərimdir. Məktəb və tələbəlik illərində dostlarımla dəfələrlə aşağı-yuxarı getdiyim gözəl Bakı bulvarına, dənizdən əsən zərif yağ dadı olan mehinə heyranam. Bütün bunlar birlikdə mənə dünyanın heç bir şəhərində ala bilməyəcəyim rahatlıq hissi verir.

Onu da deyim ki, şəhərin görkəminin sürətlə dəyişməsinə heyran oldum. Məsələn, köhnə yoldaşlarımla hesablamışdıq ki, indi bulvarı başdan-ayağa, kifayət qədər sürətli templə gəzmək üçün bizə 3,5 saat vaxt lazımdır. Nitsa, Paris, Lissabon və Rio-de-Janeyro bulvarları haradadır! Bizim Bakı bulvarımız daha əsrarəngiz və gözəldir.

Gənclik metrosunun yaxınlığındakı yol qovşağı – uzun müddət başa düşə bilmədim ki, hər şey necə dəyişib və tikilib. Yaxşı, mən klassik irsin binaları ilə uğurla birləşən şəhərin müasir memarlığından danışmıram – bu mahnıdır.

Azərbaycan xalq mətbəxinə ayrıca yer ayırmaq lazımdır, amma özümü incitməyəcəyəm. Bu qeyri-adi yeməklərin, təxminən, yarısı artıq mənim üçün qəbuledilməzdir. Bəs bu yaxınlarda böyük Qələbə sayəsində meydana çıxan İstisu mineral suyu necə? Bu, dünyanın ən dadlı və sağlam mineral suyudur! Elmi diaspor konfransının iclaslarında iştirak edəndə məndən üç metrə qədər aralıda duran bu nəfis şüşələr tez tükənirdi. Maraqlıdır, niyə İsrailə verilmir?





Yeri gəlmişkən, mənsub olduğum bir qrup israilli bakılı, adətən, ildə iki dəfə Təl-Əvivdə havanın temperaturu +10°C-ə düşəndə (şəhərdə artıq soyuqluğun hökm sürdüyü güman edilir) xaş hazırlamağa başlayır. Xaş bütün qaydalara uyğun hazırlanır (burada izah etməyəcəyəm) və artıq xolesterini çıxarmaq üçün yaxşı araqla yeyilir. Təsadüfən xaşın dadına baxma mərasiminə gələn və nəcib xaşı "qaynar ət" adlandıran "qeyri-bakılılar" təntənəli surətdə qovulurlar. Bakı ictimaiyyəti öz qaydaları ilə yaşayır...

Təxminən, iki il əvvəl Təl-Əvivdə fövqəladə və səlahiyyətli səfir cənab Muxtar Məmmədovun rəhbərlik etdiyi Azərbaycan Səfirliyi açıldı. Qeyd etməliyəm ki, bu yüksək savadlı və ağıllı diplomat İsraildə Azərbaycanın siyasətini mükəmməl şəkildə həyata keçirir və mən səfirliyin təşkil etdiyi tədbirlərdə böyük məmnuniyyətlə iştirak edirəm (söz mənə veriləndə məmnuniyyətlə çıxış edirəm).

Mən iddia edirəm ki, Bakı vətəndaşı adı əbədi verilir və burada heç nəyi dəyişmək olmaz. Yadıma tipik bir hadisə gəlir. 2017-ci ildə mən eyni vaxtda Vyanada Avropa Yer Elmləri Birliyində (EGU) üç elmi sessiyanın sədri oldum və bununla yanaşı bir neçə təqdimat etdim. Konfransın sonunda çox yoruldum və deputat olanda da EGU prezidenti məndən ekoloji geofizika üzrə əlavə konfransda iştirak etmək üçün iki gün qalmağımı istədi. Cavab verdim ki, sabah Bakıya evə yola düşəcəyəm. Bu vaxta qədər mən artıq 27 il idi İsraildə yaşayırdım! Amma bununla belə, yəqin, özümü bakılı, Bakını isə doğma şəhərim hesab edirəm.

Gəncliyimdə şahmata həvəsim olub, oxuduğum müddətdə AzİNEFTƏXİM-də şahmat bölməsinə rəhbərlik etmişəm. 1982–1983-cü illərdə Bakı çempionu və vitse-çempionu olmuşam. O zaman mərkəzi şahmat klubu (TSŞK) bulvarda, İnturist hoteli ilə üzbəüz yerləşirdi. Bu, tam rahat deyildi (indi Hüsü Hacıyev küçəsində yeni klub binası tikilib), amma çox tanış idi! İndi də bulvarın yanından keçərkən bir vaxtlar Mərkəzi Şahmat Məktəbinin yerləşdiyi bu yerə mehriban təbəssümlə baxıram.

2024-cü ilin iyununda Bakıya sondan əvvəlki səfərimdə (Azərbaycan-Fransa universitetində keçirilən Xəzər dənizi üzrə konfransda iştirak etmişəm) təsadüfən Azərbaycanın gözəl gənc müğənnisi Samirə Rəcəblinin konsertində iştirak edə bildim. Təbii ki, məxmər səsə, geniş repertuara malik bu caz müğənnisini parlaq gələcək gözləyir. Azərbaycan həmişə istedadlarla zəngin olub. Uğurlar sənə, Samirə!

Budəfəki səfərimin əsas məqsədi Azərbaycan elmi diasporunun ilk konfransında iştirak etmək idi. Digər mühüm məqsəd müxtəlif layihələrin, gələcək nəş-

rlərin AMEA və digər qurumlarda müzakirəsi olub. Məsələn, mən AMEA-nın Geologiya və Geofizika İnstitutunun direktoru, akademik A.A.Əlizadə, Neft və Qaz İnstitutunun direktoru, akademik F.A.Qədirov və AMEA-nın vitse-prezidenti, akademik İ.S.Quliyevlə görüşdüm. Yeri gəlmişkən, biz A.A.Əlizadə, İ.S.Quliyev və F.A.Qədirovla birlikdə 2016–2017-ci illərdə Springer tərəfindən nəşr edilmiş Azərbaycan (və təkcə onun deyil) geoelmlərinə dair ikicildlik kitabın müəllifiyik. A.A. Əlizadə, İ.S. Quliyev, P.Z. Məmmədov və digər müəlliflərlə birlikdə 2024-cü ildə eyni nüfuzlu nəşriyyatda “Azərbaycanın Pliosen Hidrokarbon Çöküntü Seriyası” adlı kitab nəşr etdirmişik.

Azərbaycanla bağlı digər innovativ regional fiziki-geoloji modellərimdən biri Şərqi Aralıq dənizi altında dərin mantiya quruluşunun aşkar edilməsi ilə əlaqədardır. Bu quruluş saat əqrəbinin əksinə istiqamətdə fırlanır və onun şimal-şərq litosfer hissəsi İran plitəsinə təzyiq göstərərək onu şimala doğru hərəkət etməyə məcbur edir. Öz növbəsində, İran plitəsinin qərb hissəsinin mürəkkəb forması Cənubi Xəzər hövzəsinə təsir edərək onun saat əqrəbi istiqamətində hərəkətinə səbəb olur. Bu hərəkətlərin mürəkkəb geodinamik kombinasiyası Cənubi Xəzər hövzəsinin dəniz dibinin növbəli hərəkətinə səbəb olan qeyri-sabitlik amillərindən biridir. Bu fenomen bir sıra nəşr olunmuş məqalələrdə və beynəlxalq forumlardakı çıxışlarda öz əksini tapmışdır.

Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya İnstitutunun direktoru Dr. F.E. Quliyevlə birlikdə Qobustan Dövlət Təbiət Qoruğunun ərazisinin qabaqcıl texnologiyalardan, xüsusilə uzaqdan zondlama üsullarından istifadə etməklə hərtərəfli tədqiqi imkanlarını müzakirə etdik. Fakt budur ki, bu dünya şöhrətli arxeoloji və antropoloji obyektin fiziki və geoloji xüsusiyyətləri qeyri-invaziv səth geofiziki üsullarından istifadəni çətinləşdirir. Bir çox orijinal texnologiyalardan istifadə edilən peyk şəkilləri başqa bir şəkildə əldə edilə bilməyən məlumatları göstərməyə imkan verir. Bu məlumatlar daha sonra səthə yaxın geofizikadan (burada mən bir çox geofiziki texnikada qabaqcıl şərh metodologiyalarını inkişaf etdirmişəm) və müxtəlif arxeoloji yanaşmalardan materiallarla birləşdiriləcək. Nəticədə, biz gizli arxeoloji obyektləri nəinki lokallaşdıra və həm həndəsi, həm də fiziki parametrlərini müəyyən edə bilməyəcək, həm də onları təsnif edib ətraf mühitin üçölçülü modellərini qura biləcəyik. Təbii ki, yuxarıda təsvir olunan metodologiya təkcə Qobustanda deyil, Azərbaycanın digər arxeoloji abidələrində də istifadə oluna bilər, burada, heç şübhəsiz, qədim Azərbaycan xalqının müxtəlif mədəni xüsusiyyətlərini əks etdirən çoxsaylı qədim əşyalar gizlənib.





***Nizami MƏMMƏDOV***
*Rusiya Prezident Akademiyasının professoru, Rusiya Təbiət Elmləri Akademiyasının və Rusiya Ekoloji Akademiyasının həqiqi üzvü, UNESCO-nun eksperti*

Xaricdə yaşayan azərbaycanlı alimlərin real potensialını üzə çıxarmağa imkan verən forumun ideyası bir çox cəhətdən dəyərlidir. Kifayət qədər yüksək səviyyədə həyata keçirilən birinci forum uğurlu alındı, öz missiyasını yerinə yetirdi. Azərbaycanda elmin inkişaf səviyyəsi haqqında ümumi təsəvvür yaratdı. Respublika alimlərinin xaricdə yaşayan azərbaycanlı alimlərlə əməkdaşlıq niyyətlərinin institusionalizasiyasını müəyyənləşdirməyə imkan verdi. Gələcəkdə əməkdaşlığın formalarını, strukturlarını müzakirə etmək və təsdiqləmək mümkündür. Bu, bir-iki ildən sonra ikinci, daha məqsədyönlü forumun keçirilməsinə imkan verəcək. İkinci forumun hazırlanmasında, mənim fikrimcə, hər şeydən başqa, Azərbaycan üçün son dərəcə aktual olan aşağıdakı istiqamətlərə xüsusi diqqət yetirilməlidir:

- Azərbaycanın dayanıqlı inkişafa keçidinin sosial-iqtisadi, kulturoloji ilkin şərtlərinin müəyyən edilməsi;
- Şəhərlərin, meşələrin, çayların və torpaqların ekoloji problemlərinin həlli üçün effektiv yolların müəyyənləşdirilməsi;
- Xəzər dənizinin səviyyəsinin dəyişməsinin sosial-iqtisadi və ekoloji nəticələrinin modelləşdirilməsi və proqnozlaşdırılması;
- Azərbaycanda yaşıl enerjinin elmi, texniki, istehsal bazasının intensiv inkişafı.
- Azərbaycan rayonlarının təbii, demoqrafik xüsusiyyətlərini nəzərə alan sosial-iqtisadi, mədəni inkişafının optimal sisteminin əsaslandırılması;
- Respublikada əmək ehtiyatlarının bərabər paylanmasına imkan verən və Bakı şəhərində əhalinin anormal yığılmasını aradan qaldıran kiçik şəhərlərin inkişaf yollarının müəyyən edilməsi.

***Ramin ƏLİYEV***
*Həsən Kalyoncu Universiteti, Təhsil fakültəsi, pedaqoji psixologiya professoru*

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumuna dəvət olunmaq və iştirak etmək mənim üçün böyük şərəf idi. Bu xüsusi tədbir dünyanın hər yerindən azərbaycanlı alimləri bir araya topladı. Forumda hər biri öz sahəsinin mütəxəs-

sisi olan bir çox alimlə tanış olmaq, onların dəyərli təcrübələrindən yararlanmaq imkanım oldu.

İnanıram ki, forum zamanı yaratdığım sosial şəbəkə Azərbaycana və elm dünyasına müsbət təsir edəcək. Yeni layihələrə, nəşrlərə və elmi inkişaflara qapı açacaq bu əlaqələr ölkəmizin elmi sahədə irəliləməsinə töhfə verəcək. Müxtəlif ölkələrdən olan həmkarlarımın fərqli perspektivləri və innovativ yanaşmaları elmi araşdırmalarımda yeni üfüqlər açıb.

Qarabağ səfəri forumun ən təsirli və ruhlandırıcı hissələrindən biri idi. Bu səfər mənə tarixi-mədəni sərvətlərimizi daha yaxından tanımağa imkan verdi və ölkəmiz üçün daha çox işlər görməyə sövq etdi. Hesab edirəm ki, Qarabağın yenidən qurulması və inkişafı üçün elmi töhfələrin verilməsi ölkəmizə olan borcumuzun ödənilməsində mühüm addım olacaq.

Forumun ümumi ab-havası əməkdaşlıq və həmrəylik ruhu ilə doldu. Azərbaycanın elmi potensialının və dünyada nüfuzunun artırılması üçün birgə çalışmağın vacibliyini bir daha dərk etdim. Belə tədbirlərin xaricdə yaşayan azərbaycanlı alimlər arasında bağı gücləndirdiyini və bizi ümumi məqsədlərə doğru birgə işləməyə sövq etdiyini görmək məni çox sevindirdi.

Təbii ki, bu kimi böyük təşkilatlarda diqqətdən kənarda qalan kiçik qüsurlar ola bilər. Məsələn, mən öz təcrübə sahəm (təhsil və pozitiv psixologiya) haqqında daha çox şey əlavə etməyi düşündüm. Amma iş qrafiki çox olduğundan buna imkan yox idi. Yenə də bacardığımız qədər ölkəmiz üçün töhfə verməyə çalışdıq. Hesab edirəm ki, bu töhfələr prosesdəki tələblərə uyğun olaraq daha da artacaq.

Yekun olaraq, Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumunda iştirakım həm şəxsi, həm də peşəkar baxımdan zəngin təcrübə oldu. Gələcəkdə daha çox belə tədbirlərdə iştirak etməklə yeni elmi inkişaflara töhfə vermək və Azərbaycanı irəli aparmağı qarşıma məqsəd qoyuram. Ölkəmizin elmi tərəqqisi üçün birgə işləməyin, ümumi dəyərlər və məqsədlər ətrafında birləşməyin vacibliyini bir daha vurğulamaq istərdim.

Öncə nazirliyimizə, diaspor təşkilatımıza, forum administratorlarına və bu forumun hazırlanmasında əməyi olan hər kəsə səmimi təşəkkürümü bildirirəm. Bunun üçün çox zəhmət sərf olunduğu açıq-aydın görünürdü. Düşünürəm ki, sərf olunan vaxt və zəhmət öz bəhrəsini verdi. Əmin ola bilərsiniz ki, gələcəkdə sizə dəstək olmaq üçün əlimdən gələni edəcəyəm.





***Reza MORİDİ***
*Kanada Radiasiya Təhlükəsizliyi İnstitutunun Direktorlar Şurasının sədri,*
*Toronto Universitetinin Massey Kollecində baş elmi işçi,*
*BSc, MSc, MTech, PhD, Dr (Hon), fizik*

Məni bu yaxınlarda keçirilən Bakı forumunda iştirak etməyə dəvət etdiyiniz üçün sizə və DAAB-nin İdarə Heyətinə təşəkkür edirəm. Mən çox şey öyrəndim və Qarabağa səfərimdən həzz aldım. Bu mənim üçün bir növ "arzu gerçəkləşdi" idi.

2017-ci ilin sentyabrında Bakıya sonuncu səfərimdən sonra Azərbaycanda baş verən hadisələrin, bundan əlavə, Qarabağda gedən tikinti işlərinin miqyasını görmək məni heyran etdi. Xüsusilə Qarabağa avtomobil yolunun çəkilməsi, Ağdam şəhərinin və ermənilər tərəfindən dağıdılmış kəndlərin bərpası, Xankəndidə universitetin yaradılması Qarabağda daha bir diqqətçəkən məqamdır. Bu forum zamanı çoxlu dostlar qazandım və bunun üçün bir daha DAAB-yə minnətdaram.

Hesab edirəm ki, forum xaricdə yaşayan azərbaycanlı alimlərin vətənləri ilə əlaqələrini gücləndirmək məqsədi daşıdığı üçün uğurlu oldu. Mən təklif edərdim ki, forum mütəmadi olaraq iclaslarını davam etdirsin (bəlkə də, növbəti iclas Gəncədə və ya Naxçıvanda keçirilsin), irəlilədikcə alimlərimizin fəaliyyətlərinə daha çox diqqət yetirilsin.

***Seymur NƏSİROV***
*Dünya Azərbaycanlı Alimlər Birliyinin həmsədri, Misir-Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyətinin və Misirdə Azərbaycan Diasporunun sədri, Qahirə Universitetinin Azərbaycan dili və ədəbiyyatı müəllimi*

Uzun illərdir ki, Misirdə ərəb mənbələrində Azərbaycanla bağlı tədqiqatlar aparıram. Bu tədqiqatlardan ərsəyə gələn 250-dən çox əslən azərbaycanlı alim haqqında iki kitab, çoxlu sayda ərəb və Azərbaycan dillərində elmi və publisist məqalə yazmışam. Hələ də davam edən bu fəaliyyət çərçivəsində minlərlə müxtəlif mənbəyə müraciət edərək, hər bir azərbaycanlıya iftixar hissi verəcək şanlı tariximiz və görkəmli şəxsiyyətlərimiz barədə yeni faktları üzə çıxarmağa nail olmuşam. Vətənimizin ta qədimdən böyük alimlər və qəhrəmanlar diyarı olduğuna şahid olmuşam.

IX əsr böyük ərəb alimi, ədəbiyyatşünas Abdullah bin Muslim ibn Quteybə "Şeir və Şairlər" kitabında Əbu Yəqazan Cuveyriyyədən nəql edərək yazır:

"Mədinə şəhərində yaşayan məvalidən (islam dinini qəbul etmiş qeyri-ərəblər) olan bütün şairlərin əsli azərbaycanlıdır".

XI əsr ərəb alimi Əbu Tahir əs-Siləfi Azərbaycanla Əndəlüs arasında müqayisə apararaq buyurur:

"Azərbaycan ölkəsinin Şərqdəki yeri, elm və ədəbiyyatda Əndəlüsün Qərbdəki yeri kimidir. Bu iki ölkənin əhalisi elm öyrənməyə çox həvəslidir".

XIII əsr ərəb alimi İmam Cəzəri isə Azərbaycanın Mərənd şəhərindən söz açaraq demişdir: "Azərbaycan elmin hər bir sahəsində dahi alimlər yetişdirmişdir". Digər orta əsr ərəb mütəfəkkiri İmam Səməani isə "Əl-Ənsab" (Nəsəblər) əsərində yazmışdır: "Azərbaycan qədimdən ta bu günə qədər alimlər yetişdirən bir diyardır".

Ərəb mənbələrində azərbaycanlı alimlər haqqında şahidi olduğum bu qürur verici ifadələr məni tam əmin etmişdi ki, vətənimin övladları bu irsi bu gün də davam etdirirlər. O alimləri yaxından tanımaq və onları bir birlik altında birləşən görmək çoxdankı arzum idi. 2022-ci il dekabrın 8-də Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə xaricdə yaşayan bir qrup azərbaycanlı alim İstanbulda toplaşdıq. Həmin gün xaricdə yaşayan azərbaycanlı alimlərlə Dünya Azərbaycanlı Alimlər Birliyini təsis etmək qərarına gəldik. Birliyin həm İdarə Heyətinin üzvü və həm də ərəb ölkələri üzrə təmsilçi seçildiyimə görə azərbaycanlı alimləri axtarıb birliyə dəvət etmək ümdə vəzifələrimdən biri idi. Qısa müddət ərzində dünyanın müxtəlif ölkələrindən 250-dən çox azərbaycanlı alimin DAAB-nin saytında qeydiyyatdan keçməsi qürurverici idi.

Aylarla məsləhətləşmələrdən sonra, Diasporla İş üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin dəstəyi ilə, 2024-cü il sentyabrın 9–11-də Bakı və Xankəndi şəhərlərində Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin I forumunu təşkil etdik. Burada DAAB-nin sədri hörmətli alimimiz Məsud Əfəndiyevin forumun təşkil olunmasında göstərdiyi səyləri xüsusilə qeyd etmək istəyirəm.

Cənab Prezident İlham Əliyevin forum iştirakçılarına ünvanladığı təbrik məktubu forumun vətənimiz üçün nə qədər əhəmiyyət kəsb etdiyinin bariz nümunəsi idi.

Nobel mükafatçılarının foruma ünvanladığı təbrik məktubları isə alimlərimizin dünyada hansı səviyyədə fəaliyyət göstərdiyini açıq şəkildə sərgilədi.

Forumda dəyərli alimlərimizlə yaxından tanış olmaq və fikir mübadiləsi aparmaq məndə xoş təəssüratlar yaratdı. Şübhəsiz ki, birliyimiz vətənimizin inkişafında böyük töhfələr verəcək.

Bir daha Diasporla İş üzrə Dövlət Komitəsinə, Elm və Təhsil Nazirliyinə bu forumun ərsəyə gəlməsində bizə verdiyi dəstəyə görə təşəkkürümü bildirirəm.





***Şəhriyar MUXTAROV***
*Vistula Universitetində doktorantura proqramının rəhbəri, İqtisadiyyat və Maliyyə kafedrasının professoru, eyni zamanda, Koreya Universitetinin İqtisadiyyat kafedrasının professoru və "Journal of Sustainable Development Issues" jurnalının baş redaktoru*

11 sentyabr 2024-cü il tarixində Bakıda keçirilən Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin I forumu elmi sahədə beynəlxalq əlaqələrin gücləndirilməsi və Azərbaycanın elmi potensialının daha da inkişaf etdirilməsi baxımından çox əhəmiyyətli bir hadisə oldu. Bu forumda xaricdə yaşayan və müxtəlif sahələrdə ixtisaslaşmış azərbaycanlı alimlər olaraq elmin ölkəmizin iqtisadi inkişafında oynadığı mühüm rolu müzakirə etdik. Fikrimcə, forumda təqdim edilən fikirlər, Azərbaycan elminin dünya səviyyəsində tanınması və texnologiya, innovasiya, tədqiqat, inkişaf sahələrində mühüm addımların atılması üçün böyük əhəmiyyət kəsb edir. Bu forum və onun ənənəyə çevrilməsi, xüsusən də inkişaf etməkdə olan ölkələr üçün önəmli olan beyin köçünün beyin gücünə çevrilməsi istiqamətində bir platforma olacağına inanıram. Bu forum beynəlxalq elmi şəbəkələrin gücləndirilməsi, xaricdə yaşayan alimlərin öz bilik və təcrübələrini Azərbaycan elmi naminə səfərbər etmələri üçün ilk addım kimi qiymətləndirilə bilər. Bu prosesin müsbət nəticələrinin yalnız Azərbaycan deyil, bütün region üçün əhəmiyyətli olacağına şübhə etmirəm.

Texnologiyanın sürətlə inkişaf etdiyi, innovasiya və tədqiqat sahələrində yeni imkanların yarandığı bir vaxtda xaricdə yaşayan alimlərin Azərbaycanın elmi inkişafında aktiv rol oynaması olduqca vacibdir. Xaricdə yaşayan həmkarlarımın yeni bilik və texnologiyalarla bağlı təcrübələri Azərbaycanın elmi institutlarında tətbiq edilmək və gənc alimlərin inkişafına töhfə vermə baxımından böyük potensiala malikdir. Forumda bu mövzuda aparılan müzakirələr nəticəsində Azərbaycan elminin qlobal səviyyədə rəqabət qabiliyyətinin artırılmasına dair vacib tövsiyələr irəli sürüldü.

Azərbaycan elminin dünya səviyyəsinə çıxışının təmin olunması və elmin inkişafı, təhsilin keyfiyyətinin artırılması kimi mövzular da forumda müzakirə etdiyimiz mövzulardan biri oldu. Xaricdə yaşayan alimlərimizin vətənə qayıdaraq və ya uzaqdan da olsa, ölkənin elmi həyatına töhfə vermələri tez-tez dilə gətirildi. Forumda alimlər arasında yaradılan şəbəkə elmi əməkdaşlıqların qurulmasına və mövcud əlaqələrin gücləndirilməsinə imkan yaradır. Bu şəbəkələşmə Azərbaycanda elmin və təhsilin daha da inkişaf etməsi üçün bir stimul rolunu oynaya bilər.

Forum çərçivəsində həmçinin Xankəndi və Şuşaya elm adamlarının səfərləri təşkil olundu. Bu sevinc və qürur hissi hər bir həmkarımın gözündən hiss olunurdu. Eyni zamanda Qarabağ Universitetinin alimləri ilə görüşlər təşkil edildi. Bu görüşlər Azərbaycanın müxtəlif bölgələrində elmin inkişafı üçün bir təkan ola bilər. Xüsusilə Qarabağ regionunda elmin və təhsilin dirçəlməsi, Azərbaycanın elmi potensialının daha da gücləndirilməsi üçün vacibdir. Qarabağ Universitetinin alimləri ilə əməkdaşlıq bölgənin iqtisadi və sosial inkişafına da mühüm töhfə verə bilər.

Nəticə olaraq Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin I Bakı forumu elmin və texnologiyanın inkişafı, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və Azərbaycanın elmi potensialının dünya səviyyəsində tanıdılması baxımından çox əhəmiyyətli bir platforma oldu. Bu forum xaricdə yaşayan alimlərimizin Azərbaycana geri qayıdaraq və ya uzaqdan ölkəmizin elmi və texnoloji inkişafına öz töhfələrini vermək üçün yeni imkanlar yaratdı, gələcəkdə bu cür təşəbbüslərin daha da genişləndirilməsi üçün zəmin hazırladı.

***Tofiq AYDAROV***

*Cənubi Qazaxıstan Araşdırması M.Auezov adına Universitetinin İdarəetmə və marketinq şöbəsinin müdiri, iqtisad elmləri namizədi, professor*

Mən hələ də forum haqqında tanıdığım hər kəsə deyirəm! Çoxlu duyğular, təəssüratlar və qürur hissi yaşadım, görkəmli Azərbaycan alimləri ilə görüşmək şərəfinə nail oldum. Təkliflərimiz ümumi vətənimiz olan Azərbaycanda konkret bir sənayenin, istiqamətin inkişafının yaxşılaşdırılmasına kömək edərsə, bir alim kimi mən çox şad olaram. Həmişə ünsiyyətdən və təcrübə mübadiləsindən məmnunam.

***Toğrul KƏRİMOV***

*Saarbrükken, Maks Plank Proqram Sistemləri İnstitutu, təbiət elmləri doktoru*

Forum mənim üçün xüsusi anlarla dolu idi. Əvvəla, getdiyimiz əsas yerlərin heç birində əvvəllər olmamışdım: I və II Fəxri Xiyaban, Gülüstan Sarayı, Şuşa və Xankəndi. Bu yerlərin hər biri məndə Vətənə həsrət hissi oyatdı.

Forumdan öncə tanımadığım, xaricdə yaşayan bu qədər azərbaycanlı alimlə tanış olmaq məni çox təəccübləndirdi. Kompüter elmləri sahəsində çalışan bir alim kimi, humanitar elmlər üzrə fəaliyyət göstərən alimlərlə söhbətlərdən çox şey öyrəndim: bu iştirakçılar öz fəaliyyətləri ilə dünyanın müxtəlif yerlərində Azərbaycan xalqının mənafeyinə xidmət edir, dilimizin qorunmasına və mədəniyyətimizin təbliğinə töhfə verirlər.

Bu forumda yaşadığımız təcrübələr yaddaşımda əbədi həkk olunacaq.

***Xəlil KƏLƏNTƏR***

*Optik lif və elektron displeylərin inkişafı üzrə iki dəfə elmlər doktoru, Yaponiyanın “Global Optical Solutions & Kepler” şirkətinin baş elmi işçisi, Azərbaycan və beynəlxalq elmi mükafatlar laureatı*

Forum təşkilatçılarına və icraçı heyətə dərin təşəkkürümü bildirmək istərdim. Bu qədər yüksək səviyyədə təşkil olunmuş tədbirə görə sizə minnətdaram. Diqqətiniz, peşəkarlığınız və böyük zəhmətiniz bu forumun uğurla keçməsinə mühüm töhfə verdi. Həmçinin sevimli şəhərlərimizi ziyarət etmək fürsəti şəxsi və peşəkar həyatımıza dəyərli anlar qatdı. Bu unudulmaz təcrübəni yaşatdığınız üçün sizə səmimi təşəkkür edirəm.

9 sentyabr səhəri Heydər Əliyev məqbərəsini və II Şəhidlər xiyabanını ziyarət etməyi, daha sonra isə Gülüstan Sarayında keçiriləcək plenar sessiyaya qatılmağı planlaşdırmışdıq. Saat 7:30-da avtobusa minsək də, texniki səbəblərdən avtobus saat 9:30-da hərəkət etdi. Bu, qrafikin pozulmasına və bir sıra sərnişinlərin narahatlığına səbəb oldu. Lakin həmin gözləmə zamanı mənim üçün gözlənilməz və dəyərli bir tanışlıq baş verdi.

Avtobusda yanımda əyləşən alim Kamran Rüstəmovla tanış oldum. O, Moskvada çalışan tanınmış akademikdir, həmçinin Bakıda da yaşayış yeri var. Təsadüfi tanışlığımız xoş söhbətə çevrildi. Bir-birimizin işləri ilə maraqlandıq, həyat yolumuzu paylaşdıq və bu səmimi ünsiyyət sayəsində gözlədiyimiz iki saat sanki uçub keçdi.

Saat 9:30-da planlaşdırılan ziyarətləri həyata keçirdik və daha sonra Gülüstan Sarayına yollandıq. Kamran müəllim gün ərzində də mənimlə yaxın münasibət saxladı. Çay süfrəsi arxasında söhbətimizi davam etdirdik, məni dostları ilə tanış etdi, fəaliyyətimdən danışdı. Konfransın üç günü boyunca bir çox tədbirdə onunla yanaşı oldum. Hətta 11 sentyabr axşamı yemək zamanı məni xüsusi olaraq yanına dəvət etdi. Onunla tanışlıq mənim üçün böyük şərəf idi. Yaponiyaya qayıtdıqdan sonra da mənimlə iki dəfə əlaqə saxladı. Bu səmimi münasibətə və diqqətinə görə ona bir daha təşəkkür edirəm.

Həmin gün – 9 sentyabrda səhər tədbirindən sonra təkbaşına nahar etdiyim vaxt Toğrul Kərimov adlı gənc alim mənimlə söhbətə başladı. O, Almaniyadan gəlmişdi və riyaziyyat üzrə ixtisaslaşmışdı. Özünü təqdim etdikdən sonra maraqlı və səmimi bir ünsiyyət baş tutdu. Azərbaycanla bağlı fikirlərini bölüşdü, bəzən ingilis dilindən istifadə etdi. Onun elmi marağı və enerjisi məndə dərin təəssürat yaratdı. Mən də, öz növbəmdə, ona fizika və riyaziyyata əsaslanan cihazlar və sistemlər üzərindəki işlərimdən danışdım.

11 sentyabrda Xankəndiyə gedən avtobusda o, yenidən yanımda oturdu. Yol boyu Azərbaycan bölgələri haqqında məlumatlar paylaşdı, tarixi və mədəni xüsusiyyətləri izah etdi. Bu səfər ərzində tədqiqat mövzularımız üzərində canlı və faydalı müzakirələr apardıq. O, gün boyunca daim yanımda oldu, təcrübələrimizi bölüşdük və gec saatlarda hotelə qayıtdıq. Yaponiyaya döndükdən sonra da Zoom vasitəsilə elmi əlaqəmiz davam edir – riyaziyyat və tədqiqat sahəsində ideyalar müzakirə edirik. Onunla əməkdaşlığı davam etdirmək və Azərbaycanın inkişafına birgə necə töhfə verə biləcəyimizi araşdırmaq arzusundayam.

Bu forum vasitəsilə tanıdığım bu kimi gənc alimlər mənə Azərbaycanın gələcəyi ilə bağlı böyük ümidlər verdi. Ölkəmiz üçün faydalı layihələrdə onların potensialını görmək və birlikdə nələr edə biləcəyimizi düşünmək istərdim.





# ELDAR ƏHƏDOVUN FORUMLA BAĞLI HEKAYƏLƏRİ

## *NUR*

Hər bir görüş nə qədər ürəkaçan, uzun və ya qısamüddətli olmasından asılı olmayaraq, axırda vidalaşma ilə nəticələnir. Yaradana şükürlər olsun! Ola bilsin ki, müvəqqəti vidalaşsınlar, ola bilsin ki, vidalaşma təxirə salınsın. Bizim görüş də məhz belə alındı. Belə ki biz – xaricdə yaşayan alimlərin birinci forumunun iştirakçıları səhər tezdən birlikdə Qarabağa getməyə toplaşdıq. Bizim qonaqpərvər Gülüstan Sarayının zalında keçirilən müzakirələrimiz vida şam yeməyi və konsertlə başa çatdı.

Təbii ki, biz böyük dəyirmi masa arxasında yalnız hansı qədim və ya müasir Azərbaycan mətbəxinin ləziz yeməyinə üstünlük vermək üçün deyil, həm də ilk növbədə vaxt və elmi müzakirələr çərçivəsi ilə məhdud olmayan şəraitdə Yer kürəsində yaşayan insanların bəzən daha çox ehtiyac duyduğu ünsiyyət üçün toplaşmışdıq.

Zaman keçdikcə biz bizi tərk edib geriyə yol olmayan dünyaya köçmüş kimisə xatırlayarkən sonradan təəssüflənirik ki, bəlkə, köçənlərə, Allah bilir, yalnız bir xoş nəzər və ya xoş söz çatışmadı ki, bizimlə bir müddət də qala bilsinlər.

Bizim vida qonaqlığı da çox ehtimal ki, bu həmrəyliyi yaratmaq, taleləri, tarixləri, doğulub böyüdükləri torpaqları, Vətənə olan sevgiləri bir olan insanların birgə cəmiyyətini yaratmaq məqsədi güdürdü.

Hündür olmayan səhnəyə – vida qonaqlığına toplaşanların qarşısına Azərbaycan milli musiqi alətləri – tar, kamança, qaval və nəfəs alətləri ilə musiqiçilər çıxdılar. Qabaqda ayrıca gözəl bir qadın əyləşmişdi. O, Azərbaycan Dövlət Filarmoniyasının və Beynəlxalq Muğam Mərkəzinin solisti Rəvanə Qurbanova idi. Onu həyat yoldaşı, peşəkar musiqi ifaçısı, “Buta” ansamblının rəhbəri Rövşən Qurbanov müşayiət edirdi.

İfaçı öz çıxışını muğamla başladı. Mənim aləmimdə muğam bizim xalqın keçmişindən bu gününə gələn, qızıl simlərlə bağlanmış, insan varlığı qarşısında dünyanın möhtəşəmliyini, kainatın ahəngini özündə cəmləşdirən səsidir. Çoxlu bir-birindən fərqli insanların toplaşdığı zala bir anlığa sükut çökdü. Xanəndə (bizim ölkəmizdə mahir muğam ifaçılarını belə adlandırırlar) Rəvanənin susmaq

bilməyən dağ bulaqlarının səsinə bənzəyən səsi və musiqi sədaları hər bir dinləyicinin qəlbini həyəcanla doldurdu.

Sonradan rəqs havaları və başqa müasir mahnılar səsləndi. Amma muğam ifasından yaranan ilk hisslər sona qədər dinləyiciləri tərk etmədi. Xaricdə yaşayan alimlərin birinci forumunun iştirakçılarından çoxu minnətdarlıq nitqi söylədilər.

Təntənəli axşam, görünür, təşkilatçıların da planlaşdırdığı kimi başa çatmaq üzrə olanda, aydın olanda ki, bir neçə andan sonra bayram başa çatacaq, bütün azərbaycanlı alimlər ruh yüksəkliyi ilə qalxaraq əl-ələ verib böyük çevrə yaratdılar və qədim Azərbaycan rəqsi “Yallı”nı oynamağa başladılar. Bu rəqs Qobustanın daşlarında həkk olunmuş rəsmlərdə öz əksini tapır. O yerlərdən bir vaxtlar on ikinci Roma legionu keçmək istəmiş, amma keçə bilməmiş, yerli əhaliyə qarışıb qohumlaşaraq orda qalmışlar. Bu haqda xatirə olaraq yalnız Abşeronun Ramanı kəndinin adı qalmışdır (“romalı” kimi tərcümə olunur). Bakı şəhərinin gerbində isə öküz başı həkk olunmuşdur. Öküz başı məhz Yuli Sezar tərəfindən yaradılmış və “İldırımsürətli” adlandırılan On ikinci legionun rəmzi simvolu idi.

Biz musiqiçiləri getməyə qoymurduq. Onlar bizim rəqsimiz bitənə qədər ifa etdilər. Yeri gəlmişkən, Qobustan qayalarındakı şəkillərdə məhz bu rəqsin təsvir olunduğunu görkəmli alim, bir neçə dəfə Azərbaycana səyahət etmiş Tur Heyerdal sübut etmişdir. Zənn edirəm ki, bu haqda bizimkilərin də təsəvvürləri var idi. Ən nəhayət, forum iştirakçılarının nur yağan üzlərinə, onlarda ruh yüksəkliyinə diqqət yetirən yəqin ki, təkcə mən deyildim. Mən, əlbəttə, başa düşürəm ki, bu nur öz mənbəyini haradan alır. Yəqin ki, bu sizə də aydındır.

## *VƏTƏN HİSSLƏRİ*

Bizim Xankəndi və Şuşaya yolumuz Bərdə və Ağdam şəhərlərindən keçirdi. Daha doğrusu, bir vaxtlar Ağdam şəhərinin olduğu, sonralar əsrdən əsrə “soyqırımı” hayqıranların yer üzündən sildikləri ərazilərdən keçirdik. Halbuki onların öz evlərinə heç bir zərər dəyməyib, hətta pəncərələrinin şüşələrində, evlərinin divarlarında bir çata da rast gəlmək olmur.

Yaşadıqları məskəni öz xoşuna tərk etmiş sakinlərin evləri bir il keçməsinə baxmayaraq, indi də səliqəli və toxunulmaz görünür.

Mənim yol yoldaşım Akif Kadıroviç Alaferdov idi. Onun fərəhdən gözləri parıldayırdı, üzündə xeyirxah təbəssüm var idi. O, əlindəki bayrağı avtobusdakıların oxuduqları mahnının ahənginə uyğun olaraq yelədirdi. Azərbaycanın





paytaxtından Xankədiyə və vətənimizin mədəniyyət paytaxtı Şuşaya çox saatlıq səyahətə baxmayaraq, xaricdə yaşayan azərbaycanlı alimlərin iki gün öncə keçirilmiş birinci forumunun iştirakçılarının xoş əhvali-ruhiyyəsi var idi.

Mən yol yoldaşım haqda bir neçə xoş söz demək istəyirəm. Akif müəllim sovet hakimiyyəti tərəfindən öz doğma Azərbaycanından minlərlə kilometr uzaqda yerləşən Qırğızıstana məcburi köçürülmüş azərbaycanlı ailəsində anadan olub. Amma bizim məcburi köçkün düşmüş həmyerlilərimiz hiddətlənmək əvəzinə, halal zəhmətləri ilə yaşadılar, uşaqlarını böyüklərə hörmət, öz xalqına və onlara yeni məkanda kömək göstərən, çörək və yerlə təmin edən xalqa hörmət və ehtiram ruhunda tərbiyə etdilər.

İllər keçdi. İndi Akif Kadıroviç Alaferdov ölkəsinin hüdudlarından kənarda da tanınmış, minlərlə xəstəni sağaltmış travmatoloqdur. Çox sayda ixtisaslı mütəxəssis yetişdirmişdir. O, Qırğızıstan Respublikasının Əməkdar həkimi, tibb elmlər namizədidir. Bir çox monoqrafiyaların, metodik tövsiyələrin, elmi məqalələrin müəllifidir. Alaferdov yalnız öz ixtisası sahəsində nailiyyətlərlə kifayatlənməyərək, həm də geniş ictimai fəallığı ilə fərqlənir. O, hazırda Qırğızıstan-Azərbaycan Dostluq və Əməkdaşlıq Cəmiyyətinin prezidenti, Qırğızıstanda yaşayan azərbaycanlıların “Azəri” İctimai Birliyinin fəxri prezidentidir. Bizim səyahətimizin bəzi anlarında mənə elə gəlirdi ki, Akif müəllimin geniş, aydın təbəssümü möhtərəm yaşına baxmayaraq, bütün azərbaycanlılara əziz olan Qarabağın yollarına nur səpir. Uşaq təbəssümü ilə elə gülümsəyirdi ki, sanki yaşı səkkizinci onilliyə keçən o deyildi.

Avtobusun ara keçidində rəqs edən qızlar, bizə rəhbərlik edən, Bakıya Avropanın mərkəzindən gəlmiş professor Məsud müəllimin oxuduğu mahnı, avtobus salonundakı yoldaşlarımızın əllərindəki bayraqlar səyahətimiz zamanı təkrarolunmaz könül xoşluğu, ruh yüksəkliyi atmosferi yaradırdı. Biz isə Akif müəlimlə birlikdə hamıya qoşulub gəncliyimizin mahnılarına səs verirdik.

Bizim qəlbimiz Xankəndi və Şuşa üçün çırpınır. Bəli, biz dünyanın başqa-başqa ölkələrində yaşayırıq, yaradırıq, amma yenə də birgəyik. Öz vətənimizi yalnız dünən və bu gün deyil, həmişə sevirik! Məhz bu sevgi bizi birləşdirir.

## *CIDIR DÜZÜ*

*“Bura Cıdır düzüdür. Hər birimiz üçün əziz, doğma Cıdır düzü. Şuşanı Cıdır düzüsüz təsəvvür etmək mümkün deyil, Azərbaycanı isə Şuşasız təsəvvür etmək mümkün deyil. Biz Şuşaya qayıtmışıq, Cıdır düzünə qayıtmışıq və tarixi yerdə*

*bundan sonra muğam səsi eşidiləcək, Azərbaycan mahnıları ifa olunacaq, böyük tədbirlər keçiriləcək, toy-bayram olacaq...”*

*İlham Əliyev*

Xankəndidən sıx kolluqlarla örtülmüş qayaların arası ilə ilanvari, qıvrıla-qıvrıla gedən dolanbac yol avtobusumuzu daha yuxarılara, dağın başına qaldırırdı. Hər döngə bizi  Şuşa ilə görüşmək məqamına daha da yaxınlaşdırırdı. Beləliklə, Xankəndi binalarının damları lap aşağıda qalmışdı. Bizim səyahət avtobuslarımız isə aramla, dayanmadan hərəkətdə idilər. Xaricdə yaşayan azərbaycanlı alimlərin forumunun iştirakçılarından bəziləri səbirsizliklə, bəziləri nəzərəçarpan həyəcanla, bəziləri isə maraqla avtobusun pəncərələrindən yolu müşahidə edirdilər. Bütün bunlara baxmayaraq, çoxumuz üçün Şuşa qarşımıza qəflətən çıxdı. Avtobuslar həmin anda dayandılar və hamımız bizim üçün nahar hazırlanmış mehmanxananın yanında avtobuslardan çıxdıq. Burada bizi yalnız nahar deyil, həm  Qarabağ Universitetinin rektoru Şahin Bayramovla və onun rəhbərlik etdiyi ali məktəbin əməkdaşları ilə görüş gözləyirdi. Rektor bizə universitetin perspektivləri haqqında, qarabağlı gənclərin gələcəyə həvəslə can atmasından, ümidlərdən, layihələrdən əminliklə, gələcək uğurlara inamla danışdı. Əminliklə demək olar ki,  xaricdə yaşayan azərbaycanlı alimlərin dəstəyi Qarabağ Universitetinin tələbələrinin bilik və bacarıqlarını artırmaqda öz töhfəsini verəcək. Buna heç kimin şübhəsi ola bilməz.

Biz rektora maraqlı söhbətə görə minnətdarlıq edib, nəhayət, şəhərə tərəf üz tutduq. “Musiqiçilər və şairlər Tanrıya hamıdan yaxındırlar”, – deyə dahi Sibir yazıçısı, cəbhədə olmuş Viktor Petroviç Astafyev tez-tez təkrarlayardı. Mən onunla uzun illər idi ki, tanış idim və çoxlu görüşlərimiz olmuşdu. O yalnız “Çar-balıq” və “Vasyutkin gölü” əsərlərinin deyil, həm də müharibə dəhşətlərini özündə əks etdirən “Lənətlənmiş və öldürülmüşlər” romanının müəllifidir.

Budur, mən üç bərpa olunmuş nadir abidənin – həyatlarının son anlarına qədər insanlarda bütün canlılara qarşı məhəbbət təlqin etmiş bəstəkar Üzeyir Hacıbəylinin, şair Natəvanın və müğənni Bülbülün abidələrinin yanında durmuşam. Onlar bu doğma torpaqda, doğma şəhərdə doğulub boya-başa çatmışlar. İndi bərpa olunmuş bu abidələr vəhşicəsinə güllələnmiş, bərbad hala salınmış və metal qəbulu məntəqəsinə verilmişdi. Nədən belə oldu? Yalnız bir şeyi bilirəm – musiqiçilərə, şairlərə ucaldılmış abidələri dağıdanların özlərini insan adlandırmaq hüququ yoxdur...





Mən Natəvanın və Hacıbəylinin evlərinin dağıntılarını gördüm. O evlərə mərmi düşməmişdi. Onları oğrular dağıtmışdılar. Mən onlara millət deyə bilmərəm. Şairlərin, musiqiçilərin abidələrini güllələyənlərin, qapı, pəncərə çərçivələrini, qab-qacağı, ayaqyolu çanaqlarını oğurlayanların milliyyəti olmur və ola da bilməz.

Mən bulaqda üzümü yuyub Şuşanın qala qapısına tərəf yollandım. Həmkarlarımın çoxu artıq oradan keçib qədim qala divarlarının o biri tərəfində fərəhlə fotosessiya həyata keçirirdilər. Mən isə öz diabetdən əziyyət çəkən ayaqlarımla onlardan çox geridə qalmışdım. Digər tərəfdən, qapının önündə yerin səthi o qədər nahamar və daşlı-kəsəkli idi ki, piyada hərəkətimin sürəti, demək olar, sıfıra düşmüşdü. Eyni vaxtda həm ayaqlarımı hərəkət etdirmək, həm də nahamar daşlıq yerdə müvazinətimi saxlamaq çox çətin idi. Gözlənilmədən kiminsə nəvazişli və inamlı əli məni dirsəyimdən tutub dəstəkləməyə başladı. Bu gənc qadının kim və nəçi olduğunu bilmirdim, amma o məni gözlənilməz xatalardan, bəlkə də, illərlə yüz minlərlə insanın tapdayıb hamarladığı daşların üstünə yıxılmaqdan xilas etdi. Xanımın təmənnasız köməyi mənə qarşı rəhmindən irəli gəlirdi. Biz onunla doğma Azərbaycan dilində danışırdıq. Mən Gülxanım (o özünü belə təqdim etdi) xanıma öz həyatımın, həm də Şuşaya gəlməyimin məcazi mənasını, bunun yalnız bir səyahət olmadığını açıqladım. 2020-ci ilin noyabrında bizim ordu Şuşaya həmlə edəndə mən Sibirdə polisin caynağına keçmişdim. Üstündə şəklim olan, adım, soyadım, doğulduğum tarix yazılmış təqaüd vəsiqəm yanımda idi, amma pasport üstümdə deyildi. Çavuş məni tutub polis məntəqəsinə sürüklədi. Onun soyadının Çonayan olduğunu sonralar polis protokolundan öyrəndim. Mənə uzun müddət ayaq üstə durmaq və ayaqqabıda qalmaq olmazdı. Buna baxmayaraq,  Çonayan və həmkarları  guya şəxsiyyətimi məlumat bazasında yoxlamaq bəhanəsi ilə bir neçə saat yoxlama apardılar. Mənə özümü rus kimi qələmə verməyim üçün işarə edirdilər. Yəni onda onlar məni azad etməyə söz verirdilər. Mən isə azərbaycanlı olduğumu inadkarlıqla təkrar edirdim... Başa düşürsünüz, mən nəyin naminə öz ata-anamdan imtina etməliyəm?! Mən türkəm və türk olaraq da qalacağam! Hətta məni şikəst etsələr də!

Budur, bir il bundan əvvəl Vətənimizin tarixi haqqında mənzum “Xarıbülbül” dastanını yazdım, indi isə həyatımda ilk dəfə Şuşadayam – xarıbülbülün vətənində!

Şuşanın cənub hissəsində “Cıdır düzü” deyilən düzənlik var. Qarabağ xanlığı dövründə burada ildə iki dəfə Qarabağ cinsindən olan atların yüzillərlə qədim

ənənəyə söykənən yarışı keçirilib. Həm də xalq ənənəvi olaraq bahar bayramı Novruzu və başqa bayramları Cıdır düzündə qeyd edirdi. Burada həm də indiki atla-polo oyununun əcdadı sayılan atla idman növü "Çövkən" keçirilirdi.

Geniş dağ yaylası XIX və XX əsrlərdə plenar əsərlər yaradan rəssamların öz əsərlərini emalatxanada deyil, açıq təbiətdə, təbii işıqlı havada yaratmaq üçün sevimli məkana çevrilmişdi. Cıdır düzündən görünən dağ mənzərələri, doğrudan da, təkrarolunmazdır. Burada həm musiqi, həm də ədəbi-bədii festivallar, yarmarkalar, bayramlar keçirilirdi. 1989-cu ildən 1991-ci ilə qədər Cıdır düzündə keçirilən Xarıbülbül festivalı da 2021-ci ildən – Şuşa azad olduqdan sonra yenidən hər il keçirilməyə başlanıb.

Mən hörmətli Gülxanıma, o məni qolumdan tutub avtobusa qədər müşayiət edən zaman, indiyə kimi heç kimə açmadığım gizli və gülməli görünən arzum haqda danışdım. Bu arzu Cıdır düzü yaylasına qalxıb, orada otların üstündə ayaqyalın getmək idi. Bəlkə də, bundan sonra ayaqlarım bir daha bu sonuncu dörd ildə ağrıdıqları kimi ağrımayacaqlar. Əlbəttə, belə düşünmək sadəlövhlükdür, amma siz harada möcüzəyə inanmayan şair görmüsünüz? Gülxanım məni avtobusa qədər müşayiət edib, arzumun çin olmasını arzuladı. Tezliklə avtobus yola düşdü. Amma bununla mənim çətinliklərim bitmədi. Avtobus Cıdır düzünə çatmamış sürücü dedi ki, bizim nəqliyyat vasitəmiz üçün yol çox yoxuşdur və biz bundan sonra piyada getməli olacağıq. Gedim, ya getməyim? Əgər söhbət arzumun yerinə yetirilməsindən gedirsə, onda getməmək nə deməkdir?! Mən getdim. Yol mənim üçün o anda həqiqətən, çox yoxuş idi. Yenə də hamıdan arxada ayaqlarımı sürüyürdüm. Hətta bir-iki addım qalxmaq üçün tez-tez dayanmalı, ensiz səkinin hündür olmayan divarlarına söykənməli olurdum. Artıq başqa səyahətçiləri izləmirdim və yalnız ayaqlarımın altına diqqətlə baxırdım. Tər gözlərimə tökülürdü, köksümdə hava çatışmırdı. Birdən mənə sonsuz görünən yoxuşun hərəkət istiqamətimdən sol tərəfində kiçik bir düzənlik sahəyə rast gəldim. Nisbətən düzənlik olan bu sahəyə döndüm. Aralıda üzərinə "Vaqif" yazılmış memarlıq abidəsi ucalırdı. Anladım ki, bu, şair Vaqifin yaxınlarda bərpa olunmuş məqbərəsinin xiyabanıdır. Molla Pənah Vaqif Qarabağ xanlığının birinci vəziri, XVIII əsrdə Azərbaycanın tanınmış siyasi xadimi, ən əsası isə ölkənin görkəmli, xalq tərəfindən sevilən şairlərindən biri idi. Xiyaban mənə nəfəsimi dərməyə imkan verdi. Amma həmin yolu Cıdır düzü yaylasına qədər davam etməli idim, yoxsa mən yuxarı qalxana qədər digərləri avtobusların yanına dönərdilər. Bu fikir məni irəliləməyə sövq etdi və yenidən yuxarı qalxmağa





başladım. Bu mənim üçün son illərdə qət etdiyim ən uzun məsafə idi. Vaxt var idi, asanlıqla qayalara dırmaşar, Tayqanın cəngəlliklərindən, Tundranın bataqlıqlarından da asanlıqla keçərdim. Keçirdiyim insult və ürəyimə qoyulan üç şunt, əfsuslar olsun ki, keçmiş ekspedisiya "igidliklərini" təkrarlamağa imkan vermirlər. Axır ki, mənim səylərim öz bəhrəsini verdi və səxavətini göstərdi. Gözlərim önündə Cıdır düzü yaylası açılan kimi qarşımda əvvəlki xilaskarım Gülxanımı gördüm. Biz buradan yenə də qol-qola getdik. Sən demə, o buraya "Land Rover" sürücüsü, naməlum bir kişi ilə gəlib. Ondan mənə yaylaya qalxmağa kömək etməsini xahiş etdi. Görünür, onlar mən tısbağa sürəti ilə hərəkət edincə daha əvvəl buraya çatmışdılar.

Biz yaşıllığa çıxdıq. Ayaqqabı və corablarımı çıxarıb ayaqyalın Cıdır düzü ilə getməyə başladım. Ayağımın birində üçüncü barmağı hələ 2020-ci ildə amputasiya etmişdilər. Birinci dəfə idi ki, əvvəllər heç vaxt görmədiyim, amma azad olunması uğrunda hətta özümdən asılı olmadan belə, az da olsa, öz qanımı tökdüyüm torpağa qədəm qoyurdum.

İndi Cıdır düzü ilə gülümsəyərək gedirdim. Mən özümü xoşbəxt sanıram və heç nəyə təəssüflənmirəm. O vaxtlar bütün dünyaya səs salan "Əziz Şuşa, sən azadsan!" sözlərini xatırlayıram. Bu sözlər hələ də qəlbimdə səslənir.

Gülxanım bir qədər uzaqlaşıb mənim üçün gözoxşayan təbii gözəllikləri, Cıdır düzünə qalxan yoxuşları videoya çəkməyə başladı. Bəlkə də, biz onunla bir də görüşməyəcəyik, amma mənim üçün bundan sonra Şuşa Gülxanımı xatırladacaq. Azərbaycan mənim üçün alim qardaşlarım Məsud əfəndini, Bəxtiyar bəyi, Emil müəllimi, Akif müəllimi və xalqımın başqa-başqa nümayəndələrini xatırladacaq. Bu mənim doğma, xeyirxah, qurucu, yaradıcı, sevməyi və bağışlamağı bacaran xalqımdır!..

## *XƏDİCƏ*

Ayrı-ayrı sözlərin və səslərin asanlıqla qovuşub birgə əks-sədaya çevrildiyi, titrəyən sinir sisteminə bənzər qapalı məkan olan geniş zalda, səhnədən kənarda təvazökarlıqla, amma qürurla öz təntənəli saatını gözləyən, qanadlarını sanki gülümsəyərək açmış royal sakitcə durmuşdu.

Xaricdə yaşayan azərbaycanlıların ümumdünya forumunun bir iclası yenicə başa çatmış, başqası isə ləngiyirdi və hələ başlamamışdı. Gözlənilmədən bir-biri ilə söhbət edən iştirakçıların izdihamı arasından qara saçlı, xrizopraz rəngli

paltarda, zərif, şux qamətli bir qadın çıxıb inamla, sözün hər mənasında, eleqant görünən royalın qarşısındakı qısa, yumşaq oturacağa əyləşərək klavişləri sanki zərif barmaqları ilə öpürmüş kimi dilə gətirdi və musiqi yarandı.

Zaldakı adamların çoxunun qəlbini fəth edən, hamıya uşaqlıqdan tanış olan və bu səbəbdən də sevilən, ürəkləri gizildədən "Ay Laçın" melodiyası səsləndi. Laçın Azərbaycanın 1992-ci ildə işğalçılar tərəfindən qarət olunmuş və yandırılmış, sonradan azad olunmuş, 2022-ci ildən – 30 il keçdikdən sonra yenidən bərpa olunan şəhəridir.

Royal arxasında çıxış edən qadını tezliklə fotomüxbirlər və operatorlar əhatə etdilər. Onlar hər mövqedən çəkməyə başladılar. O isə davam edirdi, sanki ətrafda heç kim yox idi. Bir o, bir də royaldan başqa...

Onun adı Xədicə, soyadı Zeynalovadır. Bütün dünyada tanınmış bəstəkardır. Almaniyada yaşayıb-yaradır. O, forumda Azərbaycanın milli qürur mənbəyi, Azərbaycan xalqının sərvəti kimi xüsusi dəvətnamə ilə iştirak edirdi.

*Rus dilindən tərcümə edən:*
*Əlviz Əliyev*





## FORUM İŞTİRAKÇILARININ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEVƏ ÜNVANLADIQLARI MƏKTUBLAR

***Aygül İSAYEVA***

Hörmətli cənab Prezident!

Bu gün Azərbaycanımız Sizin sayənizdə yalnız regionun deyil, eləcə də dünyanın ən güclü dövlətlərindən biridir. Azərbaycan bütün sahələrdə dünyada öz sözünü deməkdədir. Məhz Sizin diqqət və qayğınızdan bəhrələnən elm adamları da dünyanın ən böyük arenalarında ölkəmizin adını ucaldırlar.

Bu günlərdə – sentyabr ayının 9–11-də Azərbaycanda keçirilən Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin I forumu tarixi əhəmiyyət kəsb edən hadisələrdən birinə çevrildi. Forumun paytaxt Bakıda Gülüstan Sarayında açılışı və daha sonra işğaldan azad edilmiş ərazilərə, o cümlədən Qarabağ Universitetinə səfərin təşkil edilməsi tarixi, elmi, ictimai-siyasi bir hadisə kimi yaddaşlara həkk edildi.

Forumda çıxışınızı video-fraqmentlərlə izləyərkən bir daha Sizinlə qürur duydum. Siz Azərbaycan dilinin hamımızı birləşdirən əsas amil olmasını vurğulayaraq qeyd edirsiniz: "Çox istəyirik ki, ikinci, üçüncü nəsil azərbaycanlılar öz mədəniyyətlərinə bağlı olsunlar. Əlbəttə, bu o qədər də asan məsələ deyil. Burada onlar, ilk növbədə, Azərbaycan dilini bilməlidirlər. Burada, əlbəttə ki, təkcə ailələrdə Azərbaycan dilini yaşatmaq mümkündür, ancaq kifayət deyil. Ona görə Azərbaycan məktəblərinin, bazar günü məktəblərinin açılması istiqamətində də biz hər zaman kömək göstərməyə hazırıq. Əslində, bunu edirik. Bəlkə də, bunu daha da təşkilatlanmış şəkildə etmək lazımdır. Çünki Ana dili əsas amildir. Ana dili bütün Azərbaycan vətəndaşlarını birləşdirir". Biz də Sizin tövsiyələrinizə uyğun olaraq, Gürcüstanda ana dilimizin yaşadılması üçün əlimizdən gələni edirik.

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumunda 23 ölkəni təmsil edən 80-dən çox alim və professorun arasında Gürcüstan təmsilçisi kimi böyük fəxarət hissi keçirdim. Panel müzakirələr və sessiyalarda elmi diskussiyalara qatılaraq ana dilimizin qorunub saxlanılması, yaşadılması istiqamətində üzləşdiyimiz çətinliklər və həlli yolları ilə bağlı fikir mübadiləsi apardıq.

Əminik ki, Sizin sayənizdə xarici ölkələrlə Azərbaycan arasında təhsil və elm sahəsində əməkdaşlıq münasibətləri bundan sonra daha da möhkəmlənəcək.

Cənab Prezident, elm və təhsilə, o cümlədən xaricdə yaşayan soydaşlarımıza qarşı diqqət və qayğıya görə Sizə təşəkkür edirəm.

Hörmətlə,

İsayeva Aygül,

iqtisadiyyat üzrə fəlsəfə doktoru.

Gürcüstan, Tbilisi şəhəri.

***Bəxtiyar SİRACOV***

Möhtərəm cənab Prezident!

2024-cü ilin sentyabr ayında doğma vətənimizdə baş tutmuş Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumu Sizin xeyir-duanızla başladı. Foruma ünvanladığınız təbrik məktubu Sizin elmimizə, alimlərimizə verdiyiniz yüksək dəyərin bariz nümunəsi idi.

Forum böyük uğurla keçdi. Dünyanın müxtəlif ölkələrindən gəlmiş alimlərimiz vətənimizdə yaşayıb çalışan dəyərli həmkarları ilə birlikdə ölkəmizdə icra olunan və ya icra olunacaq layihələrə dəstək verməyin yollarını araşdırdılar, çox önəmli mövzuları müzakirə etdilər və çeşidli təkliflər irəli sürməklə hazırlayacağımız strateji planlara əhəmiyyətli töhfələr verdilər.

Cənab Prezident, müzəffər Ali Baş Komandanımız!

İşğaldan azad olunmuş doğma Qarabağ torpaqları da daxil olmaqla, suveren, bütöv Azərbaycanımızın hərtərəfli inkişafı Sizin müdrik rəhbərliyiniz, uzaqgörən siyasətiniz sayəsində baş verir. Buna görə Sizə çox minnətdarıq.

Alimlərimiz göstərdiyiniz diqqət və qayğıdan ruhlanaraq Azərbaycanımızın daha da çiçəklənməsi, iqtisadi, elmi, mədəni və digər sahələrdə dünya ölkələri içərisində ən yüksək zirvələrdə öz layiqli yerini tutması uğrunda hər zaman əzmlə çalışmış və bundan sonra da çalışacaqlar.

Sizə, ailənizə cansağlığı arzulayır və dövlətimizin rifahı naminə göstərdiyiniz fəaliyyətinizdə böyük uğurlar diləyirik.

Hörmətlə,

Siracov Bəxtiyar,

Dünya Azərbaycanlı Alimlər Birliyinin həmsədri,

Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin əməkdaşı,

Avstriya, Vyana şəhəri.





***Cəmilə CAVADOVA-SPİTZBERQ***

Hörmətli cənab Prezident,

Mən 23 ilə yaxındır Amerika Birləşmiş Ştatlarının Texas ştatında yaşayıram. Texas Arlinqton Universitetinin professoruyam. ABŞ-də klassik Azərbaycan musiqisini və Azərbaycanda klassik Amerika musiqisini təbliğ edən qeyri-kommersiya təşkilatı olan Azərbaycan-Amerika Musiqi Fondunun təsisçisiyəm. Təşkilatımız vasitəsilə mədəni körpülər qurur, musiqiçiləri bir araya gətirir və əməkdaşlıq edirik.

Bu il sentyabrın 9-dan 11-dək Dünya Azərbaycanlıları Alimlər Assosiasiyasının təşkilatçılığı ilə Bakıda keçirilmiş Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumuna mən də dəvət edilmişdim və bu tədbirdə iştirakdan məmnun oldum.

Forum mənə çox gözəl təəssürat bəxş etdi. Həmkarlarımla görüşmək, bilik və təcrübə mübadiləsi aparmaq, alim yoldaşlarımın nailiyyətləri ilə tanış olmaq, xüsusən də dünya elminə töhfə verən azərbaycanlı qadın alimlərin uğurlarının şahidi olmaq məni çox sevindirdi. Ümid edirəm ki, Azərbaycan elminin dünya miqyasında gələcək inkişafı gənc alimlərin böyük nailiyyətlər qazanmasına töhfə verəcəkdir.

Şuşa və Xankəndi şəhərlərinə səfər etmək, Qarabağ Universiteti ilə tanış olmaq məndə dərin təəssürat yaratdı. Bu, xüsusilə ürəyimcə oldu, çünki mənim anam Şuşa şəhərindəndir və bu şəhər ermənilər tərəfindən işğal ediləndən əvvəl Ağdamın musiqi məktəbində dörd il dərs demişəm. Bu gün Sizin müdrik rəhbərliyinizlə Qarabağ azaddır, gələcəyi parlaqdır.

Azərbaycanın gələcəyi, o cümlədən siyasi, iqtisadi, elm və təhsil sahələri ilə bağlı baxışlarınızı yüksək qiymətləndirirəm. Sevimli Azərbaycanımız üçün etdiyiniz bütün fədakarlıqlara görə Sizə təşəkkürümü bildirirəm.

Əmin ola bilərsiniz ki, xaricdə yaşayan azərbaycanlı alimlər Sizi dəstəkləyirlər və daim Sizin yanınızdadırlar.

Hörmətlə,

Cəmilə Cavadova-Spitzberq, professor.

Amerika Birləşmiş Ştatları, Texas ştatı, Arlinqton şəhəri.

***Dinara ABBASOVA***

Hörmətli cənab Prezident,

Bu il sentyabrın 9-dan 11-dək Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Bakıda keçirilmiş forumuna verdiyiniz dəstəyə görə Sizə dərin təşəkkürümü bildirirəm.

Bu forum Azərbaycan elminin beynəlxalq səviyyədə tanınması, alimlər ara-

sında əməkdaşlığın gücləndirilməsi və ölkəmizə daha çox fayda vermək məqsədilə bilik, bacarıq və təcrübəmizi bölüşmək üçün geniş imkanlar və platforma yaradır. Dünyanın texnoloji inkişafını nəzərə alaraq və Sizin uzaqgörən, məqsədyönlü siyasətinizə dəstək olaraq biz – xaricdə yaşayan azərbaycanlı alimlər müvafiq ekspert şurasının yaradılmasını, ölkəmiz üçün vacib olan elm, təhsil və biliklərin strateji idarə olunması ilə bağlı inkişaf istiqamətinin işlənilərək dövlət əhəmiyyətli bir layihəyə çevrilməsini məqsədəuyğun hesab edirik.

Azərbaycan alimləri olaraq, ölkəmizin gələcək uğurları naminə hər zaman vətəninə sədaqətli, dövlətinə sadiq vətəndaş kimi gələcəyin qurucuları sırasında olan kadrların yetişdirilməsində imkanlarımız çərçivəsində əlimizdən gələn qədər töhfə verməyə hazırıq.

Hörmətlə,
Dinara Abbasova, dosent,
Beynəlxalq Atom Enerjisi üzrə Agentliyin mütəxəssisi,
Avstriya Respublikası, Vyana şəhəri.

***Elçin BƏDƏLOV***

Möhtərəm cənab Prezident,

Azərbaycan alimlərinin iştirakı ilə elmimizin səviyyəsinin artırılması, yeni dövrün tələblərinə uyğun kadrların yetişdirilməsi, ölkəmizin beynəlxalq nüfuzunun daha da gücləndirilməsi, elmi əlaqələrimizin yüksək səviyyədə inkişaf etdirilməsi naminə təşkil olunmuş Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumuna verdiyiniz dəstək üçün Sizə öz təşəkkürümü bildirirəm.

Forum çərçivəsində iştirakçıların işğaldan azad edilmiş ərazilərin bərpası prosesində alimlərimizin bilik və təcrübəsindən yararlanmaq məqsədilə Sizin təşəbbüsünüzlə yaradılmış Qarabağ Universitetinin müəllim heyəti ilə görüşün təşkili, müxtəlif ölkələrdə yaşayan azərbaycanlı alimləri bir araya gətirmək, yerli alimlərlə görüşdürmək, bilik və təcrübə mübadiləsi aparmaq dünya azərbaycanlı elm adamlarının şəbəkələşməsinə töhfələr verməsi baxımından çox təqdirəlayiq təşəbbüs idi. Azərbaycanlı alimlər olaraq, ölkəmizin gələcək uğurları naminə, hər zaman vətəninə sədaqətli, dövlətinə sadiq vətəndaş kimi xalqımızın inkişafına xidmət edən, gələcəyin qurucuları sırasında olan kadrların yetişdirilməsində imkanlarımız çərçivəsində əlimizdən gələn qədər töhfə verməyə hazırıq!

Hörmətlə,
Bədəlov Elçin, dosent,
İstanbul Aydın Universiteti,
Türkiyə Respublikası, İstanbul şəhəri.





***Elşad ALLAHYAROV***

Cənab Prezident,

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumunun keçirilməsinə göstərdiyiniz dəstəyə görə Sizə dərin təşəkkürümü bildirirəm.

Uzun illər əvvəl xaricə köçmüş azərbaycanlı alimlərə, xüsusən də mənə bu tədbirdə iştirak etmək unudulmaz hisslər yaşatdı. Forumun keçirilməsi Sizin bizə göstərdiyiniz böyük qayğının göstəricisi idi. Artıq biz də daha çox özümüzü Azərbaycan cəmiyyətinin ayrılmaz bir hissəsi kimi hiss edirik.

Xaricdə yaşayıb işləməyimə baxmayaraq, hər zaman Azərbaycanda baş verən prosesləri diqqətlə izləyirəm. Ordumuzun Qarabağın və işğal olunmuş digər ərazilərin vətənə qaytarılmasını təmin etmək üçün apardığı qəhrəmanlıq mübarizəsi son 30 ildə ailəm və mənim üçün ən əlamətdar hadisə oldu. Siz sözünüzə sadiq bir Lidersiniz və mən Sizə gələcək işlərinizdə uğurlar arzulayıram.

Forum zamanı tələbələrə mentorluq, fizika üzrə doktorantlara elmi rəhbərlik etməyə, azərbaycanlı həmkarlarımla birgə tədqiqatlar aparmağa, nüfuzlu beynəlxalq jurnallarda məqalələr dərc etdirməyə və Bakıya xarici maliyyə fondlarını cəlb eləməyə hazır olduğumu bildirdim.

Əmin olun ki, Azərbaycan elminin dünyada tanınmasını artırmaq, elmin nüfuzunu yüksəltmək,

vətənimizin iqtisadi inkişafına və rifahına töhfə vermək üçün əlimizdən gələni edəcəyik.

Ən xoş arzularla,
Allahyarov Elşad professor,
"Case Western Reserve" Universiteti,
Amerika Birləşmiş Ştatları, Klivlend şəhəri.

***Ələddin ALLAHVERDİYEV***

Möhtərəm Prezident,

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Bakıda keçirilən forumuna verdiyiniz dəstək Sizin uzaqgörən, müdrik siyasətinizin çoxşaxəli istiqamətlərindən biri kimi elmə, təhsilə xidmət edən alimlərə, o cümlədən xaricdə yaşayan bizim kimi elm adamlarına göstərdiyiniz diqqət və qayğının, yaratdığınız şəraitin bariz göstəricisidir. Bu amil bütün gücümüzün Azərbaycan xalqının və dövlətinin inkişafına yönəlməsinə stimul verir.

Forumun işinə göstərdiyiniz diqqət dünyanın müxtəlif ölkələrində yaşayan və fəaliyyət göstərən azərbaycanlı alimləri bir qurumda birləşdirərək, ölkəmizin

elmi, iqtisadi, mədəni tərəqqisi üçün yeni imkanlar yaratmaqda çox mühüm rol oynayır.

Hörmətli cənab Prezident, Azərbaycanda keçirilən prezident seçkilərində qazandığınız inamlı və parlaq qələbə Qarabağı işğalçılardan tamamilə təmizləyən, bununla da, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini təmin edən Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, eyni zamanda müdrik ölkə rəhbəri, siyasi xadim və görkəmli dövlət başçısı kimi prezident olduğunuz 20 il ərzindəki sosial-iqtisadi siyasətinizin, genişmiqyaslı islahatların və böyük quruculuq işlərinin, vətəndaşların hər bir sahədə rifahının yüksəlməsinə və iqtisadi tərəqqiyə yönələn, hakimiyyətlə xalqın birliyini təmin edən, möhkəmləndirən gündəlik fəaliyyətinizin və böyük səylərinizin nəticəsidir.

Təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müasir Azərbaycan Sizin misilsiz rolunuz və əvəzsiz xidmətləriniz nəticəsində beynəlxalq arenada yüksək nüfuz qazanmış qüdrətli, güclü dövlətə çevrilib.

Sizin müdrik və uzaqgörən siyasətinizi prezident seçkilərində bir daha yüksək dəyərləndirən hər bir Azərbaycan vətəndaşı kimi bizlər – vətəndən kənarda yaşayan soydaşlarımız, o cümlədən azərbaycanlı alimlər də Sizinlə fəxr edir, qürur duyuruq.

Sizə və ailənizə möhkəm cansağlığı, uzun ömür, vətənimizin, xalqımızın rifahı naminə görəcəyiniz bütün işlərdə uğurlar arzulayıram.

Dərin hörmətlə,

Allahverdiyev Ələddin, professor,

Rusiya Federasiyası, Moskva şəhəri

***İlham AXUNDOV***

Hörmətli cənab Prezident,

Bu sətirləri Sizə qarşı böyük hörmət və minnətdarlıq hissi ilə yazıram. Sizin uzaqgörən və məqsədyönlü siyasətiniz sayəsində Azərbaycan həm regional, həm də beynəlxalq arenada böyük uğurlara imza atır. Biz alimlər üçün də Sizin tərəfinizdən göstərilən diqqət, xüsusilə xaricdə yaşayan azərbaycanlı alimlərin əməkdaşlığı və inkişafı üçün yaratdığınız şərait böyük dəstək və stimul verir.

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin I forumunun təşkil olunmasına verdiyiniz şəxsi dəstəyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin tərəfinizdən göstərilən bu cür diqqət və qayğı xaricdə yaşayan azərbaycanlı alimlərin öz bilik və bacarıqlarını Azərbaycan xalqının və dövlətinin inkişafına yönəltməsinə stimul yaradır. Bu cür tədbirlər Azərbaycan elminin beynəlxalq səviyyədə tanınması,





alimlər arasında əməkdaşlığın gücləndirilməsi və Vətənimizə daha çox fayda vermək məqsədilə bilik və təcrübəmizi bölüşmək üçün çox mühüm platformadır.

Cənab Prezident, xaricdə yaşayan alimlərə göstərilən bu etimad həm də bizim üzərimizə böyük məsuliyyət qoyur. Biz bu etimadı yüksək qiymətləndirir və Sizin rəhbərliyiniz altında Azərbaycan elmini daha yüksək səviyyələrə qaldırmaq üçün bütün imkanlarımızı səfərbər etməyə hazır olduğumuzu bildiririk. Biz bilik və təcrübəmizi ölkəmizin elmi-texnoloji inkişafına yönəltmək, vətənimizin dünya səviyyəsində daha da tanınması və rəqabət qabiliyyətinin artırılması üçün Sizin göstərdiyiniz etimadı doğrultmağa çalışacağıq. Elmi tədqiqatlarımızın nəticələrinin Azərbaycan üçün faydalı olacağına və ölkəmizin dünya elm məkanında öz mövqeyini daha da gücləndirəcəyinə inanırıq. Bu istiqamətdə bizə göstərdiyiniz dəstək və yaratdığınız imkanlar üçün Sizə bir daha səmimi minnətdarlığımızı çatdırırıq.

Sizə və ailənizə möhkəm cansağlığı, fəaliyyətinizdə davamlı uğurlar və Azərbaycan xalqının rifahı naminə gördüyünüz işlərdə müvəffəqiyyətlər arzulayıram.

Dərin hörmət və ehtiramla,

Axundov İlham, Kanada-Azərbaycan Əməkdaşlıq Assosiasiyasının prezidenti, Vaterloo Universitetinin Riyaziyyat fakültəsinin Riyaziyyat-biznes və mühasibat proqramları direktoru, professor,

Kanada, Vaterloo şəhəri.

***Lev EPPELBAUM***

Hörmətli cənab Prezident,

Bakıda keçirilən Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin I forumunun təşkilinə, o cümlədən elmin inkişafına verdiyiniz dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm. Bu konfransda mən çox maraqlı insanlarla tanış oldum, müxtəlif sahələrə aid fikir mübadiləsi apardım və əlaqəli elm sahələrindəki bir sıra yeniliklər barədə məlumat ala bildim.

Bakı mənim sevimli şəhərimdir. Hər dəfə bura gələrək doğma havamı udanda elmi araşdırmalar üçün yeni ilham mənbəyi tapıram.

Bakı gözəl şəhərdir. Hər dəfə Dənizkənarı bulvarda gəzəndə öz-özümə təkrar edirəm ki, dünyanın heç bir şəhərində belə möcüzə tapa bilməzsən.

Bir daha Sizə minnətdarlığımı ifadə edir, Sizin rəhbərliyiniz altında Azərbaycanda elm və təhsilin daha da inkişaf edəcəyinə əmin olduğumu bildirirəm.

Dərin hörmətlə,

Lev Vilenoviç Eppelbaum, geofizik, professor,

İsrail dövləti, Təl-Əviv şəhəri.

***Mehdi GƏNCƏLİ***

Hörmətli cənab Prezident!

Bu ilin 9–11 sentyabr tarixlərində paytaxtımızda keçirilən Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumunda böyük qürur və sevinc hissi ilə iştirak etdim. Tədbir iştirakçılarına ünvanladığınız təbrik mesajını dinləyərkən Sizin rəhbərliyinizlə dövlətimizin Azərbaycan elminin inkişafına göstərdiyi əvəzsiz dəstəyə bir daha əmin oldum. Ona da inandım ki, dünyada yaşayan alimlərimiz torpaqlarını işğaldan azad etmiş Azərbaycan üçün əvvəlkindən daha böyük şövqlə, daha ciddi əməklə çalışacaqlar. Çünki bu forumun suverenliyini bərpa etmiş Azərbaycanda keçirilməsi, Ali Baş Komandan olaraq Sizin qətiyyətiniz sayəsində müzəffər ordumuzun azad etdiyi Xankəndi və Şuşada da davam etməsi bizə sonsuz bir xoşbəxtlik bəxş etmişdir.

Cənab Prezident!

Siz, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı etdiyiniz tarixi çıxışda bildirmişdiniz ki, “Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını reallığa çevirdik. Biz elə bir dövlət qurduq ki, əminəm, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı bu dövlətlə fəxr edir. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər”. Həqiqətən də, qardaş ölkə Türkiyədə fəaliyyət göstərən bir alim olaraq hər dəfə ölkəmizə gələndə bu reallığı görür və Sizin əminliyinizi bölüşürəm. Xüsusən də bir neçə ildir ADA Universitetinin layihəsi olaraq üzərində çalışdığımız AXC-nin əsas mətbu orqanı olan “Azərbaycan” qəzetindəki materialları bugünkü əlifbamıza çevirərkən eyni hissləri yaşayıram. Bir tərəfdən, o dövrdə baş verən və nəticəsi 2020-ci ilə qədər davam edən hadisələrin tarixi köklərini öyrənir, digər tərəfdənsə, müzəffər ordumuz və Sizin peşəkar diplomatik addımlarınız sayəsində Qarabağ zəfərimizlə qürur hissi keçiririk. Siz yüzillik bir problemi dövlətimizin, millətimizin mənafeyi yönümündən həll etdiniz və buna görə də Azərbaycan tarixində əbədi yaşayacaqsınız.

“Azərbaycan” qəzetindəki bir xəbərdə qeyd edilirdi ki, 1919-cu il iyulun 29-da Baş nazir Nəsib bəy Yusifbəyli Qarabağda səfərdə olarkən Xankəndidə milli ordumuzun hərbi paradını qəbul edib. Eyni tarixi hadisə ötən il Zəfər Günü münasibətilə Sizin komandanlığınızda yenə Xankəndidə baş tutdu və bu, qələbəmizin ən böyük təntənələrindən biri idi.

Hörmətli Prezident!

Qardaş Türkiyədə yaşayan alimlər olaraq Sizin Türk Dövlətləri Təşkilatının inkişafındakı rolunuz da bizi çox sevindirir. Bu il təşkilatın yaranmasının 15-ci ildönümü tamam olacaq və bu yolda Azərbaycan Respublikasının oynadığı rol xüsusilə diqqətəlayiqdir.

Siz, Qarabağı işğaldan azad etdikdən sonra oranı sürətlə elm və mədəniyyət ocağına çevirdiniz. Şuşada Qarabağ Universitetində olarkən bir daha əmin olduq ki, Azərbaycan elmi daha da inkişaf edəcək, gələcək nəsillər suveren Azərbaycanda yetişəcəklər.

Sizə elmimizə, təhsilimizə verdiyiniz dəstəyə görə təşəkkür edir, dünyada yaşayan azərbaycanlı alimlərdən biri olaraq Vətənimiz naminə daha əzmlə çalışacağıma söz verirəm.

Hörmətlə,

Mehdi Gəncəli, Mərmərə Universitetinin dosenti,

Türkiyə Respublikası, İstanbul şəhəri.

***Məsud ƏFƏNDİYEV***

Möhtərəm cənab Prezident,

2024-cü il sentyabrın 9–11-də Bakı və Xankəndi şəhərlərində keçirilmiş Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumu dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlı alimlərin şəbəkələşməsi baxımından mühüm əhəmiyyət daşımış, Azərbaycanın gücünü və birliyini nümayiş etdirmişdir. Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumu kimi genişmiqyaslı tədbirləri beynəlxalq elmi əməkdaşlığın genişlənməsi istiqamətində atılmış mühüm addım kimi dəyərləndiririk.

Dünya Azərbaycanlı Alimlər Birliyinin həm nümayəndəsi, həm də sədri olaraq elmin inkişafına göstərdiyiniz diqqətə görə Sizə təşəkkürümüzü bildiririk.

Sizin yürütdüyünüz uğurlu siyasət ölkəmizin elmi potensialını artıraraq beynəlxalq arenada tanınmasına kömək edir.

Biz – xaricdə yaşayan azərbaycanlı alimlər hər zaman Sizin və hörmətli Mehriban xanım Əliyevanın dəstəyini görür, hiss edir və bundan sonsuz dərəcədə ilhamlanırıq.

Forumda qeyd edildiyi kimi, dövlətlə xalqın birliyi, vəhdəti bizim gələcək uğurlarımızın mənbəyidir. Dünya Azərbaycanlı Alimlər Birliyinin üzvləri Sizin dövlətimizin foruma göstərdiyi diqqət və dəstəyi soydaşlarımıza daim hiss etdirdiyiniz qayğının bariz nümunəsi kimi qiymətləndirir. Biz alim kimi daşıdığımız məsuliyyətin əhəmiyyətini anlayır və Sizin göstərdiyiniz böyük etimadı doğrultmaq məqsədilə əlimizdən gələni əsirgəməməyə daim hazır olduğumuzu bəyan edirik.

Bir daha Dünya Azərbaycanlı Alimlər Birliyinin üzvləri adından Sizə təşəkkür edir, qüdrətli ölkəmizin xoşbəxt və firavan gələcəyi üçün məsuliyyətli, şərəfli və hər birimizi soydaş olaraq qürurlandıran fəaliyyətinizdə, yürütdüyünüz uzaqgörən siyasətinizdə böyük nailiyyətlər, axarlı uğurlar arzu edirik.

Dərin hörmət və ehtiramla,

Məsud Əfəndiyev, Azərbaycanın Əməkdar elm xadimi,

“Aleksandr fon Humboldt” mükafatını alan ilk azərbaycanlı, professor,

Dünya Azərbaycanlı Alimlər Birliyinin sədri,

Almaniya Federativ Respublikası, Münhen şəhəri.

***Mirzə MÜTƏLLİMOV***

Hörmətli cənab Prezident,

Ötən ay Dünya Azərbaycanlı Alimlər Birliyinin (DAAB) təşkil etdiyi beynəlxalq foruma dəvət aldım və böyük məmnuniyyətlə həmin tədbirdə iştirak etdim. İlk növbədə, bu tədbirdə iştirak etməyimizə göstərdiyiniz dəstəyə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Forum çox yüksək səviyyədə təşkil olunmuşdu və biz burada xeyli yeni tanışlıqlar əldə etdik. Bu tədbirdə iştirak etməklə mən dünyanın bir çox ölkələrindən gəlmiş, o cümlədən Azərbaycanda yaşayan elm xadimlərini yaxından tanımaq imkanı qazandım. Dəyərli müzakirələr apararaq, gələcəkdə Azərbaycandakı həmkarlarımızla elmi və kliniki təcrübələrimizi bölüşmək və yeni əlaqələr qurmaq fürsəti yarandı.

Xüsusilə maraqlı məqamlardan biri Qarabağda gələn il qurulması planlaşdırılan Tibb fakültəsinə dəstək təşəbbüsümüz oldu. Bildirmək istəyirəm ki, komandamız, əsasən Azərbaycan əsilli mütəxəssislərdən ibarətdir və Maynz Universitetinin Öyrətim Klinikası kardiologiya sahəsində Almaniyada və Avropada innovativ əməliyyatlar həyata keçirən və seçilən klinikalardandır.

Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin etdiyiniz, bizə bu qüruru yaşatdığınız üçün Ali Baş Komandan olaraq Sizə və müharibədə iştirak edən qazilərimizə təşəkkürümü bildirirəm. Allah Vətən uğrunda canlarından keçən şəhidlərimizə rəhmət eləsin.

Sonda bildirmək istəyirəm ki, Qarabağa etdiyimiz bu səfər mənə və bütün tədbir iştirakçılarına unudulmaz gözəl hisslər bəxş etdi.

Hörmətlə,

Mirzə Mütəllimov, kardioloq-həkim,

Maynz Universitetinin Öyrətim Klinikasının və Saarland Universitetinin əməkdaşı,

Almaniya Federativ Respublikası, Maynz şəhəri.





***Murad ÖMƏROV***

Hörmətli cənab Prezident, müzəffər Ali Baş Komandan!

Sizi Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumunun iştirakçıları adından bütün dünya azərbaycanlılarının əvəzolunmaz Lideri və Prezidenti kimi səmimi qəlbdən salamlayır, Sizinlə qürur duyduğumu, fəxr etdiyimi bildirirəm. Yenilməz ordumuzun və xalqımızın Sizin ətrafınızda birləşərək düşmən üzərində şanlı Qələbə çalması, ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunması xaricdə yaşayan milyonlarla soydaşımızı sevindirir, doğma Azərbaycanımızın beynəlxalq arenada gündən-günə artan nüfuzunun şahidi oluruq. Bu Qələbə məhz Sizin rəhbərliyiniz, uzaqgörən siyasətiniz, iradəniz və “Dəmir yumruğunuz” sayəsində qazanıldı. Vətənimiz naminə taleyüklü məsələlərdə tutduğunuz qətiyyətli mövqeyə, göstərdiyiniz iradəyə görə Sizə təşəkkürümü bildirir və fəaliyyətinizdə uğurlar arzulayıram!

Hörmətli Cənab Prezident!

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumunun ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğu bir zamanda təşkilinə dəstək verdiyinizə, forum çərçivəsində Şuşa və Xankəndi şəhərlərini, Qarabağ Universitetini ziyarət etməyimiz, işğaldan azad edilmiş tarixi ərazilərimizin bərpası prosesləri ilə tanışlığımız zamanı keçirdiyimiz sevinc və fəxarət hisslərini bizə yaşatdığınıza görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Sizi əmin edirəm ki, forum iştirakçılarına müraciətinizdə qarşımızda qoyduğunuz tapşırıqlar – dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlı alimlərin şəbəkələşməsi, ölkəmizin elm və təhsil ocaqları ilə əlaqələrimizin dərinləşməsi, qazanılan müştərək nailiyyətlərdən yararlanmaqla ölkəmizin qlobal hədəflərə sürətlə yaxınlaşması, habelə Azərbaycan elminin dünya elm məkanına inteqrasiyası, ölkəmizdə elmin dayanıqlı və innovativ inkişafı, işğaldan azad edilmiş tarixi ərazilərimizin bərpası prosesinə bilik və təcrübəmlə töhfə vermək istiqamətlərində var gücümlə çalışacaq və etimadınızı doğrultmağa səy göstərəcəyəm.

Sizə dərin hörmət və ehtiramla,

Murad Ömərov,

Xarkov vilayətindəki Azərbaycan-Ukrayna Dostluq Cəmiyyətinin sədri,

Xarkov Milli Radioelektronika Universitetinin prorektoru, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, texnika elmləri doktoru, professor,

Ukrayna, Xarkov şəhəri.

***Rasim CƏNNƏTƏLİYEV***

Hörmətli cənab Prezident,

Siz yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili, təşəbbüskar bir rəhbər kimi Azərbaycan dövlətinin inkişafı, xalqımızın firavanlığı naminə çox işlər görürsünüz. Xaricdə yaşayan hər bir azərbaycanlı kimi, mən də Sizinlə qürur duyuram.

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin I forumuna verdiyiniz dəstəyə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Bu dəstək sayəsində dünyanın müxtəlif ölkələrində yaşayan və fəaliyyət göstərən azərbaycanlı alimlər bir araya gələrək ölkəmizin elmi, iqtisadi və mədəni inkişafına öz töhfələrini vermək üçün vacib bir platforma əldə etmişlər.

Forumumuz Azərbaycan elminin hər sahədə daha da inkişaf etdirilməsi, alimlərimizin təcrübə və biliklərini paylaşması və yeni əməkdaşlıqların qurulması baxımından böyük əhəmiyyət kəsb edir. Sizin dəstəyiniz bu məqsədlərin həyata keçirilməsi yolunda mühüm rol oynayır və bizlərə ruh yüksəkliyi verir.

Bir daha Sizə minnətdarlığımı bildirir, rəhbərliyiniz altında Azərbaycanın daha da inkişaf edəcəyinə və elm sahəsində yeni uğurlara imza atacağına inanıram.

Dərin hörmətlə,

Cənnətəliyev Rasim, gənc alim.

Almaniya Federativ Respublikası, Ştutqart şəhəri.

***Rauf ABDULLAYEV***

Hörmətli cənab Prezident,

Bakıda keçirilən Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumunun iştirakçısı kimi göstərdiyiniz diqqət və qayğıya görə Sizə xüsusi minnətdarlığımı bildirirəm. Mən forumda iştirak edən, doğma vətənimiz Azərbaycanın inkişafını düşünərək xalqına və Prezidentinə dəstək verən dünya şöhrətli alimlərimizlə qürur duydum. Bir mühəndis kimi Sizin Azərbaycana, xüsusilə qeyri-neft sektoruna verdiyiniz töhfələr məni fərəhləndirir. Forumda alimlər geniş müzakirələr apararaq ölkəmizə xeyir vermək üçün konkret istiqamətlər müəyyən etdilər və praktiki icra ilə bağlı ciddi öhdəliklər götürüldü. İştirakçılar bu etimadı doğrultmaq üçün kifayət qədər güc və əzmlə çalışacaqlarına əminlik ifadə etdilər. Sizin tərəfinizdən alimlərə göstərilən diqqət və qayğı xaricdə yaşayan azərbaycanlı mütəxəssislər tərəfindən də yüksək qiymətləndirilir. Bu qayğı bizim inkişafımız üçün dəstək və stimul verir.





Hörmətli cənab Prezident, Sizin sayənizdə qazandığımız Zəfər və azad olunmuş torpaqlarda təşəbbüsünüzlə yaradılan elmi-texnoloji yüksəliş bizim üzərimizə böyük məsuliyyət qoyur. Tədbir zamanı səbirsizliklə gözlədiyim ən duyğusal an müqəddəs məkana – Şuşaya ilk dəfə ayaq basacağım an oldu. İşğaldan azad olunan torpaqlara yaxınlaşdıqca: “Mən xoşbəxtəm ki, ata vəsiyyətini yerinə yetirdim. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz səni dirçəldəcəyik!” kəlamınızı, bu tarixi anı düşünüb kövrəlməmək olmur. Azad edilmiş ərazilərdəki abadlıq-quruculuq işləri bizi, sözün əsl mənasında, çox sevindirdi.

Xaricdə yaşayan alimlər adından biz də bu inkişafa hər zaman dəstək göstərməyə, ölkəmizin elmi potensialını daha da artırmaq üçün Sizin yanınızda olmağa, dövlətimizin müqəddəs adını və imicini daha da yüksək səviyyələrə qaldırmaq üçün bütün imkanlarımızı səfərbər etməyə hazır olduğumuzu bildirdik. Sizin elm insanlarına göstərdiyiniz etimad və inamdan irəli gələrək bizə ünvanladığınız məktub xüsusi stimul verdi. Elmi tədqiqatlarımızın nəticələrinin Azərbaycan üçün faydalı olacağına və ölkəmizin dünya elm məkanında mövqeyini daha da gücləndirəcəyinə inanırıq. Bu istiqamətdə bizə göstərdiyiniz dəstək və yaratdığınız imkanlar üçün Sizə bir daha səmimi minnətdarlığımızı çatdırırıq.

Hörmətli Cənab Prezident, elm və təhsil sahəsinə göstərdiyiniz diqqətə, o cümlədən xaricdə yaşayan həmvətənlərimizə göstərdiyiniz sonsuz qayğıya görə Sizə təşəkkür edirəm. Sizinlə eyni tarixi yaşamaq şərəfdir. Sizi əmin edirik ki, etimadınızı bütün gücümüzlə doğruldacağıq və vətən naminə əlimizdən gələni bundan sonra da etməyə hazırıq.

Hörmətlə,

Abdullayev Rauf,

Berlin Tibb Məktəbi və Berlin Biznes Məktəbinin sistem administrator,

Almaniya Federativ Respublikası, Berlin şəhəri.

***Səadət KƏRİMİ***

Möhtərəm cənab Prezident!

Sentyabr ayında Bakı şəhərində Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumunun keçirilməsinə göstərdiyiniz dəstəyə görə Sizə dərin təşəkkürümü bildirirəm.

Sizin müdrik rəhbərliyinizlə məqsədyönlü strategiyanız çərçivəsində həyata keçirilən bu böyük layihə hər birimizə çox böyük iftixar hissi yaşatdı, güc və əzm verdi.

Zati-aliləri! Bu forumda nəzərdə tutulan məqsədlərə nail olundu və yeni böyük strategiyaların təməli qoyuldu. 2022-ci ildə Dünya Azərbaycanlı Alimlər Birliyi (DAAB) yarandı və mən həmin təşkilatın İdarə Heyətinə Avropa Birliyi ölkələri, özəlliklə Skandinaviya ölkələri üzrə məsul şəxs seçildim. Bu iki il ərzində biz xaricdə uğurlu fəaliyyət göstərən bir çox azərbaycanlı alimi təşkilatımıza cəlb etməyə, şəbəkə yaratmağa, Azərbaycanda elm və təhsilin səviyyəsini yüksəldib vətənimizin dünyanın aparıcı elm, təhsil ocaqlarından birinə çevrilməsi istiqamətində strategiya müəyyənləşdirməyə, ölkəmizdəki universitetlərlə əməkdaşlıq etməyə çalışdıq. Vətənpərvər alimlərimizi bu işə cəlb etməkdə başlıca meyarımız Azərbaycan dövlətinə xidmət etmək olmuşdur.

Cənab Prezident, Siz dünyada tanınmış siyasi xadimsiniz və mən İsveçdə Höteburq Universitetində işləyən bir alim kimi hər zaman bununla qürur duyuram. Tədbirin keçirildiyi günlərdə xaricdə yaşayan azərbaycanlı alimlərə göstərdiyiniz diqqətə görə Sizə səmimi-qəlbdən təşəkkür edirəm. Forum dünyadakı azərbaycanlı alimlər üçün tarixi hadisə olmaqla yanaşı, həm də ölkəmizin intellektual qüdrətinin yüksəldilməsi və möhkəmlənməsi naminə bütün dünyadakı azərbaycanlı alimlərin əsl birliyinin başlanğıc nöqtəsidir.

Açılışdan əvvəl mən də, bütün iştirakçılar kimi, Fəxri Xiyabanda Ulu öndər Heydər Əliyevin, Şəhidlər xiyabanında Vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman övladlarımızın xatirəsini ehtiramla yad etdim və çox duyğulandım. Allah Ulu öndərimiz Heydər Əliyevə rəhmət etsin. Ömür boyu ona duaçıyıq. Onun ideologiyasına xidmət etmək və qoyduğu yolu getmək bizim üçün müqəddəs və danılmaz borcdur. Bütün bunlar məhz Sizin məharətli Ali Baş Komandanlığınız, Mehriban xanım Əliyevanın əvəzsiz xidmətləri sayəsində reallaşdı. Bu səbəbdən Sizə və Mehriban xanıma sonsuz təşəkkürümü bildirirəm. Sizi əmin edirəm ki, yürütdüyünüz siyasəti hər zaman dəstəkləyəcək, ömür vəfa etdiyi müddətdə canla-başla Vətənə xidmət edəcəyəm.

Forumun yekun günündə Xankəndi və Şuşaya səfərimiz, Qarabağ Universitetinin rektoru və kollektivi ilə görüşümüz bizdə böyük təəssürat oyatdı. Alimlər Qarabağ Universiteti ilə elmi əməkdaşlığın qurulması və burada qabaqcıl elmi biliklərdən istifadə imkanları ətrafında fikir mübadiləsi apardılar. Sizə salamımız və müraciətimiz Xankəndi şəhərində səsləndirildi. Bütün bu hadisələri bizim xaricdəki kollektivimiz də sosial media vasitəsilə izləyir. İndi biz hər zamankından daha başıuca və vüqarlı yaşayırıq.

Cənab Prezident, Sizə bir daha Vətənimizin artan beynəlxalq nüfuzunun bariz sübutu olan forumumuza göstərdiyiniz diqqətə görə sonsuz minnətdarlığımı





bildirirəm. Sizə cansağlığı, uzun ömür, dövlət başçısı kimi çətin və müqəddəs işinizdə müvəffəqiyyətlər arzu edirəm.

Hörmətlə,

Səadət Kərimi,

Fizika-riyaziyyat elmləri doktoru, İsveçin Höteburq Universitetinin dosenti,

Dünya Azərbaycanlı Alimlər Birliyinin İdarə Heyətinin üzvü,

İsveçdə “Qobustan – Azərbaycan Aydınlar Ocağı” diaspor təşkilatının rəhbəri,

İsveç Krallığı, Höteburq şəhəri.

***Səbinə İSGƏNDƏROVA***

Hörmətli cənab Prezident,

Bu il sentyabrın 9-dan 11-dək Bakıda keçirilmiş Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumunda iştirak etməkdən böyük məmnunluq hissi duyuram. Sözügedən tədbir bizə – alimlərə və universitet müəllimlərinə Azərbaycanda davamlı inkişafa kömək etmək üçün öyrəndiklərimizi, təcrübələrimizi, bacarıqlarımızı tətbiq edə biləcəyimiz barədə fikir mübadiləsi aparmağa imkan verən çox uğurlu platforma oldu. Ətraf mühitin idarə edilməsi və davamlı inkişaf üzrə mütəxəssis olaraq mən öz təcrübə və bacarıqlarımı Azərbaycanın gələcək mütəxəssislərinə təklif edirəm. Bu tədbir həmfikir insanlarla görüşmək, Azərbaycanda güclü elmi platformanın yaradılması yollarını müzakirə etmək imkanı yaratdı. Forum çərçivəsində ADA və Qarabağ Universitetləri ilə səmərəli əlaqələr qura bildim. Hər iki ali təhsil ocağı təklif etdiyim davamlı inkişaf tədrisinə maraq nümayiş etdirdi. Bundan əlavə, digər ölkələrlə Azərbaycanın təhsil ictimaiyyətinə fayda verəcək əməkdaşlıq imkanları yaradıldı.

Cənab Prezident, tədbir çərçivəsində biz, həmçinin Fəxri Xiyabanı, Şəhidlər xiyabanını, Qarabağı ziyarət edə bildik. Azərbaycanın qəhrəmanlarına sonsuz ehtiramımı və vətənim Qarabağa ayaq basmaq üçün yaradılmış bu unikal imkanlara görə Sizə dərin təşəkkürümü bildirirəm. Sizin rəhbərliyinizlə Azərbaycanın gələcəyinin daha da parlaq olacağına əminəm.

Hörmətlə,

Səbinə İsgəndərova,

Kanadada fəaliyyət göstərən Alberta Azərbaycan Mədəniyyəti Cəmiyyətinin təsisçisi, biologiya elmləri üzrə fəlsəfə doktoru,

Kanada, Kalqari şəhəri.

***Səidə XƏLİLOVA***

Hörmətli cənab Prezident,

Bu yaxınlarda Bakıda keçirilmiş Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumuna dəstək verdiyinizə görə Sizə səmimi təşəkkürümü bildirirəm. Bu tədbir azərbaycanlı alimlərin, tədqiqatçıların qlobal şəbəkəsinin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Elmi icmamız daxilində möhkəm əlaqələr yaratmaqla biz Azərbaycanda mədəniyyət, elm və təhsil sahəsində inkişafı daha da sürətləndirə bilərik.

Dünyanın müxtəlif ölkələrindən olan alimlərlə əlaqə yaratmaq üçün əvəzsiz fürsətə görə forumun bütün iştirakçıları adından Sizə ürəkdən minnətdarlığımızı ifadə edirik. Bu toplantı həm də mütəxəssislərin bilik və təcrübəsindən yararlanmaqla gənc nəslimizin inkişafına kömək etmək üçün çox vacibdir. Mən həmçinin Azərbaycan xalqı üçün yorulmaz səylərinizi qeyd etmək istəyirəm. Sizin nümunəvi və müdrik liderliyiniz bizi vətənimizin parlaq gələcəyinə daha ümidlə baxmağa ruhlandırır. Bu günün uğurları ilə bağlı qəlbimizdə yaratdığınız inam daha yaxşı sabah üçün işlər görməyə imkan verir.

Cənab Prezident, Azərbaycanımız naminə fəaliyyətinizdə Sizə dəstək olmaq borcumuzdur və biz dünyanın harasında yaşamağımızdan asılı olmayaraq, ölkəmizi qürurla təmsil etmək üçün səylərimizdə qətiyyətliyik.

Dərin hörmətlə,
Səidə Xəlilova,
Omanda musiqi və incəsənət üzrə fəaliyyət göstərən
“Muscat Royal Conservatory”nin təsisçisi və dosenti,
Oman sultanlığı, Muskat şəhəri.

***Seymur NƏSİROV***

Möhtərəm cənab Prezident!

2024-cü il sentyabrın 9–11-də Bakı və Xankəndi şəhərlərində keçirilmiş Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumuna göstərdiyiniz qayğı və diqqətə görə Zati-alilərinizə dərin minnətdarlığımızı bildiririk.

Bu tədbir dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlı alimlərin şəbəkələşməsi və onların vətənimizin elm, təhsil sahəsinə verə biləcəkləri töhfələr baxımından böyük əhəmiyyət kəsb edir.

Forumda alimlərimiz çox dəyərli fikir mübadiləsi apararaq gələcək fəaliyyətimizlə bağlı önəmli təkliflərlə çıxış etdilər.

Torpaqlarımızın işğaldan azad olunması, genişmiqyaslı yenidənqurma və bərpa işlərinin aparılması Azərbaycanın sürətli inkişafı Zati-alilərinizin uzaqgörən siyasətinin nəticəsidir. Xaricdə yaşayan bir azərbaycanlı ziyalı kimi, hər zaman Sizin və hörmətli Mehriban xanım Əliyevanın dəstəyini görürük. Sizin çıxışlarınız bizim üçün bir yol xəritəsidir. O yol xəritəsi ilə vətənimizi layiqincə təbliğ etməkdə maksimum səy göstəririk.

Uca Allah Sizi qorusun!

Dərin hörmətlə,
Seymur Nəsirov, Dünya Azərbaycanlı Alimlər Birliyinin həmsədri,
Misir-Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyətinin sədri,
Qahirə Universitetinin Azərbaycan dili müəllimi,
Misir Ərəb Respublikası, Qahirə şəhəri.

***Süleyman ALLAHVERDİYEV***

Hörmətli cənab Prezident,

Bu sətirləri Sizə – qalib ölkənin qalib Ali Baş Komandanına böyük hörmət və minnətdarlıq hissi ilə yazıram. Siz öz “Dəmir yumruğ”unuzla qətiyyətinizi, şücaətinizi bütün dünyaya sübut etdiniz. Sizin uzaqgörən və məqsədyönlü siyasətiniz sayəsində Azərbaycan həm regional, həm də beynəlxalq arenada böyük uğurlara imza atır. Bu, bir azərbaycanlı alim kimi, məni çox sevindirir.

Xaricdə yaşayan azərbaycanlı alimlərin əməkdaşlığı və inkişafı üçün yaratdığınız şərait bizə böyük dəstək və stimul verir. Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumunun təşkil olunmasına verdiyiniz şəxsi dəstəyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin tərəfinizdən göstərilən bu cür diqqət və qayğı xaricdə yaşayan azərbaycanlı alimləri öz bilik və bacarıqlarını xalqımızın, dövlətimizin inkişafına yönəltməyə səfərbər edir, stimul yaradır. Bu cür tədbirlər Azərbaycan elminin beynəlxalq səviyyədə tanınması, alimlər arasında əməkdaşlığın gücləndirilməsi və doğma ölkəmizə daha çox fayda vermək məqsədilə bilik, bacarıq və təcrübəmizi bölüşmək üçün geniş meydan açır.

Cənab Prezident, xaricdə yaşayan alimlərə göstərilən etimad həm də bizim üzərimizə böyük məsuliyyət qoyur. Mən də bu etimadı yüksək qiymətləndirir və Sizin rəhbərliyiniz altında Azərbaycan elmini daha yüksək səviyyələrə qaldırmaq üçün bütün imkanlarımı səfərbər etməyə hazır olduğumu bildirirəm. Bir alim kimi öz bilik və təcrübəmi ölkəmizin elmi-texnoloji inkişafına yönəltməyə, Azərbaycanımızın dünya səviyyəsində daha da tanınması, şöhrətlənməsi və rəqabət qabiliyyətinin artırılması üçün Sizin göstərdiyiniz etimadı doğrultmağa çalışacağam. Elmi tədqiqatlarımızın nəticələrinin vətənimiz üçün faydalı olacağına və ölkəmizin dünya elm məkanında öz mövqeyini daha da gücləndirəcəyinə çox böyük ümid edir və inanıram. Bu istiqamətdə bizə göstərdiyiniz dəstək və

yaratdığınız imkanlar üçün Sizə ən xoş arzularımı bildirir, bir daha səmimi minnətdarlığımı çatdırıram.

Sizə və ailənizə möhkəm cansağlığı, hərtərəfli fəaliyyətinizdə davamlı uğurlar və Azərbaycan xalqının rifahı naminə yorulmadan gördüyünüz məqsədyönlü işlərdə böyük nailiyyətlər arzulayıram.

Dərin hörmət və ehtiramla,
Süleyman Allahverdiyev (İfxanoğlu),
Rusiya Elmlər Akademiyasının müxbir üzvü,
Rusiya Federasiyasının Əməkdar elm xadimi,
Beynəlxalq qlobal enerji mükafatı laureatı, biologiya elmləri doktoru,
Rusiya Federasiyası, Moskva şəhəri.

***Toğrul KƏRİMOV***

Möhtərəm cənab Prezident,

Cari ilin sentyabr ayında ölkəmizdə Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin I forumu keçirildi. Mən də Almaniyada kompüter elmləri sahəsində bir tədqiqatçı olaraq foruma dəvət almışdım və böyük həvəslə bu möhtəşəm tədbirdə iştirak etdim. Görüşün fəlsəfəsi qabaqcıl tədqiqat mərkəzlərində çalışan alimlərimizin "doğma Azərbaycanımız üçün biz nə edə bilərik" məfkurəsi üzərində qurulmuşdu və aparılan müzakirələr bu istiqamətdə bir çox yeni istiqamətləri ortaya çıxarmağa kömək etdi.

Forum zamanı yaranan ən böyük təəssürat Sizin rəhbərliyiniz altında doğma Azərbaycanımızda milli dövlət quruculuğunda, elm və təhsilin inkişafında, qlobal proseslərə yanaşmada necə böyük irəliləyişin nəzərə çarpması oldu. Sənaye inqilabı, enerji, iqlim dəyişiklikləri, xalqların milli özünüdərki kimi məsələlərin Azərbaycanda kifayət qədər peşəkar platformalarda öyrənilməsi çox maraqlı idi. Qarabağa səfərimiz, buradakı bərpa və quruculuq işləri qəlbimizi qürurla doldurdu.

Möhtərəm cənab Prezident.

Qeyd etmək istərdim ki, mən 2019-cu ildə Böyük Britaniyanın Oksford Universitetinin bakalavr və magistr pillələrini Kompüter elmləri ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmiş, 2024-cü ildə isə Almaniyanın Maks Plank İnstitutunda dəqiq elmlər üzrə fəlsəfə doktoru adını almışam. Hazırda həmin institutda postdoktorant olaraq çalışıram. Xaricdə oxuduğum müddətdə həmişə Azərbaycan dövlətinin böyük dəstəyini görmüşəm. Oksford Universitetində təhsilimi də "2007 –2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliyyə dəstəyi ilə almışam. Bütün bunlara görə dövlətimizə və şəxsən Sizə minnətdaram və Sizin rəhbərliyiniz altında dövlətimizin inkişafı üçün əlimdən gələni etməyə hazıram.





İcazə verin ölkəmizdə belə əhəmiyyətli və məhsuldar forumun keçirilməsinə görə Sizə və təşkilatçılara öz minnətdarlığımı bildirim. Əmin olun ki, dünyanın hansı qitəsində olsaq belə, doğma Azərbaycanımızın mənafeyi üçün hər şeyi etməyə hazırıq.

Hörmətlə,
Kərimov Toğrul,
Kompüter elmləri üzrə fəlsəfə doktoru,
Almaniya Federativ Respublikası, Saarbrüken şəhəri.

***Xədicə ZEYNALOVA***

Hörmətli cənab Prezident,

Bu günlərdə Bakı şəhərində keçirilən Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumunda iştirakım mənə qürur, sevinc hissləri yaşatdı. Forumda müxtəlif ölkələrdən gəlmiş alimlər fikir mübadiləsi aparmış, gələcəkdə elm sahəsində görüləcək işlər müzakirə olunmuşdur.

Müxtəlif ölkələrdə çalışan alimlərimizin bir araya toplandığı yüksək səviyyədə düzənlənən tədbirə ev sahibliyi etmək vətənimiz adına olduqca qürurvericidir. Sizin şəxsən belə bir foruma xüsusi dəstəyiniz və qayğınız isə bizlərdə gələcəyimizə olan inamı bir daha möhkəmləndirdi.

Mən, bir gənc alim olaraq, Sizə Azərbaycan elminə göstərdiyiniz diqqət və qayğıya görə öz dərin təşəkkürümü bildirirəm.

Qeyd etmək istəyirəm ki, xaricdə yaşayan gənc azərbaycanlı alim kimi əldə etdiyim bilik və bacarıqlarımı öz ölkəmdə bölüşməyə hər an hazıram.

Hörmətlə,

Zeynalova Xədicə, bəstəkar, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Almaniyada "Bridge of Sound" ansamblının və "Harmony of Sound" adlı Beynəlxalq Musiqi Festivalının yaradıcısı və bədii rəhbəri.

Almaniya Federativ Respublikası.

***Yulduz RƏHİMOV***

Hörmətli cənab Prezident!

Bakı şəhərində keçirilən Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin ilk forumunun iştirakçısı olmaqdan böyük məmnunluq duydum. Bir daha əmin oldum ki, Azərbaycan Sizin müdrik rəhbərliyinizlə gündən-günə inkişaf edir və millətimizin gələcəyi naminə çiçəklənməkdədir.

Xüsusilə Sizin respublikamızda elm və təhsilə göstərdiyiniz diqqət, qayğı bizi fərəhləndirir, hər bir azərbaycanlını, yaşadığı ölkədən asılı olmayaraq, millətimizin gələcəyi üçün öz töhfələrini əsirgəməməyə ruhlandırır.

Tədbir zamanı hər bir iştirakçı Sizin Dünya Azərbaycanlı Alimlər Birliyinin ərsəyə gətirilməsində və onun ilk forumunun yüksək səviyyədə keçirilməsində müstəsna dəstəyinizi dərin məmnunluqla hiss etdi.

Azərbaycanda elmin və təhsilin daha da inkişafı naminə həyata keçirdiyiniz işlərə görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

Hörmətlə,
Rəhimov Yulduz,
York Universitetinin professoru,
Kanada, Toronto şəhəri.

***Zərifə OSMANLI***

Hörmətli cənab Prezident,

Bu il sentyabrın 9–11-də Bakıda keçirilən Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumunun təşkilinə verdiyiniz dəstəyə görə Sizə dərin təşəkkürümü bildirirəm.

Fikrimcə, bu tədbirin keçirilməsi xaricdə yaşayan alimlərimizin şəbəkələşməsinə və ölkəmiz üçün fayda vermək naminə öz bilik və bacarıqlarını məhsuldar şəkildə birlikdə istifadə etməsinə zəmin yaratdı. Düşünürəm ki, fərqli sahələr, ölkələr və yaş qruplarından olan alimlərimizin bir yerə toplanması, onlarla tanışlıq imkanı, yerli təhsil müəssisələri, elmi-tədqiqat institutları ilə müzakirələr gələcək əlaqələr və birgə işlər üçün bir başlanğıcdır.

Bundan əlavə, ölkəmizdə elm və təhsilin inkişafı naminə atdığınız addımların sayının gündən-günə artması sevindirici haldır. Bu addımlardan biri olan “2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”ndan faydalanmış gənc alim olaraq Sizə ayrıca təşəkkür edirəm. Öz üzərimə düşən məsuliyyətin ikiqat olduğunu düşünürəm. Vətəndən kənardakı elmi fəaliyyətimlə ölkəmizin inkişafına əlimdən gələn qədər töhfə verməyə böyük məmnuniyyət və qürur hissi ilə hazıram.

Hörmətlə,
Osmanlı Zərifə,
Padova Universitetinin elmi tədqiqatçısı,
bioinformatika üzrə fəlsəfə doktoru,
İtaliya, Padova şəhəri.



# FOTOQALEREYA




















NARAHATLIĞ GÖRƏ






XARİCDƏ YAŞAYAN






AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
XARİCDƏ YAŞAYAN


9-11 sentyabr 2024
AZƏRBAYCAN


AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
XARİCDƏ YAŞAYAN
AZƏRBAYCANLI ALİMLƏRİN
FORUMU
sentyabr 2024
İKİNCİ PLENAR İCLAS
Müzakirə mövzusu:
Qlobal akademik şəbəkənin
qurulması: yerli universitet və
elmi tədqiqat institutlarının


AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
XARİCDƏ YAŞAYAN
FORUMU
BİRİNCİ PLENAR İCLAS
Müzakirə mövzusu:
Azərbaycanda elm və ali təhsilin
beynəlmiləlləşməsində
alimlərin rolu






ADDF
Azərbaycan Diasporuna
Dəstək Fondu
Birlikdə daha güclü!




ADDF




AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
XARİCDƏ YAŞAYAN
AZƏRBAYCANLI ALİMLƏRİN
FORUMU


ADDF
Azərbaycan Diasporuna Dəstək Fondu


AZƏRBAYCAN RESPUBLİKASININ DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ
AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
DÜNYA AZƏRBAYCANLI ALİMLƏR BİRLİYİ
XARİCDƏ YAŞAYAN
AZƏRBAYCANLI ALİMLƏRİN
FORUMU






XARICDƏ YAŞAYAN
AZƏRBAYCANLI ALIMLƏRIN
FORUMU
9-11 sentyabr 2024
AZƏRBAYCAN
10


12








XARİCDƏ YAŞAYAN
AZƏRBAYCANLI ALİMLƏRİN
FORUMU
9-11 sentyabr 2024
AZƏRBAYCAN




XARİCDƏ YAŞAYAN
AZƏRBAYCANLI ALİMLƏRİN
FORUMU
15


XARİCDƏ YAŞAYAN
AZƏRBAYCANLI ALİMLƏRİN
FORUMU
9-11 sentyabr 2024
AZƏRBAYCAN


XARİCDƏ YAŞAYAN


AZƏRBAYCAN RESPUBLİKASININ
DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ
AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
DÜNYA AZƏRBAYCANLI
ALİMLƏR BİRLİYİ
XARİCDƏ YAŞAYAN
AZƏRBAYCANLI ALİMLƏRİN










Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi
Dünya Azərbaycanlı
Alimlər Birliyi
XARİCDƏ YAŞAYAN




AZƏRBAYCAN RESPUBLİKASININ
DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ
Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi
Dünya Azərbaycanlı
Alimlər Birliyi
ARİCDƏ YAŞAYAN
BAYCANLI ALİMLƏ
FORUMU
9-11 sentyabr 2024
AZƏRBAYCAN


XARİCDƏ YAŞAYAN
AZƏRBAYCANLI ALİMLƏRİN




9-11 sentyabr 2024
AZƏRBAYCAN




AZƏRBAYCAN RESPUBLİKASI
ELM və TƏHSİL NAZİRLİYİ
XARİCDƏ YAŞAYAN
AZƏRBAYCANLI ALİMLƏRİN
FORUMU








XARİCDƏ YAŞAYAN
AZƏRBAYCANLI ALİMLƏRİN
FORUMU


XARİCDƏ YAŞAYAN
AZƏRBAYCANLI ALİMLƏRİN
FORUMU
9-11 sentyabr 2024
AZƏRBAYCAN




Şuşa












GİRİŞ




















XARİCDƏ YAŞAYAN AZƏRBAYCANLI ALİMLƏRİN
FORUMU
9-11 sentyabr 2024








Şuşa

## SON SÖZ

Bu kitab 2024-cü ilin 9–11 sentyabr tarixlərində Bakıda, Xankəndidə və Şuşada keçirilmiş Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin forumunun təcəssümüdür və yalnız bir elmi tədbirin xatirəsini yaşatmır, həm də tarix yazır. Nəşr dünyanın müxtəlif qitələrində elmin fərqli sahələrində uğurla çalışan yüzlərlə azərbaycanlı alimin bir araya gələrək öz bilik və təcrübəsini vətən naminə səfərbər etməsinin canlı sübutudur.

Forum təkcə intellektual müzakirə meydanı deyil, həm də milli ruhun, elmə və gələcəyə inamın bərqərar olduğu bir tribunaya çevrildi. İştirakçılar müxtəlif sahələr üzrə strateji təkliflər irəli sürdülər, yeni əməkdaşlıq imkanlarını müzakirə etdilər, Dünya Azərbaycanlı Alimlər Birliyinin təsis olunması ilə bu prosesi daha da sistemli və davamlı hala gətirdilər.

Kitabda yer alan məruzələr, çıxışlar, təəssüratlar və fotolar, əslində, gələcək nəsillər üçün bir intellektual yaddaş kitabı, Azərbaycan elminin beynəlxalq müstəvidə inteqrasiyasının manifesti sayıla bilər. Eyni zamanda bu nəşr göstərir ki, harada yaşamağımızdan və fəaliyyət göstərməyimizdən asılı olmayaraq, Azərbaycan bizim ortaq, bölünməz vətənimizdir, bu vətənin inkişafı üçün hər birimizin üzərinə məsuliyyət düşür.

Kitabı ərsəyə gətirməklə biz tarixi hadisəni gələcəyə daşımaq və onu sənədli yaddaşa çevirmək istədik. Bu baxımdan kitab həm təşviqedici, həm də çağırış xarakteri daşıyır: elmdə, təhsildə, texnologiyada, səhiyyədə, mədəniyyətdə və digər sahələrdə çalışan azərbaycanlı mütəxəssislər bir araya gəlməli, ortaq gələcək uğrunda birlikdə fəaliyyət göstərməlidirlər.





Toplunun hazırlanmasında əməyi keçən bütün alimlərə, müəlliflərə, məruzəçilərə, redaksiya heyətinə, təşkilatçılara və texniki komanda üzvlərinə dərin təşəkkürümüzü bildiririk. DAAB olaraq bu prosesi yalnız bir başlanğıc hesab edirik və gələcəkdə daha genişmiqyaslı layihələrlə həm Azərbaycan elminə, həm də beynəlxalq elm aləminə töhfələr vermək niyyətindəyik.

Sonda bir daha vurğulamaq istəyirik: Elm yolumuz vətən yoludur. Elm bizə birliyimizi, gücümüzü və sabahımızı qurmaq fürsəti verir.

Elmli gələcəyə birlikdə!

***Ən xoş arzularla,***
***Dünya Azərbaycanlı Alimlər Birliyinin İdarə Heyəti***

# XARİCDƏ YAŞAYAN AZƏRBAYCANLI ALİMLƏRİN FORUMU

***9–11 sentyabr 2024-cü il***

**Bakı–Xankəndi–Şuşa**

Mətbəənin direktoru:
Elman Qasımov

Dizayner:
Mətanət Əliqızı

Çapa imzalanmışdır: 21.04.2026. Format: 70x100 1/16
Həcmi: 16,5 ç.v. Sifariş: № 27. Tiraj: 500

"Zərdabi-Nəşr" MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel.: (050; 055; 070) 344 76 01
e-mail: zerdabi_em@mail.ru